**İbrahim Zöhrab oğlu Quliyev**

# Hədisşünaslığın əsasları

**BAKI- 2013**

**Kitab Azərbaycan Respublikasının Dini Qurumlarla İşüzrə Dövlət Komitəsinin 05 iyun 2013-cü il DK-229/Q saylı məktubu əsasında çap olunmuşdur.**

**Elmi redaktor:**
Möhsün Nağısoylu
akademik

**Elmi məsləhətçilər:**
Hasan Cirit
professor

Nəsib Göyüşov
professor

**Rəyçilər:**
Vüqar Səmədov
fəlsəfə üzrə fəlsəfə doktoru

Namiq Abuzərov
ilahiyyat üzrə fəlsəfə doktoru

Peyğəmbər və onun Əhli-beytinin söz, hərəkət və qərarlarına hədis deyilir. Hədis Qurani-Kərimin izah edilməsi ilə yanaşı, insanlara dini məsuliyyətlərini də bildirən əsas qaynaqlardan biri olaraq qəbul edilmişdir. Əfsuslar olsun ki, bu müqəddəs sözlər zaman keçdikcə müxtəlif şəxslər tərəfindən təhrifə məruz qalmışdır. Onlar uydurduqları sözləri Peyğəmbər və onun Əhli-beytinə isnad etməyə çalışmışlar.

Hədislərin doğrusunu yalanından ayırd etmək üçün hədis elminin tarixini və metodologiyasını bilmək lazımdır. Buna görə də kitabda hədislərin çox əsrlik tarixi inkişafı ilə yanaşı, onların doğrusu ilə yalanını bir-birindən ayırd edən qaydalar da araşdırılmışdır.

Kitab dərs vəsaitidir. Ondan tələbələr, magistrant və doktorantlar istifadə edə bilər.

# GİRİŞ

Müstəqil elm hüququnu qazanmış hədis elmlərinin özünəməxsus predmeti vardır. Hədis elmləri “Hədis tarixi” və “Hədis üsulu” deyə iki qismə bölünür. Hədis elmlərinin bir qolu olan hədis tarixi, hədis üsulundan mövzusuna görə fərqlənir. Hədis tarixi və hədis üsulu bir elmin müxtəlif sahələridir. Hədis tarixi – bu elmin tarixini, bu elm sahəsində əsərlər meydana gətirən şəxslərin tərcümeyi-hallarını, hədis üsulu isə nəql olunan hədisin doğru olub-olmadığını, həmçinin bu və ya digər hədisi nəql edən ravinin əhvalını öyrənən elmdir.

Hədis elmlərinin təfsir, fiqh, İslam tarixi ilə sıx bağlılığı vardır. Çünki sözügedən bu elmlərin əsas prinsiplərinin çoxu həzrət Peyğəmbərdən nəql olunan hədislərə dayanır. Deməli, biz hədis elmlərini öyrənməklə İslama dərindən bələd oluruq.

Əlinizdəki kitab iki hissədən ibarətdir. Kitabın birinci hissəsi **“Hədis elminin meydana gəlməsi, inkişaf tarixi və əsas mənbələri”** adlanır. Burada on fəsil vardır.

Birinci fəsil **“Hədis öyrənməyin zəruriliyi və əhəmiyyəti”** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **“Hədisin dindəki yeri”** adlanır. Burada hədisin İslam dinindəki yeri, onun əhəmiyyəti, hədisi-şərifləri öyrənməyin zərurəti və s. mövzular tədqiq edilmiş və hədislərsiz Qurani-Kərimi başa düşməyin mümkünsüz olduğu vurğulanmışdır.

İkinci yarımfəsil **“Hədis elmində işlənən bəzi terminlərin izahı”** adlanır. Bu yarımfəsildə “hədis”, sünnə”, “sənəd”, “mətn” və s. kimi hədis elmində işlənən mühüm terminlərin lüğəvi və istilahi mənalarına toxunulmuş, onların daşıdığı mənalar izah edilmişdir.

İkinci fəsil **“Hədislər necə yazılmışdır”** adlanır. Adından da göründüyü kimi, burada hədislərin nə vaxtdan yazıldığı, bəzi qaynaqlarda qeyd edilmiş hədislərin yazılması yasağının doğru olmadığı, əksinə, Peyğəmbərin özünün təşviqi ilə hədislərin yazılmasına başlanması mövzusu geniş şəkildə tədqiq-təhlil edilmişdir. Bundan başqa, bu fəsildə hədis yazan bəzi sahəbələrlə yanaşı, Peyğəmbərin Əhli-beytinə mənsub kəslərin, o cümlədən İmam Əlinin , həzrət Fatimeyi-Zəhranaın yazdıqları əsərlərə də yer verilmişdir. Həmçinin burada Peyğəmbərin əmri ilə yazılan rəsmi və qeyri-rəsmi vəsiqələr, Peyğəmbərin qonşu dövlət başçılarına göndəriyi məktublar və onların mətni də öz əksini tapmışdır.

Üçüncü fəsil **“Hədis rəvayət edən təbəqələr”** adlanır. Burada **“Ravilər təbəqəsi”** adlı birinci yarımfəsildə ravi sözünün lüğəvi və istilahi mənaları izah edildikdən sonra **“Səhabələr təbəqəsi”** adlı ikinci yarımfəsildə səhabə sözünün mənası və tərifi, onların İslamdakı yeri, hədis rəvayətindəki dərəcələri və s. məsələlərə toxunulmuşdur. Bundan sonra, üçüncü yarımfəsil **“Müxədrəmun təbəqəsi”**, dördüncü yarımfəsil isə **“Tabeilər təbəqəsi”** adlandırılmış və hər təbəqə haqqında geniş məlumat verilmişdir.

Dördüncü yarımfəsil **“Hədis öyrənmək üçün səyahət etmək və onun faydaları”** adlanır. Burada iki yarımfəsil vardır. Birinci yarımfəsil **“Hədis təhsili üçün edilən səyahətlər”**, ikinci yarımfəsil isə **“Səyahətin səbəb və naticələri”** adlanır.

Beşinci fəsil **“Hədisşünasların təbəqələri və dərəcələri”** adlanır. Burada bir yarımfəsil içində hədis alimlərinin təbəqələri, onların bu elm sahəsindəki dərəcələri və s. göstərilmişdir.

Altıncı fəsil **“Hədis elminin bölmələri”** adlanır. Burada dörd yarımfəsil içində hədis elminin “rəvayət” və “dirayət” baxımından iki qismə bölünməsi, rəvayəti qəbul və ya rədd edilən kimsə ilə yanaşı, ravinin ədalətinin öyrənilməsi yollarından da bəhs edilmişdir.

Yeddinci fəsil **“Hədis toplamaq və rəvayət etmək metodları”** adlanır. Burada bir yarımfəsil içində hədislərin rəvayət edilməsi metodları araşdırılmış, bunun səkkiz metoddan ibarət olduğu göstərilmişdir.

Səkkizinci fəsil **“Hədis rəvayət etməyin yolları”** adlanır. Bu fəsildə üç yarımfəsil vardır. Birinci yarımfəsil **“Rəvayətin adabı”** adlanır. Burada hədis öyrədən və öyrənənin ədəb qaydaları geniş şəkildə izah edilmişdir. İkinci yarımfəsil **“Hədis öyrətmək üsulları”** adlanır. Bu yarımfəsildə hədis öyrətmək üçün üç mühüm üsulun olduğu vurğulanmışdır. Üçüncü yarımfəsil **“Rəvayətin sifəti”** adlanır. Burada rəvayətin iki yolla – ləfzən və mənən – nəql olunmasından söz açılmışdır.

Doqquzuncu fəsil **“Hədislərin yazılıb kitab halına salınması və mövzuya görə təsnifi”** adlanır. Bu fəsildə hədislərin tədvini, təsnifi və tədvinlə təsnif arasındakı fərqlərdən bəhs olunmuşdur.

Onuncu fəsil **“Hədis əsərlərinin növü və bəzi məşhur hədis əsərləri”** adlanır. Burada on doqquz yarımfəsil vardır. Birinci yarımfəsil **“Hədis əsərlərinin növləri”** adlanır. Burada “cami”, “müsənnəf”, “sünən”, “kitab” və s. adlar altında yazılmış əsərlər və onların növü haqqında məlumat verilmişdir. Digər yarımfəsillərdə isə İmam Əli bin Hüseynin və “Səhifətüs-Səccadiyyə”, Malik bin Ənəsin “əl-Müvətta”, Əbdürrəzzaq bin Həmmam əs-Sənaninin “əl-Müsənnəf”, İshaq bin Rahuyənin (Rahaveyhin) “Müsnəd”, Məhəmməd bin İsmail əl-Buxarinin “əl-Camiüs-səhih”, Müslüm bin Həccac ən-Nisaburinin “əl-Müsnədüs-səhih”, Əbu İsa ət-Tirmizinin “əs-Sünən”, Əbu Davud əs-Sicistaninin “əs-Sünən”, Əhməd bin Şüeyb ən-Nəsainin “əs-Sünən”, İbn Macə əl-Qəzvininin “əs-Sünən”, Əhməd bin Hənbəlin “əl-Müsnəd”, Abdullah bin Məhəmməd bin Əbu Şeybənin “əl-Müsənnəf”, Məhəmməd bin Həsən əs-Səffar əl-Qumminin “Bəsairüd-dərəcat”, Məhəmməd bin Yaqub əl-Küleyninin “Üsulül-kafi”, Şeyx Səduqun “əl-Fəqih”, İbn Quləveyhin “Kamilüz-ziyarat”, Süleyman bin Əhməd ət-Təbəraninin “əl-Məacim”, Əli bin Ömər əd-Dəraqütninin “əs-Sünən”, Hakim ən-Nisaburinin əl-Müstədrək”, Seyid Rəzinin “Nəhcül-bəlağə” əsəri, habelə Məhəmməd bin Nömanın (Şeyx Müfidin),Seyid Mürtəzanın, Məhəmməd bin Həsən ət-Tusinin, Əli əl-Müttəqi əl-Hindinin, “Kənzül-ümmal” Şeyx Bəhaəddin əl-Amilinin bəzi əsərləri ilə yanaşı, Feyz əl-Kaşaninin “əl-Vafi”, Əllamə əl-Bəhraninin “Qayətül-məram”, Hürr əl-Amilinin “Vəsailüş-şiə”, Əllamə əl-Məclisinin “Biharül-ənvar”, Mirzə Hüseyn ən-Nurinin “Müstədrəkül-vəsail” və Ağahüseyn əl-Birucerdinin “Camiu əhadisiş-şiə” əsəri haqqında tədqiqat aparılmışdır.

Kitabın ikinci hissəsi **“Hədis elminin metodologiyası (Hədis üsulu)”** adlanır. Burada səkkiz fəsil vardır.

Birinci fəsil **“Hədis elminin bölmələri və hədis üsulu sahəsində yazılmış əsərlər”** adlanır. Birinci fəsil beş yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **“Hədis elmlərinin təsnifatı”** adlandırılmış, hədis elmlərinin iki əsas şöbədən – Rəvayət yönündən hədis elmi və Dirayə yönündən hədis elmi - ibarət olduğu və hər şöbənin də müxtəlif sahələrə ayrıldığı bildirilmişdir. İkinci yarımfəsil **“Dirayə elminə aid ilk əsərin yazılması”**, üçüncü yarımfəsil **“Dirayə elminə aid yazılmış bəzi məşhur əsərlər”**, dördüncü yarımfəsil **“Dirayə elminin tərifi”**, beşinci yarımfəsil isə **“Dirayə elminin predmeti”** adlanır.

İkinci fəsil **“Hədislərin növləri”** adlanır. Burada iki yarımfəsil içində hədisin qaynağına (isnadına) görə növləri ilə ravi sayına görə növləri tədqiq edilmişdir.

Üçüncü fəsil **“Səhhətinə (səhihliyinə) görə hədisin növləri”** adlanır. Burada yarımfəsillər içində hədislərin “səhih”, “həsən”, “müvəssəq” və “zəif” növləri izah edilmişdir.

Dördüncü fəsil **“Səhih”, “həsən”, “müvəssəq” və “zəif” hədislər arasında işlənən müştərək hədis növləri”** adlanır. Burada qırx kiçik yarımfəsil içində müştərək hədis növlərindən bəhs edilmişdir.

Beşinci fəsil **“Zəif” hədislərə məxsus terminlər”** adlanır. Burada iki yarımfəsildə sənədindəki qopuqluğa (natamamlığa) görə zəif hədislər və ravidəki “cərh”in olmasına görə zəif hədislər araşdırılmış və onlar misalları ilə birlikdə tədqiq edilmişdir.

Altıncı fəsil **“Zəif hədislərə məxsus terminlər”** adlanır. Burada yarımfəsillər içində **“Sənədindəki natamamlığa (qopuqluğa) görə zəif hədislər”** və **“Ravidəki “cərh”in olmasına görə zəif hədislər”** adlı iki yarım fəsil vardır.

Yeddinci fəsil **“Zəif” hədislərin meydana gəlməsi və uydurulması səbəbləri”** adlanır. Burada dörd yarımfəsil içində “zəif” hədislərin meydana gəlməsi, uydurulması səbəbləri, “mövzu” (uydurulmuş) hədislər haqqında yazılmış əsərlər və “zəif” hədisin bilinməsinin yolları məsələlərinə toxunulmuşdur.

Səkkizinci fəsil **“Zəif” hədisin təsirləri və ona əməl edilib-edilməməsi problemi”** adlanır. Burada iki yarımfəsil içində “zəif” hədisin İslama vurduğu ziyanlar və “zəif” hədisə əməl etməyin mümkünlüyü haqqında bəhs olunmuşdur.

Kitabın nəticə hissəsində gəldiyimiz nəticə haqqında məlumat vermiş, sonda isə ədəbiyyat siyahısını təqdim etmişik.

Kitab 2013-cü ildə nəşr edilmiş “Hədisşünaslığın əsasları” adlı dərs vəsaitinin müxtəsəridir.

İrad və təkliflərinizi **quliyev.ibrahim.78@mail.ru** ünvanına göndərməyiniz xahiş olunur.

# I HİSSƏ

# HƏDİS ELMİNİN MEYDANA GƏLMƏSİ, İNKİŞAF TARİXİ VƏ ƏSAS MƏNBƏLƏRİ

# I FƏSİL

# HƏDİS ÖYRƏNMƏYİN ZƏRURİLİYİ VƏ ƏHƏMİYYƏTİ

## 1.1. Hədisin dindəki yeri

Allah-Təala insanları doğru və düzgün yola yönəltmək üçün Qurani-Kərimi göndərmişdi. Peyğəmbər Uca Allah tərəfindən göndərilən müqəddəs kitabı təkcə insanlara çatdırmaqla kifayətlənməyib, eyni zamanda orada yer alan ayələri də açıqlayıb izah edirdi. Bütün müsəlmanlar Qurani-Kərimin İlahi kitab olması və orada heç bir dəyişikliyin olmaması haqqında eyni fikirdədirlər. Lakin burada yer alan ayələr hər hansı bir hökmü ümumi şəkildə bəyan edir, şəri hökmlərin bütün təfərrüatını izah etmir. Deməli, belə olan halda müsəlmanların qarşısında Qurani-Kərimin ayələrini doğru-düzgün şəkildə başa düşmək və orada göndərilən hökmlərə necə əməl etmək məsələsi dayanır. Müsəlmanlar belə çətinliklərlə qarşılaşdıqları zaman "vəzifələri nədir?" - sualı ortaliğa çıxır.

Qurani-Kərim müsəlmanlara belə problemlərlə qarşılaşan zaman Peyğəmbərin hədislərinə əməl etməyi əmr edir. Bu barədə olan ayələrdən bəziləri aşağıdakılardır:

**"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar** (əmr) **sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."**[1]

**"Amma, xeyr!** (Ya Rəsulum!) **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** (münsif) **təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə,** (həqiqi surətdə) **iman gətirmiş olmazlar."**[2]

Qeyd edilmiş bu və ya digər ayələrdən başqa, Peygəmbərin hədislərində də ona itaət göstərib sünnəsini (hədislərini) yaşatmağın vacib olduğunu görürük. Peyğəmbər buyurur:

"Kim mənim sünnəmdən üz çevirərsə, məndən deyildir."[3]

"Ümmətimdən hər kəs dini işlərində ehtiyac duyduğu qırx hədis əzbərləsə, qiyamət günü Allah onu alim və fəqih kimi diriłdər."[4]

Həmçinin Əhli-beytdən gələn hədislərdə də hədis və sünnənin öyrənilməsinin və qorunub saxlanılmasının zəruri olduğu məlum olur. Bu haqda İmam Sadiq buyurur:

"Həqiqətən bizim hədislərimiz qəlbləri dirildir."[5]

Deməli, bu və ya digər hədislərdən bir daha məlum oldu ki, Peyğəmbər və onun Əhli-beytinin hədislərini əzbərləmək və onları qoruyub saxlamaq dinimiz üçün böyük əhəmiyyət kəsb edir. Çünki hədislərdə Qurani-Kərimi izah edən və hətta orada olamayan, lakin icra edilməsi müsəlmanlara vacib olan bəzi hökmlər vardır. Şübhəsiz ki, hədisin qorunub saxlanması və təbliğ edilməsi dinin zəruri məsələlərindən olmasaydı, nə Allah Qurani-Kərimdə Peyğəmbərə və onun Əhli-beytinə tabe olmağı vacib buyurar, nə də Məsumlardan bu qədər hədis nəql olunardı.

Qurani-Kərim Peyğəmbərin sözlərinin vəhy altında, bütün xəta və nöqsandan uzaq olduğunu bəyan edir. Əgər Peyğəmbərin haqqında nazil olan ayələrə bir daha diqqət yetirsək, onun "**Aləmlərə rəhmət**", "**Hidayət rəhbəri**", "**Son Peyğəmbər**", "**Böyük bir əxlaq sahibi**" adları ilə xatırlandığının şahidi olarıq.

Müsəlman alimləri yuxarıda qeyd etdiyimiz bu və ya digər ayə və hədislərə istinad edərək, hədisin dindəki əhəmiyyətinə və roluna xüsusi diqqət göstərmişlər. Əbəs deyildir ki, görkəmli

---

[1] Nisa surəsi, ayə 59.
[2] Nisa surəsi, ayə 65.
[3] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. ər-Riyad, Darüs-salam, II çap, 1419/1999. Nikah-1. Hədis № 5063.
[4] Şeyx əs-Səduq əl-Qummi. əl-Xisal. 2 cilddə. II c. Tehran, İntişaraate kitabfuruşe islamı, Tarixsiz. s. 319. Hədis № 13; Əllamə əl-Məclisi. Biharül-ənvar. 110 cilddə. I c. Qum, İntişaraate-fiqh, I çap, 1427 h/q. s. 237. Hədis № 3.
[5] Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. Qum, İntişaraate fiqh, I çap, 1427 h/q. s. 232. Hədis № 5.

hədisşünas İbn Əbdülbirrin (978-1071) nəql etdiyinə görə, Əbdürrəhman bin Əmr əl-Əvzai (707-774) "Sünnənin Qurana olduğundan çox, Quranın sünnəyə ehtiyacı vardır", demişdir.[6]

## 1.2. Hədis elmində işlənən bəzi terminlərin izahı

Hədis elmində işlənən bəzi terminlər bu elmin əsas prinsiplərini təşkil edir. Bunların hər birinin lüğəvi mənalarından başqa, hədis elmində işlənən xüsusi mənaları da vardır. Həmin terminlər aşağıdakılardır:

**Hədis.**

Hədis lüğətdə "yeni", "söhbət" və ya "xəbər" mənalarındadır. Hədis elmindəki mənası isə "Məsumun sözünü, hərəkətini və ya təqririni izah edən kəlməyə deyilir."[7]

Hədis kəlməsi bir termin olaraq Qurani-Kərimdə bir neçə yerdə müxtəlif mənalarda işlədilmişdir. Məsələn: **"Əgər doğru deyirlərsə, qoy onlar Quran kimi bir kəlam** (söz) **gətirsinlər."** [8] Bu ayədə söz və ya kəlam mənasında işlədilmişdir. **"Musanın xəbəri sənə çatmışdı?"**[9] ayəsində isə xəbər mənasındadır.

Göründüyü kimi, hədis kəlməsi "təhdis" məsdərindən əmlə gəlib, ən çox "xəbər vermək" mənasındadır.

Bəzi alimlərin hədis sözünə "yenilik" mənasını verməkdə məqsədi isə, bu sözün "qədim"in ziddi olduğunu bildirmək olmuşdur. Bunlar qədim dedikdə Qurani-Kərimi, hədis (yeni) dedikdə isə, Rəsulu-əkrəmə aid edilən hədisləri nəzərdə tutmuşlar.[10] Bunu da qeyd edək ki, Peyğəmbər öz sözü haqqında danışarkən, hədis kəlməsindən istifadə etmişdir. Buradan belə bir nəticə çıxarmaq olar ki, hədis sözünün sonralar bir termin olaraq Peyğəmbər və Əhli-beytinə məxsus olması elə məhz onların özlərinə məxsusdur. Məsələn, Peyğəmbər öz kəlmələrinin əzbərlənməsini müsəlmanlara tövsiyə edərkən buyurmuşdur: "Ümmətimdən hər kəs dini işlərində ehtiyac bildiyi qırx **hədis** əzbərləsə, Allah onu qiyamət günü fəqih və alim kimi dirildər."[11]

İmam Sadiq isə belə buyurur: "Hər bir şey Qurana və (Peyğəmbərin) **sünnəsinə** isnad edilə bilər və hər bir **hədis** Allahın kitabına müvafiq deyilsə, uydurmadır (dəyərsizdir)."[12]

**Sünnə.**

Sünnə sözü lüğətdə "pis və yaxud bəyənilmiş yol" deməkdir. Hədis elmindəki mənası isə "Məsumun sözü, feli və ya təqriri" mənasındadır.[13]

Sünnə kəlməsi lüğəvi mənada hədis sözündən fərqlənsə də, istilahda hədisinn sinonimidir. Ümumiyyətlə, hədisşünaslar bəzi yerlərdə hədislə sünnəni bir-birindən fərqləndirsələr də, çox vaxt bu iki termini eynimənalı bilmiş və birini digərinin yerində işlətmişlər. Amma sünnə sözü hədis sözünə nisbətən bəzən çox geniş anlam daşıyır, Məsumun həm əməlini, həm sözünü, həm də təqririni bildirir. Həmçinin sünnə Məsumların davranış üslublarını da ehtiva edir.

Hədis (və ya sünnə) qaynağına görə aşağıdakı növlərə bölünür:

**Qəvli hədis** (sözlü sünnə) - Məsuma aid kəlamdır. Məsələn, "Ey Əli! Sənin mənə nisbətin Harunun Musaya nisbəti kimidir. Buna razı deyilsənmi?!"[14]

---

[6] İbn Əbdülbirr. Camiu bəyanil-ilm. 2 cilddə. II c. Mühəqqiq: Əbüləşbal əz-Züheyri. Daru İbn Cövzi nəşriyyatı. s. 101. Hədis № 1426.

[7] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə. Beyrut, Darül-Cəvadil-Əimmə (ə), I çap, 14133/2012. s. 19.

[8] Tur surəsi, ayə 7.

[9] Taha surəsi, ayə 9.

[10] Sübhi es- Saleh. Hadis ilmleri ve hadis ıstılahları. Çev: Yaşar Kandemir. İstanbul, 1996. s. 4.

[11] Şeyx Abbas əl-Qummi. Zübdətül-əhadis. 2 cilddə. I c. Qum, Mətbəətül-Əmir (ə), 1397 h/q. s. 4. Hədis № 1.

[12] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 278. Hədis № 44.

[13] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 19.

[14] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. s. 625. Hədis № 3706.

**Feli sünnə** (feli hədis) - Məsuma aid davranış və hərəkətləri bildirir. Məsələn, "Peyğəmbər bir işi etdiyi zaman onu sağlam edərdi."[15]

**Təqriri hədis** (sünnə) - Məsumun hüzurunda başqaları tərəfindən söylənən sözləri, edilən hərəkətləri və ya ona çatan xəbərləri sükut ilə qarşılamasına deyilir.

Bu növlərə aid hədislərin özünəməxsus rəvayət formaları vardır. Məsələn, qəvli hədisin rəvayət forması: ***"qalə Rəsulullah** , **qalən-Nəbi "*** və yaxud ***"qalə Əli** , **qaləs-Sadiq "*** kimidir.

Feli hədisin rəvayət formaları ***"kanən-Nəbi** , **raeytun-Nəbiyyə "***dir.

Təqriri hədisin rəvayət formaları isə ***"fətəbəssəmən-Nəbi** , **fədahikən-Nəbi "***dir.

**Xəbər.**

Xəbər lüğətdə hər hansı bir şey və ya bir məsələ ilə əlaqədar nəql edilən məlumat mənasındadır. Hədis elmindəki mənası isə hədis sözünün sinonimi kimi başa düşülür.[16]

**Əsər.**

Əsər lüğətdə "iz", istilahda isə "Səhabə və tabeidən gələn hədis" kimi tərif edilir.[17]

**Sənəd.**

Sənəd lüğətdə "dəstək, dayanaq" mənasındadır.[18] Hədis elmində isə "bir ravinin digər bir ravidən səhabəyə qədər rəvayət etməsidir."[19] İsnad termini sənədi qeyd etməkdir. Həmçinin bəzi hədisşünaslar "İsnad sənədə şamil edilir", - deyə sənədə tərif vermişlər.[20]

Tərifdən də göründüyü kimi, sənəd və isnad bir-birlərinin yerində işlədilir. Həmçinin son zamanlar kütlə üçün nəzərdə tutulan hədis kitablarında hədislərin sənədləri qeyd olunmur. Amma hədisin səhih və ya zəif olduğunu bilmək üçün şübhəsiz ki, onun isnadını (sənədini) bilmək zəruridir.

**Mətn.**

Mətn lüğətdə "arxa, bel, kürək" mənasındadır. İstilahi mənasına gəldikdə isə, alimlər ona belə tərif verirlər: "Mətn hədisin mənası ilə qüvvə tapdığı sözdür, Bu, Peyğəmbər və məsum İmamların dediklərindən ibarətdir."[21]

Deməli, təriflərdən belə başa düşülür ki, mətn hədisin əslini təşkil edir. Yəni hədis mətndən ibarətdir, sənəd isə o mətni rəvayət edən şəxslərdir.

---

[15] Müslüm bin Həccac ən-Nisaburi. Səhihu-Müslim. Beyrut, Darül-kütubil-ilmiyyə, I çap, 1421/2001. Kitabu salatil-müsafirin-141. s. 271. Hədis № 746.

[16] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 19.

[17] Həmin mənbə. s. 20.

[18] Arapça-türkce sözlük. "sənəd" maddəsi.

[19] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 18.

[20] Hüseyn bin Əbdüssəməd əl-Amili. Vusulül-əxyar ilə üsulil-əxbar. Qum, 1401 h/q. s. 90.

[21] Zeynüddin əl-Amili (Şəhid əs-Sani). ər-Riayə fi ilmid-dirayə. Qum, 1408 h/q. s. 52.

## II FƏSİL

## HƏDİSLƏR NECƏ YAZILMIŞDIR

### 2.1. Hədislərin yazılması ("Kitabətül-hədis")

Hədislərin yazılması bu elmin əsasını təşkil edir. Buna bəzən "Təqyidül-ilm", "Kitabətül-ilm" də deyilmişdir.[22]

İslamın zühuru ərəfəsində ərəblər içərisində yazıb-oxumağı bilənlər az idi. Lakin İslam dini meydana gəldikdən sonra Peyğəmbərin təkidi və təbliği nəticəsində yazıb-oxumağı bilənlər bilməyənlərə elm və maarifi öyrədirdi. Həmçinin bu işdə müharibələrdə əsir götürülmüş ziyalı müşkirlərin də elmindən istifadə edilirdi.

Hədislərin nə vaxtı yazıya köçürülməsi ixtilaflıdır. Bəzi alimlərə görə, hədislərin yazılması Peyğəmbər tərəfindən qadağan edilmişdir. Bu iddianı irəli sürənlər Müslüm bin Həccacın ən-Nisaburinin (821-875) Əbu Səid əl-Xudridən rəvayət etdiyi aşağıdakı hədisə istinad etmişlər:

"Məndən heç bir şey yazmayın. Hər kəs məndən Qurandan başqa bir şey yazmışsa, onu pozsun. Məndən hədis rəvayət edin, bunun bir qəbahəti yoxdur. Hər kəs mənim söyləmədiklərimi mənə isnad etsə, Cəhənnəmdəki yerinə hazırlansın."[23]

Qeyd edilən hədisi doğru bilən alimlər belə izah edirlər ki, həm müsəlmanlar yazını yeni öyrənir və yazılarında çoxlu xətalara yol verirdilər və həm də o zaman kağız qıtlığına görə hədisləri bəzi vaxtlarda "Müshəfi-şərif" yarpaqlarının boş yerlərinə yazırdılar.

Amma mənbələr daha obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, hədislərin yazılmasının qadağan olunması yalnız Peyğəmbərin vəfatından sonrakı dövrə təsadüf edir. Bunu görkəmli hədisşünaslar, o cümlədən Şəmsəddin əz-Zəhəbi (1274-1348), Hakim ən-Nisaburi (933-1014), Əllamə Əli əl-Müttəqi əl-Hindi (1483-1567), İbn Macə əl-Qəzvini (824-887) və başqaları öz məşhur əsərlərində qeyd etmişlər.[24]

Beləliklə, bir çox hədisşünas Peyğəmbərdən hədislərin qadağan olunması haqqında nəql olunan hədisin Peyğəmbərdən deyil, Əbu Səid əl-Xudridən gələn məvquf hədis olduğunu qeyd etmişlər.[25]

Mötəbər qaynaqlarda Peyğəmbərin öz səhabələrinə onun sözlərini dinləyib öyrənmələri haqqında çoxlu hədis vardır. Həmçinin Həzrət bu işi görənlərə çoxlu dualar etmişdir və hədisləri öyrənənin dünya və axirət xeyrinə nail olması haqqında hədislər söyləmişdir.[26] Peyğəmbərdən eşidilən hədislər səhabələr tərəfindən qələmə alınmış və qorunaraq gələcək nəsillərə ötürülmüşdür. Bunu təsdiq edən dəlillər əlimizdə kifayət qədərdir.

Peyğəmbər hədislərinin qorunması və yazılıb gələcək nəsillərə ötürülməsi haqqında buyurmuşdur:

---

[22] İsmail Lütfi Çakan. Hadis edebiyatı. İstanbul, İFAV Yayınları, IV baskı, 1974, s. 7.

[23] Müslüm bin Həccac ən-Nisaburi. Səhihu-Müslim. Kitabüz-zöhd vər-rəqaiq. s. 1145. Hədis № 3004.

[24] Şəmsəddin əz-Zəhəbi. Təzkirətül-hüffaz. 4 cilddə. I c. Mühəqqiq: Əbdürrəhman bin Yəhya əl-Müəllimi. Dairətül-məarifil-Osmaniyyə. Tarixsiz. s. 2-3, 5, 7; Əllamə Əli əl-Müttəqi əl-Hindi. Kənzül-ümmal. 18 cilddə. I c. Mühəqqiq: Səfvət əs-Səqa və b. Beyrut, Müəssisətür-risalə. Tarixsiz. s. 291; İbn Mace el-Kazvini. Süneni İbn Mace tercemesi ve şerhi. Terc: Haydar Hatipoğlu. 10 cilddə. I c. İstanbul, Kahraman neşriyatı. Tarixsiz. s. 50. Hədis № 28; Nəcmi Məhəmməd Sadiq. Buxari və Müslümün "Səhih"lərinə bir baxış. 2 cilddə. I c. Tərcümə edən: Rəşad Vahidoğlu. Bakı, 2006. s. 41-42; İbrahim Canan. Kutubi-sitte tercüme ve şerhi. 18 cilddə. I c. Akçağ Yayınları, s. 49-50; ər-Rəmahürmüzü. əl-Mühəddisül-fasil beynər-ravi vəl-vai. Təhqiq: Məhəmməd Əccac əl-Xətib. Beyrut, Darül-fikir, III çap, 1404/1984. s. 554. Hədis № 746; Şəmsəddin əz-Zəhəbi. Siyəru alamin-nübəla. II c. Təhqiq: Şüeyb əl-Ərnaut. Beyrut, Müəssisətür-risalə, 1410/1990. s. 600-601; İbn Səd. ət-Təbəqatül-kübra. II c. s. 633.

[25] Sübhi es-Salih. Hadis ilmleri və hadis ıstılahları. s. 16.

[26] Hakim ən-Nisaburi. Müstədrək ələs-Səhiheyn. I c. "Kitabül-ilm". s. 187. Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 433, 436, 553; Şeyx Abbas əl-Qummi. Zübdətül-əhadis. I c. s. 4-9.

“Mömin ölən zaman üzərində elm olan bircə vərəqə qoyub gedərsə, həmin vərəqə qiyamət günü onunla Cəhənnəm odu arasında bir pərdə olacaqdır. Allah-Təala o vərəqədə yazılan hər bir hərf üçün həmin şəxsə (Cənnətdə) dunyadan yeddi dəfə geniş olan şəhər verəcəkdir.”[27]

“İlahi, mənim xəlifələrimə (ardıcıllarıma) rəhm et!” - dedikdə, səhabələr: “Ey Allahın Rəsulu, Sənin xəlifələrin (ardıcılların) kimlərdir?” - deyə soruşdurlar. Həzrət buyurdu: “Mənim hədis və sünnəmə tabe olub, onu ümmətimə öyrədənlər.”[28]

“Elmi möhkəmləndirin!” Soruşdular: “onu nə ilə möhkəmləndirək?” Həzrət buyurdu: “yazılması ilə.”[29]

Xatırladaq ki, bu hədis azca dəyişik şəkldə bir çox hədis mənbələrində, o cümlədən, İbn Əbdülbirrin (978-1071) “Camiu bəyanil-ilm”,[30] Xətib Bağdadinin (1002-1071) “Təqyidül-ilm”,[31] Sübhi əs-Salehin (1926-1986) “Ülumil-hədis və müstələhuhu”[32] və digər əsərlərdə də qeyd olunmuşdur.

Bu mövzu haqqında İmam Əli buyurur: “Allah bizdən bir hədis eşidib onu olduğu kimi nəql edənin üzünü ağartsın. Az mübəlliğlər vardır ki, onlar eşidilənlərdən daha diqqətlidirlər.”[33]

Həmmad bin Səlmə Məhəmməd bin İshaqdan, o, Əmr bin Şüeybdən, o, atasından, atası da onun babasından belə rəvayət edir:

“Ey Allahın Rəsulu! Səndən eşitdiklərimin hamısını yazımmı? Həzrət buyurdu:

- Bəli.

Dedim:

- Qəzəbli və sakit olduğunuz halda yaza bilirəmmi? Həzrət buyurdu:

- Bəli, mən heç vaxt həqiqətdən başqa bir şey söyləmərəm.”[34]

Həmçinin bu hədis Abdullah bin Əmr vasitəsilə Hakim Nişapurinin (933-1014) “əl-Müstədrək”,[35] İbn Qüteybənin (828-889) “Təvilu müxtəlifil-hədis”,[36] Əhməd bin Hənbəlin (778-855) “Müsnəd”,[37] İbn Salahın (1181-1245) “Ülumul-hədis”[38] əsərlərdə də qeyd olunmuşdur.

Bütün bu deyilənlərdən başqa, hədislərin yazılıb qorunması Əhli-beyt tərəfindən də təkid edilmişdir. İmam Əli buyurub:

“Bir hədisi nəql etdiyiniz zaman, onun sənədini də qeyd edin. Əgər o hədis doğru olsa , (savabı) sizin, yalan olsa, (günahı) onu nəql edənin üzərindədir.”[39]

İmam Sadiq buyurub: “Ey Cabir! Halal və haram haqqında sənə yetişən doğru bir hədis sənin üçün Günəş çıxandan batanadək üzərinə şüa saldığı hər şeydən xeyirlidir.”[40]

“İnsanların dərəcələrini onların bizdən nəql etdikləri hədislərin miqdarı ilə tanıyın.”[41]

“Bizim sözlərimizi erab edin (açıqlayın). Çünki biz ən fəsih camaatıq.”[42]

---

[27] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 532.

[28] Həmin mənbə. II c. s. 431; Xətib əl-Bağdadi. Şərəfu əshabil-hədis. Qahirə, Məktəbətu İbn Teymiyyə, I çap, 1417/1996. s. 69. Hədis № 53.

[29] Həmin mənbə. II c. s. 432.

[30] I c. s. 72.

[31] s. 69.

[32] s. 17.

[33] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 441.

[34] Həmin mənbə. II c. s. 433; Hakim ən-Nisaburi. Müstədrək aləs-Səhiheyn. I c. s. 187. Hədis № 358.

[35] I c. s. 105.

[36] s. 365.

[37] III c. s. 207

[38] s. 22.

[39] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 531.

[40] Həmin mənbə. II c. s. 532.

[41] Həmin mənbə. II c. s. 435.

[42] Həmin mənbə. II c. s. 436.

Rəvayət edilir ki, ənsardan bir kişi Peyğəmbərin məclisində oturub o Həzrətdən hədis dinlyərdi. Hədislər onun xoşuna gəlsə də, onları əzbərləyə bilmirdi. Bu halı Peyğəmbərə şikayət etdikdə, Həzrət buyurdu: "Sağ əlindən kömək al!"[43]

Peyğəmbər buyurub: "Hər kəs məndən bir hədis rəvayət etsə və bilsə ki, o hədis yalandır, həmin şəxs də yalançılardan biri hesab olunacaq."[44]

Bu və ya digər hədislərdən göründüyü kimi, bütün Məsumlar hədislərin yazılıb qorunmasını təkid etmişlər.

Bundan başqa, Qurani-Kərimlə hədislərin bir-birinə qarışması ehtimalı qeyri-mümkündür. Çünki Qurani-Kərim ecazkar bir kalam olub vəhy və vasitə ilə nazil edilmişdir. Hədislər isə bəşər övladı olan bir Peyğəmbərin kalamıdır və Quranla onun dediklərini hər baxımdan bir-birindən seçmək çətin bir iş deyil. Həmçinin bəzi alimlərə görə, artıq Peyğəmbərin dövründə Quran cəm olmuşdu, hər ayə və surə öz yerini tutmuşdu. Belə olan halda hədis və Quranın bir-birinə qarışması mümkün deyil.

Həmçinin Peyğəmbərin zamanında yazılan səhifələr də Əbu Səid əl-Xudridən gələn hədisin əsassız olduğunu sübut edir. Belə ki, Peyğəmbərin dövründə Əli bin Əbu Talib, Salmani-Farsı, həzrət Fatimə və digər şəxslər hədis yazmışlar.

Yuxarıda göstərilən bu və ya digər faktlardan məlum oldu ki, Peyğəmbərin sağlığında heç bir hədisin yazılmadığı haqqında irəli sürülən fikirlər əsassızdır.[45] Deməli, Peyğəmbərdən eşidilən hədislər səhabələr tərəfindən həm əzbərlənib, həm də yazılmışdır. Hətta qaynaqlar Peyğəmbərin zamanında ilk hədis toplayan şəxsin Əli bin Əbu Talib olduğunu qeyd edir.[46]

Buütün bunlar onu göstərir ki, yuxarıda qeyd edilənlər Peyğəmbərin zamanında hədislərin yazılmasını təsdiq edən dəlillərdəndir. Bundan əlavə, hədislərin nəql olunması qadağan olunsaydı, Əhli-beyt heç vaxt hədis rəvayət etməzdilər. Halbuki Cabir bin Yezid əl-Cufi İmam Baqir və onun ata-babası yolu ilə Peyğəmbərdən yetmiş min hədis nəql etmişdir. O, deyir: "Məndə əlli min hədis vardır ki, bunun da hamısı Əhli-beyt vasitəsilə Peyğəmbərdəndir."[47]

Bundan əlavə, Əhli-beytdən Əbu Həmzə əs-Sümali, Zürarə bin Əyun, Məhəmməd bin Müslüm ət-Taifi, Əbu Bəsir Yəhya bin Qasim əl-Əsədi, Əbdülmömin Qasim bin Qeys bin Məhəmməd əl-Ənsari, Bəsam bin Abdullah əs-Sürəfi, Əbu Übeydə əl-Həzza, Ziyad bin İsa Əbürrəca əl-Kufi, Zəkəriyyə bin Abdullah əl-Fəyyaz, Əbu Yəhya və başqaları çoxlu sayda hədis nəql etmişlər. Burada adı çəkilən bu və ya digər ravilərin hamısı hədis elmində etibarlı və etimad göstərilən şəxslərdir.[48]

### 2.2. Həzrət Peyğəmbərin dövründə yazılan "Səhifə"lər

Əvvəldə qeyd olundu ki, hələ Peyğəmbərin sağlığında bir çox səhabələr ondan eşitdikləri hədisləri yazmışdılar. Hədisşünaslar Peyğəmbərin zamanında yazılan "Səhifə"lərə xüsusi diqqət göstərmiş və onları bir neçə qrupa bölmüşlər. Ümumiyyətlə, "Hədis ədəbiyyatının başlanğıcını, Peyğəmbər tərəfindən yazdırılmış və öz zamanında mühafizə edilmiş məktub, qanun və risalələrə, səhabə və tabei tərəfindən yazılan "Səhifə"lərə qədər götürmək təbiidir", deyənlər necə də doğru demişlər![49] Görkəmli alim Şəmsəddin əz-Zəhəbi (1274-1348) "Mizanül-etidal" adlı əsərində yazırdı: "Əgər səhabələrin səyi olmasaydı, Peyğəmbərin hədislərinin hamısı aradan gedərdi və İslam aləmində böyük bir fəsad meydana çıxardı."

---

[43] Həmin mənbə. II c. s. 436; İbn əs-Salah. Ülumul-hədis. Hələb, Məktəbətül-ilmiyyə, 1350/1931. s. 18.

[44] Əllamə əl-Məclisi. Biharül-ənvar. c. II. s. 440.

[45] Məhəmməd Həmidullah. Həmman bin Münəbbin səhifəsi. s. 26.

[46] Seyid Həsən əs-Sədr. əş-Şiə və fününil-İslam. Təhqiq: Seyid Mürtəza əl-Mirsəccadi. Müəssisətüs-Sibteyn (ə) lilaləmiyyə, Qum, I çap, 1427 h/q. s. 151.

[47] Həmin mənbə. s. 174.

[48] Həmin mənbə. s. 165-186.

[49] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 13.

Peyğəmbərin göstərişi ilə və yaxud da onun zamanında yazılan vəsiqələrə **“Səhifələr”, “Siyasi vəsiqələr”** və **“Qeyri-rəsmi vəsiqələr”** daxildir.

Xatırladaq ki, “səhifə” sözününü cəmi “sühuf”dur. “Səhifə” dedikdə, səhabələrin həzrət Peyğəmbərdən eşidib yazdıqları bir neçə səhifəlik hədislər nəzərdə tutulur. Məlumdur ki, Peyğəmbərin sağlığında bir çox səhabə, o cümlədən Əli bin Əbu Talib , Fatimə bint Məhəmməd , Salmani-Farsi, Əbuzər əl-Qifari, Abdullah bin Əmr bin As, Ənəs bin Malik, Əbu Hüreyrə, Müaz bin Cəbəl, Abdullah bin Abbas, İbn Übadə, Səmurə bin Cündəb, Cabir bin Abdullah, Əmr bin Həzm əl-Ənsari, Abdullah bin Əbu Əfva və digərləri hədis yazmışlar.

### 2.2.1. Əli bin Əbu Talibin əsərləri

Ömrünün bütün illərini İslama və təkallahlığa sərf edən İmam Əli Peyğəmbərə ilk iman edən şəxs olmaqla yanaşı, həmişə onun yanında olmuşdur. Görkəmli tarixçi İbn Əsir (1160-1233) “əl-Kamil fit-tarix” adlı əsərində də qeyd etdiyi kimi, Peyğəmbər peyğəmbərliyə seçiləndən dərhal sonra İmam Əli onun peyğəmbərliyini təsdiq edib onun ardıcılı olmuşdur. İmam Əli özü bu barədə buyurmuşdur: “Peyğəmbər müqabilində necə bir mərtəbəyə yüksəldiyimi, ona nə qədər yaxın olduğumu bilirsiniz. Uşaq ikən o məni bağrına basardı, üzünü üzümə sürtər, məni qoxulardı... O, hər gün xasiyyətlərindən birini mənə öyrədir və ona qulaq asmağımı istəyirdi. Hər il Həra dağına çəkilir, qulluğa başlıyardı. Başqası görməsə də, onu mən görürdüm. O gün Peyğəmbər Xədicədən başqasının evində yox idi. Mən onların üçüncüsü idim. Vəhy və peyğəmbərlik nurunu görürdüm, peyğəmbərlik qoxusunu duyurdum. Ona vəhy gələrkən şeytanın fəryadını eşidirdim və: - Ya Rəsulallah bu fəryad nədir? – deyə soruşdum. Buyurdu ki: - bu fəryad edən şeytandır. Sən mənim eşitdiyimi eşidir, gördüyümü görürsən. Ancaq sən peyğəmbər deyilsən.”[50]

Peyğəmbərin yanında boya-başa çatan, onun əxlaqi ilə əxlaqlanan İmam Əli şübhəsiz ki, hamıdan çox hədis toplamağa və nəql etməyə layiqdir. Əvvəldə də qeyd etdiyimiz kimi, Peyğəmbər heç vaxt hədis yazmağı qadağan etməmişdir. Əgər belə qadağa olsaydı, Peyğəmbərin yuxarıda adı çəkilən səhabələri bu qədər hədis yazmağa səy etməzdilər.

Əli bin Əbu Talibin hədis yazdığı “səhifə”ni qılıncının qınından asdığı və daim yanında gəzdirdiyi haqqında mənbələrdə kifayət qədər məlumatın olduğuna rast gəlmək mümkündür. Bu barədə “Səhihül-Buxari”də olan hədislərin birində deyilir: “Əbu Cüheyfə rəvayət etmişdir: “Həzrət Əli bizə bir xütbə oxuyaraq dedi ki, yanımızda Allahın kitabından və bu “səhifə”dəkilərdən başqa oxuduğumuz bir kitab yoxdur. Bu “səhifə”də isə haqsız əməllə zərər vermək, dəvələrin yaşları (zəkat üçün)... hökmlər vardır.”[51]

Əllamə Məclisi (1628-1700) “Biharül-ənvar” adlı əsərində yazırdı: “Peyğəmbərin həzrət Əliyə yazdırdığı “Camiə” adlı səhifədə insanların möhtac olduğu hər şey, qiyamətə qədər baş verəcək hadisələr, bütün halal və haramlar, hətta Cənnətdəkilərin isimləri belə yazılıdır, çürüməsi və aradan getməsi mümkün olmayan bu səhifə İmam Əli vasitəsilə ondan sonrakı İmamlara ötürülmüşdür. İmam Cəfər Sadiqin yanındakı “əl-Cifrül-əbyəz” adlı əsərdə Zəbur, Tövrat, İncil, həzrət İbrahimə verilən səhifələr və həzrət Fatimənin “Müshəf”i vardır.”[52]

Artıq buradan belə məlum olur ki, Peyğəmbərin hədislərini ilk toplayan şəxs məhz İmam Əlidir. O, Peyğəmbərdən eşitdiklərini yazıb kitab halına salmışdı. Bu hədis kitabı İmam Əlidən sonra digər İmamlara ötürülüb və bununla da qorunub saxlanılırdı. Bir gün Həkəm bin Üteybə İmam Baqirin yanına gəlib bir məsələ barədə onunla mübahisə etdi. İmam Əlinin kitabını açıb həmin məsələyə aid olan hədisi Həkəmə göstərib dedi: “Bu Əlinin xətti, Peyğəmbərin buyurduğudur.”[53]

Beləliklə, İmam Əli aşağıdakı müfəssəl əsərləri yazmışdı:

---

[50] Seyid ər-Rəzi. Nəhcül-bəlağə. Tehran çapı, 1995. s. 133.

[51] Məhəmməd Həmidullah. Həmman bin Münəbbihin səhifəsi. s. 40. (M. Həmidullah hədisi Buxarinin “Səhih” əsərinin “kitabül-cihad” fəslindən rəvayət etmişdir).

[52] XXVI c. s. 509, 511.

[53] əl-Kəşşi. Rical. s. 288.

**“Camül-Quran və təviluhu”** (“Quranın toplanması və onun şərhi”). İmam adı çəkilən əsərində Quranın ayələrini nazil olma ardıcıllığı ilə düzmüş, onları bir araya toplayaraq geniş şərhini vermişdir.

**“Ülumul-Quran və ənvauhu”** (“Quran elmləri və onun növləri”).

**“əl-Müshəf”** əsərini İmam Əli oğlu Həsənin xətti ilə yazdırmışdı. Əsər məşhur “Rəzəviyyə” kitabxanasında saxlanılır. Burada Qurandan iki cüz vardır.

**“əl-Camiə”** İmam Əlinin ən məşhur əsərlərindən biridir. Əsərin uzunluğu 70 dirsəkdir ki, İmam bunu Peyğəmbərin diktəsi əsasında yazmışdı. Sonralar əsər Əhli-beyt imamları tərəfindən bir-birlərinə ötürülmüşdür.

**“əl-Cifr”** İmamın ən məşhur əsərlərindəndir. O ensiklopedik xarakter daşıyıb, dinin və insan həyatının bütün məsələlərini özündə ehtiva etmişdir. “Məcməül-bəhreyn” əsərinin müəllifi Şeyx Fəxrəddin ən-Nəcəfiyə (1571-1674) görə, “Cifr” və “Camiə” əsərini Peyğəmbər İmam Əliyə diktə edərək yazdırmışdır.

Həzrət Əlinin bu əsərində nübuvvətlə əlaqədar elmlər, halal, haram məsələləri, hökmlər, insanların ehtiyac duyduqları əsas vasitələr, dinin əsasları, dünyada insanların sağlam yaşaması və s. məsələlərlə əlaqədar mövzular müfəssəl şəkildə işıqlandırılmışdır. Həmçinin əsərdə Quranın bəzi mütəşabeh ayələri təfsir edilmiş, onların doğru-düzgün şərhi göstərilmişdir. Həqiqətən də əsərin ehtiva etdiyi mövzuların genişliyinə və mahiyyətinə varanda, belə məlum olur ki, bu fundamental əsərdə dinin bütün zəruri məsələləri ilə yanaşı, bir çox dünyəvi problemlər və onların həlli yollarından da bəhs edilmişdir. Əsər haqqında Əllamə Məclisi (1628-1700) yazırdı: “Əhli-beytin Cifrdə olan elmini görənlər təəccüb etdilər.”[54]

Əsərin həzrət Əliyə aid olması və ondan da sonra digər Əhli-beyt imamlarına yadigar qalması haqqında kifayət qədər dəlillər vardır. Belə ki, bu haqda İmam Cəfər Sadiq çoxlu sayda hədis söyləmiş və yeri gəldikcə, əqidəvi və şəri məsələlərdə həmin əsərdən istifadə etmişdir. Bu barədə İmam buyurur:

“Bizim elmimiz məğlub edən və üstün gələndir, qəlblərdə bir ilhamdır, qulaqları deşəndir. Həqiqətən bizim yanımızda “əl-Cifrül-əhmər”, “əl-Cifrül-əbyəz” və “Müshəfi-Fatimə” vardır. Bundan başqa, bizdə “əl-Camiə” vardır ki, orada insanların ehtiyac duyduqları bütün şeylər mövcuddur...”[55]

Əbu Bəsir həzrət Əlinin “əl-Camiə” adlı əsəri haqqında İmam Cəfər Sadiqdən nəqlən deyir: “Ey Əbu Məhəmməd! Həqiqətən bizim yanımızda “əl-Camiə” vardır. Onlar nə bilirlər ki, “Camiə” nədir?” Əbu Bəsir deyir: “Dedim sənə fəda olum! Nədir Camiə?” İmam buyurdu: “Bir səhifədir ki, onun uzunluğu Peyğəmbərin dirsəyi ilə yetmiş dirsəkdir. Onu İmam Əliyə yazdırmışdır. Orada hər bir halal və haram, həmçinin insanların ehtiyac duyduqları hər bir şey vardır. Hətta diyə və qanbahasınadək.”[56]

İmam Sadiqin digər bir səhabəsi Məhəmməd bin Müslüm deyir: “İmam Sadiq buyurdu: “Həqiqətən bizim yanımızda əmirəlmöminin Əlinin yazdıqlarından bir səhifə vardır ki, onun uzunluğu yetmiş dirsəkdir. Biz ona tabeyik. Orada olanlardan başqa heç nəyi tanımırıq.”

Bundan əlavə, Süleyman bin Xalid nəql edir: “İmam Sadiqdən eşitdim ki, deyirdi: “Bizdə “səhifə” vardır ki, ona “əl-Camiə” deyərlər. Orada halal, haram, hətta qanbahasınadək hər şey vardır. Bizdə həzrət Fatimənin “Müshəf”i vardır. Lakin orada Qurandan bir şey yoxdur.”[57]

**“əs-Səhifətül-fəraiz.”** Əsərin qısa şəkildə daha məşhur adı isə “əl-Fəraiz”dir. İmam Əli tərəfindn yazılan əsər dinin insanlar üzərində fərz (vacib) bildiyi işlərdən və onları icra etmək tərzindən bəhs edir. Orada yer alan məsələlərin bir qrupu digər İmamların dillərindən də nəql edilmişdir. Həmçinin Həzrətin orada nəql etdiyi hədislərin və ya buyurduğu ibadi işlərin bir qismi mötəbər hədis kitablarında da yer almışdır.

---

[54] Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. II c. Beyrut, 1403/1983. s. 97.

[55] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXVI c. s. 509.

[56] Həmin mənbə. XXVI c. s. 512.

[57] Həmin mənbə. XXVI c. s. 513.

Mənbələrin verdiyi məlumata görə, “əl-Fəraiz” İmam Baqirin və onun oğlu İmam Sadiqin yanında olmuşdur.[58] Məhəmməd bin Yaqub əl-Küleyni (876-941) “əl-Kafi” adlı əsərində mötəbər sənədlə Zürarədən rəvayət edir: “Bir gün İmam Sadiq Peyğəmbərin əmri və İmam Əlinin xətti ilə yazılmış “Səhifətül-fəraizi” mənə oxutdu.”

Xatırladaq ki, bu rəvayəti Şeyx Səduq (915-991) başqa bir yolla (təriqlə) rəvayət etmişdir.

**“Kitab fi zəkatin-niəm.”** Həzrət Əlinin bu əsəri İslamın əsas vergilərdən biri olan zəkatdan bəhs edir. O, əsərində zəkatın vacibliyindən, onun verilmə şərtlərindən, heyvanların zəkatından danışmışdır. Əsər haqqında Əhməd bin Əli Nəcaşi (öl. 1057) geniş məlumat vermişdir.

**“Kitab fi əbvabil-fiqh.”** Fiqh elminin müxtəlif fəsillərinə aid olan əsəri İmam Əlidən Əli bin Rafe rəvayət etmişdir.

**“Əhdun lil-Əştər.”** İmam Əli bu kiçik məktubunu məşhur səhabəsi və dostu Malik Əştəri Misirə vali təyin edən zaman yazmışdır. Əsərin həcmi kiçik olsa da, orada yer alan məsələlər mühüm dini və həyati əhəmiyyət kəsb etməkdədir. Əsərdə İmam vali kimi Malik Əştərin üzərinə düşən vəzifələrdən bəhs etmiş, onun bir rəhbər kimi Allahın və insanların qarşısındakı məsuliyyətindən danışmışdı. Həmçinin bu kiçik əsərdə İmam Əli bəzi siyasi işlərdən də söz açmışdır.

Təəssüflər olsun ki, 658-ci ildə İmam Əli tərəfindən Misirə vali təyin edilən Malik Əştər yolda Müaviyənin göndərdiyi şəxs tərəfindən zəhərləndirilmiş və orada da şəhid edilmişdir.[59] Amma Malikə vəsiyyətnamə şəkilində yazılan əsər “Nəhcül-bəlağə”nin məktublar fəslində yer almışdır.

**“Vəsiyyə li-Məhəmməd əl-Hənəfiyyə.”** İmam Əli əsərini oğlu Məhəmməd bin əl-Hənəfiyyəyə vəsiyyətnamə kimi yazmışdı. Əsərdə İmam Əli bir çox əxlaqi məsələlərə toxunmuş, insanın cəmiyyət içərisindəki vəzifələrindən söhbət açaraq öz oğlunu da həmin borc və vəzifələrin icrasına əməl etməyə çağırmışdı. Şübhəsiz ki, vəsiyyətnamə xarakterli olan bu kiçik əsər təkcə onun oğlu üçün böyük əhəmiyyət daşımırdı. Əsər, eyni zamanda bütün müsəlmanlar üçün əhəmiyyətlidir. Çünki burada o, əqidəvi və əxlaqi problemləri işıqlandırmışdı.

**“Kitab əcaibil-əhkam.”** İmam Əlinin bu əsəri də böyük elmi əhəmiyyət kəsb edir. Belə ki, əsərində hökmlərin daxili sirlərindən, insana məlum olmayan qəribəliklərindən danışmış və bununla da özünün Peyğəmbərdən sonra İlahi vəhyin mahir bilicisi kimi sübut etmişdir. İmam bu əsərində İlahi hökmlərin hikmətini açmış və insanlara qaranlıq qalan bir çox problemlərin həllini vermişdir.

Böyük İslam alimləri yuxarıda adı çəkilən əsərlərin hamısının İmam Əliyə aid olması barədə həmfikirdirlər. Həmçinin İslamda ilk əsər yazan şəxsin də İmam Əli olması barədə heç kim ixtilaf etməmişdir. Belə ki, Cəlaləddin Süyuti (1445-1505) “Tədribür-ravi” əsərindəki təbirincə desək, səhabələr və tabeilər arasında elmin kimlər tərəfindən yazılması haqqında çoxlu ixtilaflar vardır. Amma buna baxmayaraq, onlar içərisində elmi ilk yazan şəxs Əli və oğlu Həsəndir . Buna kifayət qədər dəlillər var. Nübuvvət elminin yazısının qoyanın Əli olması heç kəsə gizli deyil.

İbn Şəhraşub əl-Mazəndərani (1095-1192) yazırdı: “İslamda ilk əsər təsnif edən şəxs İmam Əlidir . O, Allah kitabını bir yerə toplamışdır. Sonra bu işi Salman əl-Farsi, Əbuzər əl-Qifari, sonra Əsbəğ bin Nübatə, sonra Abdullah bin Nafe davam etdirmişdir. Daha sonra isə İmam Zeynülabidin öz əsərlərini ortalığa qoymuşdur.”[60]

Bütün bu deyilənlərlə yanaşı, İmam Həsən Peyğəmbərdən eşidilən və rəvayət olunan hədislərin yazılmasını təqdirəlayiq hal bilmişdir.[61]

Buradan məlum olur ki, İmam Əli hələ Peyğəmbər dövründə hədis yazmaqla məşğul olmuş və hədislərin tədvin edilməsinə böyük əmək sərf etmişdir. İmam Əlinin səhifəsi bəzi qaynaqlarda “Kitabu-Əli” adı altında qeyd edilmişdir.[62]

---

[58] Möhsün əl-Əmin. Əyanüş-şiə. I c. s. 120.

[59] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXIII c. s. 554.

[60] Həmin mənbə. I c. s. 134.

[61] Cəlaləddin əs-Süyuti. Tədribür-ravi. 2 cilddə. II c. Beyrut, 1409 h/q. s. 43.

[62] Həsən əs-Sədr. Təsisüş-şiə. Bağdad. s. 35.

### 2.2.2. Fatimə bint Məhəmməd və "Müshəf" əsəri

Həzrət Fatimə əziz Peyğəmbərimizin Xədicə bint Xüveyliddən olan övladıdır. Bəzi mənbələrə görə, həzrət Fatimə besətdən beş il sonra (615-ci ildə) Məkkə şəhərində İlahi vəhyin nazil olduğu və müqərrəb mələklərin daim enib-qalxdığı müqəddəs bir evdə dünyaya göz açmışdır. Ondan əvvəl Peyğəmbərin həzrət Xədicədən dörd qızı və iki oğlu olmuşdur ki, bunlardan ən böyük qızı Zeynəb, digərləri isə Ruqiyyə, Ümmi-Gülsüm və Fatimədir . Peyğəmbərin övladları içərisində ən böyüyü Qasim, ən sonuncusu isə İbrahimdir. Peyğəmbərin bu qədər övladının olmasına baxmayaraq, hamısı onun sağlığında vəfat etmiş, yalnız həzrət Fatimə sağ qalmışdır ki, Allah da onun vasitəsi ilə Peyğəmbərin nəslini davam etdirmişdir.

Həzrət Fatimə atasının məhəbbət və sayğısı altında böyümüşdür. Həmçinin onun doğuşunu Uca Allah öz Peyğəmbərinə vəhy yolu ilə bildirmiş və "Kövsər" surəsini həzrət Fatimənin adına nazil etmişdir. Buna görə də əksər təfsir alimləri adı keçən surədə **"Həqiqətən biz sənə kövsəri əta etdik"[63]** - ayəsindəki **"Kövsərin"** həzrət Fatimə olduğunu qeyd edirdilər. Bu haqda Azərbaycan alimi Əllamə Təbatəbai (1902-1983) yazırdı: "Əgər kövsər sözü ilə Peyğəmbərin nəslinin həzrət Fatimə yolu ilə davam etməsi nəzərdə tutulmasaydı, üçüncü ayənin mənası olmazdı."[64] Bundan başqa, "Təfsiri-müstənəd" müəllifi bu surənin təfsirində yazırdı: "Kövsər dedikdə, çoxlu xeyir olan həzrət Fatimə və onun övladları nəzərdə tutulmuşdur ki, həm kəmiyyətcə, həm də keyfiyyətcə böyük xeyirdir və yer üzünün zinətidirlər. Peyğəmbər buyurmuşdur: "Allah-Təala mənim nəslimlə yer üzünə zinət vermişdir və mənim nəslim Əli , Fatimə , Həsən , Hüseyn və onların övladlarıdır."

Bəlkə də elə bunun nəticəsidir ki, Peyğəmbər həzrət Fatiməyə yüksək qayğı gödtərmiş və onun haqqında aşağıdakı ifadələri söyləmişdir:

"Fatimə məndən bir hissədir, hər kəs onu qəzəbləndirsə, məni qəzəbləndirmişdir."

"Fatimə Cənnət qadınlarının rəhbəridir."[65]

Əvvəlində də qeyd etdiyimiz kimi, Peyğəmbərin dövründə istər onun ailə üzvlərindən, istərsə də yaxın səhabələrindən bir qismi ondan eşitdiklərini yazmış və onu qoruyub saxlamağa müvəffəq olmuşlar. Şübhəsiz ki, belə şəxslərdən biri də Peyğəmbərin sevimli qızı həzrət Fatimədir . O, atasından eşitdiyi hədislərin bir qismini yazmış və onları özündən sonra övladlarına irs qoymuşdur. Onun yazdığı və İmamlar tərəfindən qorunaraq bir-birlərinə ötürdükləri səhifənin adı "Müshəfi-Fatimə"dir.

Mənbələrin verdikləri məlumata görə, bir gün bir nəfər həzrət Fatimənin yanına gəlib dedi: "Ey Peyğəmbərin qızı! Peyğəmbərin sənə verdiyi və hazırda bir yerdə qoruyub saxladığın bir şey varmı?" Həzrət Fatimə dedi: "Ey cariyə! O ipək bezi (yazılı vəsiqəni) gətir." Cariyə onu axtardı, lakin tapa bilmədi. Həzrət Fatimə dedi: "vay olsun sənə! onu axtar, çünki o mənim üçün Həsən və Hüseyn qədər qiymətlidir." Cariyə onu axtardı və nəhayət, süpürüb atdığını yadına saldı. Onu atdığı yerdən tapdı. O vəsiqənin üzərində bunlar yazılmışdır: "Məhəmməd peyğəmbər dedi: "öz qonşusunu himayə etməyən və qonşusu ondan əmin olmayan şəxs mömin sayılmaz. Allaha və axirət gününə inanan kimsə qonşusuna əziyyət verməz. Allah və axirət gününə inanan şəxs ya xeyir danışsın, yaxud da sussun. Çünki Allah-Təala xeyiri sevir. Allah həlimdir, çirkinlikdən uzaqdır. Həyasızlıqdan, üzsüzlük edib istəməkdən, israrla dilənməkdən xoşu gəlməz. Həqiqətən həya imandandır. İman isə Cənnətdədir. Həyasızlıq isə alçaqlıqdan qaynaqlanır. Alçaqlıq da Cəhənnəmdədir."[66]

Buradan belə məlum olur ki, həzrət Fatimə öz atasından eşidib dinlədiyi hədislərin bir hissəsini yazmış və onun qorunub saxlanması üçün böyük əmək sərf etmişdir. Hətta rəvayətdən belə

---

[63] Kövsər surəsi, ayə 1.

[64] Əllamə Təbatəbai. Təfsirül-mizan. XX c. "Kövsər" surəsinin təfsiri.

[65] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. ər-Riyad, 1419/1999, "fəzail fəsli". s. 626.

[66] Məhəmməd bin Yaqub əl-Küleyni. Üsulul-kafi. 6 cilddə. I c. Tərc: R.Hümbətov. Bakı, 2011. Kövsər mətbəəsi, I çap, s. 9.

başa düşülür ki, bu vəsiqənin həzrət Fatimənin yanında çox böyük əhəmiyyəti olmuş və onu atasından qalan müqəddəs kəlmələr hesab etdiyinə görə, iki əziz oğlu qədər qorumuşdur.

### 2.2.3. Əbu Rafe əl-Qibtinin "Kitabüs-sünən vəl-əhkam vəl-qəzaya" əsəri

Həzrət Peyğəmbərin ən yaxın səhabələrindən biri də Əbu Rafe olmuşdur. Onun adı haqqında müsəlman alimləri müxtəlif fikirlər söyləmişlər. Bəziləri onun adının İbrahim, bəziləri isə Müslüm olduğu qənaətindədirlər.[67] O, Peyğəmbərin əmisi Abbasın qulu olmuş, sonralar isə Peyğəmbərə bir qul kimi bağışlanmış, daha sonradan isə Peyğəmbərin göstərişi ilə qulluğdan azad edilmişdir.

Əbu Rafe İslamı ilk qəbul edənlərdən və Peyğəmbərlə birlikdə Mədinəyə hicrət edənlərdəndir. Peyğəmbəri bütün ömrü boyu müşahidə edən Əbu Rafe onun vəfatından sonra da İmam Əlinin ən yaxın tərəfdarlarından olmuşdur."[68]

Əbu Rafe hədis yazmaq üçün Peyğəmbərdən icazə istəmiş və həzrət ona icazə vermişdir.[69] Onun Peyğəmbərdən icazə alaraq yazıb ərsəyə gətirdiyi kitabının adı "Kitabüs-sünən vəl-əhkam vəl-qəzaya"dır. Əbu Rafe bu əsərində ilk dəfə olaraq hədisləri tədvin edib toplamışdır. Görkəmli rical alimi Nəcaşi (öl. 1057) "Fihrist" əsərində yazırdı: "Əbu Rafe adı çəkilən əsərini fəsillərə ayırmış, namaz, oruc, həcc, cihad və s. bu kimi başlıqlar açaraq aidiyyatı hədisləri həmin fəsillər altında toplamışdır."[70]

Bəzi məlumatlara görə, Əbu Rafe əl-Qibtinin yazdığı həmin kitab London Kitabxanasında saxlanılır.[71]

### 2.2.4. Salman əl-Farsi və "Kitabu hədisi casəlik" əsəri

Əbu Abdullah Salman əslən iranlıdır və Peyğəmbərin ən yaxın səhabələrindəndir.[72] Bəzi rəvayətlərə görə, onun nəsli İsa peyğəmbərin vəsilərindən birinə çatır. O, İslamdan əvvəl Zərdüşti dinində olmuş, yaxın zamanlarda souncu Peyğəmbərin zühur edəcəyi haqqında məlumat aldıqdan sonra zərdüştilik dininin ayinlərinə əməl etməmişdir. Salman bir hadisə zamanı əsir düşmüş, mədinəli bir yolçuya satılaraq sonradan azad edilmişdir.[73] Peyğəmbərə rast gələn Salman onun dinini qəbul etmiş, Peyğəmbər də ona "Əbu Abdullah" künyəsni verərək, ona "Salmanül-xeyr", "Salmanu-Məhəmmədi" ləqəblərini vermişdir. Peyğəmbər onun haqqında "Salman bizdəndir, əhli-beytdəndir", "Salman fars elinin İslamda birincisidir", hədislərini demişdir.[74]

Həzrət Peyğəmbərin yanında böyük nüfuz qazanmış Salman o həzrətdən eşitdiyi hədisləri bir araya toplayaraq "Kitabu hədisi casəlik" adlı bir əsər yazmışdır.[75]

Salman xəlifə Ömərin zamanında (634-644) Mədainə vali təyin edilmiş və 656-cı ildə həmin yerdə vəfat etmşdir.[76]

### 2.2.5. Əbuzər əl-Qifari və "Kitabül-xütbə" əsəri

Əbuzərin öz adı Cündəb, atasının adı isə Cünadədir. O, Qifar qəbiləsinə mənsub olub, Kinanə oğullarındandır. Əbuzər İslamdan əvvəl Allahın birliyinə inanmış və ibadətlə məşğul olmuşdur.

---

[67] Seyid Həsən əs-Sədr. əş-Şiə və fünunil-islam. s. 154.

[68] Əhməd bin Əli ən-Nəcaşi. Ricalün-Nəcaşi. Qum, Müəssisətün-nəşril-islami, VI çap, 1406 h/q. s. 4-5.

[69] Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 34.

[70] ən-Nəcaşi. Ricalün-Nəcaşi. s. 5.

[71] Seyid Səid Rəşadi. Hədis elmi. Bakı, 2003. s. 21.

[72] Möhsün Əmin. Əyanüş-şiə. VII c. s. 279; İbn Həcər əl-Əsqəlani. Təhzib ət-Təhzib. 15 cilddə. IV c. Qahirə, Darül-kitabil-islami, 1414/1993. s. 136. Ravi № 229.

[73] Seyid ər-Rəzi. Nəhcül-bəlağə. Tehran, 1995. s. 287.

[74] Həmin mənbə. s. 287.

[75] Şeyx ət-Tusi. əl-Fihrist. Təhqiq: Müəssisətu nəşril-füqahə, I çap, 1417 h/q. s. 142. Ravi № 338; Şəhraşub. Məalimül-üləma. Nəcəf, 1380 h/q. s. 92. Ravi № 382.

[76] Seyid ər-Rəzi. Nəhcül-bəlağə. Tehran, 1995. s. 288.

Peyğəmbər onun haqqında buyurmuşdur: “Allah mənə dörd adamı sevməyi əmr etmişdir və onları sevdiyini mənə bildirmişdir. Onlardan biri Əlidir. Qalanları isə Əbuzər, Miqdad və Salmandır.”[77]

Əbuzər Peyğəmbərdən eşitdikləri hədisləri yazmış və kitab halına salmışdır. Onun əsərinin adı “Kitabül-xütbə”dir.[78] O, əsərində Peyğəmbərdən sonra baş vermiş hadisələri şərh etmişdir.[79]

Hədisşünaslar Salmanın, yoxsa Əbuzərin hansının əvvəl hədis əsəri təsnif etdiklərini dəqiqləşdirə bilməmişlər. Bu haqda Seyid Həsən əs-Sədr (1856-1935) yazırdı: “Onların hər ikisi bir dövrdə yaşayıblar. Bu işdə onların hansının ilk addım atdığını bilmirik.”[80]

### 2.2.6. Əbu Hatim və “Kitabüz-zinət” əsəri

Seyid əl-Xansari “Rövzatül-cənnat” əsərində Əbu Hatimin “Zinət” kitabı haqqında məlumat verir.[81] Bundan başqa, Katib Çələbi (1609-1657) də Əbu Hatimin adı çəkilən əsəri haqqında məlumat vermişdir.[82]

### 2.2.7. Abdullah bin Əmr bin As və “əs-Səhifətüs-sədiqə” əsəri

Məkkəli olan Abdullah bin Əmr bin As Peyğəmbərin izni ilə ondan eşitdiyi hədisləri yazmışdır. Bəzi səhabələr ondan hədis yazmamasını tələb etmiş və demişlər: “Peyğəmbər sakit və qəzəbli hallarına məruz qalan bir insandır və onun tərəfindən söylənilən hər şeyin fərqinə varmadan yazmaq döğru deyildir.” Abdullah Peyğəmbərin yanına getmiş və ondan soruşmuşdur: “Səndən eşitdiklərimi yaza bilərəmmi?” Həzrət Peyğəmbər “Bəli” demişdir. Abdullah ehtiyatən yenidən soruşmuş və belə demişdir: “Sakit və qəzəbli hallarında da yaza bilərəm?” Peyğəmbər ağzını göstərərk bu cavabı vermişdir: “Allaha and içirəm ki, bundan nə çıxarsa, doğru və gerçəkdir.”[83]

Abdullah bin Əmr yazdığı hədisləri “əs-Səhifətüs-sədiqə” adlandırmış və bu barədə belə demişdir: “Bu mənim Rəsulallahdan eşitdiyim “əs-Səhifətüs-sədiqə”dir.[84]

Əbu Hüreyrədən Həmmam bin Münəbbih rəvayət edir: “Əbu Hüreyrənin belə dediyini eşitdim: “Həzrət Peyğəmbərin əshabı içində Abdullah bin Əmrdən başqa məndən daha çox hədis bilən kimsə yoxdur. O, hədisləri yazırdı, mən isə yazmazdım.”[85]

Abdullah bin Əmrin “əs-Səhifətüs-sədiqə”si onun ailəsində qalmış və uzun zaman mühafizə edilmişdir. İbn Əsirin (1160-1233) verdiyi məlumata görə, “Səhifələr” içərisində ən məhşurlarından olan “əs-Səhifətüs-sədiqə”də min hədis vardır.[86]

“əs-Səhifətüs-sədiqə” günümüzə yalnız Əhməd bin Hənbəlin (778-855) “Müsnəd” adlı əsərinin vasitəsilə gəlib çatmışdır.[87]

### 2.2.8. Ənəs bin Malik

Ənəs bin Malik həzrət Peyğəmbərin Mədinəyə hicrət etdiyi əsnada kiçik bir uşaq idi. O, hələ kiçik yaşlarından yazıb-oxumağı öyrənmişdi.

Tarixi məlumata görə, Ənəs bin Malik həzrət Peyğəmbərin yanında təqribən on il qalmış və Həzrətin vəfatından sonra onun evini tərk etmişdir.[88] Abdullah bin Əbdürrəhman əd-Dariminin

---

[77] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXII c. s. 323.
[78] Şeyx ət-Tusi. əl-Fihrist. s. 142. Ravi № 338 və s. 95. Ravi № 160; Seyid Səid Rəşadi. Hədis elmi. s. 21.
[79] Seyid Həsən əs-Sədr. əş-Şiə və fünunil-islamiyyə. s. 157.
[80] Həmin mənbə. s. 159.
[81] Seyid əl-Xansari. Rövzatül-cənnat. I c. s. 323.
[82] Katib Çələbi. Kəşfüz-zünun. II c. s. 1423.
[83] Hakim ən-Nisaburi. əl-Müstədrək. I c. s. 187. Hədis № 358; Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 33.
[84] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 16-17; Talat Koçyiğit. Hadis tarihi. s. 199-200.
[85] Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 33.
[86] İbn Əsir. Üsdül-qabə. III c. s. 123.
[87] İbn əs-Salah. Ülumul-hədis. s. 22; Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 33.
[88] Ali Yardım. Hadis I-II. İstanbul, Damla Yayınları, 2000. s. 26.

(796-869) rəvayətinə görə, Ənəs bin Malik həyatının sonlarına yaxın uşaqlarına həmişə bu tövsiyələri etmişdir: "Ey uşaqlarım! Bu elmi (hədisi) yazın!"[89]

Qaynaqların verdikləri məlumata görə, Ənəs bin Malik yalnız həzrət Peyğəmbərdən eşitdiyi hədisləri yazmaqla kifayətlənməmiş, eyni zamanda yazdıqlarını gözdən keçirmiş və zəruri gördüyü düzəlişləri etməsi üçün həzrət Peyğəmbərə ərz etmişdir.[90]

### 2.2.9. Əbu Hüreyrənin Həmmam bin Münəbbih vasitəsi ilə gələn "Səhifə"si

Əbu Hüreyrə Peyğəmbərin səhabələrindən olub hicri 7-ci (miladi 628-ci) ildə İslamı qəbul etmişdir. O, Yəməndə doğulmuş və ömrünün otuz ilini orada keçirmişdir. Məhəmməd bin İsmayıl əl-Buxarinin (810-870) verdiyi məlumata görə isə, Əbu Hüreyrə Peyğəmbərin xidmətində iki ildən artıq olmuşdur.

Əbu Hüreyrənin tələbələrindən biri Həmmam bin Münəbbihdir. O, Əbu Hüreyrə ilə həmyerli idi. Təhsil üçün Mədinəyə gəlmiş, Əbu Hüreyrə də ona Peyğəmbərin 140 hədisini seçib vermişdir.[91] Bu hədislər daha çox əxlaqla bağlıdır. Əbu Hüreyrə həmin hədislərdən kiçik bir "Risalə" təşkil etmiş və tələbəsinə yazdırmışdır. Bu hadisənin tarixi dəqiq deyildir, amma Əbu Hüreyrənin ölümündən əvvəl olması şübhəsizdir. Daha sonrakı bəzi qaynaqlar bu risaləyə "əs-Səhifətüs-səhihə" adı verildiyini göstərir. Həmmam bu səhifəni çox qoruyub saxladığı üçün sonralar o səhifəyə "Səhifətu-Həmmam" deyilmişdir.[92]

Həmmam bin Münəbbihin "Səhifə"sinin nüsxələrini Məhəmməd Həmidullah 1953-cü ildə Berlin və Dəməşqdə əldə etmişdir.[93]

### 2.2.10. Abdullah bin Abbas

Peyğəmbərin ən yaxın səhabələrindən və Həzrətin hədislərini yazıb bir araya toplayanlardan biri Abdullah bin Abbasdır. O, yanında gəzdirdiyi lövhələrlə elmi məclislərə daxil olar və Peyğəmbərin hədislərini yazmaqla məşğul olarmış.[94]

Məşhur tarixçilərdən olan Musa bin Üqbə (öl. 759) belə xəbər verir: "Qüreyb bin Müslüm bizə İbn Abbasın yazılarından bir dəvə yükü kitab gətirib əmanət etmişdir. Onun oğlu Əli bir kitab istədiyi zaman Qüreybə "bu kitabı (səhifəni) mənə göndər", - deyə yazırdı. Qüreyb də onun istədiyi kitabın üzünü köçürərək iki nüsxədən birini ona göndərərdi."[95]

Abdullah bin Abbasın tələbəsi Səid bin Cübeyr onun özünə imla etdirdiyi hədisləri yazırdı. Onun səhifələri uzun zaman əldən-ələ keçmiş, hədisşünaslar da bu səhifələrdən rəvayət edib faydalanmışlar. Təfsir və hədis kitablarında İbn Abbasın nəql etdiyi hədislər və rəvayətlər kifayət qədərdir. Amma bununla yanaşı, onun səhifəsinin necə itib-batması məlum deyildir.

Onun tələbəsi Səid bin Cübeyr rəvayət edir ki, "hədis yazmaq üçün İbn Abbasın yanına gəlirdim. Bəzən elə olurdu ki, kağızım tükənir, ayaqqabılarıma, o da dolarsa, ovcuma yazardım."[96]

### 2.2.11. Cabir bin Abdullah

Cabir bin Abdullah Peyğəmbərin sahabələrindən olub, o Həzrətdən eşitdikləri hədisləri yazmışdır. İbn Səd (784-845) "Təbəqat" adlı əsərində Cabir bin Abdullahın da bir səhifəsi olması haqqında məlumat verir.[97]

---

[89] əd-Darimi. Sünənüd-Darimi. I c. s. 125.
[90] Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 35.
[91] Həmin mənbə. s. 49.
[92] Həmin mənbə.
[93] Həmin mənbə. s. 26.
[94] İbn Səd. ət-Təbəqatül-kübra. "İbn Abbas" bölümü.
[95] Həmin mənbə.
[96] Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 44.
[97] İbn Səd. ət-Təbəqatül-kübra. V c. s. 342.

Görkəmli hədisşünas Müslüm bin Həccac ən-Nisaburi (821-875) bu əsərin "Mənasiku-həcc" haqqında olduğundan bəhs edir.[98] Cabir bin Abdullah həccin əməlləri ilə əlaqədar Peyğəmbərdən eşitdiyi xütbələri də burada toplamışdır.[99]

İbn Həcər əl-Əsqəlani (1372-1449) "əl-İsabə" adlı əsərində Cabir bin Abdullahın Mədinədə Məscidi-nəbəvidə bir dərs halqası qurması və burada tələbələrə hədis öyrətməsi barədə məlumat verir.[100] Məşhur tabeilərdən olan Qətadə bin Diamə əs-Sədusinin (öl. 733) "Cabirin səhifəsini "Bəqərə" surəsindən daha qüvvəli olaraq əzbər bilməkdəyəm", deməsi bu "Səhifə"nin verdiyi dəyəri ifadə edir.[101]

Cabir bin Abdullahın "Səhifə"si günümüzə qədər gəlib çatmasa da, orada olan hədislərin heç olmasa bir qisminin mövcud hədis kitablarında olması danılmazdır.

Cabir bin Abdullah 694-cü ildə vəfat etmişdir.[102]

### 2.2.12. Səmurə bin Cündəb

Həzrət Peyğəmbərin səhabələrindən və həzrətdən eşitdikləri hədisləri yazanlardan biri də Səmurə bin Cündəbdir. O, Peyğəbərdən eşitdiyi hədisləri böyük bir nüsxədə toplamışdır. Orada olan rəvayətlər oğlu Süleyman tərəfindən rəvayət edilmişdir.[103]

İbn Sirinin (653-728) dediyinə görə, Səmurə tərəfindən oğulları üçün yazılan bu kitab bir çox elmi ehtiva edir.[104]

### 2.2.13. Əsbəğ bin Nübatə əl-Məcaşi

O, İmam Əlinin xüsusi dostlarından və tabeinin görkəmli şəxsiyyətlərindəndir. Əsbəğ İmam Əlidən sonra uzun müddət yaşamışdır. O, İmamdan "Əhd lil-Əştər" əsərini rəvayət etmişdir.[105]

Şeyx Tusinin (998-1067) verdiyi məlumata görə, Əsbəğ bin Nübatənin "Məqtəlül-Hüseyn bin Əli " adlı əsəri də olmuşdur. Əsəri ondan əd-Duri adlı şəxs nəql etmişdir.[106]

### 2.2.14. Səlim bin Qeys əl-Hilali

O, İmam Əlinin ən yaxın səhabələrindən biri olmuşdur. İmamdan çoxlu rəvayətlər nəql edən Hilali "Cəlilün Əzim" adlı bir əsər də qələmə almışdır.[107] Əsərdə müəllif imamətin Allah tərfindən təyin olunması məsələsinə toxunmuş və burada imamətin isbatına çalışmışdır. İslam dünyasında ən qədim əsər hesab olunan bu kitab doğma dilimizə tərcümə olunmuşdur.

Səlim bin Qeys Həccac bin Yusif Kufədə (695-715) vali olduğu vaxt öldürülmüşdür.

### 2.2.15. Meysəm ət-Təmmar

Meysəm bin Yəhya Əbu Saleh Təmmar İmam Əlinin ən yaxın dostlarından və sirdaşlarından biri imiş. Onun "Kitab fil-hədis" adlı məşhur əsərindən Məhəmməd bin Cərir ət-Təbəri (838-923), Şeyx Əbi Ömər Məhəmməd bin Əmr bin Əbdüləziz əl-Kəşşi (öl. 962) və Şeyx Tusi (998-1067) rəvayət etmişlər.[108]

### 2.2.16. Məhəmməd bin Qeys əl-Cəbəli

---

98 Sübhi es-Salih. Hadis ilmleri ve hadis ıstılahları. Çev: Yaşar Kandemir. İstanbul, İFAV Yayınları, 1996. s. 21.

99 Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 37.

100 I c. s. 246.

101 Sübhi es-Salih. Hadis ilmleri ve hadis ıstılahları. s. 21.

102 Həmin mənbə. s. 21.

103 İbn Həcər əl-Əsqəlani. Təhzibüt-təhzib. 15 cilddə. IV c. Qahirə, Darül-küttabil-islami, 1327 h/q. s. 236. Ravi № 401.

104 Məhəmməd Həmidullah. Həmmam bin Münəbbihin səhifəsi. s. 43; Sübhi es-Salih. Hadis ilmleri ve hadis ıstılahları. s. 20.

105 Seyid Həsən əs-Sədr. əş-Şiə və fününil-islamiyyə. s. 161.

106 Şeyx ət-Tusi. əl-Fihrist. s. 85.

107 Həmin mənbə. s. 114. Rəqəm-1136.

108 Şeyx ət-Tusi. əl-Amal. s. 148; əl-Kəşşi. İxtiyari mərifətir-rical. I c. s. 292.

Onun İmam Əlidən nəql etdiyi bir kitabı olmuşdur.[109] Şeyx Tusi (998-1067) onun kitabı haqqında məlumat vermiş və ondan rəvayət etmişdir.

### 2.2.17. Abdullah bin Hürr əl-Cufi

O, tabeinin böyük alimlərindən və məşhur hədisşünaslardandır. Onun İmam Əlidən çoxlu rəvayətləri vardır ki, hədis alimləri də bu rəvayətlərin bir hissəsini öz əsərlərində nəql etmişlər. əl-Cufi həm də öz dövrünün tanınmış ədib və şairlərindən olmuşdur.

Məşhur alim Nəcaşi (öl. 1057) 680-cı ilin ortalarında ölən əl-Cufini birinci təbəqədən olan müsənniflərdən (əsər yazanlardan) saymışdır.[110]

### 2.2.18. Rəbiə bin Səmi

Məşhur tabeilərdən olan Rəbiənin "Zəkatün-niəm" adlı əsəri olmuşdur.[111]

## 2.3. Peyğəmbərin əmri ilə yazılan rəsmi və qeyri-rəsmi vəsiqələr

Hədis tarixindən məlumdur ki, həzrət Peyğəmbərin elmə və maarifə təşviqi nəticəsində bir çox səhabələr ondan eşidib-dinlədikləri hədisləri yazmışdılar. Onların min bir əziyyətlə yazıb tədvin etdikləri bu əsərlər "Səhifə" adı ilə tanınır.

Məhəmməd Həmidullah (1908-2002) uzun bir araşdırma nəticəsində ortalığa "Məcmuatül-vəsaiqis-siyasiyyə lil-əhdin-Nəbi vəl-xüləfair-raşidə" ("Peyğəmbər və xüləfai-raşidin dövrünə aid siyasi vəsiqələr məcmuusu") adlı çox dəyərli bir əsər ortaya qoymuşdur. Müqəddimə ilə birlikdə 500 səhifədən ibarət olan bu kitab dörd yüzə yaxın vəsiqənin ərəbcə mətnlərini və qaynaqlarını göstərir.[112]

Peyğəmbərin əmri ilə yazılan rəsmi vəsiqələr içində "Mədinə dövlətinin konstitusiyası", "Əhalinin siyahıya alınması", "Bəraətlər", "Hüdeybiyyə sülh müqaviləsi" xüsusi yeri tutur.[113]

---

109 Ağa Bozork ət-Tehrani. əz-Zəriə ilə təsanifiş-şiə. XVII c. s. 153.
110 ən-Nəcaşi. Rical. I c. s. 71.
111 Ağa Bozork ət-Tehrani. əz-Zəriə ilə təsanifiş-şiə. XII c. s. 42.
112 Ali Yardım. Hadis I-II. s. 18.
113 Həmin mənbə. s. 20-21.

## III FƏSİL

## HƏDİS RƏVAYƏT EDƏN TƏBƏQƏLƏR

### 3.1. Ravilər təbəqəsi

Ravi kəlməsi "rəva" sözündən əmələ gəlib, lüğətdə "rəvayət etmək", "nəql etmək" mənalarındadır. Həmçinin bu söz "anlatmaq", "bir qaynaqdan xəbər almaq" mənalarında da işlədilir.[114] İstilahi mənada isə hədisi öyrənib özündən sonrakılara söyləyən (və ya nəql edən) deməkdir.[115]

Hədis elmində ravilər təbəqəsi mühüm bir mövzu olub hədisşünasların ciddi tədqiq etdikləri sahədir. Çünki ravilər təbəqəsini tanımadan həzrət Peyğəmbərdən gələn hədislərin doğru olub-olmadığını bilmək mümkün deyildir. Buna görə də hədis elmləri arasında raviləri tanımaq üçün xüsusi bir elm vardır. Buna "Rical elmi" deyilir və ilahiyyat elmləri içərisində çox böyük əhəmiyyət kəsb edir.

Hədis alimləri raviləri tanımaq, onların şəxsiyyətlərinə daha da yaxından bələd olmaq üçün onları müxtəlif təbəqələrə bölmüşlər. Bu təbəqələrdə yer alan ravilərin doğum və vəfatı, ləqəb, nəsəb, künyə və isimləri, doğulub böyüdükləri yerlər, ustadları və tələbələri, haqlarında deyilən hər hansı bir Məsumun sözü və s. dəqiqləşdirilir və müsbət məlumatlar əldə edildikdən sonra onların nəql etdikləri hədislər məqbul hesab edilir. Hədisşünaslar raviləri iki əsas təbəqəyə bölmüşlər:

1. **Səhabələr təbəqəsi** (hicri 120 / miladi 738-ci ilədək).
2. **Tabeilər təbəqəsi** (hicri 180 / miladi 796-cı ilədək).[116]

#### 3.1.1. Səhabələr təbəqəsi

Səhabə kəlməsi "söhbət" sözündən əmələ gəlib, lüğətdə "dostu olmaq", "yoldaşı olmaq", "səmimi olmaq" mənalarındadır.[117]

Hədis elmindəki mənasına gəldikdə isə, hədis alimləri ona belə bir tərif verirlər:

"Peyğəmbəri görən hər bir müsəlman səhabədir."[118]

Səhabələri elm, iman və digər keyfiyyətləri baxımından müxtəlif qruplara bölmək olar. Onların hamısı birdən müsəlman olmadığı kimi, hamısı da eyni elmə, imana malik deyillər. Onların bəziləri haqqında Peyğəmbər dua etmiş, onun elmi-irfanının artmasını, nəslinin qiyamətədək davam etməsini və Cənnətə daxil olmasını Allahdan diləmişdir. Biz bunu İmam Əlinin timsalında görməkdəyik. Məsələn, onun sonsuz elmi şübhəsiz ki, Peyğəmbərin duasının nəticəsi idi. Bu barədə İmam Sadiq buyurur: "Allahın Rəsulu Əliyə bir elm öyrətdi ki, ondan da min qapı açılır."[119]

Həmçinin Peyğəmbərin Ənəs bin Malikə dua etməsi də buna misal ola bilər. Belə ki, Ənəsin anası onu Peyğəmbərin yanına gətirib dua etməsini və xidmətə götürməsini xahiş edir. Peyğəmbər də Ənəsin haqqında bu duanı edir: "İlahi, onun malını və övladlarını çoxalt və ona əta etdiklərini onun üçün xeyirli et!"[120]

---

114 Arapca-türcə sözlük. s. 350.
115 İbrahim Canan. Hadis usulü. s. 77.
116 Həmin mənbə. s. 80.
117 Arapça-türkcə sözlük. s. 471.
118 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 125.
119 Əllamə əl-Məclisi. Biharül-ənvar. VI c. s. 522.
120 Həmin mənbə. VIII c. s. 12.

Səhabənin tanınması üçün aşağıdakı yollar vardır:

**- Təvatür və istifazə yolu.**

Bu yolla bilinən və ya tanınan səhabənin haqqında Peyğəmbərdən səhih hədis varsa, deməli, onun səhabəliyi inkar edilməzdir. Məsələn, Peyğəmbər buyurmuşdur: "Əli mənbəndir, mən də Əlidənəm."[121]

**- Ədalətli səhabənin şəhadəti ilə.**

Səhabə olan bir şəxs başqa birinin səhabə olduğuna şəhadət verərsə, onun sözü məqbul hesab edilir. Məsələn, Əbu Musa əl-Əşərinin Hümamə bin Əbi Hümamənin səhabə olduğuna şəhadət verməsi kimi.

**- İqrar yolu ilə.**

Ədalətli və doğru danışmaqda məşhur olan bir şəxs özünün səhabə olmasını iqrar etməsidir. Bu şərtlə ki, həmin şəxs hicri 120-ci (miladi 738-ci) ildən çox yaşamasın. Çünki bəzi mənbələrə görə, sonuncu səhabə Əbu Tüfeyl Amir bin Vasilə əl-Leysi hicri 100 və ya 110-cu ildə Məkkədə vəfat etmişdir.[122]

**- Tabeidən bir şəxsin şəhadət verməsi yolu ilə.**[123]

### 3.1.2. Səhabələrin sayı

Səhabələrin sayına gəldikdə, bu qəti şəkildə bilinmir. Hədis alimləri onların sayı haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Belə ki, Əbu Zürrə ər-Raziyə görə, onların sayı 114000 nəfər olmuşdur.[124]

Əli bin Mədini isə səhabələrin dəqiq sayını göstərməsə də, onların 100000-dən artıq olduğunu deyir.

Ər-Rafeyə görə isə, səhabələrin sayı 30000 Mədinədə, 30000 isə ərəb qəbilələrində olmaqla 60000 nəfər olmuşdur.[125]

Səhabələrin sayını bəzi alimlər dəqiq göstərməsələr də, 40000-120000 arası olduğunu qeyd etmişlər.

Səhabələrin bioqrafiyası haqqında külli miqdarda əsər yazılsa da, burada yalnız 10000-12000 səhabənin olmasından bəhs edilmişdir.

### 3.1.3. Səhabələr haqqında yazılan əsərlər

Tarixi qaynaqların verdikləri məlumatlara görə, səhabələr haqqında yazılan əsərlər İslamın əvvəlki dövrlərinə təsadüf edir. Çünki Peyğəmbər vəfat etdikdən sonra ondan hədis rəvayət edən təbəqənin tanınması üçün rical elminə böyük ehtiyac yaranmışdır. Müsəlmanlar bu elmin vasitəsilə nəql olunan hədislərin sənədinin səhih və ya zəif olmasını rical elminin köməkliyi ilə əldə etmişlər. Rical elmi səhabələrin və həmçinin onlardan sonra gələn təbəqələrin əhvalını dəqiq şəkildə araşdırır, onların tanınmasını təmin edir.

Ümumiyyətlə, Peyğəmbərin hədislərini bizə çatdıran təbəqənin əhvalı ilə əlaqədar yazılan əsərlərin tarixi çox qədimdir. Rical elmi barədə ilk əsəri hicri birinci (miladi VII əsrin sonu VIII əsrin əvvəlləri) əsrdə İmam Əlinin səhabəsi Übeydullah bin Rafe yazmışdır. Onun əsəri "ət-

---

[121] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. s. 534. Hədis № 2699.
[122] İsmail Lütfü Çakan. Hadis usulü. s. 82.
[123] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 125; Süleyman əd-Dari. Muhadarat fi ülumil-hədis. s. 168; əs-Süyuti. Tədribür-ravi. II c. s. 213.
[124] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 126.
[125] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 455.

Təbəqat" adlanır. Bundan sonra Abdullah əl-Kənani (öl. 836) "Rical" kitabını, Həsən bin Fəzl (öl. 836), Əli bin Həsən bin Fəzl (doğ. 823) və digərləri kitablar yazmışlar.[126]

X-XI əsrlərdə də səhabələr haqqında kitab yazmaq işi davam etmişdir. Bu iki əsrdə Şeyx Əhməd bin Əli ən-Nəcaşi (öl. 1057) və Şeyx Məhəmməd bin Həsən ət-Tusi (998-1067) də əsər yazmışlar. [127]

Səhabələr haqqında yazılan əsərlərdən aşağıdakılar daha məşhurdur:

1. İbn Sədin (784-845) "ət-Təbəqatül-kübra" əsəri.
2. İbn Əbdülbirr əl-Qürtubinin (978-1071) "əl-İstiab fi mərifətil-əshab" əsəri. Müəllif burada 3500-ə qədər səhabənin bioqrafiyasını vermişdir.
3. İbn əl-Əsirin (1160-1233) "Üsdül-qabə fi mərifətis-səhabə" əsəri. Əsərdə 8000-ə qədər səhabənin tərcümeyi-halı verilmişdir. Müəllif son VII cildi xanım səhabələrə həsr etmişdir.
4. İbn Həcər əl-Əsqəlaninin (1372-1449) "əl-İsabə fi təmyizis-səhabə" əsəri. Burada 12279 səhabənin bioqrafiyasından bəhs edilir. "əl-İsabə" mövzuya aid ən irihəcmli əsərdir.[128]

### 3.1.4. Müxədrəm təbəqəsi

Müxədrəm "Peyğəmbərin sağlığında müsəlman olan, lakin onunla görüşməyən şəxslərə deyilir."[129]

Bəzi hədisşünaslar müxədrəmi "cahiliyyə dövründə yaşayan, Peyğəmbərin də dövrünü görən, amma onunla söhbət etməyən müsəlmandır", - deyə tərif etmişlər.[130]

Müxədrəm təbəqəsinə verilən tərifdən belə başa düşülür ki, onlar səhabə və tabei təbəqələrindən fərqlənirlər. Çünki onlar Peyğəmbəri görsəydilər və onunla söhbət etsəydilər, şübhəsiz ki, səhabə, tarixilik baxımından da Peyğəmbərin vəfatından sonra doğulub səhabə ilə görüşsəydilər, tabei adlanacaqdılar. Lakin onlar nə səhabələrə aid xüsusiyyətləri, nə də ki, tabeiyə aid özəllikləri daşımadıqlarına görə müxədrəm adlanmışlar.

Müxədrəm təbəqəsinin dəqiq sayı bəlli deyil, lakin Müslüm bin Həccac (821-875) onların sayının iyirmi olduğunu yazırdı.[131]

Cəlaləddin Süyuti (1445-1505) isə "Tədribür-ravi" adlı əsərində Müslümün qeyd etdiyi iyirmi kişini sadaladıqdan sonra, digər qaynaqlardan da bir neçə müxədrəm adı sadalamışdır.[132]

Şübhəsiz ki, müxədrəmlər içərisində hədis rəvayətlərində böyük xidmət göstərənlər də vardır. Onlardan Əbu Osman ən-Nəhdi, Əmr bin Meymun əl-Əvdi, Cübeyr bin Nufər əl-Hədrəmi, İbn Rəca əl-Ütaridi, Əhnəf bin Qeys ət-Təmimi, İbn Amir əl-Qərəni, Süreyh bin Haris, Əlqəmə bin Qeys, Kəb əl-Əhbar, Məsruq bin Əcda, Ətrat bin Süheyyə və başqaları öncül ravilər arasında yer almışlar.[133]

Müxədrəm təbəqəsini mükəmməl şəkildə öyrənmək üçün İbn Həcər əl-Əsqəlaninin (1372-1449) "əl-İsabə fi təmyizis-səhabə" əsərinə müraciət etmək lazımdır. O, yazdığı əsərinin üçüncü cildini müxədrəm təbəqəsinə həsir etmiş və onlar haqqında geniş məlumat vermişdir.

### 3.1.6. Tabeilər təbəqəsi

Tabei sözü lüğətdə "izləmək", "ardınca getmək", "izinə düşmək", "tabe olmaq" və s. bu kimi mənalarda işlədilir.[134]

---

126 Seyid Əli Xamnei. əl-Üsulul-ərbəə fi ilmir-rical. s. 6.
127 Həmin mənbə. s. 6.
128 İsmail Lütfi Çakan. Hadis usulü. İstanbul, İFAV Yayınları, IX baskı, 2001. s. 86.
129 İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 457.
130 Talat Koçyigit. Hadis usulü. s. 175.
131 Ali Yardım. Hadis I-II. s. 76.
132 Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 239.
133 İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 457; Ali Yardım. Hadis I-II. s. 76.
134 Arapça-türkcə sözlük. "təbəa" maddəsi. s. 148.

Hədis elmindəki mənasına gəldikdə isə, Əllamə Məclisi (1628-1700) bu təbəqəni belə tərif edirdi:

“Tabeilər - səhabə ilə görüşən, Peyğəmbərə iman gətirən, iman və İslam üzərində ölən kimsədir.”[135]

Həmçinin qeyd edək ki, tabeilər təbəqəsi yuxarıdakı təriflərlə yanaşı, zaman baxımından İmam Əlini (698-661), İmam Zeynülabidini (659-715) və İmam Məhəmməd Baqiri (676-736) görən və onların zamanında meydana gələn təbəqələrdir. Buradan belə məlum olur ki, həzrət Əlinin dövründə doğulanlar tabeilərin birinci təbəqəsini, İmam Zeynülabidinin dövründəkilər ikinci, İmam Baqirin dövründə olanlar isə üçüncü təbəqəni təşkil edirlər.[136]

Səhabələr təbəqəsi kimi tabeilər da İslamda xüsusi yerə sahib olan və hədisşünaslar tərəfindən tədqiq edilən nəsildir. Bu təbəqənin neçə təbəqəyə bölünməsindən, kimin hansı təbəqədə yer almasından asılı olmayaraq, hədis rəvayətində və İslam elmlərinin sonrakı nəsillərə öyrədilməsində böyük xidmətləri olmuşdur. Onlardan Übeydullah bin Abdullah bin Ütbə bin Məsud, Ürvə bin əz-Zübeyr bin əl-Əvvam, Qasim bin Məhəmməd bin Əbu Bəkr, Səid bin Müsəyyib bin Həzən, Süleyman bin Yəsar, Əbu Bəkr bin Əbdürrəhman bin əl-Haris bin Hişam, Xaricə bin Zeyd bin Sabit və b. qeyd etmək olar.

796-cı ildə ölən Xələf bin Xəlifə ən son vəfat edən tabei sayılır. Çünki o, Məkkədə ən son vəfat edən səhabə Əbu Tüfeyl Amir bin Vasiləni görmüşdür.[137]

---

[135] Əllamə əl-Məclisi. Biharül-ənvar. c. II, s. 439.

[136] Seyid Səid Rəşadi. Hədis elmi. s. 21-22.

[137] Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 298.

# IV FƏSİL

## HƏDİS ÖYRƏNMƏK ÜÇÜN SƏYAHƏT ETMƏK VƏ SƏYAHƏTİN FAYDALARI

### 4.1. Hədis təhsili üçün edilən səyahətlər

Hədisşünasların nəzərində hədis öyrənmək üçün edilən səyahətlərin böyük əhəmiyyəti vardır. Buna görə də hədis tarixçiləri yazdıqları əsərlərində “Hədis öyrənmək üçün edilən səyahətlər” adlı başlıqlar açmış və mövzunu geniş şəkildə tədqiqata cəlb etmişlər.

Bildiyimiz kimi, hədis öyrənmək üçün edilən səyahətlər səhabələr dövründə başlamış və bu iş onlardan sonra da davam etmişdi. Səhabələr içərisində hədis öyrənmək üçün müxtəlif bölgələrə səyahətlər edənlər içərisində Əbu Əyyub əl-Ənsari (576-672), Cabir bin Abdullah (607-702), Ənəs bin Malik (612-709) və digərlərini misal göstərmək mümkündür.

Tarixi məlumata görə, Peyğəmbərin vəfatı ərəfəsində artıq bütün Ərəbistan yarımadası İslam dinini qəbul edib müsəlman olmuşdu. Hələ Peyğəmbər vəfat vaxtına az bir müddət qalmış qonşu bölgələrdən olan və İslama qatılmamış Şama böyük bir ordu göndərməyi qərarlaşdırmışdı. Bu məqsədlə o, bir ordu hazırlayaraq onun başına Üsamə bin Zeydi (öl. 678) komandan təyin etmişdi. Təssüflər olsun ki, Peyğəmbərin ömürü buna imkan verməmiş və o Həzrətin sağlığında bu iş həyata keçməmişdir. Peyğəmbərin vəfatından sonra Şam bölgəsi fəth olunmuş və beləliklə, İslam dini Ərəbistan yarımadasından kənara çıxmışdı.

Bundan sonra xilafət ordusu o dövrün məşhur bölgələrini fəth edərək orada İslamın yayılmasını təmin etdi. Belə ki, Suriya, Fələstin, Livan, İordaniya, İraq və Misir fəth edilərək ta Məvarünnəhrə qədər olan bölgələri əhatə etdi.

Şübhəsiz ki, fəth edilən hər bir bölgədə insanlar İslamın müqəddəs ayinlərini qəbul edir və yeni müsəlman olmuş şəxslərə İslam elmlərini öyrədirdilər. Artıq fəth edilmiş bölgələrin əhalisi İslam dini ilə yaxından tanış olur və bu dinin təməl prinsiplərini könül xoşluğu ilə qəbul edərək onun təlimlərini öyrənirdilər.

İslamın humanizmini, onun azadlıq sevərliyini, zülmə, əsarətə qarşı olduğunu dərk edən insanlar bu dinin elm və mədəniyyətini öyrənib-öyrətməkdə böyük əmək sərf etmişlər. İslam hakimiyyətinə tabe olan bölgələrin əhalisi İslam elmlərini daha da dərindən öyrənmək üçün dövrün müxtəlif elmi mərkəzləri olan şəhərlərə səyahətlər etmişlər. Bu səyahətlərin böyük əksəriyyəti o dövrdə hədis mərkəzi kimi tanınan şəhərlərə idi. Çünki müsəlmanlar hədisi öyrənməklə İslamın bütün təlimləri ilə daha da dərindən tanış olmaq şərəfinə nail olurdular. O dövürdə ən məşhur olan hədis mərkəzləri Mədinə, Məkkə, Kufə, Bəsrə, Şam, Bağdad, Xorasan, Misir idi.

İnsanların öz doğma torpaqlarından uzaqlaşıb hədis öyrənmək üçün etdiyi səyahətlər bir neçə məqsədlə olmuşdur ki, bunların da başında Allahın və onun Peyğəmbərinin elmə təşviqi dururdu.

Bildiyimiz kimi, elm öyrənmək və bu işdə bütün əzab-əziyyətlərə qatlaşmağın Allah yanında çox böyük savabı vardır. Bu barədə həm Qurandan, həm də Məsumların hədislərindən kifayət qədər məlumat əldə etmək olar. Belə ki, Quran belə bəyan edir: **“Tövbə, ibadət və şükr-səna edənlər, oruc tutanlar** (və ya cihad uğrunda, elm təhsil etmək üçün yurdundan ayrılıb başqa yerlərə gedənlər), **rüku və səcdə edənlər, yaxşı işləri görməyi əmr edib pis işləri yasaq edənlərdir. Belə möminləri müjdələ!”[138]**

Peyğəmbər insanları elmə təşviq edərək buyurur: “Elm öyrənmək fərzdir.”[139]

Peyğəmbər digər bir hədisində buyurur: “Ey Əbuzər! Hər kəs evindən çıxıb elmdən bir şey əldə edərsə, Allah onun hər addımına bir peyğəmbərin savabını yazar. Allah onun yazdığı və ya eşitdiyi hər bir hərf üçün Cənnətdə şəhər bağışlayar. Elm öyrənən kimsə Allahın, mələklərin və peyğəmbərlərin dostudur.”[140]

---

138 Tövbə surəsi, ayə 112.

139 Məhmməd bin Yaqub əl-Küleyni. Üsulul-kafi. 6 cilddə. I c. Tərc: R.Hümbətov. Bakı, 2011. s. 45. Hədis № 2.

140 Həmin mənbə. II c. s. 298.

Bundan başqa, bu haqda Əhli-beytdən da hədislər nəql olunmuşdur. İmam Cəfər Sadiq buyurur: "Sizə Allahın dinində dərin qavrayış qazanmağı və bədəvilər kimi olmamağı tövsiyə edirəm, çünki bir şəxs Allah dinində dərin qavrayışa sahib olmamışsa, qiyamət günü Allah onun üzünə baxmaz, əməllərini pisliklərdən təmizə çıxarmaz."[141]

İmam Əli buyurur: "Elm öyrənən şəxs Allah yolunda cihad edən kimsə kimidir. Həqiqətən elm öyrənmək hər bir müsəlmana vacibdir. Möminlərdən neçəsi vardır ki, onlar elm öyrənmək üçün evlərini tərk etmiş və geriyə bağışlanmış halda qayıtmışlar."[142]

## 4.2. Səyahətlərin səbəb və nəticələri

Peyğəmbərin elmə təşviq etməsi nəticəsində müsəlmanlar müxtəlif bölgələrə uzun və ya qısa müddətli səyahətlər etmişlər. Bu səyahətlərin başında savab qazanmaq olmuşsa da, heç şübhəsiz ki, bunun digər əsas səbəbləri də vardır. Tədqiqatçılar bu səbəblərdən bir neçəsini aşağıdakı kimi sadalayırlar:

- Ülüvvi-isnad;
- Raviləri tanımaq;
- Hədis bilgisini artırmaq;
- Hədisləri təhqiq etmək;
- Hədislərin fərqli rəvayət yollarını (turuqunu) ortaya çıxarmaq və s.[143]

Qeyd etdik ki, hədis öyrənmək üçün edilən ilk səyahətlər səhabələr dövründə başlamışdı. Buna misal olaraq Cabir bin Abdullahın rəvayətini misal göstərmək olar. O, deyir: "Qisas haqqında Peyğəmbərin hədisini eşitdim. Amma hədisin ilk ravisi Misirdə idi. Bir dəvə satın alıb yola çıxdım. Misirə çataraq o şəxsi tapdım. Beləcə, adı keçən hədisi onu rəvayət edən şəxsdən öyrəndim."[144]

---

141 Həmin mənbə. Hədis № 6.
142 Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 229.
143 İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 127.
144 Ali Yardım. Hadis I-II. s. 154.

# V FƏSİL

# HƏDİSŞÜNASLARIN TƏBƏQƏLƏRİ VƏ LƏQƏBLƏRİ

## 5.1. Hədisşünasların ləqəbləri

Hədisşünaslar hədis öyrənmək üçün səyahət edən şəxslərə müxtəlif ləqəblər vermişlər. Şübhəsiz ki, hədisşünasların ləqəbləndirilməsi əbəs yerə olmayıb, onların təbəqələrini, dərəcələrini, hədis rəvayətindəki üsullarını göstərmək üçün böyük önəm daşıyır.

Alimlər hədis öyrənmək üçün səyahətlər edən şəxslərə bir-birindən fərqlənən beş ləqəb vermişlər:

1. Müsnid.
2. Mühəddis.
3. Hafiz.
4. Höccət.
5. Hakim.[145]

**1) Müsnid** – lüğəvi mənası rəvayət etdiyi hədisə bələd olub-olmamasından asılı olmayaraq, hədisi isnadı ilə birlikdə rəvayət edən kimsə deməkdir.[146]

Müsnid kəlməsi terminoloji mənada isə hədisləri “Müsnəd” adı verilən kitablarda toplayan şəxslərə deyilir. Buna görə də “Müsnəd” adlı əsərlərin sahiblərinə “Müsnid” demişlər.[147]

**2) Mühəddis** – lüğətdə “təhdis” məsdərindən olub hədis rəvayət edən kimsədir. Buna görə də alimlər onu ravi kəlməsinin sinonimi bilmiş, lakin bunların arasında fərq olduğunu da bəyan etmişlər. Hədisşünaslara görə, hər mühəddis ravidir, lakin hər ravi mühəddis deyildir.[148]

Mühəddis müsniddən üstündür. Çünki mühəddis hədisin sənədlərini, illətlərini, ravilərin adlarını, isnadın “ali” və “nazil” olanını bilən, çox sayda hədis əzbərləyən, “kütubüs-sittə”ni, Əhməd bin Hənbəlin (778-855) “Müsnəd”ini, Əhməd bin Hüseyn əl-Beyhəqinin (994-1066) “Sünən”ini və Əhməd ət-Təbəraninin (873-970) “Möcəm”ini dinləmiş kimsədir.[149]

**3) Hafiz** – lüğətdə əzbərləyən deməkdir. İstilahi mənada isə, dərəcələrin ən üstünü olub, onda aşağıdakı xüsusiyyətləri özündə birləşdirmiş adamdır: Peyğəmbərin sünnəsini bilmək, hədislərin təriqlərinə (rəvayət yollarına) bələd olmaq, isnadlarını bir-birindən ayırmaq, hədis mütəxəssislərinin səhihliyində müttəfiq olduqları sünnələri əzbərləmək.[150]

Hafiz adını alan kimsənin nə qədər hədis bilməsi ixtilaflıdır. Bəzi alimlərə görə, hafiz adını alan şəxs beş yüz min (500000) hədis əzbər bilməlidir. Digər alimlərə görə isə, bu adı alan şəxs iyirmi min (20000) hədis əzbər bilsə kifayətdir.[151]

**4) Höccət** – lüğətdə dəlil, sübut deməkdir. İstilahi mənada isə, belə tərif edilir: “Üç yüz min hədisi əzbər bilən, həmin hədislərin bütün sənədlərini, ravilərinin hallarını “cərh” və “tədil” baxımından mükəmməl bilən şəxsdir.”[152]

Hədis alimləri bu dərəcəni hafizdən daha üstün bilmişlər.

**5) Hakim** – ravilərin harada doğulması, hansı bölgələrə səyahətlət etməsi, şeyxləri və digər xüsusiyyətləri baxımından ravilərin tarixinə bələd olmaqla bərabər, “cərh” və “tədil” baxımından rəvayət edilən bütün hədisləri bilən kimsədir. Hakim olan kimsə yeddi yüz min (700000) və daha çox hədisi bütün sənədləri ilə bilən şəxsdir.[153]

---

145 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 234.
146 Həmin mənbə. s. 235; Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 57.
147 Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 57.
148 Həmin mənbə. s. 57.
149 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 235; Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 57.
150 Həmin mənbələr. s. 235; s. 57.
151 Həmin mənbələr. s. 235; s. 59.
152 Haris Süleyman əd-Dari. Muhadarat fi ülumil-hədis. İordaniya, Darün-nəfais, IV çap, 1420/2000. s. 19.
153 Həmin mənbə. s. 19; Ali Özək. Hədis I-II. s. 142.

# VI FƏSİL

# HƏDİS ELMİNİN BÖLMƏLƏRİ

## 6.1. Rəvayət yönündən hədis elmi

Hədisşünaslar hədis elmini iki qrupa bölmüşlər. Bunlardan birincisi “Rəvayət yönündən” hədis elmi, ikincisi isə “Dirayət yönündən” hədis elmi adlanır.

Hədisşünaslar rəvayət baxımından hədis elminə aşağıdakı tərifi vermişlər:

“Peyğəmbərə aid edilən söz, fel, onların rəvayətinə, zəbtinə və sözlərinin yazılıb qeyd edilməsinə şamil olan bir elmə rəvayət baxımından hədis elmi deyilir.”[154]

Yuxarıdakı tərifdən belə başa düşülür ki, hədis elmi rəvayət baxımından bu elm sahəsində yazılan əsərləri, onların müəlliflərini, yazılan əsərlərin hansı ad altında qələmə alındığını və s. xüsusiyyətləri öyrənir. Həmçinin bu gün əlimizdə olan mötəbər hədis kitablarını, orada yer alan hədislərin hansı mənbədən gəldiyini öyrənən elmə “rəvayətül-hədis” elmi demək də mümkündür.

### a) Rəvayətül-hədis kitabları və dərəcələri.

Rəvayətül-hədis kitabları müxtəlif bölgülər və adlar altında yazılmışdı. Onlardan “Səhifələr”, “Cüzlər”, “Risalə” (və ya “Kitablar”), “Müsənnəflər”, “Müsnədlər”, “Camilər”, “Sünənlər”, “Müstədrəklər”, “Müstəxrəclər”, “Ərbəunlar”, “Möcəmlər”i qeyd etmək olar.

**Səhifələr** - Peyğəmbərin həyatında bəzi səhabələr tərəfindən, Həzrətdən eşitdikləri hədisləri yazmaları ilə və ya tabei təbəqəsindən bəzi ravilərin səhabələrdən öyrəndikləri hədisləri yazdıqları və sonrakı nəsillərə ötürdükləri kiçik həcimli vəsiqələrə deyilir.[155] Şübhəsiz ki, səhifələr içərisində ən məşhur olanları səhabələrin yazdıqlarıdır ki, biz onlarla tanış olmuşuq.[156]

**Cüzlər** - səhabədən və yaxud ondan sonra gələn birindən rəvayət edilən hədislərin bir araya toplanması ilə meydana gələn kitablara deyilir. Əbu Bəkrin “cüzi” kimi. Hər hansı bir məsələ haqqındakı hədislərin bir araya toplanması ilə meydana gələn əsərlərə də bu ad verilmişdir: əl-Mərvəzinin gecə namazı, Süyutinin sübh (duha) namazı haqqındakı “Cüz”ləri belədir.[157] Həmçinin bir ravi tərəfindən rəvayət edilən hədis məcmuələrinə “Cüz” deyildiyi kimi, qəbir əzabı, niyyət və s. kimi mövzularda yazılan hədis məcmuələrinə də “Cüz” deyilmişdir.

Məşhur alimlərdən olan ən-Nəvəvi (1233-1277) yazırdı: “Hədis təsnif edən alimlərin iki yolu vardır: birincisi, fəsillərə (bablara) görə təsnif edir, hər fəsildə ehtiva edilən mövzunu qeyd edir. İkincisi isə, müsnədlər üzərinə təsnif edir, burada yer alan mövzular ya hərflərə görə (əlifba sırası ilə) və yaxud da qəbilələrə görə yerləşdirilir. Müsnədlərdə səhabələrin tərcümeyi-halları, onlardan gələn səhih və ya zəif hədislər yer alır. Müsnədlər Bəni-Haşim, sonra Peyğəmbərin ən yaxın qohumları, sonra Cənnətlə müjdələnmiş on şəxs, sonra Peyğəmbərin xanımları başda olmaqla qadın səhabələr, sonra Bədr əhli, sonra Hüdeybiyyə iştirakçıları, sonra mühacirlər, daha sonra isə onunla fəth arasında olanlar yer alır.[158]

**Risalə** - cami adı verilən kitabların iman, təharət, zöhd, məşrubat, təfsir, tarix, fitən və mənaqib kimi bölümlərindən sadəcə birini ehtiva edən kitablara deyilir.[159]

**Müsənnəf** - ibadət, müamələt və digər fiqhi fəsillər (bablar) əsasında tərtib edilən hədis əsərləridir.[160]

---

154 Haris Süleyman əd- Dari. Muhadarat fi ülumil-hədis. s. 13.
155 İsmail Lütfi Çakan. Hadis usulü. s. 69.
156 Bax: kitabın “Hədislərin yazılması” fəslinə.
157 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 233.
158 Həmin mənbə. s. 233.
159 Ali Özek. Hadis ricalı. s. 5.
160 İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 45.

**Müsnəd** - səhabə adlarına və ya nəsəblərinə görə və bəzən də İslama girən ilk şəxslərin adlarına görə və yaxud da nəsəblərinə görə hədislərin qeyd edildiyi kitablardır. Əbu Davud ət-Təyalisinin (750-819) “Müsnəd”i bu qrupa daxildir. O, ilk
müsnəd tərtib edən hədisşünasdır.[161]

**Cami** - bütün hədis fəsillərini ehtiva edən hədis kitablarına deyilir. Bu fəsillər bunlardır: “babül-əqaid”, “babül-əhkam”, “babür-ritaq”, “babu adabüt-təam vəş-şərab”, “babüt-təfsir vət-tarix vəs-siyər”, “babüs-səfər vəl-qiyam vəl-quud” (buna “babüş-şəmail” də deyilir), “babül-fitən” və “babül-mənaqib və məsalib.” Bu səkkiz fəsli ehtiva edən hədis əsərinə “Cami” deyilir.[162] Bura Buxari (810-870) və Tirmizinin (824-893) əsərlərini misal göstərmək olar.[163]

**Sünən** - fiqhi fəsillərə görə təsnif edilmiş əhkam hədisələrini ehtiva edən və hədislərinin hamısı həzrət Peyğəmbərin söz, fel və təqrirlərindən ibarət olan kitablara deyilir.[164]

**Müstədrək** - bir müəllifin şərtlərinə uyğun olduğu halda kitabında qeyd etmədiyi hədislərin toplandığı başqa kitablara deyilir. Müstədrəklərin ən məşhuru Hakim ən-Nisaburinin (933-1014) “Səhiheyn” üzərinə yazdığı “Müstədrək ələs-səhiheyn”[165] və Əllamə ən-Nurinin (1838-1902) “əl-Müstədrək ələ vəsailiş-şiə” əsəridir.

**Müstəxrəc** - mühəddisin hər hansı bir kitabın hədislərini, o kitabın müəliflərinin sənədləri ilə deyil, özünə çatan başqa sənədlərlə rəvayət etməsidir.[166] Müstəxrəclərə misal olaraq Əbu Bəkr əl-İsmailin “Səhihül-Buxari” üzərinə, Əbu Əvanənin “Səhihü-Müslüm” üzərinə, Əbu Əli ət-Tusinin “Sünənüt-Tirmizi” üzərinə yazdıqlarını göstərmək olar.[167]

**Ərbəun** - müəllifi maraqlandıran hər hansı mövzu və ya dəyişik mövzularda toplanmış qırx hədisdən ibarət olan kitablara deyilir.[168] İlk “Ərbəun” müəllifi olaraq tanınan şəxs Abdullah bin əl-Mübarəkdir (736-797). Ondan sonra da bu iş davam etdirilmiş və məşhur hədisşünaslar, o cümlədən Əbülhəsən əd-Dəraqütni (919-998), Hafiz bin Həcər əl-Əsqəlani (1372-1449) və b. şəxslər bu ad altında əsərlər meydana gətirmişlər.

**Möcəm** - səhabələrin İslama ilk daxil olanlarını, şeyxlərin və yaxud da ölkələrin adlarına görə hədislərin əlifba sırası ilə sıralandığı kitablardır.[169] Möcəmlər içərisində ən məşhuru Süleyman bin Əhməd ət-Təbəraninin (821-918) “Möcəmül-kəbir”, “Möcəmül-mütəvəssit” və “Möcəmüs-səğir” əsərləridir.

## 6.2. Dirayə yönündən hədis elmi

Hədis elminin ikinci ən böyük və ən mühüm hissəsi dirayə baxımından hədis elmidir. Bu elmə hədisşünaslar aşağıdakı tərifləri vermişlər:

“Dirayə lüğətdə diqqətlə oxumaq (mütaliə) mənasındadır. İstilahda isə hədisin mətnini, sənədini, rəvayət yollarını, səhihindən zəifini araşdıran, həmçinin məqbul hədislərin mərdud hədislərdən seçilib ayrılmasının yollarını öyrənən elmə deyilir.”[170]

Görkəmli hədisşünas Şeyx Bəhaəddin əl-Amili (1546-1622) dirayə elminə belə tərif vermişdir:

“Dirayə elmi vasitəsi ilə hədisin sənədi, mətni, keyfiyyəti, rəvayət və nəql edilməsinin metodu öyrənilir.”[171]

---

[161] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 232; Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 99.
[162] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 231
[163] Həmin mənbə. 231.
[164] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 81.
[165] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 232; Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 100-101.
[166] Həmin mənbələr. s. 232; s. 101.
[167] Həmin mənbələr.
[168] İsmail Lütfi Çakan. Hadis usulü. s. 70.
[169] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 232; Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 100.
[170] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 14.
[171] Bəhaəddin əl-Amili. əl-Vəcizə fi ilmid-dirayə. Qum, I çap, 1390 h/q. s. 4.

Təriflərdən belə məlum olur ki, dirayə baxımından hədis elmi rəvayət baxımından hədis elmindən mövzusuna görə fərqlənir. Belə ki, bu elmin vasitəsilə Məsumlardan nəql olunan hədislər və bu hədisləri nəql edən ravilər tədqiq edilir, səhihi zəifindən ayrılır və nəql etmə metodları göstərilir. Rəvayət baxımından hədis elmində hədis kitabları, onların müəllifləri, hansı dövrdə yazılması tədqiq edildiyi halda, dirayə elmində isə bu kitablarda yer alan hədislərin mətn və sənədi araşdırılıb tədqiq edilir.

Dirayə baxımdan hədis elminə bəzən hədis üsulu və ya hədis istilahları adı da deyilir. Həmçinin bu elmə bəzən "ülumul-hədis" də deyilmişdir. Müasir dövrdə bu elmə hədis elminin metodologiyası da deyilir.

Dirayə elminin nə vaxt meydana gəlməsi və bu sahədə ilk əsərin kim tərəfindən yazılması hədisşünaslara görə ixtilaflıdır. Amma bu ixtilafın olmasına baxmayaraq, əksər hədisşünaslar bu elmin tarixini Peyğəmbərin dövrünə bağlayırlar. Belə ki, Peyğəmbərin dirayə elmi haqqında xüsusi bir buyruğu olmasa da, özü haqqında yalana yer verilməməsini çox israr etmişdir.

Dirayə elminin tarixinə nəzər saldıqda məlum olur ki, üsul elminə aid olan bəzi məsələlər məhz səhabələr dövrünə aiddir. Çünki bəzi səhabələr bir-birlərindən eşitdikləri hədisləri daha da dəqiqləşdirmək üçün eşitdiyi kimsədən şahid tələb etmişlər. Bunun bariz nümunəsini biz xəlifə Ömərin bəzi insanların çox rəvayət etməsini qadağan etməsində və hətta belə şəxsləri şallaqlayıb həbsə atdırmasında görürük. Deməli, buradan belə məlum olur ki, üsula aid prinsiplər səhabə dövründə meydana çıxmışdır.

Bütün bunlara baxmayaraq, hədisşünaslar hədis üsuluna aid mövzuların və üsul elminə aid istilahların X və daha sonrakı əsrlərdə meydana çıxdığını qeyd edirlər.

Bəzi hədisşünaslara görə, dirayə elminə aid ilk əsəri Əbu Məhəmməd bin Əbdürrəhman bin Həllad ər-Rəmahürmüzü (öl. 970) yazmışdır. Onun yazdığı kitabın adı "əl-Mühəddisül-fasil beynər-ravi vəl-vai"dir.[172] Lakin Cənubi Azərbaycan alimi Cəfər Sübhani (doğ. 1928) "Üsulul-hədis və əhkamuhu" adlı əsərinin müqəddiməsində yazır: "Alimlərimiz içində dirayə elminə aid ilk əsəri Cəmaləddin Əhməd bin Musa bin Cəfər bin Tavus (öl. 1275) yazmışdır. O, Əbdülkərim bin Əhməd bin Musa bin Tavusun (öl. 1295) atası, Əllamə əl-Hilli (öl. 1326) ilə İbn Davud əl-Hillinin (öl. 1307) isə ustadır. İbn Tavus imamiyyə məzhəbində ilk dəfə hədislərin bölgüsünə aid istilahları (terminləri) işlətmişdir." [173]

Seyid Həsən əs-Sədr (1856-1935) "Təsisüş-şiə" adlı əsərində isə dirayə elminə aid ilk əsərin Hakim ən-Nisaburi (933-1014) tərəfindən yazıldığını qeyd edərək belə yazırdı: "Dirayətül-hədisə aid ilk əsəri Əbu Abdullah Hakim ən-Nisaburi əl-İmami əş-Şii yazmışdır. O, ilk dəfə olaraq bu elmə aid "Mərifətu ülumil-hədis" əsərini qələmə almışdı. Əsər beş cilddən ibarətdir və əlli növ hədisdən bəhs edir. Onu İbn əs-Salah təqlid etmiş və altımış beş növ hədis qeyd etmişdir."[174]

Mənbələrin verdikləri məlumatlar ziddiyyətli olsa da, hər halda dirayə elminin qədimliyindən xəbər verir. Əgər bu elm haqqında ilk əsərin X əsrdə yazıldığını qəbul etsək belə, bu işin sonrakı əsrlərdə daha da təkamül həddinə çatdığını görürük. Ümumiyyətlə, üsul elminə aid yazılan əsərlər içərisində ən məşhur olanları qeyd etmək faydalı olardı:

1. "Şərhu üsuli dirayətil-hədis" Əli bin Əbdülhəmid əl-Hüseyninin (öl. 1384) əsəridir. Onun haqqında görkəmli hədisşünas Seyid Həsən əs-Sədr "Təsisüş-şiə" adlı əsərində məlumat vermişdi.

Şeyxüş-şəhid Zeynüddin əl-Amilinin (1506-1558) üç mühüm əsəri:

2. "əl-Bidayə fi ilmid-dirayə."

3. "Şərhül-bidayə." Alim bu əsərini 1553-cü ildə tamamlamışdır. İslam aləmində ən məşhur əsər olduğundan dəfələrlə çap edilmişdi. "Şərhül-bidayə" sonuncu dəfə "ər-Riayə fi ilmid-dirayə" adı ilə çap edilib.

---

[172] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 406.

[173] s. 9.

[174] s. 294.

4. “Ğəniyyətül-qasidinə fi mərifəti istilahatil-mühəddisin.” Alim əsərinə “Şərhül-bidayə”nin xatimə hissəsində diqqət yetirərək demişdir: “Hər kəs aydın məsələlər ilə öz istəklərini təmin etmək istəyirsə, ona “Ğəniyyətül-qasidinə fi mərifəti istilahatil-mühəddisin” kitabımızı məsləhət edirik.

5. və 6. Şeyx Həsən bin Zeynüddinin (1552-1608) “ət-Təhrirüt-Tavusi” əsəri ilə “Müntəqəl-cəman” əsəri. Hər iki kitabda dirayə elminin əsaslarına aid çox məsələlər vardır.

7. Şeyx Hüseyn bin Əbdüssəməd əl-Amilinin (1513-1579) “Vüsulul-əxyar ilə üsulil-əxbar” əsəri.

8. Bəhaədin əl-Amilinin (1546-1622) “əl-Vəcizə” əsəri. Bu dirayə elminə aid çox qiymətli bir əsərdir. Onu Seyid Həsən əs-Sədr şərh etmiş və ona “Nihayətüd-dirayə” adını vermişdir.

9. əs-Seyid Mühəqqiq Mirdamadın (öl. 1632) “ər-Ravaşihüs-səmaviyyə” əsəri. Əsərdə dirayə elminə aid çox məsələlər öz həllini tapmışdır.

Bu əsərlər haqqında geniş məlumat almaq üçün Ağa Bozork ət-Tehraninin (1876-1970) “əz-Zəriə ila təsanifiş-şiə” əsərinin VIII cildinə müraciət etmək lazımdır.

Bunlardan başqa, Xətib əl-Bağdadinin (1002-1071) “əl-Kifayə fi ilmir-rivayə”, İbn Salahın (1181-1245) “Ülumul-hədis”, Yəhya bin Şərəfuddin ən-Nəvəvinin (1233-1277) “ət-Təqrib vət-təysir liə hədisil-bəşirin-nəzir”, Əbülfida İmadəddin İsmayıl bin Kəsirin (1301-1373) “İxtisaru ülumil-hədis”, Cəlaləddin əs-Süyutinin (1445-1505) “Təqribür-ravi fi şərhi təqribir-ravi”, Şeyx Cəmaləddin əl-Qasiminin (öl. 1914) “Qəvaidüt-təhdis min fünuni müstəlahil-hədis”, Tahir əl-Cəzairinin (öl. 1919) “Təvcihün-nəzər” əsərlərini də qeyd etmək olar.

Hədis elmlərinin başlıca olaraq iki böyük qismə bölünməsinə baxmayaraq, şübhəsiz ki, bunlar bir-birləri ilə sıx bağlı olan elmlərdir. Hədis elmləri içərisində ən mühümlərindən olan dirayə elminin özü də bir neçə şöbəyə ayrılır. Bu elmin hər biri hədisin müxtəlif sahələrini öyrənməklə məşğuldur. Həmin elmlər içərisində ən məşhurları aşağıdakılardır:

### 6.2.1. Cərh və tədil elmi

“Cərh” sözü luğətdə “yaralamaq”, “tədil” isə “ədaləti bəyan etmək” mənasındadır. Hədis elminin bu şöbəsində hədisi nəql edən ravilərin qüsurları və ya məziyyətləri araşdırılır. Əgər “cərh” və tədil elmi” olmasa, ravilərin araşdırılması, onların fasiq olanını ədalətli və etibarlı olanından ayırmaq qeyri-mümkün olacaqdır. Həmçinin ravinin tam şəkildə araşdırılıb ortalığa çıxarılmaması nəql olunan hədisin səhihliyini də şübhə altına qoya bilər. Çünki hədisin səhih və ya zəif olması ravinin etibarlı olub-olmamasından da asılıdır. Buna görə də hədisşünaslar elmin bu şöbəsinə xüsusi önəm vermişlər. Hakim Nişapuri (933-1014) bu elm haqqında demişdir: “Cərh və tədil hədis elminin bir səmərəsi və böyük ölçüdə olan bir qoludur.”[175]

Hədisşünaslar cərh və tədil elminin dəlilini Qurani-Kərim və hədisi-şəriflərdə görürlər. Çünki Qurani-Kərimdə və hədislərdə xəbər verən şəxslərin kimliyini aydınlaşdırmaq tövsiyə olunmuşdur. Belə ki, Qurani-Kərimdə belə bəyan edilir:

**“Ey iman gətirənlər! Sizə bir fasiq xəbər gətirərsə, onu aydınlaşdırın.”**[176] Peyğəmbər isə hədislərinin birində buyurmuşdur:

“Elmi şəhadəti qəbul edilən kimsələrdən alın.”

Cərh və tədil elminin mövzusundan da göründüyü kimi, hər hansı bir ravi haqqında mənfi və ya müsbət fikir söyləmək çətin və məsuliyyətli işdir. Çünki İslam dinində hazırda olmayan şəxs haqqında danışmaq, yəni qeybət etmək qadağan olunmuş əməllərdəndir. Amma burada məqsəd qeybət yox, əksinə, dinimizin qorunmasına yönələn bir işdir. Bunu Əbu İsa ət-Tirmizi (824-893) belə açıqlamışdı: “Hədisşünasları cərhə sövq edən amil müsəlmanların yaxşılığını istəməkdir. Yoxsa onların məqsədi müsəlmanların qeybətini etmək deyil. Cərh və tədil alimləri dinə olan məhəbbətlrinə görə ravilərin əhvalını araşdırmışlar.”[177]

---

[175] Hakim ən-Nisaburi. Mərifətu ülumil-hədis. Şərh və təhqiq: Əhməd bin Faris əs-Səlum. Beyrut, Daru İbn Həzm, I çap, 1424/2003. s. 225.

[176] Hucurat surəsi, ayə 6.

[177] İsmail Lütfi Çakan. Hadis usulü. s. 90-91.

Cərh və tədil baxımından ravilər "mətainu əşərə" ("on pis söz") deyilən sözlər vasitəsi ilə tənqid edilir. Bu on sözün beşi ravinin "ədalət" sifətinə, digər beşi isə "zəbt" sifətinə məxsusdur. Çünki hər bir ravidə olan sifətlər ədalət və zəbt deyə ikiyə ayrılmışdır. "Mətainu əşərə" aşağıdakılardır:

**a) Ədalət sifətinə aid olan sözlər:**

- **Kizbür-ravi (**Ravinin hədis rəvayətində yalançılığı).

Əgər bir şəxs Peyğəmbərin və ya digər Məsumların adlarına yalan nisbət edərsə, belə şəxslərdən heç vaxt rəvayət qəbul olunmur. Belə ravilər "kəzzab", "əkzibün-nas" və s. terminlər ilə tanıdılır və onların rəvayət etdikləri xəbərlərə "mövzu", "zəif" və s. adlar verilir.

- **İttihamür-ravi bil-kizb (**Ravinin yalançılıqda ittiham edilməsi).

Əgər bir ravi hədis rəvayətində yalan söyləməsə də, amma gündəlik həyatında yalan danışarsa, onun hədisdə də yalan danışması istisna edilmir. Belə ravinin rəvayət etdiyi hədis "mətruk" adını alır.

- **Fisqür-ravi (**Ravinin günahkarlığı).

Əgər bir ravi İslamın əmr və qadağalarına əməl etməzsə, ona fasiq deyirlər və onun rəvayəti heç vaxt qəbul edilməz. Onun rəvayət etdiyi hədisə isə "münkər" adı verilmişdir.

- **Cəhalətür-ravi (**Ravinin tanınmaması).

Əgər hədis nəql edən ravinin nəsil şəcərəsi və əhvalı bilinməzsə, ondan rəvayət qəbul edilməz. Belə ravinin nəql etdiyi hədisə "məchul" deyilmişdir.

- **Bidətür-ravi (**Ravinin bidət əhlindən, yəni bidət olaraq ortaya çıxmış hər hansı bir məzhəbdən olması).

**b) Zəbt sifətinə yönələn sözlər:**

- **Kəsrətül-qələt (**Ravinin rəvayətində çox səhv etməsi).

Əgər ravi rəvayətində çox səhvə yol verirsə, onun nəql etdiyi hədislər məqbul sayılmır və rəvayətinə də "münkər" deyilir.

- **Fərtül-qəflət (**Ravinin ifrat dərəcədə diqqətsiz və qafil olması).

Bu, ravinin diqqət göstərməsi lazım olan yerlərdə qəflət etməsidir ki, bu da onun rəvayətinin qəbul edilməməsinə səbəb olur.

- **Vəhm (**Ravinin nəql etdiyi hədisin mətn və sənədində xətaya yol verməsi).

Əgər bir ravi "mərfu" hədisi "məvquf" kimi nəql edərsə, onun rəvayəti qəbul edilmir və o rəvayət "məlul" adlanır.

- **Müxaləfətüs-siqat (**Ravinin özündən də etibarlı bir raviyə müxalif olaraq rəvayət etməsi).

Əgər bir ravi özündən daha etibarlı digər bir raviyə zidd olaraq hədis rəvayət edərsə, onun rəvayəti məqbul hesab edilmir. Belə ravinin nəql etdiyi hədisə "müdrəc", "məqlub", "müztərib", "müsəhhəf", "mühərrəf" və s. deyilmişdir.

- **Suil-hifz (**Ravinin yaddaşının zəif olması).

Əgər bir ravinin hafizə qüvvəsi pis olarsa, onun nəql etdiyi hədis qəbul edilmir.[178]

Hədisşünaslar hədis rəvayət edən ravini mədh və təzkiyə, həmçinin məzəmmət və cərh etmək üçün bəzi kəlmələr işlətmişlər. Həmin kəlmələr iki qismdir:

**1) Mədh və təzkiyə edən kəlmələr:**

- O ədalətli və etibarlıdir;
- Höccətdir;
- Onun hədisi səhihdir.

---

[178] İsmail Lütfi Çakan. Hadis usulü. s. 93-95; İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 466-474.

**2) Məzəmmət və cərh edən kəlmələr:**
- Zəifdir;
- Yalançıdır;
- Həddi aşandır;
- Zəif, səbəbsiz söz deyəndir;
- Bir şey deyil, heç bir dəyəri yoxdur.[179]

### 6.2.1.1. Rəvayəti qəbul və ya rədd edilən kimsə

Əvvəldə qeyd etdiyimiz kimi, hədis elmində rəvayətin qəbul edilib-edilməməsi mövzusu ən əhəmiyyətli və ən faydalı mövzulardan biridir. Mövzuya bəzi hədisşünaslar "Ravidə aranan şərtlər" adı ilə toxunurlar. Ümumiyyətlə, ravidə aranan şərtlər aşağıdakılardır:

**1. Müsəlman olmaq.**

Bütün İslam alimləri hədis rəvayət edən şəxsin müsəlman olması şərtini irəli sürmüşlər. Deməli, qeyri-müsəlmanın və həmçinin mürtəd olan şəxsin rəvayəti heç vaxt qəbul edilmir. Zeynüddin əl-Amili (1506-1558) yazırdı: "Hədisşünaslar və fəqihlər ravinin müsəlman olmasında həmfikirdirlər. Kafirin, yəhudi və xristian kimi qeyri-qiblə əhlinin və həmçinin məcusi, xaricilər, ğulat və s. şəxslərin rəvayətləri qəbul edilmir."[180]

**2. Ağıl sahibi olmaq.**

Hədisşünaslara görə, dəli olan adamdan heç vaxt rəvayət qəbul edilməz.

**3. Həddi buluğa yetişmək.**

Hədis alimləri yetkinlik yaşına yetişməyən uşaqlardan gələn rəvayəti qəbul etməmişlər.

**4. İmanlı olmaq.**

İmamiyyə alimləri iman dedikdə, ravinin etiqadının imamiyyə məzhəbində olmasını şərt bilmişlər. Bu şərt bir çox hədis alimlərinin əsərlərində, o cümlədən Zeynüddin əl-Amilinin (1506-1558) "ər-Riayə fi ilmid-dirayə",[181] Həsən bin Zeynüddin əl-Amilinin (1552-1608) "əl-Məalim",[182] Cəfər Sübhaninin (doğ. 1928) "Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə" əsərlərində[183] qeyd edilmişdir.

Lakin buna baxmayaraq, bəzi alimlər, o cümlədən, Məhəmməd bin Həsən ət-Tusi (998-1067) "İddətül-üsul" adlı əsərində[184] imamiyyədən olmayan şəxsin İmamlardan nəql etdiyi rəvayəti məqbul hesab etmişdir.[185] Şeyx Tusiyə görə, hədis rəvayət edən ravi əgər Vaqifiyyə, Fəthiyyə, Navusiyyə kimi firqələrdən olsa, onun rəvayətinə baxmaq lazımdır. Əgər onun nəql etdiyi xəbər etibarlı hesab edilənlərə ziddirsə, qeyri-məqbul, əgər etibarlı hesab edilənlərə zidd deyilsə, məqbul hesab edilə bilər.[186]

**5. Ədalətli olmaq.**

---

[179] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 153-170; Zeynüddin əl-Amili (Şəhid əs-Sani). ər-Riayə fi ilmid-dirayə. Təhqiq: Məhəmməd Əbdülhüseyn Bəqqal. Beyrut, Müəssisətu Alil-beyt (ə), II çap, 1408 h/q. s. 209.
[180] Zeynüddin əl-Amili. ər-Riayə fi ilmid-dirayə. s. 181-182.
[181] s. 181-182.
[182] s. 200.
[183] s. 132.
[184] s. 379-381.
[185] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 133.
[186] Həmin mənbə. s. 133.

İslam alimləri onun mənası və şərtləri haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Lakin məşhur görüş budur ki, insanın təqvalı olmasına səbəb olan işləri icra etmək, böyük və kiçik günahlardan çəkinmək, insanın mürüvvətinə (insanın əxlaqi yönünə) mənfi təsir edən amilləri tərk etmək ədalətli olmağa dəlalət edir.

Ədalətin şərtlərinə gəldikdə isə, alimlərin bir qrupunun fikrincə, bu, ağıl, həddi-buluğ, İslam, etiqad, dəyanət, sidq, mürüvvət, şöhrətdən ibarətdir.[187]

**6. Zəbt sifətinə malik olmaq.**

Zəbt dedikdə, ravinin təhəmmül etdiyi (öyrənib rəvayət etdiyi) bir rəvayəti əda anına qədər aldığı (öyrəndiyi) şəkildə mühafizə etməsidir. Bunu alimlər belə tərif edirlər: “Zəbt dedikdə məqsəd (ravinin) əzbərindən dediyi hədisi mühafizə etməsi nəzərdə tutulur. Əgər rəvayəti kitabına yazıbsa, onu səhvdən, yanlış oxumaqdan və təhrifdən rəvayət edən zaman qorumasıdır.”[188]

### 6.2.1.2. Ravinin ədaləti necə bilinir?

Ravinin ədaləti aşağıdakı yollarla məlum olur:

**1. Şöhrət yolu ilə.**

Əgər bir ravinin ədalətli olması alimlər arasında məşhurdursa, onun ədalətli olmasına şəkk edilməz.

**2. Ravinin haqqında üsul alimlərinin tədil etməsilə**.

Əgər ravi haqqında “cərh” və “tədil” yönündən tədqiqat aparılıbsa və bunun da nəticəsində onun ədalətli olması ortalığa çıxarsa, bu halda ravi ədalətli qəbul edilir.

**3. Ravidən iki ədalətli şəxsin rəvayət etməsi yolu ilə.**

Ravidən iki ədalətli şəxs rəvayət edərsə, bu, onun ədalətli olmasına dəlalət edər.

**4. Ravidən bir nəfər ədalətli şəxsin rəvayət etməsi yolu ilə.**

Əgər bir ravidən bir nəfər ədalətli şəxs rəvayət edərsə, bu, həmin ravinin ədalətli olmasına dəlalət edər.[189]

Ravinin ədaləti məsələsinə gəldikdə, burada olan şərtlər həqiqətən insanda belə bir təsəvvür yaradır ki, hədisşünaslar öyrəndiklərini çox incə və diqqətlə öyrənmiş və onu tarix boyu çox böyük zəhmətlə qoruyub saxlamışlar. Bəlkə də Peyğəmbərimizin böyük möcüzələrindən biridir ki, möminlər onun müqəddəs kəlamlarına bu qədər böyük önəm vermiş və onun sünnəsini olduğu kimi yaşayıb-yaşatmışlar.

### 6.2.2. Rical (hədis raviləri) elmi

Rical elmi ravilərin tərcümeyi-hallarını, təbəqələrini, onların tarixini, şeyxləri və tələbələrini, vətənlərini və s. öyrənir. Hədis elmləri içərisində ən mühüm şöbələrdən hesab edilən rical elminin tarixi qədimdir. Belə ki, mənbələrin verdikləri məlumata görə, bu elm İslamın ilkin dövrlərində meydana çıxmışdır.[190] Şübhəsiz ki, bu elmin qədimliyi onun əhəmiyyətindən xəbər verir. Çünki rical elminin vasitəsi ilə ravilərin halları və təbəqələri öyrənilir və bunun da nəticəsində hədisin sənədinin səhih və ya zəif olması məlum olur.

Bu elmə olan ehtiyac Peyğəmbərin vəfatından sonra daha da güclənmişdir. Çünki onun vəfatından sonra hədis dəllalları Həzrətin sünnəsinə etiraz olaraq hədis uydurmağa başladılar. Peyğəmbərin adına uydurulmuş hədislər özünü biruzə vermiş və əfsuslar ki, ən mötəbər hədis

---

187 İbrahim Canan. Hadis usulü ve hədis tarihi. s. 460-461; Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 134.

188 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 135.

189 Haris Süleyman əd-Dari. Muhadarat fi ülumil-hədis. s. 94-95.

190 Seyid Əli Xamneyi. əl-Üsulu ərbəə fi ilmir-rical. Qum, II çap, 1417/1996. s. 5.

kitablarında belə özünə yer etmişdir. Amma buna baxmayaraq, hədisşünaslar zəif raviləri doğrularından ayırmaq üçün rical elminin əsasını qoymuş və bu sahədə çoxlu sayda əsər meydana gətirmişlər.

Rical elminə aid əsərlər bütün dövrlərdə yazılmışdır. Bu sahədə Übeydullah bin Əbu Rafeinin "ət-Təbəqat", Abdullah əl-Kənaninin (öl. 834) "ər-Rical", Həsən bin Məhbubun (öl. 839) "Mərifətu rüvvatil-əxbar", İbrahim bin Məhəmməd bin Səid əs-Səqəfinin (öl. 898) "ər-Rical", Hafiz Əbi Məhəmməd Əbdürrəhman bin Yusif bin Xəraş əl-Mərvəzi əl-Bağdadinin (öl. 898) "ər-Rical", Əbülabbas Əhməd bin Məhəmməd bin Səid bin Üqdənin (öl. 945) "Əshabu İmam Cəfəris-Sadiq ", Əbdüləziz bin Yəhya əl-Cəludinin (öl. 944) Peyğəmbərin səhabələrindən və İmam Əlidən rəvayət edən şəxslərdən bəhs edən kitabı, Qazı Əbu Bəkr Məhəmməd bin Ömər əl-Cəani əl-Bağdadinin (öl. 970) "əş-Şiə min əshabil-hədis və təbəqatihim", İbn Davud əl-Qumminin (öl. 978) "ər-Rical", Məhəmməd bin Əli bin Babəveyh əs-Səduqun (917-991) "ər-Rical", Həsən bin Məhəmməd bin Vəlid əl-Qumminin (öl. 955) "əl-Fihrist", Məhəmməd bin Yəqub əl-Küleyninin (876-941) "ər-Rical", Şeyx Əbi Ömər Məhəmməd bin Əmr bin Əbdüləziz əl-Kəşşinin (öl. 962) "Mərifətün-naqilinə ənil-əimmətis-sadiqin ", Şeyx Əhməd bin Əli ən-Nəcaşinin (öl. 1057) "əl-Fihrist", Şeyx Məhəmməd bin Həsən ət-Tusinin (998-1067) "İxtiyaru mərifətir-rical", "əl-Fihrist" və "ər-Rical", [191] Seyid Əbülqasim əl-Xoyinin (1899-1992) "Möcəmu ricalil-hədis", Cəfər Sübhani Təbrizinin (doğ. 1928) "Kulliyatür-rical" adlı əsərləri rical elminin əsas qaynaqlarından hesab olunur.

### 6.2.3. Müxtəlifül-hədis elmi

"Müxtəlifül-hədis elmi" də hədis elmləri içərisində qədim və əhəmiyyətli tarixə malikdir. Hədisşünaslığın bu şöbəsində zahirən bir-birinə zidd olan hədislər tədqiq edilir və mənaları açıqlanır. Nəvəvi (1233-1277) bu elm haqqında yazırdı:

"Bu çox mühüm bir elmdir. Hər alim bunu bilmək məcburiyyətindədir. Müxtəlifül-hədis elmində mənası zahirən bir-birinə zidd görünən iki hədisin araları tapılır və ya biri digərindən üstün tutulur. Bu işi ən mükəmməl şəkildə edənlər hədis ilə fiqhi yaxşı bilən şəxslər və mənalara doğrudan-doğruya vaqif olan üsulşünaslardır."[192]

Bu sahədə Məhəmməd bin İdris əş-Şafei (767-820), İbn Qüteybə (828-889), Əbülfərəc İbn əl-Cövzi (1116-1201) və başqaları əsərlər yazmışlar.

### 6.2.4. İləlül-hədis elmi

Bu, hədisin səhihliyini zədələyən gizli səbəblərdən bəhs edən bir elmdir. Bu səbəblər, məsələn, "münqəti" hədisi "məvsul", "məvquf" hədisi "mərfu" göstərmək, bir hədisi digər hədislə qarışdırmaq kimi qüsurlardır.

İləlül-hədis elmi sahəsində Müslüm bin Həccac (821-875), İbn əl-Mədini (öl. 848), Əli bin Ömər əd-Dəraqütni (919-998), Əbülfərəc İbn əl-Cövzi (1116-1201) və başqaları əsərlər qələmə almışlar.

### 6.2.5. Qəribül-hədis elmi

Bu elm hədislərin mətnindəki çox çətin başa düşülən bəzi kəlmələri açıqlayır. Qəribül-hədisə aid ilk əsəri Əbu Übeydə Mömər bin əl-Müsənna (öl. 825) qələmə almışdır.[193] Müsənnadan sonra bu sahədə bir çox alimlər, o cümlədən, Əbülhəsən ən-Nadir əl-Mazini (öl. 819), Əbu Übeyd əl-Qasim bin Səllam (öl. 838), Carullah əz-Zəməxşəri (1074-1143), İbn əl-Əsir (1160-1233) və başqaları əsər yazmışlar.

---

[191] Həmin mənbə. s. 6.

[192] Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 90.

[193] Həmin mənbə. s. 92; İsmail Lütfi Çakan. Hadis. s. 90.

### 6.2.6. Nasix və Mənsux elmi

Bir-birinə zidd olan hədisələr bu elmin vasitəsi ilə öyrənilir, birinin hökmü o birinə uyğun gəlmədikdə, nəsx (pozulur) edilir. Əvvəlcə deyilən hədis "mənsux", sonradan deyilən hədis isə "nasix" adlanır. Buna misal olaraq Peyğəmbərin aşağıdakı hədisini göstərmək olar:

"Sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə qəbirləri ziyarət edin."[194]

Göründüyü kimi, bu hədisin birinci hissəsi mənsux (hökmü pozulmuş), ikinci hissəsi isə nasix (əvvəlki hökmü pozan) adlanır.

### 6.2.7. Hədis şərhi elmi

Hədis elminin bu şöbəsi də çox mühüm elmlərdəndir. Çünki bu elm vasitəsilə Məsumun dediyi hədisdə məqsədin nə olduğu açıqlanır. Hədisi şərh edən müəllif ərəb dili elmlərini və şəri qaydaları mükəmməl bilməlidir ki, hədisi gücü yetdiyi qədər doğru şərh edə bilsin.

Hədis şərhi elmi dirayə elmləri içərisində bəlkə də ən çox müraciət olunan elmdir. Bu elm sahəsində İslam alimləri böyük işlər görmüş, ən mötəbər hədis kitablarını şərh etmişlər.

Ən böyük hədis əsərləri üzərinə yazılan şərhlərdən aşağıdakıları qeyd etmək olar:

Məhəmməd bin İsmayıl əl-Buxarinin (810-870) "Səhih" əsərinə yazılan bəzi şərhlər:

1) Bəhruddin Əbu Məhəmməd Mahmud bin Əhməd əl-Eyninin (1361-1451) "Ümdətül-qari şərhu səhihil-Buxari" əsəri.

2) İbn Həcər əl-Əsqəlainin (1372-1449) "Fəthül-bari bi şərhil-Buxari" əsəri və s.

Məhəmməd bin Yaqub əl-Küleyninin (876-941) "Üsulu kafi"sinə yazılan şərhlərdən bəziləri bunlardır:

1) Əllamə Məhəmməd Bağır Məclisinin (1628-1700) "Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul " əsəri.

2) Feyz əl-Kaşaninin (1598-1680) "əl-Vafi" əsəri və s.

[194] Əbu İsa ət-Tirmizi. Sünənüt-Tirmizi. 6 cilddə. II c. Beyrut, Darül-ğərbil-islami, I çap, 1996. s. 357-358. Hədis № 1054.

# VII FƏSİL

# HƏDİSLƏRİ TOPLAMAQ VƏ RƏVAYƏT ETMƏK

## 7.1. Hədis toplama və rəvayət etmə metodları

Hədisi rəvayət edənə, yəni başqa birisinə öyrədən şəxsə “şeyx”, hədisi öyrənən kimsəyə isə “tələbə” deyilir. Şeyxin tələbəsinə hədis rəvayət etməsinə (öyrətməsinə) “əda” deyildiyi kimi, tələbənin də şeyxdən hədis öyrənməsinə “təhəmmül” deyilmişdir.[195] Deməli, təhəmmül şeyxdən hansı yolla olursa olsun, hədis öyrənməkdir.

Hədisşünaslar hədis öyrənən şəxsin hansı yaşda olması barədə ixtilaf etmişlər. Şam hədisşünasları otuz yaşdan sonra hədis dinləməyin müstəhəb olduğunu desələr də, Kufə hədisşünasları isə uşaqlarına iyirmi yaşı tamam olmamış hədis öyrətmişlər. Süfyan əs-Səvriyə (716-778) görə, hədis öyrənmək istəyən bir kimsə, bu işə başlamadan öncə iyirmi il ibadətlə məşğul olmalıdır. Lakin digər hədisşünaslar haqlı olaraq hədis öyrənmək üçün heç bir yaşın olmadığını demişlər. Bunu bəzi hədisşünasların bioqrafiyasına nəzər yetirdikdə, daha aydın şəkildə görməkdəyik.

Ümumyyətlə, əldə etdiyimiz məlumatdan belə məlum olur ki, hədisi öyrənib başqalarına öyrətməyin (təhəmmül və ədanın) böyük savabı olduğu qədər, ağır məsuliyyəti və yolları vardır. Məşhur hədisşünaslar hədis öyrənmək və öyrətmək yollarını qədimdən bəri sistemləşdirmiş və bunun səkkiz yolunun olduğunu demişlər. Həmin yollar (metodlar) aşağıdakılardır:

- **əs-Səma** (şeyxdən eşitmək metodu).

Şeyxin əzbərindən və ya yazılı bir mətndən oxuyaraq rəvayət etməsi, hədis öyrənənin də birbaşa şeyxindən eşidərək bu rəvayəti almasına **“səma”** deyilmişdir. Bu metod hədis təhəmmülünün ən yüksək formasını təşkil edir. Çünki səma metodunda tələbə ilə şeyx qarşı-qarşıya dayanır və aralarında heç bir vasitə olmur.

- **əl-Qiraət aləş-şeyx** (tələbənin öncədən əldə etdiyi hədisləri şeyxə oxuması).

Buna bəzi hədisşünaslar **“Ərz”** də demişlər. Bu metodda tələbə əzbərindən və ya əlindəki kitabından şeyxinə hədis oxuyur. Bu zaman şeyx tələbəni dinləyir və əgər onun səhvi varsa, düzəlişlər edir. Qiraət metodunda iki qayənin olduğunu demişlər: birincisi budur ki, tələbə bu metod vasitəsi ilə başqalarına hədis rəvayət edə bilməsi üçün şeyxini xəbərdar edir, ondan icazə alır, ikincisi isə, əzbərində və yaxud əlindəki kitabında yanlışlıq varsa, şeyxi onu düzəldir.

Bu yolla öyrənilən hədis **“Qiraətu əleyhi fülan”** və yaxud da **“əxbərəna, həddəsəna”** təbirləri ilə ifadə olunur.

- **əl-İcazə** (şeyxin tələbəsinə hədis rəvayət etməyə icazə verməsi).

Bu metod bəzi hədisşünaslar tərəfindən qeyri-məqbul hesab edilmişdir. Belə ki, İbn Həzm buna etiraz olaraq demişdir: “Bu caiz olmayan bir bidətdir.”[196]

- **əl-Münavələ** (şeyxin hədislərini ehtiva edən bir kitabı rəvayət etməsi üçün hər hansı bir tələbəsinə verməsi).

- **əl-Mükatəbə** və ya **əl-Katibə** (şeyx rəvayət edilməsini istədiyi hədislərini uzaqda olan bir kimsəyə yazaraq göndərməsi).

Bu metod da münavələdə olduğu kimi, ya icazə ilə **(“məqrunə bil-icazə”)**, yaxud da icazəsiz **(“mücərrəd ənil-icazə”)** olur. Əgər şeyx rəvayət edilməsini icazə verirsə, **“əcəztükə ileykə ma**

---

195 Ali Yardım. Hadis I-II. s. 166.

196 Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 73.

**kətəbtu - sənə yazdıqlarımı rəvayət etməyinə icazə verdim”** - deyir. İcazəsiz mükatəbəyə gəldikdə isə, şeyx yalnız hədisləri yazmaqla yetirir.

- **əl-İlam** (şeyxin tələbəsinə göstərdiyi hədis və ya kitabı haqqında “bu mənim filankəsdən eşitdiklərimdir” deyib, amma ona bunu rəvayət etməsi üçün heç bir söz söyləməməsi).

Hədisşünasların çoxu tələbənin bunu rəvayət edə biləcəyini demişlər.

- **əl-İsa** və ya **əl-Vəsiyyət** (şeyxin rəvayət etdiyi hədisləri ehtiva edən kitab və ya cüzü, vəfat edərkən və ya bir səfərə çixarkən bir şəxsə vəsiyyət etməsi).

Bu haqda hədisşünaslar arasında görüş ayrılığı olsa da, onların çoxu bu rəvayət metodunu caiz bilmişlər.

- **əl-Vicadə -** “tapmaq” mənasına gələn bu metod, bir ravinin əlyazma bir kitab və ya bəzi hədis səhifələrini taparaq ondan rəvayət etməsidir. Belə bir kitabı tapan kimsə həm şeyxin müasiri ola bilər, həm də olmaya bilər. Amma gərək o hədisləri rəvayət edən zaman **“həddəsəni”** və **“əxbərəni”** sözlərindən istifadə etməyə. Ravi belə kitablardan hədis rəvayət edən zaman **“vəcədtu bi xətti fülan”** və s. ifadələrdən istifadə edə bilər.[197]

---

197 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 225-230; Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 445-446; Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 68-80; İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 502-517.

## VIII FƏSİL

## HƏDİS RƏVAYƏT ETMƏYİN YOLLARI

### 8.1. Rəvayətin adabı

Rəvayət hədisin təhəmmül və ədası deməkdir. Rəvayət öyrənib-öyrətmək fəaliyyətidir. Adab isə "ədəb" kəlməsinin cəmi olub hər hansı bir məslək mənsublarının tabe olması vacib olan mənəvi qayda və elmi metodlara deyilir.

Bildiyimiz kimi, hədisşünaslıq şərəfli bir elmdir. Çünki onun əsas qayələrindən biri əxlaqı saflaşdırmaq və insan xarakterini (təbiətini) gözəlləşdirməkdir. Buna görə də hədis öyrənən və öyrədən şəxsin bu işdə mütləq saf və təmiz niyyəti olmalıdır.

Ümumiyyətlə, hədisşünaslar hədis öyrənib-öyrədən adamın müəyyən ədəb qaydalarına riayət etməsini zəruri hesab etmişlər. Hədis kitablarında mövzuya aid başlıqlar "Adabül-mühəddis" və "Adabu talibil-hədis" adı ilə öyrənilir.

Xatırladaq ki, mövzuya aid irihəcmli əsəri Xətib əl-Bağdadi (1002-1071) yazmışdı. Onun əsərinin adı "əl-Camiu li əxlaqir-ravi və adabüs-sami"dir. Müəllif əsərində hədis öyrədən və hədis öyrənənin əxlaqından bəhs etmişdir.

**a) Hədis öyrənənin adabı:**

Hədis öyrənən şəxsin bir neçə ədəb qaydalarına əməl etməsi zəruri sayılmışdır ki, onlardan da bir qismi aşağıdakılardır:

**1. İxlas** (təmiz niyyət)**.**

Hədis öyrənənin ilk adabı təmiz niyyətdir. Hədis öyrənməyə başlayan şəxs gərək niyyətini təmiz edərək gördüyü işi və öyrəndiyi elmi Allaha xatir etmiş olsun. Çünki insanın gördükləri iş, əgər Allah rizası üçün olmazsa, onun faydaları lazımı nəticəni verməyəcəkdir. Peyğəmbər buyurur: "Hər bir əməl niyyətə bağlıdır."[198] Deməli, hədis elmini Allaha xatir öyrənən kimsə dünya və axirət xoşbəxtliyinə nail olur, Allah və bəndə yanında yüksəlir, şərəflənir.

Həmmad bin Sələmə yazırdı: "Hədis elmini Allah rizasından başqa bir amacla öyrənən öz-özünü aldadır." Xətib əl-Bağdadi (1002-1071) yazırdı: "Hədis öyrənən şəxs öyünmək və riyakarlıqdan çəkinməli, hədis öyrənməkdə məqsədi əsla rəyasətə keçmək olmamalıdır."[199]

**2. Üstün əxlaq.**

Hədis öyrənən şəxs fərdi və ictimai həyatında özünü əxlaqlı aparmalı, əxlaqın bütün keyfiyyətlərini özündə əks etdirməlidir. Çünki Peyğəmbərin və onun pak əhli-beytindən olan məsum İmamların kəlamları əxlaqi anlayışları ehtiva edir. Peyğəmbər buyurur: "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim."[200]

Deməli, Peyğəmbər yolunu gedən hər bir şəxs bütün davranış qaydalarında nəzakətli olmalı və ali əxlaqi keyfiyyətlər nümayiş etdirməlidir. İmam Əli buyurur: "Ey elm öyrənən! Elm bir çox fəzilətlər sahibidir. Bunların başı təvazökarlıq, gözü həsəddən uzaqlıq, qulağı anlayış, dili doğruluq, hifzi araşdırma, qəlbi təmiz niyyət, ağılı əşyanı və vacib olan işləri bilmək, əli rəhmət, ayağı alimləri ziyarət, məramı ayıblardan salamat olmaqdır..."[201]

**3. Hədisi əhlindən almağa çalışmaq.**

---

[198] Sünənüt-Tirmizi. Hədis № 1956.

[199] Xətib əl-Bağdadi. əl-Cami li-əxlaqir-ravi və adabüs-sami. 2 cilddə. II c. Təhqiq: Mahmud ət-Təhhan. ər-Riyad, Məktəbətül-məarif, 1403/1983. s. 93. Hədis № 41.

[200] Əllamə əl-Məclisi. Biharül-ənvar. LXVIII c. s. 382.

[201] Xətib əl-Bağdadi. əl-Cami li-əxlaqir-ravi və adabüs-sami. 2 cilddə. II c. s. 89-90. Hədis № 31.

Hədis öyrənən şəxs gərək hədisi ictimaiyyətdə yüksək əxlaqı, elmi, təqvası və əməli ilə tanınan şəxslərdən alsın. Əgər onun vətənində belə məziyyətlərə malik bir alim yoxdursa, yaxşı olar ki, imkan daxilində səfərə çıxsın.

**4. Məslək sahibi olmaq.**

Hədis öyrənən şəxs ailə sahibidirsə, gərək onların yaşayışlarını təmin edə, ailəsinin rifahı üçün bütün mövcud imkanlardan istifadə etməlidir. Əks təqdirdə, Peyğəmbərin sünnəsini pozmuş olar. Peyğəmbər buyurmuşdur: "Sizin ən xeyirliniz öz ailəsinə qarşı xeyirli olanınızdır. Mən öz ailəmə qarşı sizdən daha xeyirliyəm."[202]

**5. Öyrəndiyini digərlərinə öyrətməlidir.**

Hədis öyrənən şəxs gərək öyrəndiyi hədisləri digər şəxslərə də öyrətsin. Həmçinin ondan bir şey soruşularsa, bildiyi halda gərək onları gizlətməyə, əks halda, Allahın qəzəbinə səbəb olar. Çünki Peyğəmbər buyurur: "Hər kəs bir elmi bildiyi halda gizlətsə, qiyamət günü Allah onu oddan olan noxta ilə noxtalayacaqdır."[203]

**6. Müəllimə ehtiram etmək.**

Hədis tələbəsi gərək öz ustadlarına təzim edib onların ehtiramını saxlasın. Hədis öyrənən şəxsə yaraşmaz ki, öz ustadına qarşı sayğısız olsun, onun ehtiramını saxlamasın. Peyğəmbər buyurur: "Ata üçdür: insanı dünyaya gətirən, qayınata və müəllim."[204]

Göründüyü kimi, müəllimin məqamı çox uca olduğundan Məsumlar bu işə xüsusi önəm vermiş və ona ehtiramı vacib bilmişlər.

**7. Tədrici bir metodla çalışmaq.**

Hədis öyrənən şəxslər gərək öyrəndiklərini tədricən, yəni yavaş-yavaş öyrənsin. Çünki elm öyrənməyin qaydalarından biri planlı və tədrici şəkildə onu əzbərləməkdir. Həmçinin hər bir işdə tələsmək qəbahət hesab olunaraq pislənmişdir. Bu barədə Peyğəmbər buyurur: "Tələsmək şeytandandır."[205]

**8. Dərsə erkən getmək.**

Hədis öyrənən şəxs gərək oxuduğu elm ocağına səhər tezdən getsin. Çünki səhər tezdən insanın heç bir yorğunluğu olmur və bunun da nəticəsində onun yaddaşı daha iti olur. Peyğəmbər səhər erkən oyanmağı və gündəlik işləri erkən vaxtı yerinə yetirməyi tövsiyə etmişdir. O, hədislərinin birində buyurur: "İlahi, ümmətimin obaşdanlığını bərəkətli et."[206]

**9. Hədis üsuluna önəm vermək.**

Hədis öyrənən şəxs gərək təkcə hədisləri öyrənməklə kifayətlənməsin, eyni zamanda, onun əsaslarını, tarixini və digər elmlərlə olan əlaqəsini də öyrənsin. Bu işdə o, öz dilində və ya ərəb dilində olan mötəbər kitablardan istifadə etsin, qüvvəli ustad yanında bu elmin bütün təfərrüatlarına bələd olsun. Çünki hədis elminin əsaslarını bilməyən şəxs hədisin səhihini zəifindən seçə bilməz və bunun da nəticəsində böyük yanlışlıqlara yol verə bilər.

**10. Müəllimi bezdirməmək.**

---

[202] Əbu İsa ət-Tirmizi. Sünənüt-Tirmizi. VI c. s. 188. Hədis № 3895.

[203] Ebu Davud es-Sicistani. Süneni-Ebu Davud teceme ve şerh. 16 cilddə. XIII c. s. 265. Hədis № 3658.

[204] Əli Əkbər Babazadə. İslamda evlənmə və ailə hüququ. Bakı, 1999. s. 65.

[205] Məhəmməd Nasirüddin əl-Albani. Səhihül-cami. Məktəbətül-islami, 1408/1988. 2 cilddə. s. 578. Hədis № 3011.

[206] Xətib əl-Bağdadi. əl-Cami li-əxlaqir-ravi və adabüs-sami. 2 cilddə. II c. s. 149. Hədis № 187; Əbu İsa ət-Tirmizi. Sünənüt-Tirmizi. II c. s. 500. Hədis № 1212.

Hədis öyrənən şəxs gərək müəllimini artıq və yersiz suallarla bezdirməyə. O, ustadına yalnız lazımı sorğuları verə və ustadın hər cavabından sonra ona dərin təşəkkür edə.

**b) Hədis öyrədənin adabı:**

Hədis alimləri hədis öyrənən şəxsə məxsus ədəb qaydalarını qeyd etdikləri kimi, hədis ustadı üçün də müəyyən ədəb qaydaları olduğunu demişlər. Əlbəttə ki, burada hədis ustadının ədəbi dedikdə, onun elmi dünyagörüşündən başqa, tələbə ilə münasibətləri də nəzərdə tutulur. Hədis öyrədən şəxsə aid olan bəzi ədəb qaydalarından aşağıdakıları qeyd etmək olar:

**1. İxlas və gözəl əxlaq.**

Hədis öyrədən şəxs gərək gördüyü işi Allaha xatir və onun razılığını qazanmaq üçün yerinə yetirsin. Həmçinin hədis öyrədən gərək yüksək əxlaqi keyfiyyətləri özündə birləşdirsin və bununla da ictimaiyyətdə bir örnək sayılsın. Çünki əxlaqı yaxşı olmayan bir ustadın yanında olmaq, onun pis əxlaqi davranışlarını mənimsəmək heç də yaxşı nəticələr verə bilməz.

**2. Dünyəvi işlərdən qəlbini azad etmək.**

Hədis öyrədən şəxs yaxşı olar ki, dünyaya, şan-şöhrətə can atmaya. Çünki qəlbini belə şeylərdən təmizləməyən şəxs həmişə tələbələr qarşısında özünü təkəbbürlü və riyakar kimi göstərəcəkdir ki, bu da İslam əxlaqına zidd olan əməllərdəndir.

**3. Özündən üstün olan bir şəxsin yanında rəvayəti tərk etmək.**

Hədis ustadı gərək özündən üstün olan şəxslərə və ya ustadlara sayğı göstərsin və onların yanında danışmaqdan çəkinsin. Yəhya bin Məin (776-848) deyir: "Özündən daha üstün birinin yanında hədis rəvayət edən şəxs axmaqdır."[207]

**4. Qarşıdurma ehtimalı olduqda hədis rəvayətini dayandırmaq.**

Hədis ustadı əgər hədislərin sənədində və ya mətnində qarışdırmaq ehtimalını hiss etsə, rəvayətini saxlasın. Çünki onun etdiyi bu xəta tələbələrin də səhv öyrənməsinə səbəb ola bilər.

Həmçinin hədis ustadı qocalıq yaşına çatıbsa, kor, şil və bu kimi xəstəliklərə düçar olubsa, yaxşı olar ki, ustadlıqdan əl çəksin.

**5. Təharətli və təmiz qiyafəli olmaq.**

Hədis öyrədən şəxs yaxşı olar ki, dərs zamanı təharətli, dəstəmazlı və həmçinin xoş qiyafədə olsun. Hədis öyrədənin məclisin uca yerində oturub, məclisdə sakitlik yaratması da onun adabından biri sayılır.[208]

## 8.2. Hədis öyrətmə üsulları

Hədisşünaslara görə, hədis öyrətməyin üç üsulu vardır.

- **əs-Sərd** (oxuyub keçmə üsulu).

Əgər hədis müəllimi tələbəyə hədis öyrədən zaman hədislərə heç bir yöndən, məsələn fiqh, rical və lüğət yönündən açıqlama və izah verməzsə, buna "sərd" üsulu deyirlər.

- **Təriqül-həll vəl-bəhs** (açıqlanması lazım olan yerləri açıqlamaq).

Əgər hədis müəllimi öyrətdiyi hər hansı bir hədisdə tələbənin başa düşməyəcəyi bir məsələ varsa, gərək onları açıqlayıb şərh etsin. Həmçinin hədisdə tələbənin bilmədiyi yerlərə aydınlıq da gətirsin.

---

[207] Haris Süleyman əd-Dari. Muhadarat fi ülumil-hədis. s. 140.

[208] Həmin mənbə. s. 140; İsmail Lütfi Çakan. Hadis usulü. s. 51-53.

- **Təriqül-əman** (uzun uzadı açıqlama üsulu).

Bu üsul hədislərin çox geniş şəkildə izahını vermək üsuludur. Belə ki, bu üsuldan istifadə edən müəllim hədisdə keçən bütün kəlmələrin lüğəvi və istilahi mənalarını, onların sinonimlərini, ravilərin hallarını, qəbilələrini və yaşayışlarını, hədisdə yer alan şəri hökmləri, bir sözlə, hədisin ehtiva etdiyi bütün məsələləri açıqlamasıdır.[209]

## 8.3. Rəvayətin sifəti

Hədis kitablarında bu başlıq altında rəvayətin ləfzən və mənən edilməsi öyrənilir. Ümumiyyətlə, hədis alimlərinə görə, hədislər hədis kitablarına keçincəyə qədər iki şəkildə rəvayət edilmişdir:

**1. Ləfzən** (sözbəsöz).

Hədislərin ləfzən rəvayət edilməsi dedikdə, hədisin Məsumun dilindən çıxdığı kimi, yəni kəlmələrində heç bir dəyişikliyə yol vermədən rəvayət edilməsi nəzərdə tutulur. Peyğəmbər buyurur: "Allah bizdən bir hədis öyrənib və onu öyrəndiyi kimi başqalarına çatdıranın üzünü ağartsın." [210] Hədisdən belə məlum olur ki, Peyğəmbər hədislərin ləfzən rəvayət edilməsinin tərəfdarı olmuş və raviləri də buna təşviq etmişdir. Hətta mənbələrin verdikləri məlumata görə, Peyğəmbər öyrətdiyi bir duadakı "nəbi" kəlməsi yerinə "rəsul" kəlməsini işlədən Bərra bin Azibi (öl. 690) tənqid etmiş və nəbi kəlməsini deməsini buyurmuşdur.[211]

**2. Mənən** (mənaya görə rəvayət).

Hədislərin mənən rəvayəti dedikdə, hədisin Məsumun dilindən çıxdığı kəlmələrlə deyil, onun mənasını ifadə edən digər kəlmələr əsasında rəvayət edilməsi nəzərdə tutulur. Hədis alimləri məna ilə rəvayət etməyə etiraz etsələr də, bugünkü kitablarda olan hədislərin böyük əksəriyyətinin mənən rəvayət olması bir həqiqətdir. Həmçinin Məsumların özlərindən gələn hədislərdə də mənən rəvayətə icazə verilməsi açıq-aşkar görünür. Belə ki, Davud bin Fərqad nəql edir: "İmam Cəfər Sadiqə dedim: "Sizdən dinlədiyim bir sözü eyni olduğu kimi rəvayət etmək istəyirəm, lakin yadımdan çıxır. İmam buyurdu: "Bilərəkdən unudursan?" Dedim: "Xeyr!" Soruşdu: "Mənim sözlərimin mənasını söyləmək istəyirsən?" "Bəli", - deyə cavab verdim. Buyurdu: "Bunda heç bir nöqsan yoxdur."[212]

Həmçinin Məhəmməd bin Müslüm rəvayət edir: "İmam Sadiqə dedim: "Səndən hədis eşidirəm, sonra da buna bəzi sözləri artırır, bəzilərini də azaldıram." O, buyurdu: "Əgər mənanı qəsd edirsənsə, bunun eybi yoxdur."[213]

Hədisin məna ilə rəvayət edilməsini caiz bilən alimlər bəzi şərtlər irəli sürmüşlər. Həmin şərtlər aşağıdakılardır:

1) Hədisi mənən rəvayət edən şəxs, kəlmələrin anlamlarını yaxşı bilməlidir.
2) Dəyişdirdiyi kəlmələrin sinonimləri olmalıdır. "Qüud" yerinə "cülus" kimi.
3) Hədis "sifat" hədisləri kimi mütəşabeh olmamalıdır.
4) Hədisin əsli əzbərindədirsə, mənaya görə rəvayət doğru deyil.[214]

---

[209] İsmail Lütfi Çakan. Hadis usulü. s. 64-65.

[210] İbn Macə əl-Qəzvini. Sünəni-İbn Macə. Tərcümə və şərhi. Tərc: Haydar Hatipoğlu. İstanbul, Kahraman nəşriyyatı. Hədis № 232.

[211] Əhməd bin Hənbəl. Müsnəd. IV c. s. 285.

[212] Məhəmməd bin Yaqub əl-Küleyni. Üsulul-kafi. 6 cilddə. I cild. s. 81. Hədis № 141.

[213] Həmin mənbə. s. 80. Hədis № 140.

[214] İsmail Lütfi Çakan. Hadis usulü. s. 67.

# IX FƏSİL

# HƏDİSLƏRİN YAZILIB KİTAB HALINA SALINMASI VƏ MÖVZUSUNA GÖRƏ TƏSNİFİ

## 9.1. Hədislərin tədvini

Qeyd olunduğu kimi, hədis İslam dinində Qurani-Kərimdən sonra ikinci əsas mənbədir. Elə bu səbəbdəndir ki, hələ Peyğəmbərin dövründə hədisə böyük önəm verilmiş, yazılıb qorunmuş və gələcək nəsillərə ötürülməsinə böyük zəhmət sərf edilmişdir.

Təəssüflər olsun ki, hədislər ilk dövrlərdə rəsmi şəkildə yazılmamışdır. Əlbəttə ki, qeyri-rəsmi şəkildə olsa da, hədislər yazılmış və qorunaraq sonrakı dövrlərə ötürülmüşdür. Səhabələrin Peyğəmbərdən eşidib yazdıqları "Səhifə" deyə adlanan yazılar buna misaldır.

Hədislərin rəsmi tədvini, yəni yazılıb kitab halına salınması VIII əsrin əvvəllərinə təsadüf edir. Bu iş Əməvi xəlifəsi Ömər bin Əbdüləziz (717-719) tərəfindən rəsmiləşdirilmişdir. O, xəlifə təyin edildikdən bir müddət sonra hədisləri bilən səhabə nəslinin aradan getdiyini görüb və bununla da Peyğəmbər sünnəsinin məhv olmasından təlaşa düşərək hədislərin yazılıb bir araya toplanması haqqında rəsmi göstəriş vermişdi. Xəlifə hədislərin tədvin edilməsi üçün tabeçiliyində olan vali və əmirlərə məktublar göndərmiş və müxtəlif bölgələrdə yaşayan alimləri bu işə təşviq etmişdir. Onun göndərdiyi məktubların biri də Mədinə valisi Əbu Bəkr bin Həzmə olmuşdur. Müxtəlif hədis kitablarında mövcud olan məktubun mətni belədir:

"Peyğəmbərin hədislərindən nə varsa araşdır, topla və yaz! Mən elmin (hədislərin) yox olmasından və alimlərin tükənməsindən qorxuram. Bu iş həyata keçirilərkən, sadəcə, Peyğəmbərin hədisləri qəbul edilsin. Alimlər hər kəsə açıq olan yerlərdə oturub tədrislə məşğul olsunlar və elmi yaysınlar, bilməyənlərə öyrətsinlər. Çünki elm gizli qalmasa, yox olmaz."[215]

Xəlifəinin rəsmi göstərişindən sonra bölgə valiləri yazılan hədisləri dəftər halında xilafət mərkəzinə göndərmişlər. İbn Şihab əz-Zühri (674-740) rəvayət edir: "Ömər bin Əbdüləziz hədislərin toplanmasını əmr etdi. Biz də onu dəftər-dəftər yazdıq. Ömər bin Əbdüləziz hakimiyyəti altında olan hər bir yerə bunlardan bir dəftər yolladı."[216]

Əməvi xəlifəsinin rəsmi fərmanından irəli gələn bu işdə hədis yazanlar təkcə Peyğəmbərin deyil, o cümlədən, səhabə və tabeidən gələn xəbərləri də qələmə almışlar. Həmçinin hədisləri tədvin edən zaman onların bütün növünün ("səhih", "həsən", "zəif") bir-birlərindən fərqləndirmədən bir yerə toplamışlar.

## 9.2. Hədislərin təsnifi

Təsnif lüğətdə "sinifləndirmək", "eyni cünsdən olan şeyləri bir araya gətirib digər cinslərdən ayırmaq" mənalarındadır. Hədis elmindəki mənası isə hədisləri mövzularına görə ayırıb eyni mövzudakıları bir fəsil içində toplamaq deməkdir.[217]

Hədis tarixindən məlumdur ki, hədislər Peyğəmbərin dövründə səhabələr tərəfindən yazılmış ("kitabətül-hədis"), daha sonra isə xəlifə Ömər bin Əbdüləziz tərəfindən rəsmi fərmanla Zühri tərəfindən toplanıb kitab halına ("tədvinül-hədis") salınmışdır.

Hədislər tədvin edildikdən dərhal sonra təsnif dövrü başlamışdır. Çünki tədvin edilən hədis kitablarında hər hansı bir hədis axtarıb tapmaq çətin olduğundan təsnifə böyük ehtiyac hiss edilmişdir. Buna görə də hədisşünaslar yazılan kitablardakı hədisləri fiqhi fəsillərə görə təsnif etmişlər.

Fiqhi fəsillərə görə təsnif edilən hədis əsərlərinin bir qisminə "Sünən", bir qisminə "Camı", digər bir qisminə isə "Müsənnəf" adı verilmişdir. Bunlarla yanaşı, "Müsnəd" deyilən hədis əsərləri

---

[215] İbrahim Canan. Hadis usulü və hadis tarihi. s. 106-107.
[216] Həmin mənbə. s. 109.
[217] Talat Köçyigit. Hadis ıstılahları. Ankara, 1980. s. 429.

də vardır ki, bu qrup əsərlərdə yer alan hədislər fiqhi fəsillərə görə deyil, onları rəvayət edən səhabə adlarına və ya məşhur bir şeyxin rəvayətləri olaraq təsnif edilmişdir.

"Sünən" adı altında təsnif edilən hədis əsərlərində fiqhin müamilat, ibadət və s. mövzuları haqqında hədislər yer tutur.

"Cami"lər də sünən kitabları kimi fiqhi mövzuları əhatə edir. Amma camilər "Sünən"lərdən fərqli olaraq fiqhdən kənar şeyləri də, o cümlədən, Quranın fəzilətləri, Quranın təfsiri, Peyğəmbərin yaradılışı, keçmiş peyğəmbərlərin əhvalatlarından bəhs edən hədisləri də əhatəsinə alır.

"Müsənnəf"lər isə "Sünən"lərə çox oxşar hədis əsərləridir. Lakin onları "Sünən" və "Camı"lərdən fərqləndirən xüsusiyyət ehtiva etdikləri mövzuların "Sünən"lərdən çox, camilərdən az olmasıdır. Yəni, "Müsənnəf" adını daşıyan əsərlər "Sünən" adlı əsərlərə nisbətən daha artıq mövzuları, "Camı" adlı əsərlərə nisbətən isə daha az mövzuları ehtiva edir.

Hədis tarixində hədisləri ilk təsnif edən şəxslər haqqında məlumatlar vardır. Dirayə elminə aid ilk əsəri yazan alimlərdən biri olan Rəmahürmüzü (öl. 972) təsnif haqqında aşağıdakı məlumatı verir:

"Bildiyimə görə, hədisləri ilk dəfə təsnif edib fəsillərə ayıran kimsə, Bəsrədə ər-Rabi bin Şübeyl (öl. 846), Səd bin Əbi Arubə (öl. 773), Yəməndə Əhd deyə adlandırılan Xalid bin Cəmil və Mömər bin Raşid (öl. 770), Məkkədə İbn Cüreyc (öl. 767), Kufədə Süfyan əs-Səvri (716-778), Süfyan bin Üyeynə (öl. 814), Şamda əl-Vəlid bin Müslüm (öl. 811), Xorasan və Mərvdə Abdullah bin Mübarək (736-797) və b. olmuşdur."[218]

Məşhur hədisşünaslardan olan Əbu İsa ət-Tirmizi (824-893) hədislərin ilk təsnifinin VIII əsrdə olduğunu bildirdikdən sonra yazırdı: "Hədislərin təsnifinə çalışıb bu xüsusda rəhbərlik edən bir çox hədisşünas tanıyırıq: Hişam bin Həssan (öl. 764), Əbdülməlik bin Əbdüləziz bin Cüreyc (öl. 767), Malik bin Ənəs (712-795), Həmməd bin Sələmə (öl. 783), Abdullah bin Mübarək (736-797) və daha bir çox elm adamları müsənnəf əsərlər meydana gətirdilər. Beləcə, bunlar hədislərin təsnifində öndərlik etdilər."[219]

Əbu Talib əl-Məkki (öl. 986) təsnif ədəbiyyatının başlanğıcını belə müəyyən edir: "Bu müsənnəf kitablar 738-748-ci illərdən sonra ortaya çıxmışdır. İslamda ilk "Müsənnəf" əsərlərin İbn Cüreycin hədislərə dair kitabı ilə, Mücahid, Əta və İbn Abbasın müasirləri tərəfindən Məkkədə meydana gətirilən bəzi təfsir kitabları olduğu söylənilir. Sonra Mömər bin Raşid gözəl şəkildə və müəyyən fəsillər halında "Sünən" topladı. Malik bin Ənəs Mədinədə "əl-Müvətta"nı ortaya qoydu."[220]

Xülasə olaraq bunu demək kifayətdir ki, VIII əsrdə hədis alimləri müxtəlif adlar altında əsərlər meydana gətirmişlər. Ortalığa çıxan əsərlər əsasən iki ana sistem altında olmuşdur. Bunlardan biri, hədisləri rəvayət edən ravilərin adlarına görə ("ələr-Rical"), digəri isə mövzularına görə ("ələl-Əbvab") təsnif edilmişdir.

### 9.3. "Kitabət", "tədvin" və "təsnif" arasındakı fərq

Hədisşünaslar kitabət, tədvin və təsnif arasında olan fərqin olduğundan bəhs etmiş, adı çəkilən kəlmələrin ortaq mənasının "toplamaq" olduğunu bildirsələr də, bunların arasında sistem, zaman və məna baxımından müəyyən fərqlər olduğunu bildirmişlər.

Belə ki, **"Kitabət"** dedikdə, hər hansı bir səhabənin Peyğəmbərdən eşitdiyi hədisləri özü üçün yazıb bir araya gətirməsi nəzərdə tutulur. Deməli, hədislərin kitabəti zaman baxımından Peyğəmbər və səhabə dövrünə aiddir.

**"Tədvin"** dedikdə isə, müxtəlif səhabələr tərəfindən rəvayət edilmiş hədisləri yazıb bir araya toplamaqla yanaşı, başqa-başqa səhabələr tərəfindən yazılmış səhifələri toplayıb bir araya gətirmək nəzərdə tutulur. Hədislərin tədvini zaman baxımından VIII əsrin əvvəllərinə təsadüf edir.

---

[218] Həmin mənbə. s. 430.

[219] Ali Yardım. Hadis I-II. s. 51. (Əbu İsa ət-Tirmizinin "Sünən" (XIII clddə. Qahirə, 1931-1934) əsərinin XIII cildinin 304-305-ci səhifəsinə istinadən).

[220] Ali Yardım. Hadis I-II. s. 52.

**"Təsnif"** dedikdə isə, tədvin edilmiş hədislərin ya səhabə ravisinə, yaxud da ehtiva etdiyi mövzuya görə məlum bölüm və fəsillərdə toplanması nəzərdə tutulur. Hədislərin təsnifi zaman baxımından tədvindən dərhal sonra meydana çıxmışdır.[221]

Yuxarıda adı keçən terminlərdən və onlara verilən təriflərdən məlum oldu ki, hər bir terminin özünəməxsus tərifi və ortalığa çıxdığı zaman vardır. Hədislərin "kitabəti" (yazılması) səhabələrin yalnız Peyğəmbərdən eşidib yazdıqları hədislərdir. Onlar hətta bir-birlərindən eşitdikləri hədisləri də yazmayaraq yalnız Peyğəmbərdən dinlədiklərini qələmə almışlar.

Hədislərin tədvini isə kitabətdən sonra meydana gələrək tabeilərin səhabələrdən eşitdikləri hədisləri və həmçinin onların Peyğəmbərdən eşidib yazdıqları səhifələri bir araya toplayaraq kitab halına salmalarıdır.

Hədislərin təsnifi də həmin tədvin edilən kitablarda yer alan hədisləri mövzuya və ya səhabə adına görə fəsillərə (bablara) bölməkdir ki, bu da şübhəsiz, zaman baxımından tədvindən dərhal sonra olmuşdur.

[221] İbrahim Canan. Hadis edebiyatı. s. 16-17; Ali Yardım. Hadis I-II. s. 43-44.

# X FƏSİL

# HƏDİS ƏSƏRLƏRİNİN NÖVÜ VƏ BƏZİ MƏŞHUR HƏDİS ƏSƏRLƏRİ

## 10.1. Hədis əsərlərinin növləri

Hədis ədəbiyyatı tarixində VIII əsrin özünəməxsus yeri vardır. Çünki bu əsrdə iki mühüm məsələ - tədvin və təsnif məsələsi öz həllini tapmışdır. Belə ki, əvvəlcədən “Səhifələr” üzərində olan hədislər toplanılıb bir araya gətirilmiş və bunun ardınca da yığılan hədislər təsnif (mövzulara görə fəsillərə bölünməsi) edilmişdir.

Hədis tarixçiləri VIII əsrdə yazılan hədis əsərlərini beş qrupa bölmüşlər:

**- Siyər və Məğazi.**

Peyğəmbərin əxlaqına, şəmailinə, yaşayış tərzinə, qəzvələrinə və s. aid hədisləri ehtiva edən əsərə siyər və ya məğazi adı verilmişdir. Bu adla yazılan kitablarda Peyğəmbərin Məkkə və Mədinə şəhərlərindəki həyat tərzi, yaşayışı, hərəkət və davranışları, peyğəmbərlikdən öncəki və sonrakı bütün həyatını əhatə edən xəbərlər mövcuddur.

Siyər və məğazi adlı ilk əsərlərin yazılması VIII əsrin əvvəllərinə təsadüf edir. Belə ki, bu dövrdə İbn əl-Avvam (öl. 712), Ürvə bin Zübeyr (644-713) və başqaları yazmışlar.

**- Sünən.**

Əvvəldə qeyd etdiyimiz kimi, sünən adlı əsərlər fiqhi və ya əhkami hədisləri ehtiva edir. Bu əsərlərdə yer alan hədislər Peyğəmbərin söz, hərəkət və təqrirlərindən ibarət olan mərfu hədislərdir. Sünən adını daşıyan əsərlərdə hədislər əsasən təharət, namaz, oruc, həcc, cihad, cənazə, nikah, talaq, içkilər, tibb, libas və s. fəsillərdə bir araya toplanır.

İlk sünən əsəri yazanlar Məqhul bin Əbi Müslüm əş-Şami (öl. 731), Əbdüləziz bin Cüreyc (öl. 767) və başqaları olmuşdur.

**- Cami.**

Cami adını daşıyan əsər sünən kimi məlum fəsilləri ehtiva edən hədis əsərinə deyilir. Deməli, səkkiz fəsilləri ehtiva edən cami adlı əsər həm də digər dəyişik mövzuları, o cümlədən, Quranın fəziləti, təfsiri, Peyğəmbərin siyər və məğazisini və s. mövzuları da əhatə edir.

Cami adlı ilk əsəri Mömər bin Raşid (öl. 770) yazmışdı. Əsərin iki əlyazma nüsxəsi dövrümüzə qədər gəlib çıxmışdı.

“əl-Camiül-kəbir” və “əl-Camiüs-səğir” əsərlərini də ilk olaraq Süfyan əs-Səvri (716-778) yazmışdır.

**- Müsənnəf.**

Müsənnəf adı altında yazılan əsərlər sünənlərdən fərqlənmir. Bu əsərlərdə də hədislər fiqhi hökmlərə görə yerləşdirilmişdir. Müsənnəf adlı əsərlər camilər kimi hər mövzunu ehtiva etməsələr də, sünənlərdən fərqli olaraq camilərdə yer alan mövzuların bəzilərini özündə əks etdirmişdir.

VIII əsrdə yazılan müsənnəf adlı əsərlərin müəlliflərindən Həmmad bin Sələmə (öl. 784), Vəki bin Cərrah və digərlərini qeyd etmək olar.

Məşhur alim İbn ən-Nədim (935-990) “Fihrist” əsərində müsənnəflə sünəni eyni bilmişdir.

**- Kitab.**

Kitab adlı əsərlər müxtəlif mövzuları ehtiva edir. Bu mövzuda yazılmış əsərlərdən İbn Səid əs-Səvrinin (öl. 778) “Kitabül-fəraiz” və “Kitabüt-təfsir”, İbrahim bin Təhmanın (öl. 780) “Kitabül-mənaqib”ini qeyd etmək olar.

VIII əsrdə sünən və camilərdən fərqli, lakin müsənnəf əsərlərindən sayılan və fərqli bir adla yazılan kitablardan biri də “əl-Müvətta” əsəridir. Əsəri Malik bin Ənəs (712-795) yazmışdır.

Beləliklə, VIII əsrdə "Sünən" yazan ən məşhur şəxslərdən aşağıdakıları qeyd etmək olar:

Məqhul əş-Şami (öl. 731), İbn Cüreyc (öl. 767), Səd bin Əbi Ərubə (öl. 773), İbn Əbi Zib (öl. 779), İbrahim bin Təhman (öl. 780), Həmmad bin Sələmə (öl. 784), Abdullah bin Mübarək (736-797), İbn Əbi Zaidə (öl. 800), Hüseym bin Bəşir (öl. 800), əl-Vəlid bin Müslüm (öl. 812), Məhəmməd bin Füzeyl (öl. 812) və b.

Bu dövrdə yazılan "Cami" müəlliflərindən aşağıdakıları qeyd etmək olar:

Mömər bin Raşid (öl. 769), Əbdürrəzzaq bin Həmmam əs-Sinani (öl. 826) və b.

### 10.2. İmam Əli bin Hüseyn və "Səhifətüs-Səccadiyyə" əsəri

İmam Hüseynin oğlu İmam Əli daha çox əs-Səccad ("Çox səcdə edən") və Zeynülabidin ("İbadət edənlərin zinəti") ləqəbləri ilə tanınır. Bunlardan başqa, onun Züs-səfanat ("Qabarlar sahibi"), Zeynüssalehin ("Salehlərin zinəti") və Mənarül-qanitin ("Dua edənlərin işığı") adlı ləqəbləri də vardır. Sibt bin Cövziyə (1186-1256) görə, ona Zeynülabidin ləqəbini Peyğəmbər qabaqcadan vermişdir.[222]

İmam Zeynülabidin 659-cu ildə Mədinə şəhərində doğulmuşdur. O, Hüseyn bin Əlinin oğlu, Əli bin Əbi Talibin isə nəvəsidir. Buna görə də onun nəsil şəcərəsi Peyğəmbərin nəsil şəcərəsi ilə eynidir.

Onun Məhəmməd Baqir , Hüseyn əl-Əsğər, Əli, Abdullah, Zeyd, Əbdürrəhman, Məhəmməd əl-Əsğər, Həsən, Ömər, Süleyman, Xədicə, Ümmü-Gülsüm, Fatimə və Əliyyə adlı on beş övladı olmuşdur.

İmam Zeynülabidin Kərbəla faciəsində iştirak etmiş, lakin həmin anda İlahi təqdir əsasında xəstə olduğundan öldürülməyib Kufəyə, oradan da Şama əsir aparılmışdır. Onun Kufədə İbn Ziyadın və Şamda Yezidin məclislərində söylədiyi cəsarətli xütbələri Əməvi xilafətinin iç üzünü tanımaqda ən mühüm mənbədir. İmam Zeynülabidin İslam elmlərinin, xüsusilə də hədis və fiqh elmlərinin inkişafında müstəsna xidmətlər göstərmiş şəxsiyyətdir. Görkəmli rical alimi Şəmsəddin əz-Zəhəbinin (1274-1348) verdiyi məlumata görə, onadan aşağıdakı şəxslər hədis rəvayət etmişlər.

İmam Məhəmməd Baqir , Ömər, Zeyd, Abdullah, Zühri, Ömər bin Dinar, Hakim bin Üteybə, Zeyd bin Əsləm, Yəhya bin Səid, Əbu Zənad, Əli bin Cədan, Müslüm əl-Bətin, Həbib bin Əbi Sabit, Asim bin Abdullah, Asim bin Əmr bin Qətadə bin Neman, Əmr bin Qətadə, Qəqə bin əl-Həkim, Əbüləsvəd, Ürvə, Hişam bin Ürvə bin Zübeyr, Əbu Zübeyr əl-Məkki, Əbu Hazim əl-Ərəc, Abdullah bin Müslüm bin Hörmüz, Məhəmməd bin Furat ət-Təmimi, Mənhal bin Ömər və başqaları. Bundan başqa, hədis elmində xüsusi məqama malik olan Əban bin Təğlib və Əbu Həmzə əs-Somali İmamın ən yaxın tələbələri olmuşlar. Adı çəkilən bu və ya digər tələbələr ondan hədis, fiqh, təfsir və digər elmləri öyrənmişlər.

İmam Zeynülabidin Əməvi xəlifələri Müaviyə bin Əbi Süfyan (661-680), Yezid bin Müaviyə (680-683), Müaviyə bin Yezid (683-684), Mərvan bin Həkəm (684-685), Əbdülməlik bin Mərvan (685-705) və Vəlid bin Əbdülməlik (705-715) ilə həmmüasir olmuşdur.

Onun haqqında istər müasiri olmuş alimlər, istərsə də ondan sonra gələnlər həmişə yaxşı sözlər demiş, onun elm və təqvada hamıdan öndə olduğu vurğulanmışdır. Beləliklə, onun haqqında Zührünün « **مَا رَأَيْتُ قرشياً أَفْضَلُ مِنْه** » ("Qüreyşdə ondan üstün birini görmədim"), Səid bin Müsəyyibin « **مَا رَأَيْتُ قَطُّ أَفْضَلَ مِنعَلِيِّ بْنِ الْحُسَيْنِ** » ("Əli bin Hüseyndən daha üstün olan birini heç vaxt görməmişəm"), Malik bin Ənəsin « **سُمِّيَ زَيْنِ الْعَابِدِينَ لِكَثْرَةِ عِبَادَتُهُ** » ("Çox ibadət etdiyinə görə Zeynülabidin adlanır"), Süfyan bin Üyeynənin « **مَا رَأَيْتُ هَاشِمِيّاً أَفْضَلَ مِنْ زَيْنِ الْعَابِدِينَ وَ لاَ أَفْقَهُ مِنْهُ** » ("Haşimilər içində Zeynülabidindən daha fəzilətli və daha düşüncəli birini görmədim") və Məhəmməd bin İdris əş-Şafeinin « **أَفْقَهُ أَهْلِ الْمَدِينَةِ** » ("O, Mədinənin ən fəqih adamı idi") sözləri İmamın məqamının bütün məzhəblər yanında ali olduğunu göstərir. Bundan əlavə, Peyğəmbərin məşhur səhabəsi Cabir bin Abdullah əl-Ənsarinin (öl. 697) onun haqqında Peyğəmbərdən hədis nəql etməsi İmamın məqamının daha da yüksək olduğunu bildirir. Cabir rəvayət edir: "Mən

---

[222] Sibt bin əl-Cövzi. Təzkirətül-xəvvas. s. 324.

Peyğəmbərin yanında oturmuşdum. Hüseyn bin Əli Peyğəmbərin otağında idi və onunla oynayırdı. Bu zaman Peyğəmbər mənə dedi: "Ey Cabir! Onun Əli adında oğlu olacaqdır. Qiyamət günü carçı onu Zeynülabidin deyə çağıracaqdır. Onun da Məhəmməd adlı oğlu olacaqdır. Məndən ona salam deyərsən."[223]

İmam Zeynülabidinin söylədiyi dualar "Səhifeyi-Səccadiyyə" adlı əsərdə toplanmışdır. Əsərin sənədi çox etibarlı olub Əbülhəsən Məhəmməd bin Həsən Əhməd əl-Ələvi əl-Hüseyn vasitəsilə Yəhya bin Zeyd bin Zeynülabidinə yetişir. Bundan əlavə, əsər İmam Zeynülabidinin oğlu İmam Məhəmməd Baqirin və nəvəsi İmam Cəfər Sadiqin hüzurunda yazılmışdır ki, bu da onun sənədinin çox qüvvəli olduğuna bir dəlildir. Onu İmam Saccad İmam Baqir və qardaşı Zeyd bin Əliyə verib, onlar da üzündən iki nüsxə yazmışlar. Beləcə, qoruyaraq Zeyd əlindəki nüsxəni Mütəvəkkil bin Haruna vermişdir. Mütəvəkkil İmam Sadiqin səhabələrindəndir və deyir: "Mən on bir duanı itirmişəm, amma 64-nü rəvayət edirəm." Mütəvəkkil özündəki nüsxəni İmam Sadiqə göstərmiş, o da İmam Baqirin nüsxəsi ilə müqayisə edib onlarda bir fərq görməmişdir. Onun indiki versiyasında 75 duadan 54-ü qalmışdır. Buna əsasən 75 duadan 21-i düşmüşdür. "Səhifeyi-Səccadiyyə" ən çox əlyazması olan hədis kitablarındandır. Belə ki, İranda onun 3000 əlyazması var. Əlyazmaların çoxu Əllamə Məclisinin (1628-1700) əlyazmasının üzündən yazılıbdır və buna görə də onlarda gözə çarpan bir fərqlilik yoxdur. Əllamə Məclisi özü yazdığı səhifənin sənədini 650 yolla bilirmiş.[224] Bunlara baxmayaraq, "Səhifeyi-Səccadiyyə"nin fəsahət və bəlağəti o qədərdir ki, onu məsum olmayan birinin belə bir əsər yazması mümkünsüz görünür.

"Səhifeyi-Səccadiyyə" əsərinin İslam aləmində "Ali-Məhəmmədin Zəburu", "Quranın qardaşı" və "Əhli-beytin İncili" kimi məşhur adları da vardır.[225] Bu da onun Qurani-Kərimdən və "Nəhcül-bəlağə" əsərindən sonra necə bir yerə sahib olduğunu ortaya qoyur. Görkəmli İslam alimi Seyid əs-Sədr (1856-1935) əsər haqqında yazırdı: "Biz bu əsərlə fəxr edirik."[226]

Əsər İslam alimləri tərəfindən şərh edilmiş və bir neçə dəfə doğma dilimizə tərcümə olunmuşdur. Onun ən məşhur şərhi Əllamə Seyid Əli Xan Hüseyni əl-Mədəni əş-Şirazinin yazdığı "Riyazüs-salikin fi şərhi səhifəti Seyyidis-Sacidin"dir. Müəllif əsəri ərəb dilində yüksək səviyyədə şərh etmişdir. Onun şərhi "İslami nəşrlər müəssisəsi" tərəfindən yeddi cilddə nəşr olunmuşdur. Bundan başqa, əsərin onlarla fars dilinə tərcümə və şərhləri vardır. Onlardan Seyid Əli Təqi Feyzülislamın tərcümə və şərhini, Sədrəddin əl-Bəlağinin, Əbdülməcid Ayətinin, Cavad Fazilin, Mirzə Əbülhəsən Şiraninin, Məhəmməd Cəfər İmaminin və başqalarının şərhlərini misal göstərmək olar.

Bütün bu deyilənlərdən əlavə, hədisşünaslar İmam Zeynülabidinin başqa mənbələrdə olan dualarını da bir araya toplamış və beləliklə, "Müstədrəküs-səhifətis-Səccadiyyə" adlı əsərlər meydana gətirmişlər. Onlardan aşağıdakıları qeyd etmək olar:

1. Əllamə Seyid Möhsün Əmin əl-Amilinin (öl. 1953) "Səhifətüs-Səccadiyyə" əsəri. Müəllif burada İmama aid 183 dua toplamışdır.
2. Seyid Məhəmməd Bağır Müvəhhid əl-İsfahaninin "əs-Səhifətüs-Səccadiyyətil-camiə" əsəri. Müəllif burada İmamın 270 duasını bir araya toplamışdır. Əsər Qumda "Müəssiə İmam Mehdi " nəşriyyatında çap olunmuşdur.[227]

Xatırladaq ki, "Səhifeyi-Səccadiyyə" təkcə dua, münacat və Uca Allahdan hacət istəməkdən ibarət deyil. Eyni zamanda, onda siyasi, ictimai, mədəni və əqidəvi məsələlər də vardır. İmam Səccad öz duaları əsnasında dəfələrlə siyasi məsələlərə, xüsusilə də, imamət və İslam cəmiyyətinin rəhbərliyi məsələsinə toxunmuşdur.

---

[223] Hədisi İbn Kəsir "əl-Bidayə vən-nihayə" əsərinin IX cildində qeyd etmişdir.
[224] Əllamə əl-Məclisi. Biharül-ənvar. CX c. s. 61.
[225] əs-Seyyid Əlixan əl-Mədəni əş-Şirazi. Riyazüs-salikin fi şərhi səhifəti Seyyidis-Sacidin. 6 cilddə. I c. Qum, Müəssisətu nəşril-islami, s. 5.
[226] Seyid əs-Sədr. Təsisüş-şiə. s. 284.
[227] Əsər haqqında geniş məlumat üçün bax: Seyid Məhəmməd Bağır əs-Sədrin "əs-Səhifətüs-Səccadiyyə" və Xomeyninin "əl-Vəsilətül-İlahiyyə" əsərlərinə.

İmam Zeynülabidin 715-ci (və ya 713-cü) ildə Vəlid bin Əbdülməlikin göstərişilə zəhərləndirilib şəhid edilmişdir. Onun mübarək nəşi Mədinədə Bəqi qəbristanlığında torpağa tapşırılmışdır.

## 10.3. Malik bin Ənəs və "əl-Müvətta" əsəri

Hədisşünaslığın ən görkəmli simalarından biri Malik bin Ənəsdir. O, 711-ci ildə Mədinədə doğulmuşdur.

Malik bin Ənəs haqqında Məhəmməd bin İdris əş-Şafei (767-820) yazırdı: "Malik Allah-Təalanın tabeilər təbəqəsindən sonra bəndələrinə höccət olaraq göndərdiyi bir insandır."[228]

Digər məşhur hədisşünaslardan olan Əhməd bin Şüeyb ən-Nəsai (830-915) onun haqqında yazırdı: "Malikdən daha əsil, daha böyük, daha etimadlı, hədis baxımından daha əmniyyətli və zəif ravilərdən daha az rəvayət edən birini görmədim."[229]

Malik bin Ənəs 795-ci ildə Mədinədə vəfat etmişdir.[230]

"əl-Müvətta" əsərinə gəldikdə, bu, Malikin ən məşhur əsəridir. Əsərin ərəbcədən adı "hamı üçün anlaşılan" mənasındadır. Burada Peyğəmbərin hədisləri, səhabə sözləri və tabeilərin fətvaları toplanmışdır. Bəzi rəvayətlərə görə, Malik "əl-Müvətta" əsərini yazdığı zaman Abbasi xəlifəsi Mənsur (754-775) camaatı əsəri oxuyub onunla əməl etməyə məcbur ətmək istəmiş, lakin Malik bunu doğru qəbul etməmişdir.[231]

Mənbələrin verdiyi məlumatlara görə, Malik bin Ənəs "əl-Müvətta" əsərini qırx ilə yazmış və tamamladıqdan sonra Mədinədə yetmiş fəqihə göstərərək, onların bu barədə rəyini öyrənmişdir.

"əl-Müvətta"nı müəllifdən otuzdan artıq tələbəsi rəvayət etmişdir.

Malik tərtib etdiyi əsərini hər il gözdən keçirmiş və bəzi hədisləri çıxarmışdır. Hazırda əlimizdə olan əsərdə 1720 hədis vardır.

"əl-Müvətta"nın "Kütubi-sittə" sıralarına daxil olmamasının səbəbini onun hədis kitabından daha çox fiqh kitabı olmasına və oradakı hədislərin az qisminin Peyğəmbərdən nəql olunmasıdır.

"əl-Müvətta" əsəri müxtəlif dövrlərdə şərh edilmişdir. Onun üzərinə yazılan şərhlərdən Cəlaləddin Süyutinin "Tənvirül-həvalıq", Zürqaninin, "Şərhül-Müvətta", Əbülvəlid Süleyman bin Xələf əl-Malikinin isə "əl-Müntəqa" əsərini göstərə bilərik.

Malik bin Ənəsin bu məşhur əsəri Muxtar Böyükçinarın rəhbərliyi altında bir qrup alimlər tərəfindən türk dilinə tərcümə edilmişdir.

## 10.4. Əbdürrəzzaq bin Həmmam əs-Sənani və "əl-Müsənnəf" əsəri

Əbu Bəkir Əbdürrəzzaq bin Həmmam bin Nafi əs-Sənani 744-cü ildə Sənada doğulmuşdur. O, Yəmənin böyük hədisşünaslarındandır.

Əbdürrəzaq bin Həmmam Mömər bin Raşid (öl. 729), İbn Cüreyc (öl. 767), əl-Əvzai (öl. 775), Süfyan əs-Səvri (716-778), Süfyan bin Üyeynə (öl. 813) və Malik bin Ənəs (öl. 795) kimi məşhur hədisşünaslardan hədis öyrənmiş[232] onun özündən isə Əhməd bin Hənbəl (öl. 855), Yəhya bin Məin (öl. 847), İshaq bin Rahuyə (öl. 852) və Əli bin Mədini (öl. 849) kimi alimlər dərs almışlar.

Əbdürrəzzaq bin Həmmam 815-ci ildə gözlərini itirmişdir.

Yəhya bin Məin deyir: "Əgər Əbdürrəzzaq irtidad etmiş olsaydı, biz yenə onun hədislərini tərk etməzdik."[233]

Əbdürrəzzaqın günümüzədək gəlib çatan və on bir cild halında nəşr edilən ən məşhur əsəri "əl-Müsənnəf"dir. Əsər hədisşünaslar tərəfindən yüksək səviyyədə qiymətləndirilmişdir. Şəmsəddin

---

[228] Sübhi es-Salih. Hadis ilimleri ve hadis ıstılahları. Çev.: Yaşar Kandemir. İstanbul, İFAV Yayınları, 1991. s. 321.
[229] Həmin mənbə. s. 322.
[230] Həmin mənbə. s. 322.
[231] Həmin mənbə. s. 321.
[232] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. İstanbul, Akçağ Yayınları, 1998. s. 49.
[233] Şəmsəddin əz-Zəhəbi. Mizanül-etidal. II c. s. 612.

Zəhəbi (1274-1348) əsəri “Elm xəzinəsi” adlandırmışdır.[234] Əsər 1970-ci ildə Beyrutda nəşr edilmişdir.[235]

Əsərdə yer alan hədislərin sayı 21033-dür. Onun X cildinin 379-cu səhifəsindən XI cildinin sonuna qədər olan hissəsi Mömər bin Raşidin “Cami” əsərinin hədisləridir.[236] Əsərin “Cami” olan hissəsindəki hədislər çıxarılarsa, orada 19418 hədis qalacaqdır.[237]

Əsər “Kitabüt-təharət” ilə başlayır, “Kitabül-heyz”, “Kitabüs-salat”, “Kitabül-cümə”, “Kitabu fəzailil-Quran”, “Kitabül-cənaiz” kimi ibadətə aid bölümlərdən sonra,“Kitabül-fəraiz”, “Kitabu-əhli-kitabeyn” adlı bəhslərlə davam edərək Mömər bin Raşidin “Cami” əsərinə yetişir.

Əbdürrəzzaq bin Həmmam 826-cı ildə vəfat etmişdir.[238]

### 10.5. İshaq bin Rahuyə (Rahaveyh) və “əl-Müsnəd” əsəri

İshaq bin İbrahim “İbn Rahuyə” deyə daha məşhurdur. Çünki mənbələr onun valideyninin Məkkəyə gedərkən yolda doğulduğunu, Mərvəzilər də yolda doğulan uşağa İbn Rahaveyh dediklərini rəvayət edirlər.[239] İbn Rahuyə 778-ci ildə doğulmuşdur.[240]

“Şeyxül-Məşriq” və “İmamül-kəbir” ləqəblərilə məşhur olan İbn Rahuyə, Buxari və Müslüm kimi hədisşünasların ustadı olmuş və bunlardan başqa digər görkəmli şəxsiyyətlərin də yetişməsində böyük xidmətlər göstərmişdir.

Bütün əsrlərdə müsəlman ümməti içərisində böyük şöhrəti olan İbn Rahuyə haqqında dövrün alimləri, tanınmış şəxsiyyətləri dəyərli fikirlər söyləmişlər. Belə ki, İbn Hibban (884-965) “əs-Siqat” adlı əsərində belə yazırdı: “İshaq fiqh elmi baxımından dövrünün böyüklərindəndir. O, kitablar yazmış, hədisləri bölümlərə ayırmış, Peyğəmbərin sünnəsinin müdafiəçisi olmuş, müxalifləri sındırmışdı. Buxarinin əzmkarlığını qüvvətləndirən, səhih hədisləri toplama əzmini onda canlandıran o olmuşdur.”

İbn Rahuyənin “əl-Müsnəd” əsəri dövrümüzədək gəlib çıxmış və bir neçə dəfə nəşr edilmişdir. Əsərdə 1272 hədis vardır.

İshaq bin Rahuyə 852-ci ildə vəfat etmişdir.[241]

### 10.6. Məhəmməd bin Həsən əs-Səffar əl-Qummi və “Bəsairüd-dərəcat” əsəri

Şeyx Əbu Cəfər Məhəmməd bin Həsən bin əl-Furux əs-Səffarın doğum tarixi məlum deyil. O, hədis və fiqh ədəbiyyatı tarixinin ən nüfuzlu alimlərindən biri olmaqla yanaşı, çoxsaylı əsərin müəllifi olmuş, minlərlə hədis nəql etmiş hədisşünaslardandır. Mənbələrin verdiyi məlumata görə, İmam Həsən əl-Əskərinin (845-873) sədaqətli səhabələrindən olmuş Həsə əs-Səffar İmamdan bir çox şəri məsələlər də nəql etmişdir.

Məhəmməd bin Yaqub əl-Küleyni (876-941) hədisdə ona çox etimad etmiş və buna görə də “Üsulül-kafi” əsərində ondan hədislər nəql etmişdir. Bütün riçal kitablarında mötəbər və əmanətdar ravi kimi xarakterizə edilən Həsən əs-Səffar haqqında Əhməd bin Əli ən-Nəcaşi (öl. 1057) yazırdı: “Qumlular içində qədir-qiymətli və etibarlıdır.”[242]

Həsən əs-Səffar dövrünün bir çox alimlərindən, o cümlədən, İbrahim bin İshaq, İbrahim bin Məhəmməd, İbrahim bin Haşim, Əbülfəzl əl-Ələvi, Əhməd bin İshaq bin Səd, Əhməd bin Əbu Abdullah əl-Bərqi, Əhməd bin Zəkəriyya, Əhməd bin məhəmməd bin Xalid əl-Bərqi və başqalarını qeyd etmək olar.

---

[234] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 240.
[235] Həmin mənbə. s. 50.
[236] Həmin mənbə.
[237] Həmin mənbə. s. 51.
[238] Ali Akyüz. DİA. 44 cilddə. I c. İstanbul, 1988. s. 298.
[239] Ali Özek. Hadis ricalı. s. 100.
[240] Şəmsəddin əz-Zəhəbi. Siyər alamın-nübəla. 24 cilddə. XI c. Beyrut, Müəssisətür-risalə, 1422/2001. s. 358.
[241] Həmin mənbə. 358.
[242] ən-Nəcaşi. ər-Rical. s. 354. Ravi № 948.

Bundan əlavə, Həsən əs-Səffardan Şeyx Əbülhəsən Əli bin Babəveyh, Məhəmməd bin Yəhya əl-Əttar və digər tələbələri hədis nəql etmişlər.

İslam ilahiyyatının bir çox sahələrində əsər yazmış Həsən əs-Səffarın "Bəsairüd-dərəcat", əl-Vüzu", "ət-Ticarat", "əl-Məkasib", "əs-Seyd vəz-zəbaih", "əd-Diyat", "əz-Zəbaih", "əl-Məkasib", "əş-Şəhadat" və s. əsərləri vardır.

"Bəsairüd-dərəcat" əsəri Əhli-beytin fəzilət və üstünlüklərinə həsr edilmiş, növzu ilə bağlı ayə və hədislər qeyd eilmişdir. Əsər müsəlman aləmində mötəbər mənbələrdən hesab edilmiş və haqqında bir çox tərifli fikirlər səsləndirilmişdir. Belə ki, Seyid məhəmməd Baqir əl-Ceylani əl-İsfahani yazırdı: "əs-Səffar hədis elminin ən böyük alimlərindən biri olmuşdur. Onun çoxsaylı əsərləri içində "Bəsairüd-dərəcat"ı misal göstəmək olar."[243]

Qeyd etdiyimiz kimi, Həsən əs-Səffar "Bəsairüd-dərəcat" əsərnidə Əhli-beytin fəzilətləri ilə yanaşı, onların elm və əxlaqından da bəhs etmiş, Əhli-beytin hər yöndən daha fəzilətli olduğunu isbat etməyə çalışmışdır. Mövzu ilə bağlı aşağıdakı bəzi hədisləri qeyd etmək olar:

"Əsbəğ bin Nübatə nəql edir: "Əmirəlmöminin buyurdu: "Əgər məhkəmə kürsüsü mənim üçün qoyula və mən onun üstündə oturam, sözsüz və şübhəsiz ki, Tövrat ardıcılları arasında Tövrat, İncil ardıcılları arasında onların İncil, Zəbur ardıcılları arasında Zəbur və Fürqan ardıcılları arasında da Fürqana uyğun hökm edəcəyəm; Allahın dərgahına ucalan və parıldayan bir hökm. And olsun Allaha, hər hansı bir ayə Allahın kitabında gecə və ya gündüz nazil olubsa, mən onun kimin barəsində nazil olduğunu bilirəm, Qüreyş qəbiləsindən elə bir şəxs yoxdur ki, həddi-buluğa yetişmiş olsun və Allahın kitabından onu Cənnət və ya Cəhənnəmə sövq edən bir ayə onun barəsində nazil olmasın."

Bir kişi ayağa qalxdı və soruşdu: "Ey Möminlərin Əmiri! Sənin barəndə hansı ayə nazil olubdur?"

İmam ona belə buyurdu: "Eşitməyibsən ki, Allah buyurur: "Allahın tərəfindən açıq-aşkar höccət və dəlillə olan bir kimsə və onun (özünkülərdən) olan bir şahid onun ardıcılıdır?" Allahın tərəfindən sübutu olan şəxs Peyğəmbərdir. Mən isə bu barədə onun şahidiyəm və onun arxasınca gedənəm."[244]

İmam Sadiq buyurmuşdur: "Əgər biz istək və nəfsimizə əsaslanıb insanlar üçün fətva versək, həlak olanlardan olarıq. Biz Peyğəmbərdən bizə gəlib çatmış, yanımızda olan və nəsilbənəsil bir-birimizə ötürdüyümüz, əmlakını toplayan tacirlər kimi öz elmimizi toplayır, onun əsasında insanlar üçün fətva veririk."[245]

Həmçinin İmam Sadiq Əhli-beyt məktəbi barədə belə buyurmuşdur: "And olsun Allaha, bizim yanımızda elə elm var ki, heç kimə möhtac deyilik. Ancaq bütün insanların bizə ehtiyacı var. Bizdə Peyğəmbərin dediyi və Əli bin Əbu Talibin yazdığı elə bir kitab var ki, uzunluğu yetmiş dirsəkdir. Onda Allahın bütün halal və haramı qeyd edilib."[246]

Həsən əs-Səffar 903-cü ildə vəfat etmişdir.[247]

## 10.7. Məhəmməd bin İsmayıl əl-Buxari və "əl-Camiüs-səhih" əsəri

Hədis ədəbiyyatı tarixində özünəməxsus yeri olan hədisşünaslardan biri Məhəmməd bin İsmayıl bin İbrahim əl-Buxaridir.[248] O, 810-cu ildə Buxarada doğulmuşdur. On yaşlarında hədis öyrənməyə başlamış, bölgəsində olan məşhur şeyxlərdən dini elmləri öyrəndikdən sonra dəfələrlə Şam, Misir, əl-Cəzirə, Bəsrə, Hicaz, Kufə, Bağdad kimi elmi mərkəzlərə səyahətlər etmişdir.

---

[243] Xatimə Müstədrəkil-vəsail. III c. 517.

[244] Həsən əs-Səffar. Bəsairüd-dərəcat. s. 132. Hədis, № 2.

[245] Həmin mənbə. s. 300.

[246] Həmin mənbə. s. 149.

[247] Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. XVI c. s. 213. Ravi № 10532; Həsən əs-Səffar. Bəsairüd-dərəcat. 2 cilddə. I cild. Beyrut, Şirkətül-Ələmi nəşriyyatı, 1431/2010. 12-18.

[248] əl-Əhadisül-qüdsiyyə. 2 cilddə. I c. Qahirə, Darül-mənar, 1421/2000. s. 10.

Buxari hələ gənclik yaşlarında ikən əsərlər yazmağa başlamış və on səkkiz yaşında "Tarixül-kəbir" əsərini yazmışdır. O, bu haqda belə deyir: "On səkkiz yaşına çatdıqda, səhabə və tabeinin fətva və sözlərini yazmağa başladım. Bundan sonra da "ət-Tarix"i Peyğəmbərin qəbri-şərifinin yanında mehli gecələrdə qələmə aldım."[249]

Onun "Tarixül-kəbir", "Tarixül-əvsət", "Tarixüs-səğır", "əl-Ədəbül-müfrəd", "Rəfül-yədeyn fis-səlat", "Xeyrül-kəlam fil-airaat xəlfəl-imam", "Birrül-valideyn", "ət-Təfsirül-kəbir lil-Quran", "Xəlqu əfalil-ibad", "Kitabül-iləl fil-hədis", "Kitabu müsnədil-kəbir", "Kitabül-vuhdan", "Kitabül-məbsut", "əd-Düəfa" və "Səhih" adlı əsərləri vardır.

Buxarinin qələmə aldığı əsərlər içərisində hədis toplusu olan "əl-Camiüs-səhih" xüsusi yer tutur. Əsərin tam adı "əl-Camiüs-səhihül-müsnəd min hədisi Rəsulillahi və sünənihi və əyyamihi"dir.[250] Əsər qısa olaraq "Səhihül-Baxari" adı ilə məşhurdur.

Deyilənə görə o, əsərini İshaq bin Rahuyənin (778-853) ona: "Peyğəmbərin səhih hədislərini müxtəsər bir kitabda toplasaydın" deməsindən sonra yazmağa başlamışdır.[251]

Mənbələrə görə, Buxari "Səhih" adlı əsərini 16 il müddətində 600 min hədis içərisindın seçib yazmışdır.[252] Əsərini tamamladıqdan sonra dövrünün böyük hədisşünaslarından olan Əhməd bin Hənbələ (778-855), Yəhya bin Məinə (776-848), Əli bin əl-Mədiniyə və digər şəxslərə göstərmiş və onların müsbət rəyini öyrənmişdir.

Hədis ədəbiyyatı tarixində "Səhihül-Buxari"nin ən səhih hədis kitabı olduğu deyilmişdir. Lakin buna baxmayaraq, Əli bin Ömər əd-Dəraqütni (919-998), İbn Qəyyim əl-Cəvziyyə (1292-1349) və Seyid Şərəfuddin əl-Amili (1873-1957) "Səhihül-Buxari"də bəzi zəif hədislərin olduğunu demişlər.[253]

Buxari əsərini tərtib edən zaman fiqhi mövzuları əsas almış, fəsil (bab) başlıqlarını fiqhi hədislərə görə tənzimləmişdir. "Səhihül-Buxari" üzərində aparılan tədqiqiatlar əsərdə 97 böyük (kitab) və 3730 kiçik fəslin (bab) olduğunu göstərir.[254]

Əsərdə yer alan hədislərin sayına gəldikdə, alimlər bu mövzuda ixtilaf etmişlər. Belə ki, İbn Həcərə əl-Əsqəlaniyə (1372-1449) görə, əsərdə təkrarı ilə birlikdə 7397 hədis vardır, ancaq bura "müəlləq", "məvquf" və "məqtu" hədislər daxil deyildir.[255] Lakin alimlərin çoxunun gəldiyi qənaət budur ki, Buxarinin əsərində təkrarilə birlikdə 9082, təkrarsız isə 4000-ə yaxın hədis vardır.[256]

"Səhihül-Buxari" əsəri aşağıdakı mövzuları əhatə edir:

1. "Bədül-vəhy." 2. "İman." 3. "Elm." 4. "Vüzu." 5. "Qüsl." 6. "Heyz." 7. "Təyəmmum." 8. "Salat." 9. "Məvaqitüs-salat." 10. "Azan." 11. "Cümə." 12. "Salatül-xauf." 13. "Salatül-eydeyn." 14. "Vitr." 15. "İstisqa." 16. "Küsuf." 17. "Sücudul-Quran." 18. "Təqsirüs-salat." 19. "Təhəccüd." 20. "Salat fi məscidi Məkkə." 21. "Əməl fis-salat." 22. "Səhv." 23. "Cənaiz." 24. "Zəkat." 25. "Həcc." 26. "Ümrə." 27. "Mühsər." 28. "Cəzaüs-səyd." 29. "Fədailül-Mədinə." 30. "Səvm." 31. "Salatüt-təravih." 32. "Fəzli leylətil-Qədr." 33. "İtikaf." 34. "Buyu." 35. "Salam." 36. "Şufa." 37. "İcarə." 38. "Xəvalat." 39. "Kəfalət." 40. "Vəkalət." 41. "Hərş və Müzarəə." 42. "Şurb." 43. "İstiqraz və ədaud-duyun." 44. "Xusumat." 45. "Luqata." 47. "Məzalim və qəsb." 47. "Şərikə." 48. "Rəhn." 49. "İtq." 50. "Mükatəb." 51. "Hibə." 52. "Şəhadət." 53. "Sülh." 54. "Şurut." 55. "Vəsaya." 56. "Cihad və siyər." 57. "Fərzül-xüms." 58. "Cizyə." 59. "Bədül-xəlq." 60. "Ənbiya." 61. "Mənaqib." 62. "Fəzailüs-səhabən-Nəbiyyi." 63. "Mənaqibül-Ənsar." 64. "Məğazi." 65. "Təfsirül-Quran." 66. "Fəzailül-Quran." 67. "Nikah." 68. "Talaq." 69. "Nəfəqat." 70. "Ətimə." 71. "Əqiqə." 72. "Zəbaib." 73. "Əzahi." 74. "Əşribə." 75. "Mərzə." 76. "Tibb." 77. "Libas." 78.

---

[249] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 182.

[250] Həmin mənbə. s. 182.

[251] İsmail Lütfi Çakan. Hadis edebiyatı. İstanbul, İFAV Yayınları, 1997. s. 54.

[252] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 183.

[253] Həmin mənbə. s. 189; Şərafəddin əl-Amili. Saxta hədislərin yaranması. Tərc: İ. Əhmədov. Bakı, I çap, s. 78.

[254] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 55.

[255] Həmin mənbə. s. 55.

[256] Həmin mənbə. s. 55.

“Ədəb.” 79. “İstizan.” 80. “Dəvat.” 81. “Riqaq.” 82. “Qədər.” 83. “Əyman və nuzur.” 84. “Kəffarat.” 85. “Fəraiz.” 86. “Hüdud.” 87. “Diyat.” 88. “İstitabətül-mürtəddin.” 89. “İkrah.” 90. “Hiyəl.” 91. “Təbirür-rüya.” 92. “Fitən.” 93 “Əhkam.” 94. “Təmənni.” 95. “Əxbarül-ahad.” 96. “İtisam bil-kitab vəs-sünnə.” 97. “Tövhid.”[257]

“Səhihül-Buxari” üzərinə çoxsaylı şərh yazılmışdır. İlk şərhi əl-Xəttabi (öl. 998) “İlamüs-sünən”i yazmışdır.[258] Katib Çələbiyə (1609-1657) görə, Buxarinin “Səhih”i üzərinə 82 şərh yazılmışdır. Amma Katib Çələbidən sonrakı şərhlər də bir yerə toplansa, bunun 100-dən artıq olduğu məlum olacaqdır.

Bunların arasında Kirmaninin (öl. 1384) “əl-Kəvakibüd-dürər”, İbn Həcər əl-Əsqəlaninin (1372-1449) “Fəthül-bari”, Əllamə Əhməd əl-Eyninin (1361-1451) “Ümdətül-qari” və Əhməd əl-Qəstəlaninin (1448-1517) “İrşadüs-sari” əsərləri daha məşhurdur.

Zeynəddin Əhməd bin Əhməd Əbdüllətif əz-Zəbidinin (öl. 1488) “ət-Təcridüs-sarih li əhadisil-camiis-səhihil-Buxari” əsəri isə “Səhihül-Buxari” üzərinə yazılmış ixtisar bir şərhdir.

Hədisşünaslığın ən qüdrətli nümayəndələrindən biri olan Məhəmməd bin İsmayıl əl-Buxari 870-ci ildə Buxarada vəfat etmişdir.[259]

### 10.8. Müslüm bin Həccac ən-Nisaburi və “əl-Camiüs-səhih” əsəri

Müslüm bin Həccac bin Müslüm əl-Qüşeyridir. 821-ci ildə Nişapurda doğulmuşdur.[260] O, kiçik yaşlarında ikən hədis öyrənməyə başlamış, hədis və digər elmləri öyrənmək üçün müxtəlif ölkələrə, o cümlədən Hicaz, Misir, Şam və İraq kimi hədis mərkəzləri yerləşən bölgələrə səyahətlər etmiş və öz dövrünün Buxari, Əhməd bin Hənbəl, İshaq bin Rahuyə və digər görkəmli hədisşünaslarından dərs almışdır.

Müslüm bin Həccac 874-cü ildə Nişapur şəhərində 55 yaşında vəfat etmişdir.[261]

Müslüm bin Həccacın yaradıcılığı çox zəngindir. Onun qələmə aldığı əsərlərdən “əl-Camiüs-səhih”, “Kitabül-iləl”, “Kitab əvhamil-mühəddisin”, “Kitab mən leysə ləhu illa ravin vahid”, “Kitab tabaqatüt-tabein”, “Kitabül-müxədrəmin”, “Kitabül-müsnədil-kəbir əla əsmair-rical”, “Kitabül-camil-kəbir əlal-əbvab”, “əl-Əsma və kuna”, “əl-Əfrad vəl-vuhdan”, “Əfradüş-Şamiyyin”, “ət-Təmyiz”, “Kitabu sualatihi Əhməd bin Hənbəl” və “Kitabu məşayixi-Malik”i qeyd etmək olar.[262]

Müslümün yazdığı bu və ya digər əsərləri arasında ən məşhuru “əl-Camiüs-səhih” əsəridir. O, əsərini “əl-Müsnədüs-səhih” adlandırmışdır.

Əsər “Səhihi-Buxari”dən sonra “Kütubus-sittə”nin ikinci pilləsini təşkil edir.

Müslüm sözügedən əsərini bablara (fəsillərə) ayırmamışdır. Hazırda onun əsərindəki bab (fəsil) başlıqları ən-Nəvəvi (öl.1277) tərəfindən qoyulmuşdur.

Hədisşünaslar Müslümün “Səhih” əsərində təkrarı ilə birlikdə 7275, təkrarsız isə 3033 hədis olduğunu deyirlər.[263]

“Səhihi-Müslim” üzərinə çoxsaylı şərh yazılmışdır ki, onların müəlliflərindən Qazi İyaz əl-Yəhsubi (öl. 1449), Əbu Zəkəriyya Yəhya bin Şərəf ən-Nəvəvi, Abbas Əhməd bin Ömər əl-Qürtubi (öl. 1258) və başqalarını qeyd etmək olar.

### 10.9. Əbu İsa ət-Tirmizi və “əs-Sünən” əsəri

İsa bin Surə ət-Tirmizi 815-ci ildə Ortya Asiya şəhərlərindən olan Tirmizdə doğulmuşdur.[264] Onun künyəsi Əbu İsadır.

---

257 Talat Koçyigit. Hadis ıstılahları. Ankara, Ankara Universitesi basım evi, 1980. s. 67.
258 İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 59.
259 İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013. s. 204-217.
260 Hasan Cirit. Hadise giriş. İstanbul, Rağbet yayınları, 2013. s. 167.
261 Sübhi es-Salih. Hadis ilimleri ve hadis ıstılahları. Çev.: Yaşar Kandemir. İstanbul, İFAV yayınları, 1996. s. 332.
262 Həmin mənbə. s. 331.
263 Hasan Cirit. Hadise giriş. s. 169.
264 Hasan Cirit. Hadise giriş. 173.

Tirmizi dövrünün bir çox böyük alimlərindən, o cümlədən Buxaridən, Məhəmməd bin Şakirdən və başqalarından hədis dinləmişdir. Hədis öyrənmək üçün kiçik yaşlarında səfərə çıxmış, İraq, Xorasan və Hicaza səyahətlər etmişdir.

İslam alimləri onun haqqında etibarlı ravi təbirini işlətsələr də, İbn Həzm (994-1064) və davamçıları Tirmizi haqqında "məchul" sözünü işlətmişlər.[265]

Tirmizinin əsərlərinə gəldikdə,onlardan aşağıdakıları qeyd etmək olar:

"Kitabül-iləl", "Kitabüş-şəmail", "Kitab əsmais-səhabə", "Kitabül-əsma vəl-küna" və s.

Bu əsərlərdən əlavə, onun şah əsəri hesab edilən "əs-Sünən" (və ya "əs-Səhih") əsərinin hədis ədəbiyyatı tarixində mühüm yeri vardır. Əsərə bəzən "əl-Camiüs-səhih"də deyilir.

Hədisşünaslar Tirmizinin "Sünən" əsərinə yüksək qiymət vermiş və onu "Kütubus-sittə"nin üçüncü pilləsində qərar vermişlər.[266]

Tirmizi əsərini 883-cü ildə tamamlamış, sonra isə onun haqqında demişdir: "Kimin evində bu kitab varsa, onun evində danışan bir peyğəmbər vardır."[267]

Əsər bütün böyük fəsilləri (kitab) ehtiva etdiyinə görə "əl-Cami" adlanmışdı. Onun sünən adlanması isə fiqhi fəsilləri (babları) əsas götürərək tərtib edildiyinə görədir. Məhz buna görə də alimlər onu bəzən "Səhihül-Buxari"yə bənzətmişlər. Çünki "Səhihül-Buxari"də olduğu kimi, burada da "Tərcümələr" vardır.

Tirmizinin adı çəkilən əsəri heç də yazıldığı dövrdə məşhurlaşmamış, yalnız XI əsrdən sonra şöhrət taparaq "Kütubus-sittə" sıralarına daxil edilmişdir. Məşhur alimlərdən olan Şah Vəliyullah əd-Dehləvi (1745-1824) Tirmizinin "əl-Cami" əsərinin aşağıdakı xüsusiyyətlərini sadalayaraq onu yüksək qiymətləndirmişdir:

- Tərtibi mükəmməldir, təkrar yoxdur.
- Fəqihlərin qənaətlərinə və istidlal üsullarına işarə edir.
- Hədislərin səhihlik vəziyyətini və problemlərini açıqlayır.
- Hədis ricalına dair dəyərli məlumatlar verir.[268]

Tirmizinin "Sünən" əsəri "ələl-əbvab" (fəsillər əsasında) tərtibə sahibdir. Məlumatlara görə, əsərdə 2496 kiçik fəsil (bab) vardır.[269] Əsər Əhməd Məhəmməd Şakirin (öl. 1958) təhqiqinə görə, 3956 hədisi ehtiva edir.[270]

"Sünənüt-Tirmizi"nin çoxlu şərhi vardır. Onlardan İbn əl-Ərəbi adı ilə məşhur olan Məhəmməd bin Abdullah əl-İşbili əl-Malikinin (öl. 1151) yazdığı "Ərizətül-əhvazi əla kitabit-Tirmizi", Məhəmməd Əbdürrəhman əl-Mübarəkfurinin (öl. 1934) qələmə aldığı "Tühfətül-Əhvəzi şərhu camit-Tirmizi"ni qeyd etmək olar.

Ömrünün sonlarına yaxın gözləri tutulan Əbu İsa ət-Tirmizi 892-ci ildə vəfat etmişdir.[271]

### 10.10. Əbu Davud əs-Sicistani və "əs-Sünən" əsəri

Əbu Davud Süleyman bin əl-Əşəs bin İshaq əl-Əzdi əs-Sicistani 817-ci ildə Sicistanda doğulmuşdur.[272] Kiçik yaşlarında İslam elmlərini öyrənməyə başlamış və dövrünün məşhur elm ocaqlarını, o cümlədən Nişapur, Xorasan, Mesopotamiya, İran, Suriya, Kufə, Ərəbistan, Misir kimi bölgələrdə hədis öyrənmişdir. O, səyahətləri zamanı dövrünün nəhəng hədis alimlərindən, həmçinin Əhməd bin Hənbəl, Süleyman bin Hərb, Yəhya bin Məin, Qüteybə bin Səid və digər hədisşünaslardan hədis dinləmişdir.

---

[265] İbrahim Canan. Hadis usulü ve hadis tarihi. s. 215.
[266] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 72.
[267] Sübhi es-Salih. Hadis ilimleri ve hadis ıstılahları. s. 332.
[268] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 74-75.
[269] Həmin mənbə. s. 72.
[270] Həmin mənbə. s. 72.
[271] Sübhi es-Salih. Hadis ilimleri ve hadis ıstılahları. s. 333.
[272] Hasan Cirit. Hadise giriş. s. 170.

Əbu Davud 888-ci ildə Bəsrədə vəfat etmişdir.[273]

Əbu Davud əs-Sicistaninin əsərlərinə gəldikdə, onlardan “ər-Rədd alə əhlil-qədər”, “Kitabün-nasix vəl-mənsux”, “əl-Məsail”, “Müsnədi-Malik” və “əs-Sünən”i göstərə bilərik.

Hədisşünasların verdikləri məlumata görə, Əbu Davudun “Sünən” əsərində 40 böyük, 1889 kiçik fəsil vardır.[274] Əsərdəki hədislərin sayına gəldikdə isə, mənbələr bunun 4800 olduğunu yazır.[275]

Əbu Davudun “Sünən” əsəri dünyanın müxtəlif bölgələrində, o cümlədən Qahirədə (1280 h/q.), Dehlidə (1283 h/q.), Heydərabadda (1321 h/q.) və digər bölgələrdə dəfələrlə nəşr edilmişdir. Həmçinin əsər müxtəlif alimlər, o cümlədən Əbu Süleyman əl- Xəttabi (öl. 998), Əbu Təyyib Məhəmməd Şəmsülhəqq əl-Əzimabadi, Mahmud Məhəmməd Xəttab əs-Sübki (öl. 1933) tərəfindən şərh edilmişdir.

### 10.11. Əhməd bin Şüeyb ən-Nəsai və “əs-Sünən” əsəri

Əbu Əbdürrəhman Əhməd bin Şüeyb ən-Nəsai 830-cu ildə Nəsədə doğulmuşdur.[276] Dövrünün İshaq bin Rahuyə, Əbu Davud əs-Sicistani və digər məşhur hədisşünaslardan hədis öyrənmək üçün müxtəlif bölgələrə, o cümlədən Xorasan, Hicaz, İraq, Misir, Şam, əl-Cəzirəyə səyahətlər etmişdir.

Nəsai 915-ci ildə Rəmlədə vəfat etmişdir.[277]

Nəsainin qələmə aldığı əsərlər içərisində heç sübhəsiz ki, “Sünən” əsərinin böyük yeri vardır. Müəllif əsərini ilk olaraq “əs-Sünənül-kəbir” adı altında yazmış, sonra isə əsərdə zəif hədislər də olduğundan onu ixtisar etmiş və səhih hədisləri oradan çıxararaq bir kitaba toplamışdı. “Sünəni-kəbir”dən ixtisar etdiyi əsərinə də “əl-Müctəba” adını vermişdir.[278]

Nəsainin tərtib etdiyi bu əsər “Kütubus-sittə” sıralarına daxil olmuş və bəzi alimlərə görə, Buxari və Müslümün “Səhih”lərindən sonra üçüncü yeri almış, hətta bəzi hədisşünaslara görə, Nəsai rical (ravi) tənqidində Müslümdən də sərt olmuşdur.[279]

Beləliklə, Nəsainin “Müctəba” əsəri 5700-ə yaxın hədisi ehtiva etməkdədir. Əsəri İbn Sünni deyə məşhur olan Əbu Bəkr Əhməd bin Məhəmməd bin İshaq rəvayət etmişdir.

“Müctəba”nı Cəlaləddin əs-Süyuti (1445-1505) “Zəhrür-ruba aləl-Müctəba” adı ilə şərh etmişdir.

### 10.12. İbn Macə əl-Qəzvini və “əs-Sünən” əsəri

“Kütubi-sittə” müəlliflərindən biri olmuş Əbu Abdullah Məhəmməd bin Yezid bin Macə əl-Qəzvini 824-cü ildə Qəzvin şəhərində doğulmuşdur.[280]

Onun yazdığı əsərlər içərisində “Sünən” daha məşhurdur. Əsər əvvəllər “Kütubus-sittə” sıralarına daxil edilməmişdir. Buna görə də onun əsəri “Kütubus-sittə” sıralarına daxil edilənədək, beş kitab (“Kütubul-xəmsə”) şöhrətli olmuşdur. Mənbələrdə İbn Macənin “Sünən” əsərinin ilk dəfə “Kütubul-xəmsə” sıralarına daxil edən şəxsin Əbülfəzl Hafiz Məhəmməd bin Tahir əl-Məqdisi (öl. 1113) olduğu qeyd edilir.[281] Belə ki, İbn Tahir əl-Məqdisi “Ətrafül-kütubus-sittə” adlı kitabı ilə “Şurutül-əimmətis-sittə” adlı risaləsində “Sünəni-İbn Macə”ni altıncı kitab olaraq “Səhih”lər arasında qeyd etmiş, onu Hafiz Əbdülğani əl-Məqdisi (öl. 1203) “əl-Kəmalu fi əsmair-rical” əsərində təsdiq etmişdir. Bu görüşü digər “Ətraf” və “Rical” müəllifləri davam etdirərək İbn

[273] Həmin mənbə. s. 171.
[274] Həmin mənbə. s. 172.
[275] Həmin mənbə. s. 172.
[276] Həmin mənbə. s. 176.
[277] Həmin mənbə. s. 176.
[278] Həmin mənbə. s. 177.
[279] Həmin mənbə. s. 172.
[280] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 226.
[281] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 95.

Macənin “Sünən”ini XIII əsrdən etibarən “Kütubus-sittə”nin altıncı kitabı olaraq qəbul etmişlər.[282] Amma “Sünəni-İbn Macə”ni İbn əs-Səlah (1181-1245) və Əbu Zəkəriyya ən-Nəvəvi (1233-1277) kimi məşhur hədisşünaslar “Kütubus-sittə”dən saymırlar. Buna görə də adı çəkilən hədisşünaslar İbn Macənin “Sünən”indən bəhs etməmişlər.[283] Bəzi alimlər isə Malik bin Ənəsin (712-795) “əl-Müvətta” əsərini “Kütubus-sittə” sıralarına daxil edib, onu İbn Macənin “Sünən”indən daha səhih bilirlər.[284] Bu görüşü Rəzin bin Müaviyə (öl. 1130) “ət-Təcrid”, İbn Əsir əl-Cəzəri (1160-1233) isə “Camiül-üsul” əsərində qeyd etmişlər. Digər hədisşünaslar isə Osman bin Səid əd-Dariminin (812-892) “Sünən” əsərini İbn Macənin “Sünən”indən daha səhih olduğu görüşünü irəli sürərək onu İbn Macənin əvəzinə “Kütubus-sittə” sıralarından bilirlər. Bu görüşü qəbul edən alimlərə görə, Dariminin “Sünən”indəki zəif ravilər azdır. Bundan başqa, əsərdə “münkər” və “şazz” hədislər yoxdur.[285]

Hədisşünasların məlumatına görə, İbn Macənin “Sünən” əsərində 37 kitab (böyük fəsil) vardır və bunlar içərisində də 4341 hədis mövcuddur.[286] Bu hədislərdən də 1339-u “zəvaid”dir, yəni digər kitablarda yer almayanlardır.[287]

İbn Macənin “Sünən” əsərini onun məşhur tələbəsi Əbülhəsən əl-Kəttani rəvayət etmişdir.[288]

Əsəri Məhəmməd bin Əbdülbaqi təhqiq edərək nəşr etdirmiş və burada fəsillər (bablar) və hədisləri nömrələmişdir. Əbdülbaqi bu nəşrini 1952-ci ildə Misirdə iki cild halında həyata keçirmişdir.

“Sünən”in ən məşhur şərhlərindən Cəlaləddin əs-Süyutinin (1445-1505) “Misbahüs-zücacə əla sünəni-İbn Macə”, Mövləvi Əbdülğəni əd-Dehləvinin “İncaül-hacə” və Əbülhəsən Məhəmməd bin Əbdülhadi əs-Sindinin “Haşiyə” əsərlərini göstərmək olar. Şübhəsiz ki, “Sünən”in bundan başqa digər şərhləri də vardır.[289]

İbn Macə 886-ci ildə vəfat etmişdir.[290]

### 10.13. Əhməd bin Hənbəl və “əl-Müsnəd” əsəri

Əhməd bin Məhəmməd bin Hənbəl bin Hilal bin Əsəd əş-Şeybani 778-ci ildə Bağdadda doğulmuşdur.[291] O, öz dövründə “İmamül-mühəddisin” ləqəbi ilə tanınmış, hədisdə hafiz və höccət ləqəblərinə sahib olmuşdur.

Mənbələrin verdiyi məlumata görə, Əhməd kiçik yaşlarında atasını itirmişdir. Lakin, O bu sıxıntıya baxmayaraq, uşaqlıq yaşlarından hədis öyrənməyə başlamışdır və ilk dəfə olaraq 800-ci ildən başlayaraq səyahətlər etmiş, Bəsrə, Kufə, Məkkə, Yəmən və digər bölgələrin qabaqcıl alimlərindən hədis öyrənmişdir. İlk təhsilinə Bağdadda başlayan Əhməd bin Hənbəl dövrünün məşhur fəqihi Əbu Yusifdən (738-798) fiqh dərslərini almış, sonra isə onun dərslərini tərk edərək məşhur hədisşünas Hüseyn bin Bəşir əl-Vasitin (öl. 805) dərslərində iştirak etmişdir.

Əhməd bin Hənbəl 855-ci ildə vəfat etmişdir.[292]

Əhməd bin Hənbəlin qələmə aldığı əsərlərdən “Kitabül-iləl”, “Kitabüt-təfsir”, “Kitabün-nasix vəl-mənsux”, “Kitabüz-zühd”, “Kitabül-məsail”, “Kitabül-fəzail”, “Kitabül-fəraiz”, “Kitabül-mənasik”, “Kitabül-iman”, “Kitabül-əşribə”, “Kitabu taətir-Rəsul”, “Kitabür-rədd aləl-Cəhmiyyə”, “Kitabül-Müsnəd” və başqalarını qeyd etmək olar.

---

[282] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 226.
[283] Həmin mənbə. s. 226.
[284] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 96.
[285] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 233-237.
[286] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 94.
[287] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 227.
[288] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 96.
[289] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 228.
[290] Hasan Cirit. Hadise giriş. s. 178.
[291] Sübhi es-Salih. Hadis ilimleri ve hadis ıstılahları. s. 329.
[292] Hasan Cirit. Hadise giriş. s. 135.

Bu əsərlər içərisində ən məşhuru “Müsnəd” əsəridir. Hədisşünaslar onun bu əsərinin digərlərinə nisbətən daha məşhur olmasını iki səbəbdə görmüşlər: Birincisi, ehtiva etdiyi mövzuların zənginliyi, ikincisi isə hədislərinin səhihliyidir.

Mənbələrə görə, “Müsnəd” əsərindəki hədislərin sayı 40000-ə yaxındır. Burada yer alan hədislərin 10000-i təkrardır.[293]

Müəllif sözügedən əsərində səhabələri öncə müsəlman olmalarına, sonra əşirət durumlarına, daha sonra isə yerləşdikləri şəhərlərə görə sıralamışdır. Buradan “əşərətü-mübəşşirə” deyə tanınan on səhabə ilk cərgədə gəlir. Bundan sonra Əhli-beyt və bəni-Haşim “Müsnəd”ləri yer alır. Bunların ardınca isə məkkəlilərin, mədinəlilərin, şamlıların, bəsrəlilərin, Ümməhatül-muminin və digər qadın səhabələrin “Müsnəd”ləri, ən sonda isə “adı mübhəm bəzi səhabələr”in “Müsnəd”ləri qeyd olunub.

“Müsnəd”də ilk hədis səhifələri də yer almışdır. Belə ki, burada Həmmam bin Münəbbinin “Səhifəsi”, Abdullah bin Əmr bin əl-Asin “Səhifeyi-sədiqə”sinin yarıya yaxın qismi, Səmurə bin Cündəbin “Səhifəsi”nin bir çox hədisləri və Əbu Sələmənin “Səhifəsi” “Müsnəd”in ehtiva etdiyi səhifələrdəndir.

Əsəri İbn Zəknun Əli bin Hüseyn, Əbülhəsən bin Əbdülhadi əs-Sənədi (öl.1129), Əhməd Əbdürrəhman əs-Saati şərh etmişlər.

### 10.14. Abdullah bin Məhəmməd bin Əbi Şeybə və “əl-Müsənnəf” əsəri

Abdullah bin Məhəmməd bin Əbi Şeybə hədis ədəbiyyatı tarixində özünəməxsus dəsti-xətti olan məşhur hədisşünaslardandır. O, 775-ci ildə Kufədə anadan olmuşdur.[294]

Zəngin yaradıcılığı olan İbn Əbi Şeybənin dövrümüzədək yalnız “əl-Müsənnəf” adlı məşhur əsəri gəlib çıxmışdır.

Müəllif adı çəkilən əsərində hədisləri bir yerə toplamış, sonra isə həmin hədisləri izah edən səhabənin sözlərini və tebeilərin fətvalarını sənədləri ilə birlikdə qeyd etmişdir. Əsərin üslubuna gəldikdə isə, qeyd etmək lazımdır ki, müəllif onu fiqhi fəsillərə görə tərtib etmişdir. Əsər son dövrlərdə Pakistanda 1406/1986-cı ildə doqquz cilddə nəşr olunmuşdur.

İbn Əbi Şeybə 849-cu ildə vəfat etmişdir.[295]

### 10.15. Məhəmməd bin Yaqub əl-Küleyni və “əl-Üsul minəl-kafi” əsəri

Məhəmməd bin Yaqub əl-Küleyni ər-Razi təxminən 879-cu ildə Rey ilə Qəzvin şəhərinin arasındakı Küleyn kəndində doğulmuşdur.[296] O, doğulduğu yerə nisbətlə tanınmışdır. Onun künyəsi Əbu Cəfərdir.

Küleyni hədis elmində insanların ən etibarlısı, ədalət və zəbt baxımından ən qabaqcılı idi. O, bütün xüsusiyyətlərinə görə, İslam dünyasında mədh edilmişdir.

Mənbələrin verdiyi məlumata görə, Küleyni İslam aləmində ilk olaraq “Siqətül-İslam” ləqəbini almışdır.[297] Haqqında deyilmiş tərifli sözlərə diqqət yetirsək, onun hədis elmində necə bir ali məqama sahib olduğunun şahidi olacağıq. Belə ki, Əhməd bin Əli ən-Nəcaşi (öl. 1057) Küleyni haqqında yazırdı: “Öz dövründə Reydə bizim məzhəbimizin şeyxi idi. O, öndə gələn alimlərdən biri və hədisdə insanların ən etibarlısı idi.”[298]

Şeyx Tusi (998-1067): “Etibarlıdır, xəbərlərə daha yaxşı bələd idi”,[299] başqa bir əsərində isə: “Onun qədir-qiyməti çox yüksəkdir, xəbərlərdə isə alimidir”, - deyə yazmışdır.[300]

---

[293] Həmin mənbə. s. 135.
[294] Həmin mənbə. s. 151.
[295] Həmin mənbə. s. 152.
[296] Həsən Cirit. Küleyni və əl-Kafisi. BDU İlahiyyat fak. Elmi məcmuəsi. Mart, 2005. s. 212.
[297] Həmin mənbə. s. 212.
[298] ən-Nəcaşi. Rical. s. 266.
[299] Şeyx ət-Tusi. Fihrist. s. 135.
[300] Şeyx ət-Tusi. Rical. s. 119.

Azərbaycanlı hədisşünas Mirzə Abdullah Əfəndi (1653-1719) yazırdı: "Siqətül-İslam deyildiyi zaman, geniş mənada "Kafi"nin və digər əsərlərin müəllifi Əbu Cəfər Məhəmməd bin Yaqub bin İshaq əl-Küleyni ağıla gəlir. Onun ustadlığı bütün müsəlmanlar arasında qəbul edilmişdir. O, hər iki məzhəb üçün fətvalar verirdi."[301]

Digər görkəmli hədisşünas Seyid Məhəmməd Bağır əl-Xansari (1811-1895) isə: "Həqiqətən o, "Əminül-İslam"dır. Yolda yol göstərən bir işarədir. Şəriətdə öndə gələnlərin ən görkəmlisidir. Onun etibarlı olmasına kimsənin söyləyəcək sözü yoxdur. İslam ümmətinin rəhbərlərinin yanındakı məqamında şübhəsiz bir üstünlüyə sahibdir", - deyə yazmışdı.[302]

Böyük və fəzilətli şəxsiyyətə malik olan Küleyninin atası da öz dövrünün sayılıb-seçilən alimlərindən olmuşdur. Alimlər məskəni olan bir evdə dünyaya göz açan Küleyni ilk təhsilini atasından almışdır. Təhsil aldığı alimlərin çoxu Qumdan olduğu üçün müəlliflər onun uzun zaman Qumda təhsil aldığı fikrini irəli sürürlər.[303]

Küleyninin ata tərəfdən çoxlu alim qohumları olduğu kimi, ana tərəfdən də tanınmış və mötəbər alim qohumları varmış. Belə ki, dayısı Əbülhəsən Əli bin Məhəmməd bin İbrahim ər-Razi əl-Küleyni "Allan" ləqəbi ilə tanınmış və dövrünün görkəmli alimlərindən biri olmuşdur.[304]

Küleyni elmini daha da təkmilləşdirmək üçün Bağdada səyahət etmiş, orada Əbu Əli Əhməd bin İdris bin Əhməd əl-Qummi, Əhməd bin Abdullah bin Üməyyə, Əbülabbas Əhməd bin Məhəmməd bin Səid bin ər-Rəhman əl-Həmədani, Əbu Abdullah Əhməb bin Asim, Əbu Cəfər Əhməd bin Məhəmməd bin İsa bin Abdullah bin Səd bin Malik bin Əhvas bin Saib bin Malik bin Amir əl-Qummi kimi məşhur alimlərdən dərs almışdır.

Küleyninin tələbələri və ondan hədis rəvayət edən şəxslər çoxdur. Onlardan Əbu Abdullah Əhməd bin İbrahim, Əbülhüseyn Əhməd bin Əhməd əl-Katib əl-Kufi, Əbülhüseyn Əhməd bin Əli bin Səid əl-Kufi, Əbülhüseyn Əhməd bin Məhəmməd Əli əl-Kafi, Əbu Qalib Əhməd bin Məhəmməd bin Məhəmməd bin Süleyman bin Həsən bin Cəhm, Əbülqasım Cəfər bin Məhəmməd bin Cəfa bin Musa bin Quləveyh, Əbülhəsən Əbdülkərim bin Abdullah bin Məşr əl-Bəzzaz ət-Tənisi, Əli bin Əhməd bin Musa əd-Dəqqaq, Əbu Abdullah Məhəmməd bin İbrahim bin Cəfər əl-Katib ən-Nimani, Əbu Abdullah Məhəmməd bin Əhməd bin Abdullah Qədaə bin Səffan bin Mehran əl-Cəmmal, Əbu İsa Məhəmməd bin Əhməd bin Məhəmməd bin Sinan əs-Sinani, Əbulmüfəzzəl Məhəmməd bin Abdullah əş-Şeybanini qeyd etmək olar.

Küleyninin yaradıcılığı çox zəngin və çoxşaxəlidir. O, ilahiyyatın bütün sahələrnə dair əsərlər yazmışdır. Onlardan "Kitabu təfsirir-rüya", "Kitabür-rical", "Kitabür-rədd ələl-Qəramitə", "Kitabür-rəsail", "Kitab ma qilə fil-Əimmə minəş-şeir", "Kitabül-kafi" və digərlərini qeyd etmək olar.

Onun yazdığı bu əsərlər içərisində ən məşhuru və irihəcmlisi "əl-Kafi"dir. Əsər "Küleyni" adı ilə də tanınmaqdadır[305] və onun tam adı "əl-Kafi fi ilmid-din"dir.[306] Əsərə xalq içərisində daha çox "Üsulül-kafi" deyilir.

Müəllif əsərində Peyğəmbər və onun pak əhli-beytindən olan məsum İmamların rəvayətlərini toplamış və onları məlum başlıqlar altında yerləşdirmişdir.

Küleyni əsərini iyirmi il ərzində yazmışdır.[307] "əl-Kafi" əsərinin yazılmasının səbəbini müəllif aşağıdakı kimi izah edir: "Deyirsən ki, yanımda hər şeyə yetən (kafi) bir kitabın olmasını istəyirəm. Bu kitabda dini elmlərin bütün sahələri yer almalıdır. Belə ki, dini öyrənmək istəyən bir kimsəyə bu kitab yetərli olmalıdır. Doğrunu tapmaq istəyən bu kitaba müraciət etməlidir. Dini öyrənmək,

---

301 Mirzə Abdullah Əfəndi. Riyazül-üləma. s. 226.
302 Məhəmməd Bağır əl-Xansari. Rövzatül-cənnat. s. 552.
303 Həsən Cirit. Küleyni və əl-Kafisi. BDU İlahiyyat fak. Elmi məcmuəsi. Mart, 2005. s. 212.
304 Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. XVIII c. s. 50.
305 ən-Nəcaşi. Rical. s. 266.
306 Həsən Cirit. Küleyni və əl-Kafisi. BDU İlahiyyat fak. Elmi məcmuəsi. Mart, 2005. s. 215.
307 Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. s. 50.

Sadiqeynin (İmam Baqir və İmam Sadiqin ) səhih rəvayətləri altında dini yaşamaq istəyən kimsə, bu kitabda axtardığını tapmalıdır."[308]

Əhməd bin Əli ən-Nəcaşi (öl. 1057) Küleyninin adı çəkilən əsərini yüksək qiymətləndirdikdən sonra yazırdı: "Əsər aşağıdakı mövzuları ehtiva edir:

1. "Kitabül-əql", 2. "Kitabu fəzlil-ilm", 3. "Kitabüt-tövhid", 4. "Kitabül-höccət", 5. "Kitabül-iman vəl-küfr", 6. "Kitabül-vüzu vəl-heyz", 7. "Kitabüs-salat", 8. "Kitabüs-siyam", 9. "Kitabüz-zəkat vəs-sədəqə", 10. "Kitabün-nikah vəl-əqiqə", 11. "Kitabüş-şəhadat", 12. "Kitabül-həcc", 13. "Kitabüt-talaq", 14. "Kitabül-itq", 15. "Kitabül-hüdud", 16. "Kitabüd-diyat", 17. "Kitabül-əyman vən-nüzur vəl-kəffarat", 18. "Kitabül-məişət", 19. "Kitabüs-seyd vəz-zəbaih", 20. "Kitabül-cənaiz", 21. "Kitabül-işrət", 22. "Kitabüd-dua", 23. "Kitabül-cihad", 24. "Kitabu fəzlil-Quran", 25. "Kitabül-ətimə", 26. "Kitabül-əşribə", 27. "Kitabüz-zey vət-təcəmmül", 28. "Kitabüd-dəvacin vər-rəvacin", 29. "Kitabül-vəsaya", 30. "Kitabül-fəraiz", 31. "Kitabür-rövzə."[309]

Əsər "Üsulu-kafi", "Fürui-kafi" və "Rövzətül-kafi" olmaqla üç hissədən ibarətdir. Əsərin "Üsulu-kafi" hissəsində etiqad və imana aid, "Fürui-kafi" bölməsində fiqhə aid, "Rövzətül-kafi" bölməsində isə müxtəlif mövzuları ehtiva edən hədislər yerləşdirilmişdir.

Beləliklə, "Üsulül-kafi" hissəsində böyük ölçüdə inancla bağlı mövzuları ehtiva edən "Kitabüt-tövhid", "Kitabül-höccət", "Kitabül-iman vəl-küfr", "Kitabüd-dua", "Kitabu fəzlil-Quran" və "Kitabül-işrə" olmaq üzrə səkkiz böyük fəsli (kitabı) bir araya toplamışdır.[310]

Kitabın "Fürui-kafi" bölməsində isə ana mövzular (kitab) belə sıralanmışdır: "əl-Heyz", "əl-Cənaiz", "əs-Səlat", "əz-Zəkat", "əs-Siyam", "əl-Həcc", "əl-Cihad", "əl-Məişə", "ən-Nikah", "əl-Əqiqə", "ət-Talaq", "əl-İtq vət-tədbir vəl-kitabə", "əs-Sayd", "əz-Zəbaih", "əl-Ətimə", "əl-Əşribə", "əz-Zey vət-təcəmmül vəl-muruə", "əd-Dəvacin", "əş-Şəhadat", "əl-Qəza vəl-əhkam", "əl-Əyman vən-nüzur vəl-kəffarat."[311]

"Kafi" kitabının "Üsul" və "Füru" bölümlərinin hər ikisi birlikdə otuz beş ana bölümdən ibarətdir.[312]

Küleyninin sözügedən əsərində 16199 hədis vardır. Bu görüşü Şeyx Müfid (945-1022) də təsdiqləmişdir.[313]

Əsərdə yer alan hədislərin səhihliyinə gəldikdə isə, orada bütün hədislərin səhih olmamasını deyənlər vardır.[314] Hətta bəzi alimlərə görə, əsərdə yer alan zəif hədislərin sayı minlərlədir.[315]

"əl-Kafi" üzərinə yazılan şərhlərdən Şeyx Qasim bin Məhəmməd bin Cavad bin əl-Vəndinin (öl. 1699) "Camiül-əhadis vəl-əqval", Əli bin Məhəmməd bin Həsən bin Zeynüddin əş-Şəhid əs-Sani əl-Amilinin (1506-1558) "Dürrül-mənzum min kəlamil-Məsum", Məhəmmd Bağır əd-Damad əl-Hüseyninin (öl. 1739) "ər-Rəvaşihüs-səmaviyyə fi şərhil-əhadisil-imamiyyə", Məhmməd Bağır bin Məhəmməd Tağı Məclisinin (1628-1700) "Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul"u qeyd etmək olar.

Məhəmməd bin Yaqub əl-Küleyni 941-ci ildə Bağdadda vəfat etmişdir.

### 10.16. Şeyx Səduq və "əl-Fəqih" əsəri

Məhəmməd bin Əli bin Hüseyn Şeyx Səduq ləqəbi ilə tanınır. O, 917-ci ildə Qumda alim və fəzilətli bir ailədə doğulmuşdur. İlk təhsilini ailə ocağında aldıqdan sonra müxtəlif bölgələrə, o cümlədən, Xorasan, Səmərqənd, Kufə, Bəsrə, Bağdad və s. gedərək dövrünün tanınmış hədisşünaslardından elm öyrənmişdir.

---

308 Məhəmməd bin Yaqub əl-Küleyni. əl-Kafi. I c. s. 25.
309 Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. s. 50.
310 Həsən Cirit. Küleyni və əl-Kafisi. BDU İlahiyyat fak. Elmi məcmuəsi. Mart, 2005. s. 216.
311 Həmin mənbə. s. 216.
312 Həmin mənbə. s. 216.
313 Əli Əkbər Dehxuda. Lüğətnamə. s. 137.
314 Seyid Səid Rəşadi. Hədis elmi. s. 60.
315 Hüseyni. Şiəyə görə sünnənin dindəki yeri. s. 274.

Şeyx Tusi (998-1067) onun haqqında yazırdı: "O, hədisləri əzbər bilməkdə ən ali, raviləri tanımaqda ən bilgili və xəbərləri incələməkdə ən görkəmli alim idi. Qum əhli onun kimi hafiz və çox elmi olan birini görməmişdir."[316]

Xətib əl-Bağdadi (1002-1071) isə demişdir: "O, Bağdada gəldi, atasından rəvayət etdi. Məhəmməd bin Təlhə ən-Niali məşhur şəxsiyyətlərdən olan Şeyx Səduqdan bizə hədis rəvayət etdi."[317]

Şeyx Səduq dövrünün ən qüdrətli alimlərindən dərs almışdır. Onlardan İbrahim bin Harun əl-Heybəsti, Əbu İshaq İbrahim bin Məhəmməd bin Əbu Həmzə bin Əmmarə əl-Hafiz, Əbülhəsən Əhməd bin Sabit əd-Dəvalibi, Əbu Əli Əhməd bin əl-Həsən bin Əbd Rəbbih əl-Qəttan ər-Razi, Əbu Mənsur Əhməd bin İbrahim bin Bəkir əl-Xəvzi və b. qeyd etmək olar.

Yetişdirdiyi tələbələrdən isə Şeyx Hüseyn bin Əli bin Musa Babəveyh əl-Qummi, Şeyx Həsən bin Hüseyn bin Əli bin Musa bin Babəveyh əl-Qummi, Şeyx Əli bin Əhməd bin Abbas, Şeyx Əbülqasim Əli bin Məhəmməd bin Əli əl-Xəzzaz, Şeyx Əbu Cəfər Məhəmməd bin Əhməd bin Abbas bin Fəxir əd-Duristi[318] daha məşhurdurlar.

Mənbələrin verdiyi məlumata görə, Şeyx Səduq şərəfli ömrünün bir hissəsini kitab yazmağa sərf etmiş və bu yolda üç yüzdən artıq əsər yazmışdır.[319] Onlardan "əl-İbanə", "İbtalül-ixtiyar və isbatün-nass", "İbtalül-ğüluvvu vət-təqsir", "İsbatül-xilafət li Əmiril-möminin əleyhissəlam", "Əxbaru-Salman", "əl-Etiqadat", "əl-Əmali", "əl-İmamə", "İmtihanül-məcalis", "əl-Əvail", "əl-Əvaxir", "əl-Əvamir", "Əvsafün-Nəbi ", "ət-Tarix", "ət-Ticarat", "ət-Tərif", "Təfsirül-Quran", "ət-Təqiyyə", "ət-Tövhid", "ət-Təyəmmüm", "Səvabül-əmal", "Camiül-həcc", "əl-Cəməl", "əl-Xisal", "Xəlqül-insan", "əl-Xüms", "ər-Rical", "ər-Rəcət", "əz-Zəkat", "Kütubüz-zühd", "əs-Sual", "Sifatüş-şiə", "İqabül-əmal", "əl-İləl", "Üyunu əxbarir-Riza ", "əl-Qeybə", "Fəzailül-əşhuris-səlasə", "Fəzlüs-şiə", "əl-Muxtar bin Əbi Übeyd əs-Səqəfi", "Mədinətül-ilm", "əl-Mürşid", "əl-Məsail", "Məsailül-vüzu", "Məsailül-nikah", "Məanil-əxbar", "Mən la yəhzuruhül-fəqih" və başqalarını qeyd etmək olar.[320]

Şeyx Səduqun yazdığı əsərlər içərisində ən məşhuru "Kütubu-ərbəə"nin ikincisini təşkil edən "Mən la yəhzuruhül-fəqih" əsəridir. O, əsərində Peyğəmbər və məsum İmamların sözlərini toplamış, onları fiqhi fəsillər əsasında tərtib etmişdir. "Mən la yəhzuruhül-fəqih" əsərinə qısa şəkildə "əl-Fəqih" də deyilir.

Böyük İslam alimi Seyid bin Tavus (1193-1265) yazırdı: "Mən la yəhzuruhül-fəqih"i etibarlı və etimad edilən bir əsər gördüm."[321]

Şeyx Səduqun əsərindəki hədislərin sayı haqqında alimlər aşağıdakı məlumatı verirlər: "Mən la yəhzuruhül-fəqh" kitabında 3913 "müsnəd", 2050 "mürsəl" hədis vardır."[322] Beləliklə, "əl-Fəqih" əsərində 5963 hədis vardır.

Bəhrani "Luluə" adlı əsərində yazırdı: "Bəzi şeyxlərimiz "əl-Fəqih" əsərinin dörd cild olduğunu və 666 fəsli ehtiva etdiyini söyləyirlər. Bu cildlərdən birincisi 87, ikincisi 228, üçüncüsü 78, dördüncüsü isə 173 fəsli ehtiva etdir. Cildlərdən birincisində 1618, ikincisində 1637, üçüncüsündə 1305, dördüncüsündə isə 903 hədis vardır. Həmcinin birinci cilddə 999 "müsnəd", 841 "mürsəl", ikinci cilddə 1064 "müsnəd", 573 "mürsəl", üçüncü cilddə 1295 "müsnəd", 510 "mürsəl", dördüncü cilddə isə 777 "müsnəd", 126 "mürsəl" hədis vardır. Beləliklə, əsərdə 3913 "müsnəd", 2050 isə "mürsəl" hədis vardır."[323]

---

316 Şeyx ət-Tusi. əl-Fihrist. s. 238.
317 Möhsün əl-Əmin. Əyanüş-şiə. VII c. s. 24.
318 Şeyx əs-Səduq. Mən la yəhzuruhül-fəqih. I c. s. 29-42.
319 Həmin mənbə. s. 42.
320 Möhsün əl-Əmin. Əyanüş-şiə. VIII c. s. 240.
321 İbn Tavus. Kəşfül-məhəccə. s. 122.
322 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 110.
323 Şeyx əs-Səduq. Mən la yəhzuruhül-fəqih. I c. s. 59-60.

"əl-Fəqih" əsərini Seyid Əhməd bin Zeynüddin əl-Ələvi əl-Amili (öl. 1638), Şeyx Bəhaəddin əl-Amili (öl. 1622), Ağa Cəmaləddin Məhəmməd bin Hüseyn əl-Xansari (öl. 1703), Mirzə Abdullah Əfəndi ət-Təbrizi (1653-1719) və başqaları şərh etmişlər.

Şeyx Səduq 991-ci ildə Reydə vəfat etmiş və Tehran şəhərinin yaxınlığındakı Əbdüləzim əl-Hüseyninin qəbri yanında dəfn edilmişdir.[324]

## 10.17. İbn Quləveyh və "Kamilüz-ziyarat" əsəri

Hədis və fiqh elmlərində dövrünün öndər alimlərindən olan Cəfər bin Məhəmməd bin Quləveyh əl-Qummi (?-981) hədis ədəbiyyatı tarixində daha çox İbn Quləveyh adı ilə tanınır. Onun doğum tarixi dəqiq olaraq bilinməsə də, ömrünün sonunadək Qum şəhərində yaşadığı və orada yazıb-yaratdığı haqqında məlumat vardır. İbn Quləveyhin dövrümüzədək yalnız "Kamilüz-ziyarat" adlı əsəri gəlib çıxmışdır. Əsər bütövlükdə Peyğəmbərin və İmamların qəbirlərinin ziyarət edilməsinə, ziyaərtin qaydaları və savabına həsr olunmuşdur. Əllamə Məclisi (1628-1700) əsəri bütöv şəkildə özünün "Biharül-ənvar" əsərində uyğun yerlərdə rəvayət etmişdir.

Əsər Azərbaycan dilinə tərcümə edilmişdir.

## 10.18. Süleyman bin Əhməd ət-Təbərani və "əl-Məacim" əsərləri

Əbülqasım Süleyman bin Əhməd bin Əyyub ət-Təbərani 874-cü ildə Fələstinin şimalında yerləşən Təbəriyə bölgəsində doğulmuşdur.[325] Təbərani kiçik yaşlarından hədis elmini öyrənməyə başlamış və bu məqsədlə dövrünün məşhur elmi-dini mərkəzlərinə, o cümlədən Suriya, Misir, Hicaz, Yəmən kimi bölgələrə səyahətlər etmiş və mindən artıq şeyxdən dərs almışdır.[326]

Mənbələrin verdikləri məlumata görə, Təbərani ömrünün otuz ilini səyahətlərdə keçirmiş və bir əsr ömür sürərək 971-ci ildə İsfahanda vəfat etmişdir.[327]

Hədis tarixinin nadir şəxslərindən olan Təbərani bir əsrlik ömrünü hədisşünaslığın inkişafına sərf etmiş və dəyərli əsərlər meydana gətirmişdir. Onun ilahiyyata aid müxtəlif əsərləri olsa da, heç şübhəsiz ki, bunların arasında ən məşhuru "Möcəm" adı altında yazdığı üç məşhur əsəridir. Bu əsərlər "Kəbir", "Əvsət" və "Səğir" adları ilə tanınır və hamısına birlikdə "Məacimüt-Təbərani" deyilir.

Müəllifin "əl-Möcəmül-kəbir fi əsmais-səhabə" əsəri ona aid olan əsərlərin ən irihəcmlisi hesab olunur. Əsər "əşəreyi-mübəşşirə"dən başlamaq surətilə Peyğəmbərdən rəvayət edən səhabələrin əlifba sırası ilə adları sıralanaraq meydana gətirilmişdir.[328] Müəllif burada Əbu Hüreyrədən gələn hədisləri qeyd etməmişdir. Çünki Əbu Hüreyrədən gələn hədisləri başqa bir müstəqil kitabında toplamışdır.

Mənbələrin məlumatına görə, əsərdə 25000 hədis vardır.[329]

Bunu da xüsusi olaraq qeyd edək ki, hədis ədəbiyyatı tarixində "Möcəm" adlı əsər gələndə ağıla ilk olaraq Təbəraninin bu əsərləri gəlir. Çünki adı çəkilən əsər həm gözəl tərtibdədir, həm də çox hədis ehtiva etməkdədir. Hətta bəzi mənbələr burada 60000 hədisin olduğunu bildirirlər.

"Möcəmül-kəbir" əsəri 1978-1983-cü illər arasında İraqın Əvqaf Nazirliyi tərəfindən Həmdi Əbdülməcid əs-Siləfinin təhqiqi ilə 25 cilddə nəşr edilmişdir.

Təbəraninin qələmə aldığı "Möcəm" adlı əsərlərin ikincisi "əl-Möcəmül-əvsət"dir. Müəllif burada hədis eşitdiyi şeyxlərinin əlfba sırası ilə adlarını tərtib edərək, hər şeyxdən öyrəndiyi hədisi onun adı altında qeyd etmişdir. O, əsərində iki minə yaxın şeyxlərinin hər birinin nadir rəvayətlərini bir araya toplamışdır. Təbəraninin bu əsərində 12000 hədis vardır.[330]

---

[324] Həmin mənbə. s. 24.
[325] Hasan Cirit. Hadise giriş. s. 192.
[326] Həmin mənbə. s. 192.
[327] Həmin mənbə. s. 192.
[328] Həmin mənbə. s. 192-193
[329] Həmin mənbə. s. 193.
[330] Həmin mənbə. s. 193.

“əl-Möcəmül-əvsət” əsəri Mahmud ət-Təhhan tərəfindən təhqiq edilərək 1985-1995-ci illər arasında on bir cilddə nəşr edilmişdir.

Təbərani ilk və ən kiçik əsəri olan “əl-Möcəmüs-səğır” əsərini o, özlərindən hədis nəql etdiyi şeyxlərinin adlarını əlifba sırası ilə qeyd etməklə ərsəyə gətirmişdir. Qeyd edilən əsərini ustadlarının adlarını əbədiləşdirmək üçün qələmə almış, 1161 şeyxinin hər birindən bir neçə hədis alaraq əsərində yerləşdirmişdir.[331] Əsər iki cild halında 1968-ci ildə Mədinədə nəşr edilmişdir.

Mənbələr Təbəraninin hər üç əsərində zəif hədislərin olmasını bildirirlər. Şübhəsiz ki, on minlərlə hədisi ehtiva edən bu kitablar heç vaxt nöqsandan uzaq ola bilməz. Lakin bütün bu nöqsan və tənqidlərə baxmayaraq, Təbəraninin tərtib etdiyi və böyük zəhmətlə ərsəyə gətirdiyi bu əsərlərin hədis ədəbiyyatı tarixində böyük önəmi vardır. Çünki bu əsərlər yarandığı ildən bu günədək hədisşünasların yararlandığı mənbələrdən biri olmuşdur.

Bildiyimiz kimi, Təbəraninin tərtib etdiyi “Möcəm”lərdən başqa digər hədisşünaslar da bu ad altında əsərlər meydana gətirmişlər. Bunlardan Əbu Tahir Əhməd bin Məhəmməd əs-Siləfi (öl. 1180), Əbu Səid İbn əl-Ərəb (öl. 951), əl-İsmaili (öl. 981), Əbu Bəkr əl-İsfəhani (öl. 991), Hakim ən-Nisaburi (öl. 1014), Əbu Müzəffər əs-Səmani (öl. 1218), Şəmsəddin əz-Zəhəbi (öl. 1347), Bürhanəddin ət-Tənuhi (öl. 1398) və başqalarını qeyd etmək olar. Amma bu yazılan möcəmlərdən heç biri Təbəraninin “Möcəm”lərinin şöhrətinə çata bilməmişdir.

### 10.19. Əli bin Ömər əd-Dəraqütni və “Sünən” əsəri

Hədis tarixinin tanınmış və məhsuldar hədisşünaslarından biri Əbülhəsən Əli bin Ömər bin Əhməd əd-Dəraqütnidir. O, 916-cı ildə Bağdadda Darül-qutn məhəlləsində doğulmuşdur.[332] Gənc yaşlarında hədis öyrənməyə başlayan Dəraqütni dövrünün məşhur bölgələrini, o cümlədən Bəsrə, Şam, Kufə, Misir və Vasit kimi böyük şəhərləri gəzmiş və bölgənin böyük alimlərindən hədis dinləmişdir. Onun yetişməsində və böyük hədisşünas olmasında Əbülqasım əl-Bəğəvi (öl. 929) və digər alimlərin böyük rolu olmuşdur.

Dəraqütni ömrünün yaşlı vaxtında Misir və Şama getmiş və 995-ci ildə vəfat etmişdir.[333]

Dəraqütnin İslam elmlərinin bir çox sahələrinə aid əsərlər yazmış və dövrünün zəngin məlumatlı alimi kimi tanınmışdır. Onun qələmə aldığı əsərlərdən “Sünən”, “əl-Müxtəlif vəl-mütəlif”, “Kitabül-iləl”, “əl-İstidrak aləs-səhiheyn”, “əl-Əfrad” və başqalarını qeyd etmək olar.

Şubhəsiz ki, bu əsərlər içərisində ən məşhuru “Sünən”dir. Baxmayaraq ki, Daraqütni hədis ricalı, qiraət və s. elmlər sahəsində də dəyərli əsərləri yazmışdır, amma onu daha çox “Sünən” adlı əsəri ilə yad edirlər. O, əsərində fiqh mövzularına aid hədisləri toplamış və hər bir hədisin müxtəlif isnadı varsa, hamısını qeyd etmişdir. Məsələn o, kitabının ilk hədisi olan: “Su iki miqdarına çatınca onu heç bir şey kirlətmiz” hədisini beş dəyişik rəvayətlə və qırx fərqli isnadla qeyd etmişdir.[334]

Dəraqütninin “Sünən” əsəri ravi baxımından çox zəngin olsa da, hədisşünaslar orada yer alan hədislərin bir qisminin zəif və uydurma (mövzu) olduğunu bildirir. Əsərdə yer alan hədislərin bir qismi zəif olduğu üçün o “Kütubus-sittə” sıralarına daxil olmamışdır. Həmçinin bu üzdən əsər üzərində yazılan şərhlər də yox dərəcəsindədir. Bunun üzərinə yazılan şərh Əbu Təyyib Məhəmməd Şəmsülhəqq Əzimabadinin yaxın zamanda “ət-Təliqül-müğni aləd-Dəraqütni” adı altında yazdığı bir əsəridir. Əsər hicri 1310-cu ildə dörd cild halında nəşr edilmişdir.[335]

Dəraqütninin “Sünən” adlı əsərində zəif hədislərin mövcud olmasına baxmayaraq, əsər miladi X əsrdə “Sünən” adı altında yazılan əsərlərin önündə gəlir. Həqiqətən də əsərin hədis ədəbiyyatı tarixində özünəməxsus yeri vardır. Bunun bariz nümunəsi isə əl-Bəğəvi (öl. 1122) kimi alimin “Məsabihüs-sünnə” əsərini yazan zaman Dəraqütninin “Sünən”indən bir qaynaq kimi istifadə etməsidir.

---

[331] Həmin mənbə. s. 193.
[332] Həmin mənbə. s. 187.
[333] Həmin mənbə. s. 187.
[334] Sünən, c. I, səh. 13-27
[335] Ali Yardım. Hadis I-II. İstanbul, Damla yayınevi, 2000. II, s. 92.

### 10.19. Hakim ən-Nisaburi və "əl-Müstədrək" əsəri

Bir çox əsər sahibi olan və qazı olduğu üçün Hakim ləqəbi ilə tanınan Əbu Abdullah Məhəmməd bin Abdullah hədis elminin görkəmli şəxsiyyətlərindən biridir. Hakim Nişapuri 933-cü ildə Nişapurda doğulmuşdur.[336]

Hakim Nişapuri Buxari və Müslümün şərtlərinə uyğun sənədlərlə hədisləri bir kitabda toplamış və ona "əl-Müstədrək aləs-səhiheyn" adı vermişdir.

"əl-Müstədrək" "Səhih" əsərləri kimi cami növlü bir əsərdir. Müəllifin Buxari və Müslümün şərtlərini əsas götürməsinə baxmayaraq, onun səhih olduğu haqqında alimlər qeyri-müttəfiq fikirdədirlər. Ancaq bəzi alimlərin irəli sürdükləri "əl-Müstədrək"dən kənarda "Səhih"lərin şərtinə uyğun heç bir hədis olmadığı şəklindəki iddia da olduqca ifrat görüşdür. "əl-Müstədrək"i xülasələşdirən Şəmsəddin əz-Zəhəbiyə (1274-1348) görə, "Müstədrək"dəki hədislərin yarıya yaxını səhih, dörddə birinin mətni isə illətlidir (problemli). Buna görə də bəzi tədqiqatçılara görə, Zəhəbinin xülasəsi ("Müxtəsərül-müstədrək") əsasında "Müstədrək"dən faydalanmaq mümkündür.[337] Buna görə də "əl-Müstədrək" Zəhəbinin "Təlxisül-müstədrək" ilə birlikdə nəşr edilmişdir.[338]

### 10.20. Seyid Rəzi və "Nəhcül-bəlağə" əsəri

Məlum olduğu kimi, XI əsr İslam elmlərinin, xüsusilə də hədis elminin zəngin bir dövrü kimi xarakterizə edilir. Həqiqətən də VIII əsrdən rəsmən başlanan, əslində isə Peyğəmbər dövründə bir qisim səhabələr tərəfindən qələmə alınan hədis əsərləri demək olar ki, XI əsrədək böyük bir inkişaf yolu keçməklə yanaşı, sonrakı əsrlərdə yazılan əsərlərə mənbə olmuşdur.

Seyid Rəzi adı ilə məşhur olan Əbülhəsən Məhəmməd bin Hüseyn 968-ci ildə Bağdadda doğulmuşdur. O, öz dövrünün ən böyük şair və ədiblərindən olması ilə yanaşı, həm də bütün İslami elmlər sahəsində dərin bilikli öndər alim idi. Mənbələr onun öz dövrünün böyük hədisşünası, fəqihi, ədib və şairi olması haqqında məlumat verirlər. 80-dan çox əsərinin olması müəllifin elmi şəxsiyyətini öyrənmək baxımından ən yaxşı qaynaqdır. Seyid Rəzinin yetişməsində heç şübhəsiz ki, Bağdad alimlərinin də xüsusi rolları vardır.

Seyid Rəzinin müəllimlərindən Şeyx Müfid, Qazi Əbdülcəbbar əl-Mötəzili, Şeyx Əbu İshaq İbrahim ət-Təbəri, Məhəmməd bin Musa əl-Xarəzmi, Əbu Cəfər Əmr bin İbrahim əl-Kənnani, Əbülhəsən Əli bin İsa ər-Rümmani, İbn Nübatə, Osman bin Cənni, Əbu Səid Həsən bin Abdullah bin Mərzban əs-Sürafi, Harun bin Musa ət-Tələkbəri, Əbu Əli əl-Farsi və b. qeyd etmək olar.

Onun yetişdirdiyi tələbələrindən isə Əbu Bəkr Əhməd bin Hüseyn ən-Nisaburi, Əhməd bin Əli bin Qüdamə, Məhəmməd bin Əbu Nəsr əl-Əkbəri, Əbülhəsən Mehyar bin Mərzviyəh əd-Deyləmi, Əbu Abdullah Məhəmməd bin Əli əl-Hilvani, Əbülizz Məhəmməd bin Hümam daha məşhurdurlar.

Seyid Rəzinin qələmindən çıxan əsərlərdən aşağıdakıları qeyd etmək olar:

"Əxbari qüzati Bağdad", "Təlxisil-bəyan ən məcazatil-Quran", "Həqaiqit-təvil fi mütəşabihit-Tənzil", "ər-Rəsail" "əz-Ziyadat fi şeri İbn əl-Həccac", "əz-Ziyadat fi şeri Əbi Təmmam", "Kitab ma dar beynəhu və beynə Əbi İshaq əs-Sabi", "Muxtari şeri Əbi İshaq əs-Sabi", "Müntəxəb şeri İbn əl-Həccac", "Tifül-xəyal", "Sirətu Əbi Tahir", "Təliqül-izah li Əbi Əli əl-Farsi", "İnşirahis-sədr fi muxtarat minəş-şeir", "Divaniş-şeir", "Xəsaisi-Əimmə ." "Məanil-Quran", "Məcazatül-asarin-Nübuvvət", "Təfsirül-Quran", "Nəhcül-bəlağə."

"Nəhcül-bəlağə" Əli bin Əbu Talibin istinad edilən kəlmələr toplusudur. Əvvəldə də qeyd etdiyimiz kimi, Seyid Rəzi özündən əvvəlki qaynaqlara istinadən İmam Əlinin xütbələrini, məktublarını və qısa kəlamlarını bir araya toplamaqla belə bir əsər meydana gətirmiş və ona "Ritorikanın yolu" ("Nəhcül-bəlağə") adını vermişdir. Müəllif əsəri çox gözəl şəkildə tərtib etmiş

[336] Hasan Cirit. Hadise giriş. s. 196.
[337] Həmin mənbə. s. 197-198.
[338] İsmayıl Lütfü Çakan. Hadis edebiyatı. İstanbul, İfav yayınları. s. 107-108.

və onu üç hissəyə ayırmışdır. Belə ki, birinci hissədə İmamın 239 xütbəsini, ikinci hissədə 78 məktubunu, üçüncü hissədə isə 498 qısa kəlamlarını yerləşdirmişdir.

Müəllif İmamın Əlinin dağınıq və pərakəndə halda olan xütbə, məktub və sözlərinin yalnız seçilmiş və xalq içində daha məşhur olanlarını bir yerə toplamışdır. Çünki Əbülhəsən əl-Məsudinin (896-957) də qeyd etdiyinə görə, İmamın xalq içində 480-dan artıq xütbəsi məşhurdur. Halbuki Seyid Rəzi onlardan yalnız 239-nu qeyd edib.

Bunu da qeyd etmək lazımdır ki, bəzi alimlər "Nəhcül-bəlağə"nin Seyid Rəzi tərəfindən uydurulduğunu və İmam Əliyə aid olmadığını iddia etmişlər. Bu alimlərin başında İbn Xəllikan (1211-1282) gəlir. Belə ki, İbn Xəllikan ilk dəfə olaraq "Nəhcül-bəlağə"nin Seyid Rəziyə, yoxsa qardaşı Seyid Mürtəzaya aid olması haqqında alimlər arasında fikir ayrılığının olduğunu qeyd etmiş və bununla da əsər müəllifinin kimliyini şübhə altına salmaq istəmişdir. O, bu haqda yazırdı: "İnsanlar "Nəhcül-bəlağə"nin həzrət Əliyə aid olmasında ixtilafa düşmüşlər. Görəsən bu əsər Seyid Rəzinin yazdığıdır, yoxsa onun qardaşının? Deyilənə görə, adı çəkilən əsər həzrət Əliyə aid deyil. Bunu Seyid Rəzi onun adına uydurmuşdur."[339]

Xatırladaq ki, İbn Xəllikanın fikrini bəzi alimlər, o cümlədən İbn Teymiyyə (1263-1328) "Minhacüs-sünnə"də, Şəmsəddin əz-Zəhəbi (1274-1348) "Mizanül-etidal"da, əs-Səfədi (öl. 1342) "əl-Vafi bil-vəfayat"da, əl-Yafei (öl. 1346) "Miratül-cinan"da təsdiq etmişlər. Müasir alimlərdən isə Əhməd Əmin, Əhməd Həsən əz-Zəyyat, Əhməd Zəki, Məhəmməd Kürd Əli, Corc Zeydan, Məhəmməd Seyid Kilani və başqalarını misal göstərmək olar. Şərqşünaslardan isə Misyo Dimombin "Nəhcül-bəlağə"nin İmam Əliyə deyil, Seyid Rəzi tərəfindən uydurulduğunu qeyd etmişdir.[340]

Bunu da qeyd edək ki, "Nəhcül-bəlağə" haqqında şübhəyə düşənlərin bəzisi onun sənədində, bəzisi əhatə etdiyi mövzularında, bəzisi isə üslubunda şəkkə düşmüşlər. Amma mənbələr obyektiv şəkildə tədqiq edilərsə, məlum olacaqdır ki, "Nəhcül-bəlağə"nin mənbələri Seyid Rəzidən əvvəlki dövrlərə aiddir. Seyid Rəzi adı çəkilən əsəri toplayıb yazarkən özündən əvvəlki qaynaqlara istinad etmişdir. Xatırladaq ki, "Nəhcül-bəlağə"nin qaynaqları haqqında ən geniş məlumatı Seyid Əbdüzzöhrə bin Hüseyn əl-Xətib ən-Nəcəfi (öl. 1993) vermişdir. O, bu haqda dörd cildlik "Məsadiru-Nəhcil-bəlağə" adlı çox gözəl bir əsər də qələmə almışdır.

"Nəhcül-bəlağə"nin çoxlu sayda şərhi vardır. Əllamə ən-Nurinin (1838-1902) məlumatına görə "Nəhcül-bəlağə"nin 26,[341] Möhsün əl-Əminə (öl. 1953) görə 31,[342] Seyid Hibətuddin əş-Şəhristaninin (öl. 1964) məluamtına görə 45,[343] Əbdüləziz əl-Cəvahiri ən-Nəcəfiyə görə 51,[344] Şeyx Ziyauddin bin Yusif əl-Hədaiqi əş-Şiraziyə (öl. 1986) görə 66, Əllamə Əbdülhüseyn Əmini Təbriziyə (1902-1972) görə 89,[345] Ağa Bozork ət-Tehraniyə (1876-1970) görə 148,[346] Şeyx Hüseyn Cüməyə görə isə 210[347] şərhi vardır.

Bütün ömrünü elm və dinin inkişaf edib yayılmasına sərf edən Seyid Rəzi 1015-ci ildə Bağdad şəhərində vəfat etmiş və Bağdadın qərb istiqamətində yerləşən Kərx məhəlləsində "Ənbarilər" məscidində dəfn edilmişdir. Onun cənazəsinin daşınmasında və dəfn edilməsində Büveyhilər dövlətinin vəzir-vüzərası və bütün böyük mənsəb sahiblərinin hamısı iştirak etmişlər.

### 10.21. Məhəmməd bin Nöman (Şeyx Müfid) və əsərləri

Şeyx Müfid 945-ci ildə doğulmuşdur. Onun çoxlu sayda əsəri vardır. Onlardan aşağıdakıları qeyd etmək olar:

---

[339] İbn Xəllikan. Vəfayatül-əyan. Təhqiq: İhsan Abbas. III c. Beyrut, Darüs-səqafə, 1972. s. 313.
[340] Zəki Mübarək. ən-Nəsrül-fənni. Qahirə, Darül-kitabil-ərəbi. Tarixsiz, I c. s. 81.
[341] Xatimətül-müstədrək. s. 513.
[342] Möhsün əl-Əmin. Əyanüş-şiə. VIII c. s. 245.
[343] Ma hüvə Nəhcül-bəlağə. Çap ili 1352 h/q. s. 23.
[344] Fihriste kitabxane ümume məaref. I c. Tehran, 1353 h/q. s. 141-147.
[345] Əllamə Əmini. əl-Qədir. VI c. s. 184.
[346] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. XIV c. s. 111-161.
[347] Geniş məlumat üçün bax: Şuruhi-Nəhcil-bəlağə. Beyrut, 1403 h/q.

“əl-İrşad”, “əl-Məcalis”, “ən-Nüsus”, “əl-İxtisas vər-risalətül-kafiyə fi ibtali tövbətil-xatiə”, “Risalə masarüş-şiə fi müxtəsərit-təvarixiş-şəriyyə”, “əl-Müqniə”, “əl-Üyun vəl-məhasinil-müştəhir bil-füsil”, “əl-Məqalat.” “əl-Məzar”, “İman fi talib və rəsail zəbahi əhlil-kitab vəl-mütə”, “Səhvün-Nəbi və nəvmihi fis-salat”, “Təzvicu Əmirilmuminin bintuhu min Ömər”, “Vücubul-məsh”, “Əcvibətül-məsailis-sərviyyə vəl-əkbəriyyə”, “Şərhu əqaidis-Səduq” və s.

Şeyx Müfid 1022-ci ildə Bağdad şəhərində vəfat etmişdir.

## 10.22. Seyid Mürtəza və əsərləri

Seyid Mürtəza XI əsrin görkəmli alimlərindən və müctəhidlərindən biri olmuşdur. O, 966-cı ildə Bağdadda dünyaya gəlmişdir. Atası Əbu Əhməd ona Əli adını vermişdir. Ana və atası İslam dünyasının hörmətli və tanınmış ailələrindən idi. O, ilk təhsilini ailə ocağında almış və sonra dövrünün digər görkəmli alimlərindən elmin müxtəlif sahələrini öyrənmişdir. Tez bir zamanda elmin ən yüksək mərtəbələrini fəth edən Seyid artıq cavan yaşlarında şöhrətli bir alim kimi tanınırdı.

Seyid Mürtəzanın dərs metodu digər ustadlara bənzəmirdi. Dərslərinə hər məzhəb və inancdan şagirdlər qatılırdı və belə nəql edilir ki, “Bir yəhudi qıtlıq və kasıblığın verdiyi çətinliklə Seyid Mürtəzanın yanına gələrək ona astrologiya elmini öyrətməsini istəyib. Seyid yəhudini gülər bir üzlə qarşılayaraq ona müəyyən miqdar aylıq maaş vermiş və dolanışığını təmin etmişdir. Yəhudi aradan çox zaman keçmədən Seyidin gözəl əxlaq və ədəbindən təsirlənərək müsəlman olmuşdur. Seyid Mürtəzanın dərsinin xüsusiyyətlərindən biri də hər şagirdə öz hal və vəziyyətinə uyğun aylıq verməsi idi. Məsələn, Şeyx Tusiyə 12 dinar aylıq verirdi.

Dərsinin bir başqa xüsusiyyəti isə böyük şəxsiyyətlərin və ustadların da onun dərsinə qatılması idi, hətta öz ustadı Şeyx Müfid də onun dərsinə qatılırdı.

Seyid Mürtəzanın möhtərəmliyi və ucalığını bütün İslam aləmi qəbul etməkdədir. Adını eşidən hər alim elm və mövqeyindən tərifIə danışır. Əllamə Hilli onun haqqında belə yazırdı: “Seyid Mürtəza elmdə bənzərsiz idi. Alimlərimiz onun elm və fəzilətində ittifaq etmişlər. Kəlam, fiqh, ədəbiyyat və şeir sahələrində hər kəsdən daha qabiliyyətli və alim idi. Müsəlmanlar onun yaşadığı zamandan günümüzə qədər 693 qiymətli və elmi kitablarından istifadə etmişdir.”[348]

Əbül Əla əl-Müərri (973-1057) isə Seyidi ondan soruşan kimsəyə bu şeiri ilə cavab vermişdir:

*“Ey Seyid Mürtəzanı gəlib mənə soruşan kimsə!*
*Bil ki, O, hər səhv və qüsurdan uzaq idi.*
*Əgər onu görsəydin anlar idin,*
*Bütün xalqın igidliyi onda toplanmış və aləm tək bir evdə cəm olmuşdur.”*

Onun qələmindən çıxan əsərlərdən aşağıdakıları qeyd etmək olar:

“Kitabüd-dürər vəl-ğürər”, “Kitabu tənzihil-ənbiya”, “Kitabüş-şafi”, “Kitabu şərhi qəsidətil-Hümeyri”, “Kitabu cuməlil-ilmi vəl-əməl”, “Kitabül-intisar”, “Kitabüz-zəriə”, “Kitabül-müğni fil-ğeybə”, “Risalə təfzilil-ənbiya ələl-məlaikə”, “Risalə möhkəm vəl-mütəşabeh”, “Kitabu münqizil-bəşər min əsraril-qəza vəl-qədər”, “Əcvibətül-məsailil-müxtəlifə” və s.

Seyid Mürtəza 1044-cü ildə vəfat etmişdir.

## 10.23. Məhəmməd bin Həsən ət-Tusi və əsərləri

Şeyx Tusi 995-ci ildə Tusda doğulmuşdur. O, 23 yaşında İraqa səyahət etmiş və Bağdadda məskunlaşmışdır.[349] Bağdada səfər etdikdən sonra dövrünün nəhəng alimi Məhəmməd bin Nöman (Şeyx Müfid) (945-1022) ilə görüşmüş və Şeyx Müfidin ölümünün sonunadək onun tələbəsi olmuşdur. Həmçinin o, dövrünün ikinci böyük alimi Şeyx Mürtəzanın (966-1044) da yanında elm

---

[348] http://www.al-shia.org

[349] Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 159.

öyrənmişdir. Seyid Mürtəza Tusini himayə etmiş və ona aylıq 12 dinar verərək 23 ilə yaxın bir müddətdə yanında saxlamışdır. Seyid Mürtəza vəfat etdikdən sonra Tusi İmamiyyə məzhəbinin mərcəiyyət məqamını öz üzərinə götürmüş və "Şeyx ət-taifə" ləqəbi ilə məzhəbin dini rəisi vəzifəsini icra etmişdir. O, adı çəkilən məzhəbdə məsum İmamlardan sonra ən böyük elmi şəxsiyyət olaraq dəyərləndirilmişdir.

Şeyx Tusi Seyid Mürtəzadan sonra Bağdadda Kərx səmtində məskunlaşmış və on iki il burada dini məsələlərin izahı ilə məşğul olmuşdur. Bu arada onu müsəlman bölgələrinin tanınmış alimləri ziyarət etmiş, dünyanın müxtəlif bölgələrindən gələn tələbələr ondan elmin müxtəlif sahələrini və incəliklərini öyrənmişlər.

Mənbələrin məlumatına görə o, üç yüz müctəhidlik məqamına yetişən tələbə yetişdirmişdir.[350]

Dövründə "Şeyxül-imamiyyə", "Şeyxüt-taifə", "Rəisül-məzhəb" və "İmamül-fiqhi vəl-hədis" ləqəbləri ilə tanınan bu böyük şəxsiyyət sözün əsl mənasında novatorçu bir alim kimi dünya şöhrəti qazanmışdır. O, tarix, fəlsəfə, hədis, üsulu-fiqh, təfsir və bir çox ilahiyyat elmləri sahəsində böyük nailiyyətlər əldə etmiş və elmin müxtəlif sahələrinə aid dəyərli əsərlər meydana gətirmişdir.

Şeyx Tusi 1055-ci ildə Bağdaddan Nəcəfə köçmüşdür. Nəcəfə köçməsi Səlcuqi padşahı Toğrul Bəyin onu sürgün etməsi ilə əlaqədardır. Belə ki, Toğrul Bəy (1040-1063) 1055-ciildə Bağdada gəlmiş və orada Büvieyhilərin hakimiyyətinə son qoymuşdur. Beləliklə, yeni hakimiyyət tərəfindən sıxışdırılan Şeyx Tusi Bağdaddan Nəcəfə köçmüşdür.[351] O, Nəcəfdə İmam Əlinin məqbərəsinə sığınmış orada fəaliyyət göstərməyə başlamışdır. Mənbələrin verdikləri məlumata görə, Tusi Nəcəfə gəldikdən sonra ilk dəfə olaraq orada elmi mərkəz (mədrəsə) açmış, böyük İslam universitetinin əsasını qoymuşdur.

İlk təməli Şeyx Tusi tərəfindən qoyulan "Camiətün-Nəcəfil-Üzma" artıq min ilə yaxındır ki, fəaliyyət göstərir.[352]

Şeyx Tusinin yazdığı əsərlərdən aşağıdakıları qeyd etmək olar:

"Təhzibül-əhkam." Tusinin qələmə aldığı əsərlərin içərisində "Təzhibül-əhkamın" xüsusi yeri vardır. Əsər yazıldığı dövrdən bu günə kimi mərcəi-təqlid müctəhidlərin şəri hökmləri istinbat etmək (əldə etmək) üçün əllərində ən mötəbər mənbə olmuşdur. Öz orijinallığı ilə digər əsərlərdən fərqlənən bu əsər "Kütubu-ərbəə"nin əsas kitablarından biri olmuş və həmişə müsəlman alimləri tərəfindən müraciət ediliən əsas qaynaq hesab edilmişdir.

Mənbələrin verdiyi məlumata görə, "Təhzibül-əhkam" əsərini Şeyx Tusi ustadı Şeyx Müfidin (945-1022) "əl-Müqniə" adlı əsərinə şərh olaraq yazmışdır. Əsər 23 böyük fəsildən (kitab), 393 kiçik fəsildən (babdan) və 13590 hədisdən ibarətdir.[353]

Əsər aşağıdakı böyük fəsilləri ehtiva etdir:

"Kitabüt-təharət", "Kitabüs-salat", "Kitabüz-zəkat", "Kitabüs-saum", "Kitabül-həcc", "Kitabüz-ziyarət", "Kitabül-cihad", "Kitabüd-düyun vəl-kəfalat vəd-zəmanat vəl-həvalat", "Kitabüş-şəhadat", "Kitabül-qəzaya vəl-əhkam", "Kitabül-məkasib", "Kitabüt-ticarət", "Kitabün-nikah", "Kitabüt-talaq", "Kitabül-itq vət-tədbir vəl-mükatəbə", "Kitabün-nüzuq vəl-iman vəl-kəffarat", "Kitabüs-sayd vəz-zəb0aih", "Kitabül-ətimə vəl-əşribə", "Kitabül-vuquf vəs-sadaqat", "Kitabül-vəsaya", "Kitabül-məvaris", "Kitabül-hüdud", "Kitabüd-diyat."[354]

"Təhzibül-əhkam" əsəri dəfələrlə nəşr edilərək dünyanın müxtəlif bölgələrində yayımlanmışdır. Əsər hicri 1317-ci ildə iki böyük cild halında İranda,[355] ikinci dəfə isə hicri 1307-ci ildə Nəcəfdə nəşr edilmişdir.

350 Həmin mənbə. IX c. s. 159.

351 Həmin mənbə. IX c. s. 159.

352 Həmin mənbə. IX c. s. 160.

353 Həmin mənbə. IX c. s. 161.

354 Seyid Əbülqasim əl-Xoyi. Möcəmu ricalil-hədis. XV c. s. 243.

355 Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 161.

“Təhzibül-əhkam” fiqhi dəlilləri və yaxud da hədisləri ehtiva edən çox möhtəşəm bir əsərdir. Burada kəlamı (fəlsəfi) dəlillər yoxdur. Çünki Şeyx Tusi bu əsərini fiqhi fəsillər əsasında tərtib etmiş, özünün əqidəvi və kəlami görüşlərini isə başqa əsərlərində ortaya qoymuşdur.

“əl-İstibsar.” Şeyx Tusini hədis sahəsində yazdığı ikinci dəyərli əsəri “əl-İstibsar fima üxtulifə minəl-əxbar”dır. Əsər “Kütubu ərbəə”nin dördüncüsü hesab edilir. Hədisşünaslar “Təhzibül-əhkam”a yüksək qiymət verdikləri kimi, bu əsərə də yüksək qiymət vermiş və şəri hökmlərin istinbat edilməsi üçün buna müraciət etmişlər.

“əl-İstibsar” əsərində 5511 hədis vardır.[356]

“əl-İstibsar” əsəri hicri 1307-ci ildə Suknovda (Hindistan) Səfəriyyə mətbəəsində, ikinci nəşri hicri 1317-ci ildə Tehranda, üçüncü nəşri isə Nəcəfül-əşrəfdə hicri 1375-ci ildə Şeyx Əli əl-Axundinin köməklik və yardımı sayəsində nəşr edilmişdir.[357] Əsərə bir çox şərhlər yazılmışdır.

“əl-Amali.” Buna “əl-Məcalis” də deyirlər. Əsər hicri 1313-cü ildə Tehranda nəşr edilmişdir.

“ət-Tibyan fi təfsiril-Quran.” Əsər Quran elmləri və Quran təfsirinə aid ən mühüm və ən qiymətli əsər hesab edilir. Müəllif əsərinin ön sözündə zamanına qədər heç bir şiə aliminin tam Quran təfsiri hazırlamamasından bəhs etmişdir. İslam alimləri, xüsusilə də Quran təfsirçiləri arasında yüksək səviyyədə qiymətləndirilən əsər haqqında Fəzl bin Həsən ət-Təbərsi (1073-1153) “Məcməül-bəyan fi təfsiril-Quran” adlı əsərinin müqəddiməsində yazırdı: “O elə bir kitabdır ki, ondan haqqın nuru əldə edilir. Onda doğruluğun qapısı görünür, o bədi sirlərin mənalarını ehtiva edir və geniş dilin kəlmələrini öz içərisinə alır.”[358]

“ət-Tibyan fi təfsiril-Quran” əsəri hicri 1316-1317-ci illərdə iki böyük cild halında Tehranda, ikinci dəfə isə hicri 1382-ci ildə on cilddə Nəcəfdə nəşr edilmişdir.

“əl-Üddə fil-üsul.” Şeyx Tusi bu əsərini ustadı Seyid Mürtəza həyatda olarkən qələmə almışdır. Əsəri iki hissəyə ayıran müəllif birinci hissədə üsulid-din (dinin əsasları), ikinci hissədə isə üsulul-fiqhdən (İslam hüquq metodologiyasından) bəhs etmişdir. Müəllif əsərində göstərmişdir ki, fiqh üsulunu yazmaq, ancaq bu elmin əsas prinsiplərini bilənlərə məxsusdur, əks halda, bu elmə aid əsər yazanlar təqlidçi olacaqlar.

Üsul mövzusuna aid yazılmış ən irihəcmli əsər olan “əl-Üddə” hicri 1312-ci ildə Bombeydə, ikinci dəfə isə hicri 1314-cü ildə İranda nəşr edilmişdir.[359]

“əl-Fihrist.” Şeyx Tusinin ən məşhur əsərlərindəndir. Müəllif əsərində demək olar ki, kitab müəlliflərinin adlarını qeyd etmişdir. Alimlər əsərə böyük etimad göstərmiş və onun rical elmi sahəsində çox dəyərli olduğunu demişlər. Əsəri Şeyx Süleyman əl-Mahuzi (öl. 1709) şərh etmiş və onu “Məaricül-kəmal ilə mərifətir-rical” adlandırmışdır. Bundan başqa, əsəri Şeyx Əli əl-Məqşai əl-Əsbəği əl-Bəhrani (öl. 1715) rical üslubu əsasında tərtib etmişdir.[360]

“əl-Fihrist” əsəri bir neçə illər bundan əvvəl Seydonda, ikinci dəfə isə hicri 1271-ci ildə Kəlkutdə nəşr edilmişdir.[361] Sonralar əsər hicri 1356-cı ildə Nəcəfül-əşrəfdə Seyid Məhəmməd Sadiq Ali Bəhrilülumun əlavə müqəddiməsi ilə nəşr edilmişdir.

Şeyx Tusi “Fihrist” əsərində doqquz yüz şəxsdən və onların əsərlərindən bəhs etmişdir.[362] O, əsərini yazan zaman onun müqəddiməsində qeyd etmişdir ki, yalnız “cərh” və “tədil” etdiyi şəxslərin hər biri və onların rəvayətlərinin etimadlı olub-olmaması haqqında məlumat verəcəkdir. Lakin o, əməli surətdə bu üslubuna xilaf çıxmış və bəzi nadir halları çıxmaq şərti ilə heç kəsi “cərh” və “tədil” etməmiş və daha doğrusu, bu işdən çəkinmişdir. O, “Fihrist” əsərində təkcə İmamiyyə

---

356 Həmin mənbə. IX c. s. 165.

357 Həmin mənbə. IX c. s. 165; Şeyx ət-Tusi. Təhzibül-əhkam. I c. s. 47.

358 Möhsün əl-Əmin. Əyanuş-şiə. IX c. s. 165.

359 Şeyx ət-Tusi. Təhzibül-əhkam. I c. s. 49.

360 Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 166.

361 Həmin mənbə.

362 Həmin mənbə.

məzhəbinin deyil, o cümlədən qeyri-imamiyyə məzhəbli Fəthiyyə və Vaqifiyyə firqəsindən olan şəxslərdən də bəhs etmişdir.[363]

"Fihrist" əsərinin tərtibinə gəldikdə, demək olar ki, müəllif əsərdə heca hərflərinə uyğun fəsil açmış və hər ismi uyğun gələn fəslin altında yerləşdirmişdir. Məsələn, "əlif" hərfinə məxsus bir fəsilə nəzər salsaq, orada Əsbəğ, İdris, Əsrəm adlarına rast gələrik.[364]

Tusi ömrünün son on iki ilini Nəcəfdə keçirmiş və 1067-ci ildə orada vəfat etmişdir.[365]

### 10.24. Əli əl-Müttəqi əl-Hindi və "Kənzül-ümmal" əsəri

Əlaəddin Əli əl-Müttəqi əl-Hindi hədis elmləri sahəsində şöhrətli bir yerə sahib olan hədisşünaslardandır. O, 1480-cı ildə Hindistanda doğulmuşdur.[366]

Əli əl-Müttəqi Cəlaləddin əs-Süyutinin (1445-1505) "Cəmül-cəvami" və "əl-Camiüs-səğir" əsərlərini fəsillər (aləl-əbvab) bölmək və "Camiül-üsul"da olduğu kimi, böyük fəsilləri əlifba sırasına uyğun şəkildə tərtib edərək "Kənzül-ümmal" əsərini yazmışdır. Əsər tədqiqatçıların məlumatına görə, 40000-ə yaxın hədisi ehtiva edir.

Sonralar Əli əl-Müttəqi əsərinin müntəxabatını yaratmışdır. Əsərə "Müntəxabu kənzil-ümmal" adını verən müəllif bu burada təxminən "Kənzül-ümmal"ın üçdə birini (15000 hədisi) ləğv etmişdir. Çünki bunlar təkrar hədislərmiş.[367]

Hədisşünaslığa öz ciddi töhfələrini verən Əllamə Əli əl-Müttəqi 1567-ci ildə vəfat etmişdir.[368]

### 10.25. Şeyx Bəhaəddin əl-Amili və əsərləri

Bəhaəddin Amili İslam dünyasında ensiklopedik alim kimi xatırlanır. O, 1547-ci ildə doğulmuşdur.[369] Şeyx Bəhai adı ilə məşhur olan alim təkcə dini elmlər sahəsində deyil, eyni zmanada riyaziyyat elmləri sahəsində də görkəmli bir şəxsiyyət idi.

Şeyx Bəhaəddin Amili ömrünün otuz ilini müxtəlif bölgələri gəzmiş və həmin bölgələrdə olan görkəmli alimlərdən dərs almışdır. Mənbələrin verdikləri məlumata görə o, artıq on üç yaşında ikən ərəb və fars dillərində mükəmməl danışmışdır. Gənc yaşlarında ikən Hicaza həcc səfərinə çıxmış və bir müddət orada qalaraq alimlərdən dini elmləri öyrənmişdir. Sonra isə İsfahana qayıtmış və orada ədəbiyyat, qrammatika, tarix və fəlsəfə elmlərini mənimsəmişdir. Bunlardan başqa o, dəqiq elmlər sahəsində dərin mütaliələr etmiş riyaziyyat, astronomiya, cəbr və məntiq elmlərində öz dövrünün yeganəsi olmuşdur. Şeyx Bəhaədin I Şah Abbas (hakimiyyət illəri 1587-1629) tərəfindən şeyxülislamlıq vəzifəsinə gətirilmişdir. 1611-ci ildə I Şah Abbasın əmri ilə Şeyx Bəhaəddin Amili və digər məşhur alimlər Marağa rəsədxanasının bərpası üçün layihə hazırlayıb onu hökmdara təqdim etmişdilər.

Şeyx Bəhaəddin cəbr elminə aid yeni bir üsul qoymuşdur. Buna "Təriqətül-kəffəteyn" və ya "Təriqətül-mizanir-riyazi" adını vermişdir. O, bu metodla riyaziyyat elmlərində bəzi problemlərin çox həssas və dəqiq həlli yolunu göstərmişdir. Onun tərtib etdiyi "Mizan" metodu sayəsində cəbr elmində kök tapma və çoxdərəcəli tənliklərin həlli yolu öyrənilmişdir. Bundan sonra onun əsərlərini mütaliə edən İsaak Nyuton bu metodu öyrənmiş və ondan istifadə edərək həqiqi kök tapmaq məsələsində yeni bir metod ortaya qoymuşdur. Onun metoduna isə "Nyuton-Papson" metodu deyilir. Bu metod vasitəsilə diferansiyal və inteqral hesabları daha dəqiq həll edilmişdir.

Alimin yazdığı əsərlərin əsas xüsusiyyəti həmin elmdə çox çətin və problemli məsələlərin həlli olmuşdur. Alimin əsərlərindən aşağıdakıları qeyd etmək olar:

---

363 Şeyx ət-Tusi. Təhzibül-əhkam. I c. s. 49.

364 Həmin mənbə.

365 Mustafa Öz. DİA XLI c. s. 433.

366 TDV İslam Ansiklopedisi. İstanbul, 2006. XXXII c. s. 222.

367 İsmayıl Lütfü Çakan. Hadis edebiyatı. İstanbul, İFAV yayınları, s. 116-117.

368 TDV İslam Ansiklopedisi. İstanbul, 2006. XXXII c. s. 223.

369 Ömer Okumuş. DİA. III c. İstanbul, 1991.s. 60-61.

“Kitabu xülasətil-hisab”, “Kitabu müləxxəsil-hisab vəl-cəbr və amalil-məsaha”, “Kitabül-kəşkül”, “Bəhrül-hisab”, “Risalətül-hilaliyyə”, “Təriqül-əflak”, “Risalə fi cəbri vəl-müqabələ”, “Risalə fi təhqiqi cihətil-qiblə”, “əl-Müləxxəs fil-heyət”, “Risalə ənil-kürə”, “Risalə fil-cəbri əlaqatihi bil-hisab”, “Kitabu ənil-həyat”, “Təfsirül-müsəmma bil-həblil-mətin”, “Haşiyə ələ ənvarit-tənzil”, “Risalə fi vəhdətil-vücud”, “Miftahül-fəlah”, “Zübdətül-üsul”, “əl-Hədiqətül-hilaliyyə”, “Hidayətül-ümmət”, “əl-Fəvaidüs-Səmədiyyə”, “Əsrarül-bəlağə”, “Təhzibün-nəhv”, “əl-Məlaha”, “Təhzibül-bəyan.”[370]

Şeyx Bəhaəddinin əsərləri içərisində dəqiq elmlər sahəsində ən önəmlisi “Xülasətül-hesab” əsəridir. Əsər on fəsildən ibarətdir. Müəllif əsərində riyaziyyat elminin ən mühüm problemlərinin həllini göstərmişdir. Əsərin birinci cildində o, əsas hesablama üsullarına toxunmuş, toplama, çıxma, bölmə, vurma və digər qaydalara toxunmuşdur.

Əsərin ikinci fəsli isə kəsrlə əlaqədar olub üç giriş və altı bölümdən ibarətdir. Bu fəsildə o, kəsrlərin toplanması, çıxılması, vurulması və bölünməsi məsələlərinə toxunmuşdur. Bu minvalla o, riyaziyyat elminin müxtəlif problemlərini əsərində şərh etmişdir.

Onun yazdığı bu əsəri məşhur türk alimi Əbdürrəhim bin Əbu Bəkr şərh etmişdir. Bundan sonra onu Ramazan bin Əbu Hüreyrə əl-Cəzəri şərh etmiş və bununla da əsər İslam aləmində tanınaraq istifadə edilmişdir.

Amilinin əsəri 1843-cü ildə Berlində nəşr edilmişdir. 1864-cü ildə isə əsər fransızcaya tərcümə edilmişdir. O, əsərində özünəqədərki riyaziyyat alimlərinin toxuna bilmədiyi mühüm problemlərə toxunmaqla dünya alimlərinin diqqətini cəlb etmişdir.

Alim həmçinin “Həblül-mətin” əsərində hind dairəsi terminini şərh etmiş və onun sayəsində qiblənin necə təyin ediləcəyini düzgün şəkildə göstərmişdir.

Şeyx Bəhaəddin daha çox hədis elminin metodoloji problemləri sahəsində əsər yazan müəlliflərdəndir. Onun yazdığı “əl-Vəcizə” əsəri hədis üsulu sahəsində yazılmış ən əhəmiyyətli əsərlərdən biri kimi xarakterizə edilir.

Elm və dinin mahir təbliğatçılarından olan Şeyx Bəhaəddin Amili 1622-ci ildə vəfat etmiş və Məşhəddə İmam Rzanın məqbərəsi yaxınlığında dəfn edilmişdir.[371]

### 10.26. Feyz əl-Kaşani və “əl-Vafi” əsəri

Hədis elmində iftixarla yad edilən şəxsiyyətlərdən biri “Ələmül-hüda” ləqəbli Məhəmməd bin Şah Mürtəza əl-Kaşanidir. Görkəmli hədisşünas, fəqif və filosof olan alim daha çox Feyz Kaşani adı ilə tanınır. O, 1597-ci ildə doğulmuşdur.[372]

Kaşani bir çox alim yetişdirən tanınmış ailəyə mənsubdur. İlk müəllimi zəngin bir kitabxanaya sahib olan atası Şah Mürtəzadır. İlk təhsilini ailə ocağında atasından alan Feyz Kaşani iyirmi yaşında ikən dövrünün ən mühüm elm və mədəniyyət mərkəzi olan İsfahana getmişdir. Bir ilə qədər burada qaldıqdan sonra Seyid Məcidi Bəhranidən fiqh və hədis oxumaq üçün Şiraza getmiş, Bəhrani bir neçə aydan sonra vəfat etdiyindən, təkrar İsfahana qayıtmış və məşhur filosof, fəqih və hədisşünas Bahaəddin Amilidən (öl. 1622) dərs almışdır. Bu sırada yenə Səfəvi dövrünün parlaq elmi simalarından və İsfahan fəlsəfə məktəbinin banisi olan Mir Məhəmməd Bağır Mirdamaddan (öl. 1632) fəlsəfə dərsi almışdır. Kaşani İsfahanda çox qalmamış, 1620-ci ildə həccə getmiş və bir müddət Məkkədə qalaraq məşhur hədisşünas Məhəmməd bin Həsən bin Zeynüddin əl-Amilidən (öl. 1654) hədis dərsi almışdır. İrana qayıtdıqdan sonra Qum şəhərində görkəmli filosof Molla Sədra ləqəbli Sədrəddin Şirazi ilə tanış olaraq ona tələbəlik etmişdir. Səkkiz il Molla Sədranın yanında qalan Kaşani onun nəzarəti altında öyrəndiyi dərslər və etdiyi riyazətlər nəticəsində bütün elmlərin batini mənasına vaqif olduğunu söyləyirdi. Molla Sədranın fikirlərinin

[370] Şamil İslam Ansiklopedisi. II c. İstanbul, Şamil yayınevi, 1990. s. 54-57.
[371] İsgəndər bəy Münşi. Tarixe alam araye Abbasi. Tehran, 1350 h/ş. I c. 151-152; Hürr əl-Amili. Əməlül-amal. Nəşr: Əhməd əl-Hüseyni. I c. Bağdad, 1385 h/q. s. 155-160.
[372] Feyz əl-Kaşani. əl-Vafi. I c. s. 17.

əksəriyyətini mənimsəyən Kaşaninin əsərlərinin bir çoxunda Sədranın təsiri açıq görünür. Möhsün Kaşaniyə “Feyz” ləqəbini verən Molla Sədra onu qızı ilə də evləndirmişdir.[373]

Feyz Kaşani 1632-33-cü illərdə Molla Sədra ilə birlikdə Şiraza getmiş, bir müddət Şirazda yaşamışdır.[374] Üç il sonra Kaşana dönən Feyz Şah Səfi (1629-1642) tərəfindən İsfahanda məskunlaşmağa dəvət edildisə də, bu təklifi qəbul etməmişdir. Ancaq sonra 1642-ci ildə taxta keçən II Şah Abbasın dəvətinə cavab verərək bir neçə il Səfəvilərin paytaxtında cümə namazı rəhbərliyini icra etmiş və eyni zamanda Molla Abdullah mədrəsəsində müdərrislik vəzifəsini də boynuna götürmüşdür. II Şah Abbasın (öl. 1666) ölümündən sonra naməlum bir tarixdə təkrar İsfahandan ayrılan və həyatının qalan illərini Kaşanda keçirən Feyz Kaşani bu şəhərdə vəfat etmiş və orada da dəfn edilmişdir.

Feyz Kaşani haqqında müsəlman alimləri dəyərli fikirlər söyləmişlər. Azərbaycan alimi Əllamə Əbdülhüseyn Əmini (1902-1972) yazırdı: “Ələmülhüda Feyz Kaşani tanınmış elmi və ədəbi şəxsiyyətlərdən biridir. Bu şəxs irsi və kəsb olumnuş fəzilətlərə sahib idi. O, fəqih, hədis bayraqdarı, filosof, arif və əxlaq sahibi kimi tanınmış bir şəxsin oğludur.”[375]

Digər görkəmli alim Seyid Sədrəddin Kazimi yazırdı: “O, fəzilət sahibi olan bir alim, hədisşünas, fəqih, gözəl xasiyyətli bir şəxs, ədəbi və gözəl xəttə sahib olan bir zat idi. O, hikmətdən xəbərdar, bütün fəzilətləri öz şəxsində birləşdirən bir alim idi.”[376]

Onun haqqında Tehran Universitetinin keçmiş professoru Seyid Məhəmməd əl-Mişkat “Məhəccətül-beyza” əsərinə yazdığı ön sözdə fikirlərini belə bildirir: “Feyz Kaşani dörd şeydə digər alimləri ötüb keçmişdir:

1. Feyzin evi kimi heç kəsin evi müxtəlif təbəqədən olan alimlərlə dolu olmamışdır.

2. O, elmin müxtəlif sahələrindən xəbərdar olmuşdur ki, onu da Fəxrəddin Razi, Nəsrəddin Tusi, Əllamə Hilli və Qütbəddin Şirazi ilə müqayisə etmək olar. Əsərlərinə gəldikdə isə “əl-Vafi” əsəri onu məşhur hədis liderinə çevirmişdir.

3. Fəlsəfənin şəriət üzərində açıqlanması və tətbiq edilməsi baxımından rəqiblərindən üstündür.

4. O, əsərlərinin çoxluğu baxımından Əvhədidən başqa hamıdan üstündür.”[377]

Yaşadığı dövrün alimlərinin bir çoxu kimi şeir də söyləyən Feyz Kaşaninın 6000 beytdən ibarət olan “Divan”ını XIX əsrin tədqiqatçılarından Rza Qulu Xan Hidayət “Divanı uca hikmətlər və qiymətli incəliklərlə dopdoludur”, sözləri ilə tərifləmişdir.[378]

Feyz Kaşani fəlsəfə, təsəvvüf, kəlam, əxlaq, hədis, təfsir, fiqh və fiqh üsulu kimi sahələrdə ərəbcə 100-dən artıq əsər qələmə almışdır.[379] Yazdığı ən mühüm əsərlərdən aşağıdakıları qeyd etmək olar:

“əl-Vafi”, “Səfinətün-nicat fi təriqətil-əməl”, “Təfsirül-kəbir”, “Təfsirüs-səğir”, “Təfsirül-mütəvəssit”, “Eynül-yəqin”, “Həqqül-yəqin”, “İlmül-yəqin”, “Üsulul-əsliyyə”, “Risalətül-cümə”, “Tərcümətüs-salat və kəlimatit-tərifə”, “Risalə fit-təfəqqüh”, “Risalə fi nəfyit-təqlid”, “ən-Nüxbə”, “Məfatihüş-şərai”,[380] “Məhəccətül-beyza fi ihyail-ihya”, “Mizanül-qiyamət”, “Miratül-axirət, “Təshilüs-səbil bil hüccəti fi intixabi kəşfil-məhəccə li İbn Tavus, “Nəqd üsulil-fiqhiyyə”, “Xilasətül-əzkar”, “Tərcümətül-əqaid”, “Miratüs-savab”, “ən-Nüxbətüs-suğra”, “ən-Nüxbətül-kübra”, “Cihazül-əmvat”, “əd-Dəvabitül-xüms fi əhkamiş-şəkk”, “əs-Səhv”, “ən-Nisyan”, “Risalə vilayətil-əqdil-bikr”, “əl-Əhcarüş-şidad”, “əl-Fihrist”,[381] “Kitabül-üləma”, “Miratül-cinan”,

---

[373] Hamid Algar. DİA. XII c. İstanbul, 1995. s. 520.
[374] Doktor Sədiq Səfizadə. Beş minillik İran tarixi. II c. s. 1687.
[375] Əllamə Əmini. əl-Qədir. XXII c. s. 281.
[376] Həmin mənbə.
[377] Feyz əl-Kaşani. əl-Vafi. I c. s. 31.
[378] Rza Qulu Xan Hidayət. Məcməül-füsaha. IV c. s. 48-49.
[379] Əli Müdərris. Reyhanətül-ədəb. IV c. Təbriz. Tarixsiz. s. 369-379.
[380] Əllamə Əmini. əl-Qədir. XXII c. s. 281.
[381] Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. XVII c. s. 214-215.

“Tühfətül-əbrar”,[382] “əl-Haşiyə”, “əl-Cami fil-üsul vəl-füru vəl-əxlaq”, “Kitab üsulid-din”, “əl-Vəciz fi təfsiril-Quran”, “əl-Müstədrək əla kitabil-vafi”, “Şərhi lətif əla Nəhcil-bəlağə”, “Divanu şeiri ərəbi”, “Divanu şeiri farsi”, “Kitab fil-məkatib vəl-inşa”, “Kitabül-kəşkül”, “Şərhu Nəhcil-bəlağə”, “Kitabu dəlilil-həcc”, “Meyarül-əxyar fil-əruz vəl-qəvafi” və s.[383]

Feyz Kaşaninin yazdığı bu və ya digər əsərlər içində heç şübhəsiz ki, “əl-Vafi”nin özünəməxsus yeri vardır. Əsər hədisşünaslıq sahəsində yazılmış ən irihəcmli əsərlərdən biridir. Müəllif əsərində “Kütubu-ərbəə”nin (“əl-Kafi”, “əl-Fəqih”, “ət-Təhzib” və “əl-İstibsar”) bütün hədislərini toplamış, onları daha da gözəl şəkildə tərtib etmişdir. Burada on dörd fəsil açmış və hədisləri mövzuya görə həmin fəsillərdə yerləşdirmişdir. Müəllif əsərə üç giriş yazmışdır. O, əsərdəki hədisləri faydalı şəkildə açıqlamış, müşkül hədislərin yozumunu vermişdir. Bəzən isə hədisləri açıqlayarkən sufizmə də meyil etmişdir.[384]

Əsərə yazdığı müqəddimədə onun yazılma səbəblərini açıqlamış və ona nə üçün “əl-Vafi” adını verdiyini bəyan etmişdir. Belə ki, əsərinin müqəddiməsində yazırdı: “Din elmlərinin xidmətçisi, Məsum İmamların düşüncələrini qeyd edəni (Məhəmməd bin Mürtəza) deyir: “Ey qardaşlarım, bu “əl-Vafi” kitabı din elmləri haqqındadır və Qurani-Kərimdə açıq-aşkar varid olan ayələrin ehtiva edənidir. Həmçinin bu kitab “Üsuli-ərbəə” deyilən kitabların hamısını özündə toplamışdır.

Mən bu dörd kitabda (“əl-Kafi”, “əl-Fəqih”, “ət-Təhzib” və “əl-İstibsar”) Məsum İmamlardan nəql olunan hədisləri və orada olan nöqsanları, insanların hidayəti üçün rəvayət edilən xəbərləri bir araya toplamaq, fəsillərdə olan müxtəlifliyi, rəvayətləri açıqlamaq və təkrarçılığı aradan aparmaq üçün səbəbkar oldum.

“əl-Kafi” əsərinə gəldikdə, bu, digər əsərlərin ən şərəflisi, ən etibarlısı, ən mükəmməli və ən irihəcmlisidir. Çünki o əsaslardan bəhs etmiş, lüzumsuz rəvayətlərdən uzaq durmuşdur. Amma o hökmlərdən çox bəhs etmiş və fəsillərini tamama yetirməmişdir. Həmçinin əsərdə olan naqisliyi ortalığa qoymamışdır. Sonra da o, mübhəm və müşkül xəbərləri şərh etməmişdir. Daha sonra isə bəzi böyük fəsillərdə, kiçik fəsillərdə və rəvayətlərdə gözəl tərtib qaydalarını ortalığa qoymamışdır.

Mənə elə gəlir ki, hədisi bəzən öz ünvanında yerləşdirməmiş, fəsillər üçün adlandırmanı (ünvanı) gözardı etmiş, fəsilləri düzgün adlandırmamış və ya gərəksiz adlandırmışdır.

“əl-Fəqih” əsərinə gəldikdə, bu da “əl-Kafi” əsəri kimidir. Onun böyük və kiçik fəsillərində çoxlu nöqsanlar vardır.

Mənə elə gəlir ki, orada yer alan hədis müəllifin öz sözünə bənzəyir. Onun sözü hədisin sonunda hədisin tamamına oxşayır və hədisin sənədlərini gözardı etmişdir.

“ət-Təhzib” əsərinə gəldikdə, bu əsər əhkami hədisləri özündə toplamış və orada rəvayət edilən xəbərlər mükəmməlliyə daha yaxındır. Amma o da “əl-Fəqih” əsəri kimi əsas prinsiplərdən uzaqdır. Onun da yozumları hədəfdən uzaq, uyğun hala gətirilməsi qeyri-münasib, bir yerə toplanması lazım olan hədislər toplanış baxımından gərəksiz, xəbərlərin çoxu mövzusu baxımından münasib yerdə yerləşdirilməmiş, təkrarçılığı çox və fəsilləri ünvanlarla birlikdə çox uzadılması ciddi qüsurdur.

“əl-İstibsar” əsərinə gəldikdə isə, o da “ət-Təhzib” əsərindən bir parçadır. Onun fərqi budur ki, əsər “ət-Təhzib”ə nisbətən müxtəlif hədisləri qısa olaraq özündə toplamışdır. Hər üç müəllifə gəldikdə, onlar hədislərin nəql edilməsinə və bir yerə toplanmasına son dərəcə cəhd və səy etmiş və bu işin öhdəsindən mükəmməl şəkildə gəlmişlər. Amma onlar mükəmməl nizama əməl etməmiş və onlardan heç biri üsula və əhkama aid bütün xəbərləri toplamağı yerinə yetirməmişlər. Həmçinin onlar hədislərdə olan mübhəm mənaları şərh etməmiş, orada olan gizli mənaları üzə çıxarmamış, çözülməmiş problemlərlə məşğul olmamış, hədislərdə olan anlaşılmazlıqları təfsir etməmişlər. Buna baxmayaraq, insafla demək lazımdır ki, onlar həyata keçirdiklərilə tərk etdikləri işlər bir araya gətirilərsə, öz üzərlərinə düşən vəzifəni lazımınca həyata keçirmiş və hər kəsin gücü yetmədiyi

[382] Əllamə Əmini. əl-Qədir. XXII c. s. 281; Feyz əl-Kaşani. əl-Vafi. I c. s. 19-28.
[383] Feyz əl-Kaşani. əl-Vafi. I c. s. 22-27.
[384] Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. XVII c. s. 214-215.

işləri etmişlər. Yerdə qalan bəzi nöqsanlı işlərə isə onlar cavabdeh deyillər. Allah onlara mükafat versin ki, bizə bu qədər xəbərləri irs qoyub getmişlər.

Bu əsərlərdə olan nöqsanlıqları bu vaxta qədər heç kəs tamamlamamış və uzun zamandan bəri şeyxlərmizdən heç kəs bu nöqsanları aradan aparmamışlar.

Qardaşlardan bir qrupu mənə üz tutdular və onların qəlbləri mənə tərəf istiqamətləndi və bu problemə cəsarətlə girişməyə məcbur qaldım. Onların istəyi bu idi ki, mən bu kitablarda olan nöqsanları aradan aparıb, kitabı gözəlləşdirim, orada olan hədislərdəki mənaları açıqlayım.

Mən bu işə girişmək və hədislərdə olan mənaları açıqlamaq üçün Allahdan kömək və yardım istədim. Oradakı hədisləri bir yerə topladım və kitab halına saldım, onları gözəl şəkildə, nizam-intizamla bir araya gətirdim, dəstələrə böldüm, tərtib etdim, fəsillərə ayırdım, onları öyrənmək üçün yolları asanlaşdırdım və son dərəcə cəhd göstərdim ki, həmin kitablarda olan hədis və isnad əskik olmasın. Bu kitabı elə tərtib etdim ki, orada "Kütubu-ərbəə"ni asan yolla ələ gətirəsən, orada şərhə ehtiyacı olan məsələləri qısa şəkildə, uzunçuluğa yol vermədən şərh etdim.

Mühüm hədislərin şərhini digərlərindən fərqləndirərək izah etdim, bəzilərini digərlərindən önə çəkdim ki, mərifət və hidayət əhli ona müraciət edən zaman onlar üçün təlimat olsun. Bu kitabdan sonra onların digər kitablara müraciət etməyə ehtiyacları olmasın. Onlar əhkami və şəri məsələləri istinbat etdikdə, əksiklik hiss edməsinlər, ictihad edib fətva verdikdə fəsada düçar olmasınlar. Beləliklə, kitabın adını "əl-Vafi" qoydum. Çünki bu əsər mühüm məsələləri ehtiva etsin və naməlum (mübhəm) mənaları açıqlayıb öz vəzifəsini yerinə yetirsin. Uca Allahdan istəyim budur ki, kitaba başlamaqda mənə kömək etdiyi kimi, onu tamama yetirməyə də mənə yar olsun. Həmçinin onu öz razılığı və ona tərəf yönəlməyi kimi hesaba alsın.

Əsərin əvvəlində üç müqəddimə yazdım. Bu müqəddimələrdən birində məqsədim elmlərin yollarını xəbərsiz olanlara tanıtdırmaqdır. Digər müqəddiməni yazmaqda məqsəd isə ondan pay almaq istəyənlərə xəbərlərin sənədlərini (isnadını) tanıtmaqdır.

Üçüncü müqəddimənin yazılmasında məqsəd isə, terminləri və qaydaları açıqlamaq, kitabın giriş və ya başlanğıcını ixtisarla gözdən keçirib düzəltməkdir."[385]

Beləliklə, elm və dinin xidmətçisi olan Feyz Kaşani 1680-cı ildə vəfat etmişdir.[386]

### 10.27. Əllamə Bəhrani və "Qayətül-məram" əsəri

XVII əsrdə də əvvəlki əsrlərdə olduğu kimi, hədis elminə mənsub nəhəng alimlər yetişmiş və onlar islam mədəniyyətinin zənginləşməsində, dini fikrin təbliğində böyük zəhmətlər sərf etmişlər. Bunun bariz nümunəsini biz o əsrdə Əllamə Məhəmməd Bağır əl-Məclisi (1628-1700), Molla Möhsün Feyz əl-Kaşani (1598-1680), Ağa Hüseyn əl-Xansari (1605-1687), Məhəmməd bin Həsən Hürr əl-Amili (1625-1695) və s. alimlərin şəxsində görməkdəyik. Məhz bu əsrdə yaşayıb-yaradan, öz adını hədis, təfsir, fiqh, tarix, əqaid, fəlsəfə və bu kimi digər humanitar elmlər sahəsində ən yüksək zirvələrə həkk edən alimlərdən biri də Əllamə Seyid Haşim Bəhranidir.

Əbülməkarim Haşim bin Süleyman bin İsmayıl əl-Bəhrani XVII əsrin alimlərindəndir. Onun doğum tarixi dəqiq olaraq bilinmir. Lakin "Nüzhətül-əbrar" kitabındakı bir qeydə görə, Bəhrani 1653-cü ildə Nəcəfül-əşrəfdə olmuş və burada Şeyx Fəxrəddin ilə görüşmüşdür. Böyük Azərbaycan hədisşünası Mirzə Abdullah Əfəndi Təbriziyə (1653-1719) görə, Əllamə Bəhrani "Siratüs-səhabə" əsərini 1670-ci ildə yazmışdır.[387] Bu zaman isə onun təqribən 20-30 yaşları varmış. Bütün bu və ya digər mülahizələri bir araya toplayan tədqiqatçılar onun 1630-1640-cı illər arasında doğulduğunu təxmin edirlər.

Daha çox Əllamə və ya Seyid Bəhrani ləqəbi ilə tanınan Əllamə Bəhrani Peyğəmbər nəslinə, daha doğrusu İmam Musa əl-Kazimə (745-799) mənsub olduğundan "Seyid", Bəhreyndə doğulduğundan "Bəhrani" adlandırılıb. Bundan əlavə, yazdığı məşhur "əl-Bürhan" təfsirinə görə də "Sahibül-Bürhan" ləqəbi ilə məşhurdur.

---

385 Feyz əl-Kaşani. əl-Vafi. I c. s. 4-8.
386 Həmin mənbə. I c. s. 17.
387 Mirzə Abdullah Əfəndi. Riyazül-üləma. V c. s. 303.

Əllamə Bəhraninin yetişməsində dövrünün ən məşhur və görkəmli alimlərinin, o cümlədən Fəxrəddin bin Əli bin Əhməd ət-Tərihi ən-Nəcəfinin, Yusif Bəhraninin, Seyd Əbdüləzim bin Seyid Abbas Astarabadinin, Məhəmməd bin Əli Əbi Şeybənin və digərlərinin rolu böyükdür. O, islam ilahiyyatının müxtəlif sahələrini belə görkəmli alimlərdən öyrənmişdir. Mənbələrin verdikləri məlumata görə, ilk təhsilini Bəhreyndə almış, sonra isə Nəcəfül-əşrəfə səfər edərək oranın görkəmli alimlərindən elm əldə etmişdir. Burada bir müddət təhsil həyatı yaşadıqdan sonra hədis elmində rəvayət etmə (icazət) hüququnu əldə etmək üçün müxtəlif bölgələrə, o cümlədən Şiraza, Məşhədə, İsfahana səfərlər etmiş oranın alimlərilə yaxın təmasda olmuşdur. Hətta onunla İsfahan və Məşhəddə görüşən Hürr Amili onun dərin və hərtərəfli elmə sahib olduğunu bəyan etmək üçün "nə ondan qabaq, nə də ondan sonra bir kimsə onun elmi mərtəbəsinə yetişə bilməmişdir", ifadəsini demişdir.

Bütün bu deyilənlərdən əlavə o, Əli bin Abdullah əl-Məqani əl-Bəhrani, Məhəmməd Əttar əl-Bağdadi, Süleyman bin Abdullah əl-Mahuzi, Hürr Amili, Şeyx Mahmud bin Əbdüssalam, Şeyx Heykəl bin Müqəddəs Əbdüləli əl-Cəzairi kimi böyük alimlərin ustadı olmuş, elmin müxtəlif sahələrini onlara öyrətmiş və onlara hədis rəvayət etmə hüqunu vermişdir.

İstər öz dövründə, istərsə də özündən sonrakı dövrlərdə böyük fəxarət hissilə yad edilən Əllamə Bəhrani haqqında çoxsaylı maraqlı fikirlər vardır. Onun tələbəsi Hürr əl-Amili "Əməlul-amal" əsərində yazırdı: "Seyid Haşim Bəhrani fəzilətlər sahibi, alim, mahir tədqiqatçı, fəqih, təfsir və ərəb dili elmlərinə mükəmməl bələd olan biri idi."[388]

Şeyx Süleyman əl-Mahuzu "Fihrisu ali-Büveyh və üləmail-Bəhreyn" adlı əsərində yazırdı: "O, çox görkəmli hədisşünasdır."[389]

Xeyrəddin əz-Zirikli (öl. 1976) isə onu imamiyyənin görkəmli təfsirçisi kimi təqdim etmişdir.[390]

Bütün bu elmi xüsusiyyətləri ilə yanaşı, Əllamə Bəhrani həm də təqvalı, yüksək əxlaqa və mənəviyyata malik olan bir şəxs kimi də ad-san çıxarmışdır.

Xatırladaq ki, Əllamə Bəhrani, eyni zamanda gözəl ailə başçısı olmuşdur. Onun üç oğlu olmuşdur ki, onların da arasında ən məşhuru Seyid İsadır. Əllamə Ağa Bozork ət-Tehrani (1876-1970) "əz-Zəriə", Mirzə Abdullah Əfəndi (1653-1719) isə "Riyazül-üləma" əsərlərində onun böyük bir alim olduğunu və elmə dərin həvəs göstərdiyini, həmçinin Şeyx Bəhainin (öl. 1622) "Zübdətül-üsul" əsərinə geniş və dəyərli bir şərh yazdığını qeyd edirlər. Bundan başqa, Seyid Hüseyn adlı ikinci oğlundan bəhs edən Mirzə Abdullah Əfəndi onun çox təqvalı və əməli-saleh biri olduğunu və atasının əsərlərinin çoxunu İsfahana gətirdiyini vurğulamışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Əllamə Bəhraninin yaradıcılığı çox zəngindir. Onun yazdığı dəyərli əsərlərindən aşağıdakıları qeyd etmək olar:

"Qayətül-məram və hüccətül-xisam fi təyinil-imam min təriqil-xass vəl-amm", "İrşadül-müstərşidin ila vilayətil-Əmirilmöminin", "əl-İnsaf fin-nass əla əimmətil-əşraf", "Nihayətül-amal fi ma yətimmu bihi qubulul-əmal", "İhticacül-müxalifin əla imaməti Əmirilmöminin", "Səlasilul-hədid və təqyidi əhlit-təqlidi bima intəxabə min şərhi İbn Əbilhədid", "əl-Mətainul-bəkriyyə vəl-məsalibil-ümriyyə min təriqil-Osmaniyyə", "Nəsəbu Ömər bin əl-Xəttab", "əl-Bürhan fi təfsiril-Quran", "əl-Hadi və ziyaun-nadi fi təfsiril-Quran", "əl-Hidayətül-Quraniyyə", "Nurul-ənvar vi təfsiril-Quran", "Tərifu ricali mən la yəhzuruhül-fəqih", "Tənbihül-ərib və təzkirətül-ləbib fi izahi ricalit-təhzib", "Hidayətül-müstəbsirin fi təraimil-üləmair-raciinə ila vilayəti-Əmirilmöminin", "əd-Dümətüs-sakibə", "Hilyətül-əbrar fi əhvali-Muhəmməd və alihil-əthar", "Vəfayatün-nəbiyyin", "Vəfatün-Nəbi ", "Vəfatüz-Zəhra ", "Məqtəli Əbi Abdullahil-Hüseyn", "ət-Tənbihat", "Şərhu tərtibit-təhzib", "Rövzətül-vaizin fi əhadisil-əimmətit-tahirin", "əl-Lübabul-müstəxric min kitabiş-Şihab", "Tərtibüt-təhzib", "Hilyətün-nəzər fi fəzlil-əimmətil-isney aşər", "Mənaqibu

---

388 Hürr əl-Amili. Əməlül-amal. II c. s. 341.

389 Şeyx Süleyman əl-Mahuzu. Fihrisu ali-Büveyh və üləmail-Bəhreyn. s. 77.

390 Xeyrəddin əz-Zirikli. əl-Elam. II c. Misir, Məktəbətül-ərəbiyyə, 1345 h/q. VIII c. s. 66.

Əmirilmöminin", "əd-Dürrun-nəzid fi xəsaisil-Hüseyn əş-Şəhid", "Kitabu fəzliş-Şiə", [391] "Mövludul-Qaim", "Sirətüs-səhabə", "Fəzail Əli vəl-əimmə min vələdihi", "Kəşfül-mühimm fi təriqi xəbəri-Qədirxum", "Mədinətil-məacizil-əimmətil-isney aşərə və dəlailil-hücəc ələl-bəşər", "Ümdətün-nəzər fi bəyani-ismətil-əimmətil-isney aşər", "Tarixül-İslam", "Təlxis risaləteyn", "əl-Behcətül-mərziyyə fi isbatil-xilafətil-vəsiyyə", "Üsulul-etiqadat" və s.

Qey etdiyimiz kimi, Əllamə Bəhraninin yazdığı əsərlər içində "Qayətül-məram" əsərinin xüsusi yeri və əhəmiyyəti vardır. Əsərin tam adı "Qayətül-məram və hüccətül-xisam fi təyinil-imam min təriqil-xass vəl-amm"dır. Müəllifin bu əsəri hədis ədəbiyyatı tarixinin şah əsərlərindən hesab olunur. O, ilk olaraq əsərə geniş müqəddimə yazmış, burada Uca Allaha həmdi-səna, Peyğəmbərə və onun pak əhli-beytinə salavat göndərdikdən sonra, kitabın yazılma məqsədini açıqlamışdır. Əsərini Peyğəmbərdən sonra İslam dünyasında meydana çıxmış imamət (xilafət) məsələsinə həsr etmiş və mövcud bütün mənbələri mütaliə edərək bu məsələ haqqında daha çox məlumat toplamağa son dərəcə ciddi əmək sərf etmişdir. O, var gücü ilə çalışaraq mövzu ilə bağlı bütün qaynaqlarda olan hədisləri bir araya toplamış, onların arasında dəyərləndirmələr apararaq Peyğəmbərdən sonra xilafət kürsüsündə İmam Əlinin oturmalı olduğunu hədislər yolu ilə sübut etməyə çalışmışdır.[392]

Kitabın əhəmiyyət və mötəbərliyini artıran mühüm məqamlardan biri onun çoxsaylı mənbəyə istinad edilərək hazırlanmasıdır. Müəllif qeyd etdiyimiz kimi, yüzlərlə hədis, təfsir, tarix, əqaid və s. qaynaqları tədqiq etmiş və qeyd etdiyi hər bir hədisi hansı kitabdan aldığını dəqiq olaraq göstərmişdir. Onun istinad etdiyi mənbələr içində Məhəmməd bin İsmail əl-Buxarinin (810-870) və Müslüm bin Həccac ən-Nisaburinin (821-875) "əs-Səhih", Əbu İshaq Əhməd bin Məhəmməd bin İbrahim əs-Sələbinin (öl. 1035) "əl-Kəşf vəl-bəyan fi təfsiril-Quran", Əbu Abdullah Məhəmməd bin Əbu Nəsr əl-Hümeydinin (öl. 1095) "əl-Cəm beynəs-səhiheyn", Əbülhəsən Əli bin Məhəmməd İbn Məğazili əş-Şafeinin "əl-Mənaqib fi fəzaili əmirilmöminin Əli bin Əbu Talib", Malik bin Ənəsin (712-795) "əl-Müvətta", Əbu İsa ət-Tirmizinin (824-893) "Sünəni-Tirmizi", Əbu Davud əs-Sicistaninin (817-888) "əs-Sünən" və digər yüzlərlə mötəbər və məşhur qaynaq vardır. Müəllif bu qaynaqların böyük bir hissəsini müqəddimədə saydıqdan sonra əsərin tərtib etdiyi fəsillərindən bəhs etmiş və adlandırdığı hər bir fəsildə hansı hədisləri topladığını qeyd etmişdir. O, əsərin birinci fəslində imamın təyin edilməsi və bu haqda olan rəvayətləri toplamış və fəsildə kiçik fəsillər (bablar) açaraq orada imamın sifətləri, fəzilət və əhli-beytin məqamını, onları sevib onlara tabe olanların üstünlüklərini, İmam Əlinin Kəbə evində doğulduğunu qeyd etmişdir. Bu minvalla o, imamətin bütün təfərrüatlarını əsərində geniş şəkildə işıqlandırmışdır.

Beləliklə, o, imamətə və on iki imama aid hədisləri beləcə dəyərləndirərək böyük bir əsər meydana gətirmişdir. Xatırladaq ki, onun bu əsəri müəllifə böyük şöhrət gətirmişdir.

Müəllifin "Mədinətil-məaciz" adlı əsərinin I cildi Azərbaycan dilinə tərcümə edilmişdir.

Əllamə Bəhrani 1695-ci ildə Bəhreyndə vəfat etmişdir. Onun qəbri-şərifi hazırda müsəlmanlar tərəfindən ziyarət olunmaqdadır.

### 10.28. Hürr əl-Amili və "Vəsailüş-şiə" əsəri

Məhəmməd bin Həsən Hürr əl-Amili hədis tarixində daha çox Hürr Amili kimi tanınır. O, 1623-cü ildə qədim elm mərkəzi olan Cəbəlülamil bölgəsinin Məşğərə kəndində doğulmuşdur.[393] Hürr Amili özünün "Əməlül-amal" adlı əsərində nəsəbinin və Hürr ləqəbinin Kərbəlada şəhid olan Hürr bin Yezid ər-Riyahiyə çatdığını bildirmişdir.[394]

Onun mənsub olduğu ailə elm və təqva baxımından bölgənin tanınmış ailələrindən idi. Hürr Amilinin nəslindən çoxlu sayda fəqih və müctəhid yetişmişdir. Mənbələrin məlumatına görə, atası öz dövrünün böyük alimlərindən, fəqih və ədiblərindən biri olmuşdur. Hürr Amili ilk təhsilini ailə ocağında atası Şeyx Həsən bin Əli (öl. 1650), əmisi Şeyx Məhəmməd bin Əli (öl. 1669) və anasının

---

[391] Şeyx Yusif əl-Bəhrani. Lulətül-Bəhreyn. Məktəbətül-fəxravi, I çap, 2008. s. 60.
[392] Bax: Əllamə Bəhrani. Qayətül-məram. "Müqəddimə" fəslinə.
[393] Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 167; Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. XV c. s. 232.
[394] Hürr əl-Amili. Əməlül-amal. s. 154.

atası Şeyx Əbdüssəlam bin Məhəmməd əl-Hürr ilə atasının dayısı Şeyx Əli bin Mahmudun yanında almış,[395] bundan sonra isə Cəbəlülamildə olan Cibə kəndinə gedib Şeyx Hüseyn əz-Zahiri və Şeyx Zeynəddin bin Məhəmmədin yanında təhsilinə davam etmişdir. Onun Əbu Abdullah Hüseyn bin Həsən bin Yunus Amilidən və Əllamə Məhəmməd Bağır Məclisidən rəvayət icazəsi vardır. O, Əllamə Məclisinin rəvayət icazəsi verdiyi son adamdır.[396]

Hürr Amilinin yaradıcılığı çox zəngindir. O, islam ilahiyyatının bütün sahələri ilə yanaşı, ədəbiyyat və dilçilik elmləri sahəsində də əsərlər qələmə almışdır. Müxtəlif mövzularda əsər yazan Hürr Amili vəfatından yeddi il öncə yazdığı "Əməlül-amal"da özünün avtobiyoqrafiyasında iyirmidən artıq kitab və traktat adını vermişdir. Əsərlərindən aşağıdakıları qeyd etmək olar:

"Təfsili vəsailiş-şiə ilə təhsili məsailiş-şəriyyə." Amilinin ən əhəmiyyətli əsəri olub daha çox "Vəsailüş-şiə" adı ilə tanınmışdır. Fiqhi fəsillərə görə yazılan əsərdəki hədislər müxtəlif rəvayət yolları ilə birgə və tam isnadları ilə yazılmışdır. Müəllif bəzi ixtilaflı mövzularda öz fikirlərini qısaca vermişdir. Müxtəlif vaxtlarda nəşr edilən "Vəsailüş-şiə" Əbdürrəhim ər-Rəbbani əş-Şirazi tərəfindən yenidən otuz cilddə nəşr edilmişdir.

Mirzə Hüseyn Nuru (1838-1902) bu əsərdə tapılmayan hədisləri toplayaraq "Müstədrəkül-vəsailiş-şiə" adlı, Ayətullah Agahüseyn əl-Birucerdi (1875-1961) də əsərin bəzi səhvlərini düzəldərək "Təhzibül-vəsailiş-şiə" adlı əsərləri qələmə almışlar, bəzi alimlər də əsər üzərinə şərh yazmışlar.[397]

"Vəsailüş-şiə" əsərinin üslubuna gəldikdə, qeyd etmək lazımdır ki, müəllif burada Peyğəmbərlə yanaşı, onun əhli-beytindən də nəql olunmuş hədisləri toplamışdır. O, əsərini çox yüksək səviyyədə tərtib etmiş və bunun da nəticəsində ondan istifadə yolları asanlaşmışdır. Buna görə də əsər əhkami və fiqhi hədislər içində bəlkə də ən yaxşısıdır. Əbəs deyildir ki, əsər hələ müəllifin sağlığında ikən müctəhidlərin müraciət etdikləri və hələ də öz mövqeyini itirmədən istifadə edilən nadir məcmuələrdəndir. Bunun da səbəblərindən biri əsərin metodunu sadə və sistemli olmasındadır. Həmçinin əsərdə yer alan hədislər səhihlik baxımından daha mötəbər və etibarlıdır. Müəllif müqəddimədə əsərin üslubundakı yolunu açıqlayaraq yazırdı: "Məşhur kitablarda olmayan hədisləri burada nəql etmədim. Əvvəlcə nəql etdiyim hədislərin hansı kitabdan olduğunu adı ilə birlikdə nəql etdim."

Müəllifin sözündən belə məlum olur ki, o, əsərin tərtibi zamanı qarşısına qoyduğu əsas məsələlərdən biri yalnız məşhur kitablarda olan və etibarlı hədisləri nəql etmək olmuşdur.

Ümumiyyətlə, əsərin üslubuna diqqət yetirəndə belə aydın olur ki, onun oxucu üçün aşağıdakı faydaları vardır:

1. Hədis öyrənmək istəyənin işini asanlaşdırır. Bunun da nəticəsində oxucu istədiyi hədisi tez bir zamanda əldə edir və onu axtarmağa böyük vaxt sərf etmir.

2. Bir fəsil içərisində münasib olan hədisi bir araya toplamışdır. Belə olan halda hədisi öyrənən şəxs mövzuya aid bir fəsildə bir neçə hədis əldə edə bilir. Bunlardan əlavə əsərin digər üslub özəllikləri də vardır ki, bunların hamısı əsərin istifadə qaydalarını asanlaşdırır.

Hürr Amili "Vəsailüş-şiə" əsərinin müqəddiməsində din elmlərinə çox yüksək qiymət verərək yazırdı: "Şübhə yoxdur ki, elm hər bir şeydən daha üstün, daha əzəmətli, daha məziyyətli və daha kamildir. Deməli, elm cahili zülmətdən nura çıxarır, azğınlığın quyusundan xilas edir, mələklər öz qanadlarını o elm öyrənənin üstünə sərir, quşlar o şəxs üçün havada, dəniz heyvanları isə dənizlərdə Allahdan bağışlanma diləyirlər. Onun yuxusu abidlərin ibadətlərindən, mürəkkəbi isə qiyamət günü şəhidlərin qanından üstün olar."[398]

Burada sitat olaraq gətirdiyimiz bu cümlələr böyük İslam aliminin elmə verdiyi qiymət idi. Onun bir çox elmlər sahəsində ustad olmasına baxmayaraq, hədis elmini digər elmlərdən daha üstün tutmuş, bu elmi insanın bütün həyatı dövründə ona lazım olacağını vurğulamışdır. Hətta alim bir az

---

[395] Hürr əl-Amili. Vəsailüş-şiə. I c. s. 77.
[396] Əllamə Əmini. əl-Qədir. XXII c. s. 282.
[397] IV c. s. 353; XIV c. s. 169-170.
[398] Hürr əl-Amili. Vəsailüş-şiə. I c. s. 3-4.

da qabarıq şəkildə hədis elmlərini digər elmlərin qaynağı adlandırmışdır. O, "Vəsailüş-şiə" əsərinin müqəddəməsində yazırdı: "Şübhə yoxdur ki, hədis elmi elmlərin ən şərəflisi və onların daha ağır olanıdır. Bəlkə elmlərin əksəriyyəti ondan qaynaqlanır. Bu elm dəqiq nəzəriyyəyə malikdir və o insanın gözəl ömrünü özündə həll edir.

Necə də belə olmasın? Axı o rəvayət etməyin vacibliyinə xüsusi yer verənlərdən, elm sahələrindən, "nəss" və "icma" ətrafına toplananlardan, səhv və cəfəngiyyat danışmaqdan, azğınlıq və çaşqınlıqdan uzaq olanlardan əxz olunmuşdur.

Hər kəs qiymətli vaxtlarını hədis elminə sərf edərsə, öz saat və günlərini onun öyrənməsinə xərcləyərsə, üzünü ona tərəf döndərib səyi və cəhdi ilə ona yönələrsə, onun razılığı ilə qəlbini təmizləyərsə və öz dinində ən güclü dəlillərdən yapışarsa, Məsumların sözlərilə xəta və şəkk-şübhədən uzaq olar."[399]

"Vəsailüş-şiə" əsəri hər zaman müsəlman alimlərinin diqqətini cəlb etmiş və mötəbər bir əsər kimi şərh və izah edilmişdir. Əsərə ilk şərh yazan müəllifin özüdür. O, yazdığı şərhi "Təhriri vəsailiş-şiə və təhribu məsailiş-şəriyyə" adlandırmışdır. Onun yazdığı şərh dəyərli hesab edilir. Belə ki, o, şərhində hədisləri tək-tək tədqiq edərək hədislərdə olan kəlmələri və ibarələri izah etmişdir. Həmçinin o, burada hədisin sənədində və mətnində olan problemli məsələlərə də aydınlıq gətirmişdir.

"İsbatül-hüdat." Bir çox kitabdan yığılan və Peyğəmbər ilə İmamlara , onların fəzilətlərinə dair 20000-dən artıq hədisi ehtiva edən əsəri Seyid Haşim ər-Rəsuli nəşr etdirmişdir. Əsər iki cilddə olub Məsumların möcüzələrindən bəhs edir.

"Kitabu cəvahirüs-səniyyə lil-əhadisil-qüdsiyyə." O, hədis tarixində ilk dəfə olaraq belə bir əsər yazmışdır. Ona qədər belə bir əsər yazan olmayıb.[400] Əsər Azərbaycan dilinə tərcümə edilib.

Ömrünün sonuna qədər Məşhəd şəhərində şeyxülislam və qazilqüzat vəzifələrini icra edən Hürr Amili Məşhəddə ikən 1693-cü ildə vəfat etmiş və mübarək nəşi İmam Rzanın türbəsinə yaxın yerdə dəfn edilmişdir.

### 10.29. Əllamə əl-Məclisi və "Biharül-ənvar" əsəri

Hədis ədəbiyyatı tarixinin ən görkəmli nümayəndələrindən biri XVII əsrin ensiklopedik bilik sahibi Əllamə Məhəmməd Bağır əl-Məclisidir. O, öz dövrünün məşhur mərcəi-təqlid müctəhidi Məhəmməd Tağı bin Maqsud Əli Məclisi Əvvəlin (öl. 1659) oğludur. Əllamə Məclisinin "Məclisi" ləqəbini daşımasının səbəbi həm atasının, həm də onun evinin daim alimlər yığıncağı (məclisi) olmasına görədir. O, daha çox Əllamə Məclisi adı ilə tanınır. Onun elm aləmində "Əllamə", "Xatəmül-mühəddisin", "Şeyxül-İslam" və s. ləqəbləri vardır.

Əllamə Məclisinin doğum tarixi haqqında ixtilaflar olsa da, Əbdülhüseyn bin Məhəmməd Xatunabadiyə görə o, 1627-ci ildə doğulmuşdur.[401]

Mövla Məhəmməd Əli əl-Ərdəbili onun haqqında yazırdı: "Məhəmməd Bağır Məclisi bizim ustadımız və şeyximiz, həmçinin bütün müsəlmanların şeyxidir. O, xatəmül-müctəhidin, əllamələrin rəhbəri, böyük tədqiqatçı, yüksək mərtəbəli insan və zamanəsinin yeganəsi idi. O, dəqiq və humanitar elmlər sahəsində dərin biliyə yiyələnmiş, etibarlı, əmanətdar və ədalətli bir zat idi."[402]

Əllamə Məclisi elmin müxtəlif sahələrinə aid əsərlər yazmışdır. Onlardan aşağıdakıları qeyd etmək olar:

"Biharül-ənvar", "Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul", "Mülazil-əxyar fi şərhi təhzibil-əxbar", "Şərhül-ərbəin", "əl-Vəcizə fir-rical", "Risalətül-etiqadat", "Eynül-həyat", "Həqqül-yəqin", "Hilyətül-mütttəqin", "Həyatül-qülub", "Cəlalül-üyun" və s.

Əllamə Məclisinin qələmə aldığı bu və ya digər əsərlər içərisində ən məşhuru və ən irihəcmlisi "Biharül-ənvar"dır. Əsərin tam adı "Biharül-ənvaril-camiəti li durəri əxbari əimmətil-

---

[399] Həmin mənbə. I c. s. 5.
[400] Seyid Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis. XV c. s. 232.
[401] Əbdülhüseyn əl-Xansari. Rövzatül-cənnat. II c. s. 78.
[402] Məhəmməd Əli əl-Ərdəbili. Rövzatül-cənnat. II c. s. 78.

əthar"dır. Ərəb dilində yazılmış əsəri müsəlman alimləri "Dairətül-maarif" adlandırırlar. Həqiqətən də əsər ensiklopedik xarakter daşıyaraq dini elmlər ilə yanaşı, bir çox dünyəvi elmləri də əhatə edir. Müəllif burada təfsir, hədis, fiqh, tarix, əxlaq, fəlsəfə, ədəbiyyat, dilçilik və s. elmlərə aid problemləri işıqlandırmışdı. Lakin bütün bunlara baxmayaraq, əsər əhatə etdiyi məsələlərə hədis elmi nöqteyi nəzərindən yanaşır. Buna görə də o ilkin olaraq bir hədis əsəridir.

Əvvəldə qeyd etdiyimiz kimi, Əllamə Məclisi "Biharül-ənvar"ı yazarkən yüzlərlə mənbədən istifadə etmişdir. Məşhur tədqiqatçı Hüseyn Dərgahi onun mənbələrinin altı yüzdən artıq olduğunu qeyd edir.[403] Müəllif istifadə etdiyi qaynaqları kor-koranə şəkildə deyil, araşdıraraq ondan faydalanmışdır. O, özü bu haqda yazırdı: "Vaxtaşrı əsərlər haqqında ölkənin bütün yerlərində soruşmağa başladım. Gümanıma görə bu haqda az da olsa, məlumatı olanlardan israrla bunları istədim. Onları əldə etmək üçün diyarları dolaşmış qardaşlar bu işdə mənə kömək etmişlər. Keçmiş zamanlarda fəzilət sahibləri və alimlərinin etina etdikləri mötəbər üsulların çoxu məndə toplanana qədər qardaşlar əsərləri müxtəlif ölkələrdə tez axtardılar. Tədavüldə olan məşhur kitablarda olmayan bir çox faydaları orada gördüm. Çoxlarının etiraf etdiyinə görə, məqbul sayılmayacaq bir çox hökmlərə orada rast gəldim. Onların səhihləşdirilməsi, səhvlərdən təmizlənməsi və toplanması üçün bütün səylərimi əsirgəmədim."[404]

Əllamə Məclisi 1700-cü ildə vəfat etmişdir. O, İsfahan şəhərində öz camisində atasının yanında dəfn edilmişdir.[405]

## 10.30. Mirzə Hüseyn ən-Nuri və "Müstədrəkül-vəsail" əsəri

O, 1838-ci ildə İranın Mazandaran nahiyəsində ziyalı və dindar bir ailədə doğulmuşdur. Mirzə Hüseyn bin Məhəmməd Tağı müasir hədis ədəbiyyatı tarixində daha çox Əllamə Nuri adı ilə şöhrət tapmışdır. Elm öyrənmək üçün uşaq yaşlarında ikən Tehran şəhərinə səfər etmiş, oradan da 1851-c ildə Nəcəfə getmişdir. Orada dörd il qalıb hövzə dərslərini bitirmiş, sonra İrana qayıtmış, daha sonra isə 1856-cı ildə İraqın müqəddəs şəhəri Kərbəlaya səfər etmişdir. Kərbəlada iki il qalan Nuri oradan da Kazimeyn şəhərinə getmiş, iki il bu şəhərdə qaldıqdan sonra yenidən Nəcəf şəhərinə qayıtmışdır.

1862-ci ildə İrana qayıdan Nuri iki ildən sonra, yəni 1864-cü ildə Nəcəfə səfər etmiş, orada iki il qaldıqdan sonra müəllimi Seyid Məhəmməd Həsən Şirazi ilə birlikdə 1869-cu ildə Samirə şəhərinə getmiş və 1892-ci ilədək orada qalmışdır.

Onun yazdığı ən məşhur əsərin adı "əl-Müstədrək əla Vəsailiş-şiə"dir. Əsərini Hürr Amilinin (1623-1693) "Vəsailüş-şiə" əsərində qeyd etmədiyi hədisləri bir araya toplayaraq qələmə almışdır. "Müstədrək" adlı əsər deyildikdə, heç şübhəsiz ki, ilk ağıla gələn Əllamə Nurinin adı çəkilən əsəridir. Müəllif əsərini çox gözəl şəkildə tərtib etmiş, onu fiqhi fəsillər əsasında sistemləşdirmişdir. Əsər bir neçə dəfə nəşr edilmişdir.[406]

Əllamə Nuri 1902-ci ildə vəfat etmişdir.[407]

## 10.31. Ağahüseyn əl-Birucerdi və "Camiu əhadisiş-şiə" əsəri

Müasir dövr hədis ədəbiyyatı tarixinin tanınmış simalarından biri Ağahüseyn əl-Birucerdidir. O, 1875-ci ildə doğulmuşdur. Onun "Zəimüş-şiə", "Mühyiş-şəriət", "Mücəddid məzhəbil-imamiyyə", "Fəqihül-əhlil-beyt" və "Alimül-ümmət" ləqəblərilə xatırlanması müasir dövr İslam ilahiyyatının mükəmməl bilicisi olduğundan xəbər verir. Alim daha çox fiqh və hədisşünaslıq sahələrinə aid əsərlər yazmışdır.

---

[403] Hüseyn Dərgahi. Mənahilül-əbrar fi təlxisil-biharil-ənvar. I c. s. 51.

[404] Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. s. 3-4.

[405] Əllamə Məcilisi haqqında geniş məlumat üçün bax: İbrahim Quliyev. Əllamə əl-Məclisinin "Biharül-ənvar" əsərinin hədis tarixində yeri. Bakı, Nurlar, 2018.

[406] Ağa Bozörg ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. XXI c. Beyrut, Mənşuratu Daril-əzva, 1403/1983. s. 7.

[407] Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. Qum, Müəssisəu Alil-Beyt (ə). "Müqəddimə" fəsli.

Kiçik yaşlarında elm öyrənməyə başlamış əl-Birucerdi fiqh, hədis, üsul elmləri, rical, ədəbiyyat və dilçilik elmləri sahəsində mükəmməl təhsil görmüşdür. Adı çəkilən bu və ya digər elmlər sahəsində özünü mükəmməl olaraq yetişdirən alim hədisşünaslığın müxtəlif sahələrinə, o cümlədən rical və dirayə elmlərinə aid mühüm əsərlərin müəllifidir.

Ağahüseyn Birucerdinin qələmə aldığı ən mühüm əsərlərdən biri "Camiu-əhadisiş-şiə" əsəridir. Müəllif bu əsərini bütövlükdə hədisşünaslığa həsr etmişdir. Əsərə geniş bir müqəddimə yazan müəllif hədis tarixinə geniş yer vermiş, burada hədislərin yazılması tarixini tədqiq etmişdir. Müəllif əhli-sünnə məzhəbində hicri I əsrin sonlarınadək, yəni Ömər bin Əbdüləzizin (717-720) rəsmi fərmanına kimi heç bir əsərin rəsmi şəkildə yazılmadığını, lakin bunun əksinə olaraq Əhli-beyt ardıcıllarına görə, məhz Peyğəməbin dövründə başlandığını qeyd etmişdir.[408]

O, adı çəkilən əsərində "Kütübu-ərbəə" deyilən hədis külliyyatını bir araya toplamış və əsər müəlliflərinin yeri gəldikcə diqqətlərindən qaçan məqamları, buraxdıqları xətaları düzəltmişdir. Birucerdi əsərdə nəql etdiyi hər bir hədisi hansı qaynaqdan almışsa, həmin qaynaq müəllifinin adı ilə rəvayət etmişdir. Məsələn, "əl-Kafi" əsərindən iqtibas etdiyi hədisi qeyd edərkən "rəvahu Küleyni", "əl-Fəqih" əsərindən iqtibas edərkən "ravahu Şeyx Səduq" təbirlərindən istifadə etmişdir.

Əsərin üstün cəhətlərindən biri də budur ki, müəllif mövzu ilə əlaqədar bütün sənədləri qeyd etməklə yanaşı, aid ayələri də qeyd etmişdir. Həmçinin istinad etdiyi mənbəni göstərən zaman onun nəşr tarixini də göstərməsi müəllifin özünəməxsus üslubudur ki, bu da əsərin etimadını daha da artırmaqdadır.

Əsərin "Təharət" fəsli müəllifin sağlığında nəşr edilmişdir. Əsərinin nəşrini eşidən müəllif demişdir: "Bu həyatımın səmərəsi, ömrümün nəticəsidir."[409]

Əllamə Cəfər Sübhani əsər haqqında yazır: "Seyid Birucerdi "Vəsail" əsərində düzəldilməyə ehtiyacı olan naqislikləri görmüş və onu aradan qaldırmaq üçün "Camiu əhadisiş-şiə"ni yazmışdır."[410]

Birucerdi 1961-ci ildə vəfat etmişdir.[411]

---

[408] Ağahüseyn əl-Birucerdi. Camiü əhadisiş-şiə. 31 cilddə. I c. 1410 h/q. s. 11.
[409] Həmin mənbə. I c. s. 14.
[410] Cəfər əs-Sübhani. Durusuş-şiə fil-hədis vər-rical. s. 238.
[411] Ağa Hüseyn əl-Birucerdi. Came əhadisiş-şiə. I c. s. 9.

# II HİSSƏ

# HƏDİS ELMİNİN METODOLOGİYASI

# (HƏDİS ÜSULU)

# I FƏSİL

# HƏDİS ELMİNİN BÖLMƏLƏRİ VƏ HƏDİS ÜSULU SAHƏSİNDƏ YAZILMIŞ ƏSƏRLƏR

## 1.1. Hədis elmlərinin təsnifatı

Hədis elmləri ilahiyyatşünaslığın əsas elmlərindən birini təşkil edir. Bu elm vasitəsilə müsəlmanlar həqiqi mənada Qurani-Kərimin doğru-düzgün mənasına və Allah dininin qayələrinə bələd olurlar. Əbəs deyildir ki, Peyğəmbər başda olmaqla digər məsum İmamlar bu elmə yiyələnməyi və onu var qüvvəsi ilə hifz edib digərlərinə öyrətməyi öz səhabələrinə tövsiyə etmişdilər. Bu barədə mənbələrdə kifayət qədər xəbər və rəvayətlər vardır. Belə ki, həmin rəvayətlərdən bir neçəsini qeyd etmək hədisin dinimizdə mühüm əhəmiyyət kəsb etdiyini və bunun bir elm kimi öyrənilib öyrədilməsini izah edəcəkdir.

Peyğəmbər buyurub: “Hər kəs mənim sünnəmdən üz çevirərsə, məndən deyildir.”[412]

“Allah mənim sözlərimi eşidib, onu olduğu kimi qoruyub və başqalarına öyrədən şəxsin üzünü ağartsın.”[413]

“İlahi, xəlifələrimə rəhmət et!” Dedilər: “Ey Allahın Rəsulu, sənin xəlifələrin kimlərdir?” Həzrət buyurdu: “Hədisimə və sünnəmə tabe olub və sonra onları ümmətimə öyrədən şəxslər.”[414]

İmam Sadiq (699-765) buyurub: “Ey Füzeyil! Bizim hədislərimiz qəlbləri dirildir.”[415] Həmçinin buyurub: “Ey Cabir! And olsun Allaha, bir hədis haram və halal haqqında sənə bildirirsə, sənin üçün Günəş çıxandan batanadək üzərinə düşən hər bir şeydən xeyirlidir.”[416]

Yuxarıda qeyd olunan hədislərdən belə məlum olur ki, hədis elmlərini bilmədən həqiqi İlahi maarifdən xəbərdar olmaq çətindir. Elə bu səbəbdəndir ki, Peyğəmbər və İmamlar və onların yaxın səhabələri onlardan eşitdikləri hədisləri möhkəm bir əzmlə qoruyaraq gələcək nəsillərə ötürmüşlər.

Xətib əl-Bağdadi (1002-1071) hədis elmlərinin ehtiva etdiyi mövzuların nə qədər geniş və əhatəli olduğunu irəli sürərək yazırdı: “Hədis tövhidin əsasları, Allahın sifətləri, Cənnət və Cəhənnəmin vəsfi, Cənnət əhli üçün hazırlanmış mükafatlar, Cəhənnəm əhli üçün hazırlanmş cəzalar, Allahın yerlərdə və göylərdə yaratdığı müxtəlif varlıqlar, mələklər aləminin əlamət və mahiyyəti haqqında bilgilər ehtiva edir. Hədisdə peyğəmbərlərin qissələri, zahidlərin və Allah dostlarının xəbərləri vardır. Orada Peyğəmbərin qəzvələrinin və səriyyələrinin açıqlanması, verdiyi hökm və fətvaları, danışıqları, xütbə və moizələri, möcüzələri, nübuvvətini göstərən hər bir məlumat vardır. Xanımları, uşaqları, qohumları və səhabələri, onların fəzilətləri, ibrətamiz xatirələri vardır.”[417]

Belə olan halda hədisi buraxıb “Quran bizə kifayətdir” deyən şəxslərin öz fikir və sözlərində necə də yanıldıqları ortaya çıxır.

Hədis elmləri VIII-IX əsrlərədək heç bir qismə ayrılmamış və din elmlərinin əsas qaynağı kimi ümumi şəkildə tədris olunur və öyrənilirdi. Lakin sonralar İslam elmlərinin genişlənməsi, müsəlmanların mədəniyyətlərlə tanış olması və kənardan gəlmiş yad təfəkkür tərzinin İslam mədəniyyətinə təsir etməsi, bu təsirlər nəticəsində müxtəlif firqələrin və bidətçi qrupların ortalığa çıxması Peyğəmbər və onun məsum əhli-beytindən rəvayət olunan hədislərə də öz mənfi təsirini göstərməyə bilməzdi. Belə olan halda müsəlman alimləri, xüsusilə də hədisşünaslar hədisləri qorumaq, onlara qarışmış yəhudi və xristian dinlərinin, həmçinin yunan, Roma, hind və İran mifologiyasından və ya fəlsəfəsindən süzülüb gəlmiş adət-ənənələrin, fikir və ideyaların qarşısını almaq və ya təmizləmək üçün hədis elmlərinin metodunu hazırlamağa məcbur olmuşlar. Əbəs

[412] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. Beyrut, Darül-Cil, 1430/2009. s. 1037. Hədis № 5063.
[413] Məhəmməd Reyşəhri. Mizanül-hikmət. II c. s. 288.
[414] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 431.
[415] Həmin mənbə. s. 432.
[416] Həmin mənbə.
[417] Xətib əl-Bağdadi. Şərəfu əshabil-hədis. Təhqiq: Məhəmməd Səid Xətib Əvğəli. Ankara İlahiyyat nəşriyyatı, 1389/1060. s. 8.

deyildir ki, hədisdə "israiliyyat" deyilən anlayış yuxarıda sadaladığımız kənar mədəniyyət və təfəkkür tərzinin nəticəsində ortalığa çıxmış "hədislər" mənasındadır. Belə olan halda hədis alimlərinin güclü səyi və iradəsi nəticəsində hədis elmlərinin metodologiyası yaradılmış və bunun vasitəsi ilə hədislər saf-çürük edilərək səhihi zəifindən, doğrusu uydurmasından seçilərək müsəlmanların həqiqi İlahi dinin əqidə və əhkami prinsiplərinə dürüst yiyələnməsinə zəmin yaradılmışdır.

### 1.2. Dirayə elminə aid ilk əsərin yazılması

Hədis elmləri iki növə ayrılır. Bunların birincisinə "İlmül-hədis rəvayətən – rivayət yönündən hədis elmi", ikincisinə isə "İlmül-hədis dirayətən – dirayə yönündən hədis elmi" deyilir.

Rəvayət baxmından hədis elmi dedikdə, "Peyğəmbərə aid edilən sözlər, hərəkətlər (fel), onların rəvayətinə, zəbtinə və sözlərinin yazılıb qeyd edilməsinə şamil olan bir elm" başa düşülür.[418]

Əvvəldə qeyd etdiyimiz kimi, hədis elmlərinin kökləri Peyğəmbərin dövrünə gedib çıxsa da, ilk əsrlərdə hədis üsuluna, yəni dirayə elminə aid əsərlər yazılmamışdı. Məşhur hədis alimləri öz mötəbər kitablarında Peyğəmbərdən belə bir hədis rəvayət edirlər: "Hər kəs mənim adıma yalan hədis uydursa, onun yeri Cəhənnəm olacaqdır." Hədis alimləri Həzrətin bu hədisi nöqteyi-nəzərindən çıxış edərək, belə bir fikir irəli sürürlər ki, Peyğəmbər bu hədisi deməklə gələcəkdə onun adına yalan hədislərin uydurulacağını bildirmiş və bununla yanaşı, həm də hədis üsulu olacaq bir elmin təməlini qoymuşdur. Çünki bu elm vasitəsilə onun və əhli-beytinin adına uydurulmuş və zəif hesab edilən hədislər silinib atılır və müsəlmanlar səhih hədislər vasitəsilə həqiqi və sağlam İslama yiyələnirlər.

Hədisşünaslar dirayə elminə aid ilk əsərin kim tərəfindən yazılması haqqında fikir ayrığındadırlar. Seyid Həsən əs-Sədr (1856-1935) yazırdı: "Həqiqətən, dirayə elminə aid ilk əsəri Əbu Abdullah Hakim ən-Nisaburi (933-1014) qələmə almışdır. "Kəşfüz-zünun" əsərində bu haqda belə deyilir: "Mərifətül-ülumil-hədis" əsərini Hakim Abdullah Məhəmməd bin Abdullah əl-Hafiz ən-Nisaburi (933-1014) yazmışdır. O beş cilddədir və əlli növ hədisi ehtiva edir. Onu İbn əs-Salah (1181-1245) izləmiş və altmış beş növ hədisdən bəhs etmişdir."[419]

Cənubi Azərbaycan alimi Cəfər Sübhani (doğ. 1928) isə yazır: "Dirayə elmində əshabımız tərəfindən ilk əsər yazan Cəmaləddin Əhməd bin Musa bin Cəfər bin Tavus (öl. 1275) olmuşdur. O, Əbdülkərim bin Əhməd bin Musa bin Tavusun (öl. 1295) atası, Əllamə əl-Hillinin (öl. 1304) və İbn Davud əl-Hillinin (öl. 1307) ustadıdır. İmamiyyə məzhəbində hədislərin qismləri haqqındakı terminləri ilk olaraq o qoymuşdur. O, rical və dirayə elmlərinin tədqiqatçılarındandır. Onun "Həllül-işkal" kitabı mənbədir. Onu Əllamə Hilli "Xülasə", İbn Davud Hilli isə, "Rical" əsərlərində mənbə kimi qeyd etmişlər."[420] Bəli, İbn Tavus ilk olaraq bu sahədə əsər yazmışdır. Ondan əvvəl bu sahədə əsərin yazılması mümkündür, lakin, dövrümüzədək gəlib çıxmamışdır."[421]

Dirayə elminə aid əsərin ilk olaraq kim tərəfindən yazılması üçün mənbələr daha da dərindən və obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, bu sahədə ilk əsərlər VIII əsrədən etibarən yazılmağa başlamışdır. Belə ki, öz dövründə etibarlı şəxs kimi tanınan, İmam Sadiqin və İmam Kazimin səhabələrindən olmuş Hişam bin Həkəm əş-Şeybani əl-Kufi (öl. 795) ilk dəfə olaraq dirayə elminə aid əsər yazmışdır. Onun yazdığı əsərin adı "Kitabül-əlfazdır." Bundan başqa, Yunus bin Əbdurrəhman Movla Ali Yəqtin də dirayə elminə əsər yazmış alimlərdəndir. O, Hişam bin Əbdülməlikin dövründə (724-743) doğulmuş, İmam Sadiqi Səfa və Mərva dağları arasında görmüş, lakin ondan heç bir hədis rəvayət etməmişdir. O, İmam Kazim və İmam Rzanın hədislərini rəvayət etmişdir. Təfsir, kəlam, fiqh və dirayə elmlərinə aid dəyərli əsərlər yazmışdır. Onun dirayə elminə aid yazdığı əsərlərdən "Kitabül-iləlil-hədis" və "Kitabül-ixtilafil-hədis"i göstərmək olar.

---

[418] Haris Süleyman əd-Dari. Muhadarat fi ülumil-hədis. s. 13.
[419] əs-Seyid Həsən əs-Sədr. Təsisüş-şiə. s. 294; Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 10.
[420] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 9.
[421] Həmin mənbə. s. 9.

Dirayə elminə aid ilkin əsər yazanlardan biri də Həsən bin Musa ən-Noubəxtidir (864-962). O, öz dövründə tanınmış mütəkəllim və filosoflardan olmuşdur. Onun müxtəlif elmlərə aid dəyərli əsərləri vardır. Noubəxtinin dirayə elminə aid yazdığı əsərlərin adlarından "əl-Xüsus vəl-ümum" və "Kitab fi xəbəril-vahid vəl-əməl bihi"ni qeyd etmək olar. Bunldardan başqa, Abdullah bin Cəblə əl-Kinaninin (öl. 835) "Kitabür-rical", Həsən bin Məhbubun (747-838) "Kitabül-məşixə", Həsən bin Fəzzalın (öl. 838) "Kitabür-rical", Əli bin Həsən bin Fəzzalın "Kitabür-rical" əsərləri də hədis üsulu sahəsində yazılmış ilkin qaynaqlardandır. Amma əvvəldə də qeyd etdiyimiz kimi, bu qədim əsərlərdən heç biri dövrümüzədək gəlib çıxmamışdır.

### 1.3. Dirayə elminə aid yazılmış bəzi məşhur əsərlər

Dirayə elminə aid əsərlər bu elm meydana gəldiyi dövrdən etibarən günümüzədək yazılmaqdadır. Onlardan aşağıdakıları qeyd etmək olar:

"Kitabül-əlfaz." Hişam bin Həkəm əş-Şeybani əl-Kufiyə məxsusdur. O, İmam Sadiq və İmam Kazimin əshabından olmuşdur. Hədis, kəlam və digər elmlər sahəsində əsərlərin müəllifidir. Hesab edilir ki, o, ilk olaraq üsul elminə aid əsər yazmışdır. əş-Şeybani 795-ci ildə Bağdadda vəfat etmişdir.

"Kitabu iləlül-hədis." Yunus bin Əbdürrəhman Movla Ali Yəqtinin əsəridir. O, Hişam bin Əbdülməlikin dövründə doğulmuş və İmam Sadiqi görmüşdü. O, İmamı Səfa və Mərva dağları arasında görsə də, ondan nəql etməmişdir. O, İmam Musa Kazim və İmam Rzadan rəvayət etmişdir. Onun çoxlu əsərləri var. O, hədis, fiqh, təfsir və kəlam elmləri sahəsində əsərlər yazmışdır.

"əl-Xüsus vəl-ümum." Həsən bin Musa bin Noubəxtinin əsəridir. O, dövrünün böyük filasofu və mütəkəllimidir. Müxtəlif elmlər sahəsində əsərlər yazmışdır. Həmçinin onun üsul elmlərinə dair əsərləri daha çoxdur.

"Həllül-işkal." İbn Tavusun əsəridir. O, ilk olaraq hədisləri növlərə ayırmış, onların terminlərini müəyyənləşdirmiş və dirayə elmi haqqında əsər meydana gətirmişdir.

"Şərhu üsuli diraəytil-hədis." Seyid Əllamə Əli bin Əbdülhəmid əl-Həsənə məxsusdur. O, Əllamə Hillinin tələbəsi olmuş və 1304-cü ildə vəfat etmişdir.[422]

"Şəhru üsuli dirayətil-hədis." Əsəri Əli bin Əbdülhəmid əl-Hüseyni qələmə almışdı. O, XIV əsrin alimlərindəndir. Yazdığı əsəri haqqında Seyid Həsən əs-Sədr "Təsisüş-şiə" əsərində[423] məlumat verir.

"əl-Bidayə fi ilmid-dirayə", "Şərhül-bidayə" və "Qəniyyətül-qasidinə fi mərifəti istilahatil-mühəddisin" əsərlərini Şeyx Şəhid Zeynüddin əl-Amili (1552-1608) yazmışdır. Onun yazdığı bu əsərlərdən ikincisi "ər-Riayə fi ilmid-dirayə" adı ilə nəşr edilmişdir.

Müəllif üçüncü əsəri olan "Qəniyyətül-qasidin"də "Şərhül-bidayə" əsərinə işarə etmiş və onun haqqında demişdir: "Hər kəs bu elmə aid çətinlikləri yaxşı araşdırmaq və incələmək istəyirsə, ona "Qəniyyətül-qasidinə fi mərifəti istilahatil-mühəddisin" kitabımızı tövsiyə edirik. Çünki o səni əsas məqsədinə çatdırar."[424]

"ər-Rəvaşihüs-səmaviyə" əsəri dövrünün böyük alimi və dahi filosofu Seyid Mühəqqiq Mirdaməd (öl. 1632) tərəfindən qələmə alınmışdır. O, əsərin müqəddiməsində dirayə elminin terminlərini ortaya qoymuş və əsər boyu bu elm haqqında olan məsələləri işıqlandırmışdır.

"Nihayətüd-dirayə fi şərhil-vəcizə" Seyid Həsən Sədrəddinə (1856-1935) məxsusdur. Seyid Sədr bu əsəri 1892-ci ildə yazmışdır. Adından göründüyü kimi, əsər Bəhaəddin əl-Amilinin "əl-Vəcizə" əsərinin şərhinə həsr olunub. Əsər ilk olaraq hicri 1324-cü ildə Hindistanda, sonra ikinci dəfə hicri 1331-ci ildə Saydada nəşr edilmişdir.

"Məqabisül-hidayə fi ilmid-dirayə" əsərini Əllamə Abdullah əl-Maməqani (1868-1929) yazmışdır. O, "Tənqihül-məqal fi ilmir-rical" əsərinin də müəllifidir. Əsər hicri 1345-ci ildə Nəcəfdə çap edilmişdir.

---

422 əl-Xansari. Rövzatül-cənnat. IV c. s. 347. Ravi № 410; Şeyx Abbas əl-Qummi. əl-Küna vəl-əlqab. II c. s. 106.
423 s. 295.
424 Şəhid əs-Sani. ər-Riayə fi ilmid-dirayə. s. 404.

“Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə” əsərini Əllamə Cəfər Sübhani (doğ. 1928) yazmışdır. Müəllif əsərini gözəl şəkildə tərtib etmiş, orada bu elm sahəsinə aid ilk əsərin kim tərəfindən yazıldığını, ən məşhur əsərlərin bəzilərinin adlarını və ümumiyyətlə, dirayə elminə aid mühüm problemlərin böyük bir hissəsini işıqlandırmışdı. Müəllifin yazdığı bu əsər hazırda məşhur üsul kitablarından biri kimi tədris olunur. Əsər beş dəfədən artıq nəşr edilmişdir. Onun beşinci nəşri Qumda 1420-ci hicri qəməri ilində çapdan çıxmışdır.[425]

## 1.4. Dirayə elminin tərifi

Dirayə sözü lüğətdə “dəra” felindən əmələ gəlmiş və bilmək, xəbərdar olmaq, anlamaq, qavramaq, idrak etmək, diqqətlə oxumaq, incələmək, kontrol etmək, mütaliə etmək və s. bu kimi mənalardadır.”[426]

Hədis istilahında isə “Dirayə elmi vasitəsi ilə hədisin mətni, sənədi, nəql olunma yolları öyrənilir, səhihindən zəifi araşdırılır. Həmçinin bu elm vasitəsilə məqbul hədislər mərdud hədislərdən seçilib ayırd edilir” kimi tərif edilir.[427] Qeyd edək ki, bu tərifi Şəhid əs-Sani (1506-1558) “Şərhül-bidayə”də (s. 45) qeyd etmişdir. Digər hədis alimlərindən olan Bəhaəddin əl-Amili (1546-1622) “əl-Vəcizə” əsərində yazırdı: “Həqiqətən dirayə elmi vasitəsilə hədisin sənədi, mətni, onun keyfiyyəti öyrənilib rəvayət və nəql olunmasının metodu öyrənilir.”[428]

Təriflər bir yerə toplandıqda, belə bir nəticəyə gəlmək mümkündür ki, dirayə elmi vasitəsilə Peyğəmbərdən , onun sədaqətli səhabələrindən və məsum İmamlardan nəql olunan hədislər tədqiq edilir, onların səhih olanı zəif olanından seçilir. Deməli, dirayə elmi olmadan hədislərin doğru olanını yalan olanından ayırmaq qeyri-mümkündür. Bu səbəbədəndir ki, dirayə hədis elminin əsasını təşkil edir və bu elmi mənimsəmədən Quran və İslam şəriətini bilmək, hədislərdən hökm çıxarmaq qeyri-mümkündür. Dirayə yönündən hədis elmi bəzən “Müstələhatül-hədis”, “Üsulül-hədis”, “İlmül-hədis”, “Dirayətül-hədis” və ya “Hədis metodologiyası”, “Hədis elminin əsasları” adları ilə də tanınır. Dilimizdə bu elmə “Hədis elminin əsasları” demək daha doğru olardı.

## 1.5. Dirayə elminin predmeti

Əvvəldə qeyd olunduğu kimi, dirayə elmi hədis elminin əsası sayılır və bu elmin vasitəsilə Peyğəmbər və digər məsum İmamlardan gələn hədislər həm sənəd və həm də mətn baxımından araşdırılır. Məsumlardan nəql olunan hədislər iki mühüm xüsusiyyəti özündə ehtiva edir. Bunlardan biri nəql olunan hədisin sənədi, digəri isə həmin hədisin mətnidir. Deməli, hədisin səhih və zəif olması bu iki amilə bağlıdır. Madam ki, hədis sənəd və mətn deyə iki şeydən tərkib tapıbsa, dirayə elminin də əsas qayəsi bu iki məfhumu ciddi araşdırmaq və tədqiq etmək olmalıdır. Dirayə elminin qayəsinə toxunan Abdullah əl-Maməqani (1868-1929) yazırdı: “Həqiqətən bu elmin qayəsi hədis terminləri ilə əlaqədar olanları bilmək, səhabələrin sözlərini tanımaq, hökmləri istinbat etmək, məqbul xəbərləri seçib onlara əməl etmək və mərdud xəbərləri bilib onlardan uzaq olmaqdır.”[429] Bu tərifdən də başa düşüldüyü kimi, dirayə elminin əsas qayəsi mötəbər rəvayətləri digərlərindən seçmək və bununla da səhih hədis vasitəsilə həqiqi dinə yiyələnməkdir. Deməli, dirayə elminin ehtiva etdiyi mövzları, zəruriliyi və qayəsi onu göstərir ki, bu elm ilahiyyat elmlərinin əsasında dayanır və onun öyrənilməsi nə qədər də böyük əhəmiyyət kəsb edir. Dirayə elmi Allaha tərəf istiqamət almış şəxsin yoludur. Yol olmadan hədəfə çatmaq mümkün olmadığı kimi, dirayə elmini də bilmədən Allahın nazil etdiyi hökmlərə doğru-düzgün şəkildə yiyələnmək mümkün deyildir.

---

[425] Cəfər əs-Sübhani. Üsulil-hədis və əhkamuhu. s. 9-14.
[426] İbn Mənzur. Lisanül-ərəb. IV c. s. 241-242.
[427] Cəfər əs-Sübhani. Üsulil-hədis və əhkamuhu. s. 14.
[428] Bəhaəddin əl-Amili. əl-Vəcizə. s. 1.
[429] Abdullah əl-Maməqani. Məqabisül-hidayə fi ilmid-dirayə. s. 4; Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 19.

## II FƏSİL

## HƏDİSİN NÖVLƏRİ

### 2.1. Hədisin qaynağına (isnadına) görə növləri

Hədis elmində hədisin qaynağına və ya isnadına görə növləri dedikdə, nəql olunan hədisin varıb dayandığı şəxs nəzərdə tutulur. Şübhə yoxdur ki, hədisin ilk isnadı Peyğəmbər hesab edilir. Lakin ötən fəsillərdə öyrəndiyimiz kimi, Peyğəmbərdən başqa yerdə qalan digər səhabə və tabei deyə tanınan təbəqələr vardır ki, onların da rəvayətlərinə hədis demişlər. Belə olan halda, Peyğəmbərin və digər təbəqələrin hədislərini bir-birindən fərqləndirmək üçün hansısa bir metodun olması zərurəti ortaya çıxır. Bunu nəzərə alan hədisşünaslar isnadına görə hədisləri aşağıdakı qruplara bölmüşlər:

**Mərfu hədis.**

Mərfu sözü lüğətdə ucaldılmış mənasındadır. Hədisşünasların terminologiyasında isə, Peyğəmbər və ya onun Əhli-beytindən olan hansısa bir imamın rəvayəti nəzərdə tutulur. Deməli, hədislər Peyğəmbər və ya Məsumə aid olduqda mərfu, səhabəyə aid olduqda isə məvquf adlanmışdı.[430]

Mərfuya aid aşağıdakı hədisi misal göstərmək olar:

وبإسناد مرفوع إلى بريدة الاسلمي أن رسول الله صلى الله عليه وآله وسلم أمر أصحابه أن يسلموا على علي عليه الصلاة والسلام بإمرة المؤمنين، فقال عمر بن الخطاب: يارسول الله أمن الله أم من رسول الله؟ فقال صلى الله عليه وآله: **بل من الله ومن رسوله.**

Büreydə əl-Əsləmi mərfu şəkildə (Peyğəmbərə istinadən) belə nəql edir: "Allahın Rəsulu səhabələrə əmr etdi ki, həzrət Əliyə salam versinlər. Ömər bin Xəttab dedi: "Ey Allahın rəsulu! Bu əmr Allahdandır, yoxsa onun Rəsulundan?"

Peyğəmbər dedi: "Allah və onun Rəsulundan."[431]

وبإسناد مرفوع قال، قال إبن الكواء لامير المؤمنين: أين كنت حيث ذكر الله تعالى نبيه وأبا بكر فقال: **(ثاني اثنين إذ هما في الغار إذ يقول لصاحبه لا تحزن إن الله معنا)**؟ فقال أمير المؤمنين عليه السلام: **ويلك يا ابن الكواء كنت على فراش رسول الله صلى الله عليه وسلم.**

Mərfu şəkildə nəql olunmuşdur ki, İbn Kəvva həzrət Əliyə dedi: "Allah Əbu Bəkr haqqında **"iki nəfərdən biri** (ikinin ikincisi) **olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna** (Əbu Bəkrə): **"Qəm yemə, Allah bizimlədir!" -** dediyi zaman" harada idin?"

İmam Əli buyurdu: "Vay olsun sənə, ey İbn Kəvva! O zaman mən Peyğəmbərin yatağında idim."[432]

Həmçinin digər bir tərif də mərfu hədis üçün belə verilmişdir: "Söz, fel, təqrir, fitri və ya əxlaqi vəsf olaraq - sənədi müttəsil və ya münqəti olsun - açıqca və ya dolayı bir şəkildə sadəcə, Peyğəmbərə aid edilən hədisdir."[433]

**Məvquf hədis.**

Məvquf sözü lüğətdə "dayandırılmış", "saxlanılmış" mənalarındadır. Hədis elmindəki mənası isə, sənədi Peyğəmbər və ya İmamın səhabəsinə yetişən hədisə deyilir.[434]

Digər bir tərifə görə də "Rəvayət edilən söz, fel və ya təqririn qaynağı səhabədirsə, buna məvquf hədis deyilər."[435] Bu təriflərdən belə başa düşülür ki, səhabələr təbəqəsindən hər hansı bir

---

[430] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu.. s. 66-67.
[431] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXVII c. s. 304.
[432] Xəsaisül-əimmə. s. 59.
[433] İsmail Lütfi Çakan. Hadis uşulu. s. 115.
[434] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 101-102.
[435] Talat Koçyiğit. Hadis uşulü. Ankara, Diyanet Vakfı Yayınları, 2033. s. 162; İbrahim Canan. Kütubu sittə tərcümə və şərhi. s. 70.

şəxsdən rəvayət gəlibsə, o məvquf hədis adlanacaq. Çünki bu qrup hədislərin ilk qaynağı, yəni isnadı səhabədir. Məvquf hədislər hicri III (miladi IX ) əsrdən sonra bu mənada işlədilmişdir.

Məvquf hədislər zəif hədislər qrupunda yer almışdır. Buna aşağıdakı hədisi misal göstərə bilərik:

فاما ما رواه محمد بن الحسن الصفار عن عمران بن موسى عن موسى بن جعفر عن محمد بن الحسين عن الحسن بن علي بن فضال عن ابن بكير عن عبدالاعلى مولى آل سام في الرجل يريد السفر في شهر رمضان قال: **يفطر وإن خرج قبل ان تغيب الشمس بقليل.**

Məhəmməd bin Həsən əs-Səffar – İmran bin Musa – Musa bin Cəfər – Məhəmməd bin Həsən – Həsən bin Əli bin Fəzzal – Əbi Bükeyr – Əbdüləla Mövla Ali Samdan ramazan ayında səfərə çıxmaq istəyən şəxs haqqında soruşdu. Əbdüləla dedi: "Günəşin batmasına az qalmış səfərə çıxsa, iftar edəcək." [436]

Hədisşünaslardan bir qrupu, o cümlədən Məhəmməd bin İdris əş-Şafei (767-820) məvquf hədisi höccət (dəlil) saymamışdır.[437] Həmçinin bəzi alimlərə görə, səhabənin sözünə **"əsər"** deyilir və onların söz və ya hərəkətləri dəlil və höccət deyildir. Bu görüşü qəbul edən alimlərə görə, əgər səhabə Məsumdan rəvayət edərsə, bu dəlil ola bilər, əks halda bu mümkün deyil.

**Məqtu hədis.**

Məqtu lüğətdə "kəsilmiş", "qoparılmış" mənalarındadır. Terminoloji mənada isə, Məsumun səhabəsinin səhabəsindən (tabeidən) gələn rəvayətlərə deyilir və bu qrup hədislər də zəif hesab olur.[438]

Digər bir tərifə görə "Sənədi tebeiyə yetişən, onların söz və hərəkətlərini bildirən xəbərlərə məqtu deyilir."[439]

Məqtuya aid aşağıdakı hədisi misal göstərmək olar:

علي بن إبراهيم، عن أبيه، ومحمد بن إسماعيل، عن الفضل بن شاذان جميعا عن حماد بن عيسى، عن حريز، عن زرارة قال: **إذا كان الماء أكثر من رواية لم ينجسه شئ تفسخ فيه أو لم يتفسخ فيه إلا أن يجئ له ريح يغلب على ريح الماء.**

"Zürarə belə nəql edir: "Əgər su kürr miqdarına çatarsa, ona düşən nəcis suyun iyini dəyişməzsə, murdar olmaz." [440]

**Qüdsi hədis.**

Qaynağına görə incələnən hədis çeşidlərindən biri də qüdsi hədisdir. Əvvəldə də qeyd etdiyimiz kimi, qüdsi hədis ecazkar şəkildə olmayan, Allahın peyğəmbərlərdən və ya onların vəsilərindən birinə söyləyib izah etdiyi İlahi kəlamına deyilir.[441]

Digər bir tərifdə isə deyilir: "Ayə olmamaq şərti ilə həzrət Peyğəmbərin "Uca Allah belə buyurmuşdur" deyərək Allah-Təalaya aid etdiyi hədisdir."[442]

Qüdsiyə aid aşağıdakı hədisi göstərmək olar:

في الحديث القدسي: **يا موسى، سلني كلّ ما تحتاج إليه، حتى علف شاتك وملح عجينك.**

Qüdsi hədisdə qeyd edilmişdir: "Ey Musa! Ehtiyac duyduğun hər bir şeyi, qoyunlarının otundan və xəmirinin duzundan belə Məndən istə!"[443]

Qüdsi hədislə Qurani-Kərim arasındakı fərqə gəldikdə, Mövli əl-Kirmani "Kitabüs-saum" adlı əsərinin əvvəlində bu haqda belə yazırdı: "Quran ecazkar bir kəlmədir və Cəbrayılın vasitəsilə nazil olmuşdur, qüdsi hədis isə ecazkar deyildir və vasitəsiz nazil olub. Buna görə də İlahi, Rəbbani və ya qüdsi adlandırılmışdır."[444]

---

[436] Şeyx ət-Tusi. Təhzibül-əhkam. "hökmül-müsafir vəl-məriz fis-siyam" fəsli.
[437] İsmail Lütfi Çakan. Hadis usulü. s. 119-120.
[438] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 102-103.
[439] Talat Koçyiğit. Hadis uşulü. s. 163.
[440] Küleyni. Üsulul-kafi. Hədis № 3825.
[441] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 20.
[442] İsmail Lütfi Çakan. Hadis usulü. s. 114.
[443] Hürr əl-Amili. Vəsailüş-şiə. VII c. Təhqiq: Müəssisətu Alil-beyt (ə). Qum, II çap, 1414 h/q. s. 32. Hədis № 8634.
[444] Əhadisül-qüdsiyyə. Qahirə, Darül-mənar, 1421/2000. s. 7.

Əmir Həmudiddin “Fəvaid” adlı əsərində Quranla qüdsi hədis arasında altı fərqin olduğunu göstərir:

1) Quran möcuzədir, hədisi-qüdsi isə möcuzə deyil.

2) Namazı Quransız qılmaq olmaz, namazda isə qüdsi hədis oxumaq olmaz.

3) Quranı inkar edən kafirdir, qüdsi hədisi isə inkar edən kafir olmaz.

4) Quran Cəbrayılın vasitəsi ilə nazil olub, qüdsi hədislər isə vasitəsiz xəbər verilib.

5) Quran ləfzən Allahdan göndərilib, qüdsi hədisin ləfzi isə Peyğəmbərə məxsusdur.

6) Qurana pak olmayanlar toxuna bilməz, onu oxuya bilməz, qüdsi hədisə isə pak olmayanlar da toxuna bilərlər.[445]

Təriflərdən göründüyü kimi, qüdsi hədislər Allah tərəfindən heç bir vasitə olmadan öz peyğəmbərinə və imamlarına ilham və ya yuxu vasitəsilə bildirdiyi xəbərlərdir.

Qüdsi hədislər hədisşünaslar tərəfindən ya ayrı-ayrı əsərlər formasında, yaxud da hədis kitablarında ayrıca fəsildə toplanmışdır. Məhəmməd bin Hüseyn bin Əli Hürr əl-Amilinin (1625-1693/95) “əl-Ənvarül-səniyyə fi əhadisil-qüdsiyyə”, Əllamə Əli əl-Qarinin (öl. 1605) “əl-Əhadisül-qüdsiyyə” adlı əsəri qüdsi hədislər toplusu içində ən məşhurlarındandır. Əsər Azərbaycan dilinə tərcümə edilib.

## 1.2. Ravi sayına görə hədisin növləri

**a) Mütəvatir hədis.**

Mütəvatir lüğətdə “bir-birinin ardınca gəlmək”, “ara vermədən, fasiləsiz olaraq bir-birini təqib etmək” mənalarındadır.[446] Mütəvatir sözü bu mənada Quranda da işlənmişdir. Uca Allah buyurur: **“Sonra peyğəmbərlərimizi ardıcıl şəkildə** (tətrən) **göndərdik.”**[447]

“Mütəvatir hədis bir toplumun tam və kəskin doğruluğla şəxsən rəvayət etdiyi hədisdir.”[448] Digər bir tərifdə isə belə deyilir: “Əgər bir hədisin sənədində İmama qədər hər təbəqədə o qədər çox nəql olunduğu qeyd olunursa və artıq yalan olmağı qeyri-mümkün nəzərə gəlirsə, bu, mütəvatir xəbər adlanır.”[449]

Mütəvatir hədisə verilmiş başqa bir tərifə görə “mütəvatir “yalan üzərində birləşmələri adətən mümkün olmayan ravilər toplusunun hər nəsildə özləri kimi bir topluluqdan alıb nəql etdiyi eşitmə və ya görməyə dayanılan hədisdir.”[450] Həmçinin mütəvatir hədis, “ağılın və adətin yalan üzrə birləşmələrini imkansız olduğu bir toplumun sənədin başından sonuna qədər yenə özləri kimi bir toplumdan rəvayət etdiyi səhih hədisdir” kimi də tərif edilmişdir.[451] Bu və ya digər təriflərdən belə başa düşülür ki, mütəvatir hədis (və ya xəbər) elə bir toplu insanlar tərəfindən rəvayət edilən hədisdir ki, həmin toplumda olan insanların fərdləşərək bir araya gəlib o hədisi uydurub yaymaq xüsusundakı söz birliyi əqlən mümkün deyildir. Deməli, mütəvatir hədis bir nəsilin özləri kimi bütün lazımı şərtləri daşıyan digər bir nəsildən rəvayət etdikləri xəbərdir. Həmçinin mütəvatir kəlməsinin lüğəvi anlamından da göründüyü kimi, bir toplum bu xəbəri ardıcıl olaraq və fasilə olmadan digər bir toplumdan rəvayət etmişdir. Burada diqqəti cəlb edən bir məqam toplumda yer alan ravilərin sayıdır. Qədim dövrdən indiyədək bütün hədisşünaslar bu barədə ciddi fikir ayrılığındadırlar. Belə ki, bəzi alimlərə görə, əgər dörd ravi bir hədisi rəvayət etmişsə, bu mütəvatir hədisdir. Bu görüşü təsdiq edənlər bu ayəni dəlil gətirirlər: **“ nə üçün özlərinin doğru olduqlarını təsdiq edəcək dörd şahid gətirmədilər?”**[452] Digər alimlər isə on ravinin nəql etdiyi hədisi mütəvatir bilmişlər və dəlilləri də budur ki, ondan aşağı olan rəqəmlər cəm sayılmır. Həmçinin

---

[445] Həmin mənbə. s. 8.
[446] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 22
[447] Muminun surəsi, ayə 44.
[448] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 24; Mirzə əl-Qummi. Qəvaninül-üsul. I c. s. 420.
[449] Seyid Səid Rəşadi. Hədis elmi. s. 33.
[450] İsmail Lütfi Çakan. Hadis usulü. s. 106.
[451] Sübhi es-Salih. Hadis ilmleri ve hadis ıstılahları. s. 115.
[452] ən-Nur surəsi, ayə 13.

başqa bir qrup alimlər on iki ravinin nəql etdiyi hədisi mütəvatir biliblər və bu ayəni dəlil göstərirlər: **"Biz onlardan on iki nəzarətçi göndərmişdik..."**[453] Başqa qrup alimlər isə mütəvatir xəbərin toplumunun iyirmi ravi olması görünüşündədirlər və bu ayəni dəlil göstərirlər: **"İçərinizdə iyirmi səbirli kişi olsa iki yüz kafirə... qalib gələr."**[454] Mütəvatir hədisin toplumdakı ravilərinin sayı haqqında digər rəqəmlər də sadalanmışdır.[455]

Mütəvatir hədis elmində heç vaxt bəhs mövzusu olmur. Çünki bu növ hədislər isnadında heç bir problem olmayan hədislərdir. Məlumdur ki, hədis bir isnad elmidir. Bu elmin əsas mövzusu da bir hədisin rəvayət zəncirini səhihlik yönündən incələmək və bu zənciri təşkil edən ravi halqalarını ədalət və zəbt baxımından etibarlı olub olmadıqlarını yoxlamaqdır.

Mütəvatirə Peyğəmbərin aşağıdakı hədisləri misal göstərilə bilər:

**أَلَا أَيُّهَا النَّاسُ فَإِنَّمَا أَنَا بَشَرٌ يُوشِكُ أَنْ يَأْتِيَ رَسُولُ رَبِّي فَأُجِيبَ، وَأَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ: أَوَّلُهُمَا كِتَابُ اللهِ فِيهِ الْهُدَى وَالنُّورُ فَخُذُوا بِكِتَابِ اللهِ، وَاسْتَمْسِكُوا بِهِ، فَحَثَّ عَلَى كِتَابِ اللهِ وَرَغَّبَ فِيهِ، ثُمَّ قَالَ: وَأَهْلُ بَيْتِي أُذَكِّرُكُمُ اللهَ فِي أَهْلِ بَيْتِي، أُذَكِّرُكُمُ اللهَ فِي أَهْلِ بَيْتِي، أُذَكِّرُكُمُ اللهَ فِي أَهْلِ بَيْتِي.**

"Ey insanlar! Mən də sizin kimi insanam. Mən yaxın zamanda Allahın dəvətini qəbul edib, sizin aranızdan gedəcəyəm, (dünyamı dəyişəcəyəm) lakin bununla belə iki qiymətli şeyi sizə əmanət qoyuram. Onlardan biri Allahın kitabıdır. Orada hidayət və nur vardır. Allahın kitabını götürün və ondan möhkəm yapışın. İkincisi isə mənim itrətim, Əhli-beytimdir . Əhli-beytim haqqında sizi Allaha tapşırıram."[456]

**Mütəvatir hədisin növləri:**

Mütəvatir hədis iki qismə ayrılır:

**- Ləfzən mütəvatir.**

"Bütün rəvayətlərində ləfzən eyni olan hədislər mütəvatir hədislər adlanır." [457] Həmçinin ləfzən mütəvatir hədis aşağıdakı kimi tərif edilir: "Adı keçən topluluğun sənədin başından sonuna qədər mətnini eyni kəlmə ilə eyni şəkildə rəvayət etdiyi hədisdir."[458]

Bu təriflərdən belə məlum olur ki, ləfzən mütəvatir dedikdə, həmin hədisi Məsum hansı kəlmələr əsasında demişsə, ravilər də həmin hədisin mətnində heç bir dəyişikliyə yol vermədən, sözbəsöz o hədisi rəvayət edirlər. Hədis alimlərinə görə, ləfzən mütəvatir hədis olduqca az olan hədislərdir.

Ləfzən mütəvatir xəbərlərə aşağıdakı bir neçə hədisi misal göstərmək olar:

**من كذب علي متعمدا فليتبوأ مقعده من النار.**

"Hər kəs mənim adıma yalan hədis uydursa, öz yerini Cəhənnəmdə hazır bilsin."[459]

**تَركتُ فِيكم الثَّقلين، ما إن تمسَّكتُم بهما، لن تضلُّوا: كِتابَ اللهِ، وعِترتي أهلَ بيتي.**

"Sizin aranızda iki qiymətli əmanət qoyuram. Onlardan biri Allahın kitabı, digəri isə əhli-beytimdir."[460]

Bu hədislərdən birincisinin 40 və ya 60, ikincisini isə 100-dən artıq ravisi vardır.

- **Mənən mütəvatir** (mənaya görə mütəvatir).

"Aralarında ortaq bir nöqtə olan dəyişik hökmlərin, təvatür şərtlərini daşıyan ravilər tərəfindən nəql edilməsi ilə ortaya çıxan ortaq mənaya mənən mütəvatir" deyilir.[461] Bu tərifdən də bəlli olduğu kimi, mütəvatir hədis Məsumun dilindən çıxdığı kəlmələrlə deyil, bəlkə həmin

---

[453] əl-Maidə surəsi, ayə 11.
[454] əl-Ənfal surəsi, ayə 65.
[455] Sübhi es-Salih. Hadis ilimleri ve hadis ıstılahları. s. 115-116.
[456] Müslim bin Həccac ən-Nisaburi. Səhihu-Muslim. Beyrut, Darül-kütubil-ilmiyyə, 1421/2001. s. 941. Hədis № 2408.
[457] İsmail Lütfi Çakan. Hadis usulü. s. 106.
[458] Sübhi es-Salih. Hadis ilmleri ve hadis istilahları. s. 117.
[459] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 225.
[460] Əbu İsa ət-Tirmizi. Sünənüt-Tirmizi. Hədis № 3788; Hakim ən-Nisaburi. əl-Müstədrək. Hədis № 4577; Əhməd bin Hənbəl. əl-Müsnəd. Hədis № 11578.
[461] İsmail Lütfi Çakan. Hadis usulü. s. 107.

kəlmələrin mənalarını qoruyub saxlamağla rəvayət olunan mütəvatir hədisdir. Yəni hədisi rəvayət edən ravilər Məsumdan eşitdikləri hədisləri sözbəsöz deyil, ümumi məna nöqteyi-nəzərdən nəql etmişlər.

Hədis alimlərinin verdikləri məlumata görə, nəql olunmuş mütəvatir hədislərin böyük əksəriyyəti mənən mütəvatir hədislərdir. Buna aşağıdakı hədisi misal göstərmək olar:

"Peyğəmbər dua edərkən əllərini göyə qaldırardı." Bu hədisin yüzdən artıq rəvayəti vardır.[462] Buradan aydın olduğu kimi, Peyğəmbərin dua edərkən əllərini qaldırması hədisdə qeyd olunur. Burada mütəvatir məna dua edərkən əllərin qaldırılmasıdır.

**Mütəvatir hədisin hökmü.**

Hədisşünaslara görə, hər bir mütəvatir hədisin aşağıdakı hökmləri vardır:

1. Mütəvatir hədis zəruri olaraq bilgi ifadə edir. Bu baxımdan Peyğəmbərin mütəvatir hədisini inkar edən kafir olur.

2. Mütəvatir hədislər mütləq səhih olduqları üçün yəqin ifadə edirlər və bu səbəbə görə onun ravilərindən bəhs etməyə, onları tədqiq etməyə ehtiyac yoxdur və ona əməl etmək vacibdir.

3. Mütəvatir hədislər hədis üsulu prinsiplərinə görə tədqiq və tənqid olunmur. Çünki hədis üsulunun tədqiq etdiyi hədislər "Ahad" (xəbəri-vahid) hədislərdir.[463]

**a) Ahad (Əhəd) hədis (Xəbəri-vahid)**

Ahad lüğətdə "əhəd" və ya "vahid"in cəmidir. Hədis elmindəki mənası isə "mütəvatir xəbərin həddinə çatmayan xəbər vahid xəbər adlanır."[464] Başqa bir tərifə görə də "Mütəvatir hədisin şərtlərini daşımayan hədis mütəvatirdir."[465]

Deməli, xəbəri-vahidin qəbul və ya rədd edilməsi onun ravilərinin səhihliyinə bağlıdır. Əgər nəql olunmuş xəbərdə höccət şərtləri toplanmışsa, o məqbul, əks halda isə mərduddur. "Məalim" əsərinin müəllifi yazırdı: "Xəbəri-vahidə əməl etmək üçün onun ravi ilə əlaqədar şərtləri vardır. Belə ki, birinci şərt ravinin yetkinlik yaşına çatması, onun ağıllı olması, ikinci şərt müsəlman olması, üçüncü şərt isə, imanlı olmasıdır. İmanlı olmasında məqsəd on iki imamçı olmasıdır, yoxsa təkcə müsəlman olmaq kifayət deyildir. Lakin, Şeyx Tusi Fəthiyyə və digər firqələrin xəbərlərinə əməl etməyi caiz bilib. Dördüncü şərt ədalətli olmasıdır.[466]

Ahada aşağıdakı hədis misal göstərilə bilər:

عن أحمد، عن بعض أصحابه رفعه قال: قال أبو عبدالله (عليه السلام): **الديك الأبيض صديقي وصديق كل مؤمن.**

İmam Sadiq buyurur: **"Ağ xoruz mənim və möminlərin dostudur."**[467]

**Ahad hədisin növləri:**

Ahad hədislər hər təbəqədə onları nəql edən ravilərin sayına görə, üç qismə bölünür:

**a) Məşhur xəbər.**

**b) Əziz xəbər.**

**c) Qərib xəbər.**

**1. Məşhur xəbər.**

Məşhur lüğətdə "şöhrət" sözündən olub, "tanınmış", "məşhur olmuş" və s. bu kimi mənalarda işlədilir.[468] Buna bəzən "müstəfiz" hədis də deyilir. Terminoloji mənada isə "Əgər xəbəri-vahidi

---

[462] Cəlaləddin əs-Süyuti. Tədribür-ravi. s. 375.
[463] İsmail Lütfi Çakan. Hadis usulü. s. 107.
[464] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 38.
[465] İsmail Lütfi Çakan. Hadis usulü. s. 109.
[466] Şeyx Mustafa əl-Etimadi. Şərhu məalimid-din. s. 315-317.
[467] Hürr əl-Amili. Vəsailüş-şiə. Hədis № 15448.
[468] əl-Müncid. "şəhr" maddəsi.

nəql edən ravilərin sayı üçə yetişərsə, bu hədis müstəfizdir", - deyə tərif edilir.[469] Başqa bir tərifdə isə "Mütəvatir hədisin şərtlərini daşımayan hədis ahad adlanır", - deyə qeyd edilmişdir.[470]

"Məşhur" və ya "müstəfiz" hədis iki amil baxımından məşhur ola bilər:

**- Sənəd tədqiqinə görə məşhur hədis.**

**- Şöhrət tapdığı yerə görə məşhur hədis.**

Sənəd tədqiqinə görə məşhur olan hədislər "səhih", "həsən" və ya "zəif" ola bilər.

Şöhrət tapdığı yerə görə məşhur hədis isə həm hədisşünaslar, həm fəqihlər, həm üsulşünaslar, həm nəhvçilər və ya digər təbəqə yanında məşhur olan hədislərdir. Bəlkə də bu səbəbdəndir ki, bəzi qaynaqlarında məşhur hədisə "bütün kitablarda olan və ravilərin hamısı tərəfindən nəql olunan hədis" demişlər.[471]

Sənəd tədqiqinə görə məşhur hədisə **لا تجتمع امتي على ضلالة "Ümmətim zəlalət üzərində bir araya gəlməzlər"** hədisini misal göstərmək olar.[472]

Şöhrət tapdığı yerə görə məşhur hədisə isə Peyğəmbərin aşağıdakı hədislərini misal göstərə bilərik:

Fəqihlərin yanında məşhur hədis:

**من نام فليتوض.**

**"Hər kəs yatsa,** (oyandıqdan sonra) **dəstəmaz alsın."**[473]

Hədisşünasların yanında məşhur hədis:

**النبي صلى الله عليه وآله أنه قال: إن الله يبعث لهذه الامة في رأس كل مائة سنة من يجدد لها دينها.**

Peyğəmbər buyurur: "Şübhəsiz ki, Allah hər əsrin əvvəlində bu ümmətə dini işlərini yeniləyəcək mücəddid göndərəcəkdir."[474]

**2.Əziz xəbər.**

Əziz lüğətdə "qüdrətli", "şərəfli", "güclü" və s. bu kimi mənalardadır.[475] İstilahi mənada isə "İki nəfər tərəfindən rəvayət olunan hədis əzizdir", kimi tərif edilir.[476] Başqa bir tərifdə isə "Bir hədis qərib ikən başqa bir yöndən rəvayət edilərək qüvvətlənməsi əziz hədisdir", - deyə qeyd edilir.[477]

**3.Qərib hədis.**

Qərib sözü lüğətdə "yabançı olmaq", "yad olmaq", "başa düşülməsi çətin olan" və s. mənalarda işlədilir.[478] Hədis elmindəki mənası isə "Rəvayətində tək bir nəfər ravi olan hədis, qəribdir."[479] Digər bir tərifə görə "Mətn və ya sənədində tək qalmış, yaxud da oxşarı başqa ravilər tərəfindən nəql edilməmiş hədis"dir.[480]

Deməli, bu təriflərdən belə başa düşülür ki, yalnız bir nəfər tərəfindən rəvayət edilən hədis qəribdir. Həmçinin mətn və isnad baxımından tək qalmaqdan əlavə, başqa oxşar ravilərdən rəvayət edilməyən hədis də qəribdir.

Qərib hədis həm səhih, həm də qeyri-səhih olmaqla yanaşı, isnad və ya mətn baxımından da zəif ola bilər. Hətta bəzi alimlər qərib hədisləri zəif bildiklərindən onları qeyd etməyi belə, rəva görməmişlər. Belə ki, Əhməd bin Hənbəl (780-855) deyirmiş: "Qərib hədisləri yazmayın, çünki

---

[469] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 38.
[470] İsmail Lütfi Çakan. Hadis usulü. s. 109.
[471] Seyid Səid Rəşadi. Hədis elmi. s. 35.
[472] Mövla Məhəmməd Sadiq. Şərhi üsulil-hədis. IV c. s. 341.
[473] Əllamə ən-Nuri. Müstədrəkül-vəsail. I c. s. 158.
[474] Əllamə ən-Nuri. Müstədrəkül-vəsail (xatimətül-vəsail). III c. s. 274.
[475] əl-Müncid. "əziz" maddəsi.
[476] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 38.
[477] Talat Koçyiğit. Hadis usulü. s. 25.
[478] əl-Müncid. "qərib" maddəsi.
[479] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 38.
[480] Talat Koçyiğit. Hadis usulü. s. 26.

onlar münkərdir və çoxu zəif ravilərdən gəlmədir.”[481] Həmçinin məşhur hədisşünas Cəlaləddin əs-Süyuti (1445-1505) “Tədribür-ravi”[482] əsərində bu kimi çoxlu misal gətirərək qərib hədisin bir çoxlarının, o cümlədən Malik bin Ənəs (712-795), Əhməd bin Hənbəl (780-855), Əbdürrəzzaq (743-826), Əbu Yusif (731-798) kimi alimlərin nəzərində zəif olduğunu önə çəkmişdir.[483]

Qərib hədisə ən məşhur misal “İnnəmal-əmalu bin-niyyət” hədisi göstərilir. Çünki hədisi Peyğəmbərdən yalnız Ömər bin əl-Xəttab, ondan Əlqəmə bin Vəqqas, ondan Məhəmməd bin İbrahim ət-Teymi, ondan da Yəhya bin Səd rəvayət etmişdir.[484]

Əgər ravinin tək qalması sənədin əslindədirsə, yəni səhabə tərəfindəndirsə, belə qəribə “fərdu mütləq”, əgər belə deyilsə, yəni ikincisindəndirsə, buna “fərdu nisbi” deyilir.[485] Buna misal olaraq: “Əgər Küleyni bəzən Əhməd bin Məhəmməd bin İsa, onun da Həsən bin Məhbubdan, başqa dəfə isə Əli bin Məhziyar, Həsən bin Məhbub, üçüncü dəfə isə, İbrahim bin Haşim yolu ilə rəvayət edərsə, bu xəbər qəribdir. Hədisin qərib olması Həsən bin Məhbuba görədir, çünki sənəd onda bir ravi vasitəsilə sona çatmışdır.”[486]

Buradan bir daha bəlli olur ki, xəbəri-vahidin (ahad hədisin) müxtəlif yönləri vardır. Bu məsələyə toxunan “əl-Məalim” əsərinin müəllifi yazırdı: “Xəbəri-vahid ravilərinin hallarının, onların iman və ədalət sifəti ilə əlamətləndirilməsinin, həmçinin iman, ədalət və zəbt sifətinin aradan getməsi müxtəlifliyi baxımından dörd qismə bölünür: “Səhih”, “Həsən”, “Müvəssəq” və “Zəif.”[487]

---

[481] Talat Koçyiğit. Hadis usulü. s. 27.
[482] Cəlaləddin əs-Süyuti. Tədribür-ravi. Misir, 1379/1958. s. 376.
[483] Talat Koçyiğit. Hadis usulü. s. 27.
[484] Həmin mənbə. s. 27.
[485] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 39.
[486] Həmin mənbə. s. 39.
[487] Şərhu məalimid-din. s. 338-340.

## III FƏSİL

## SƏHİHLİYİNƏ (SƏHHƏTİNƏ) GÖRƏ HƏDİSİN NÖVLƏRİ

### 3.1. Səhihliyinə görə hədisin növləri

Əvvəlki fəsillərdə verdiyimiz məlumatdan aydın oldu ki, hədislər başlıca olaraq iki qismə bölünür:

**1) Mütəvatir hədis.**

**2) Ahad hədis.**

Hədislərin bu qismə bölünməsi səbəbi sənədində olan ravilərin sayına görə idi. Bu fəsildəki mövzu isə "Ahad" hədislər qrupunda yer almış hədislərin səhihlik baxımından tədqiq edilməsi olacaqdır.

Məlumdur ki, ahad hədislər (xəbəri-vahid) həm səhih, həm də zəif ola bilər. Buna görə də ahad hədislər məqbul və mərdud deyə iki qismə ayrılmışdır. Mütəvatir hədis isə mütləq olaraq doğru olduğundan onlar araşdırılmır. Ahad hədislər isə bunun əksinədir. Deməli, ahad hədislər əgər ravilərinin doğru olduğu qəbul edilərsə və həmçinin hədisin mətni Quranla zidd olmazsa, məqbul, əks halda isə mərdud hesab ediləcəkdir.

Ahad hədislərin (xəbəri-vahidin) qismlərindən bəhs edən Cəfər Sübhani yazır: "Əshabımızdan olan son dövr alimləri xəbəri-vahidi ravilərinin əhvalının müxtəlifliyi baxımından dörd qismə bölmüşlər: "Səhih", "Həsən", "Müvəssəq" və "Zəif."[488]

Müəllif hədislərin bu qismlərə bölünməsini izah edərkən yazır: "Məlumdur ki, bu terminlər qədim alimlərimiz içərisində olmamışdır, bunlar yalnız XIII əsrdə ortalığa çıxmışdır. Bəhaəddin Amili belə yazırdı: "Bu termin qədim alimlərimiz içərisində tanınmamışdı. Bəlkə də onların arasında bütün hədislərin səhih olması geniş yayılmış və və bu adi hesab edilmişdir. Onlar bu hədisləri dəstəkləmiş və onların etimadını gərəkli saymışlar. Buna səbəb isə aşağıdakı xüsusiyyətlər ola bilər:

- "Dörd yüz əsil" adlanan kitablarda xəbərlərin çoxlu olaraq tapılması. Həmin kitabları onların şeyxləri müttəsil (bitişik) olaraq öz yolları vasitəsi ilə məsum İmamlardan nəql etmişlər və bunlar o dövrdə onların nəzdində daha çox tədavüldə idi.
- Xəbərlər "əsil" kitablarda toplumdan olan bir nəfər tanınmış raviyə nisbət verilirdi və o ravi onların nəzərində tam təsdiqini tapmışdı. Məsələn, Zürarə, Məhəmməd bin Müslüm, əl-Fəzil bin Yasər kimi.
- Məsum İmamlardan birinə göstərilmiş kitablardan alırdılar.[489]

Alimlərin bu və ya digər mülahizələrindən belə məlum olur ki, hədislərin səhih, həsən, müvəssəq və ya zəif terminlərə əvvəlki dövrlərdə ayrılmamasının səbəbi nəql olunan hədisin ya "əsil" adlanan və sənədi İmama qədər gedib çıxan kitablarda mövcud olmasına, ya haqqında mütləq olaraq "tədil" olmuş raviyə nisbət verilməsində, yaxud da, digər səbəblərdəndir. Lakin sonralar xəbəri-vahid (ahad hədis) qismlərə bölünmüşdür. Bu yolu ilk olaraq açan İbn Tavus (öl. 1274) və digər görüşə görə isə Əllamə Həsən bin Mütəhhər əl-Hilli (1250-1325) olmuşdur.

Lakin digər bəzi hədisşünaslara görə, səhih hədisin ilk tərifini verən Əbu Süleyman əl-Xəttabi (öl. 998) olmuşdur. O, Əbu Davudun "Sünən" əsərinə yazdığı şərhi olan "Məalimüs-sünən"ində yazırdı: "Səhih sənədi müttəsil, raviləri isə tədil edilmiş hədisdir."

Həsən hədisin isə ilk tərifini verən Əbu İsa ət-Tirmizi (824-892) olmuşdur.[490]

### 3.1.1. Səhih hədis

Səhih sözü, lüğətdə "doğru", "qüsursuz", "düzgün" və s. bu kimi mənalarda işlədilir.[491] Hədis elmindəki mənası isə müxtəlif formada tərif edilmişdir. Belə ki, Şəhidül-əvvəl yazırdı:

---

[488] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 43.
[489] Həmin mənbə. s. 43-44.
[490] ən-Nuri. ət-Təqrib vət-təysir. I c. s. 42; Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 47.

“İmamiyyəyə mənsub və ədalətli olan bir şəxsin sənədi Məsumadək müttəsil olan rəvayəti səhih adlanır.”[492] Başqa bir tərifə görə isə “Ədalət və zəbt sifətlərinə sahib olan ravilərin bitişik sənədlə rəvayət etdikləri, şazz və müəlləl olmayan hədisdir.”[493]

Səhih hədis üç qismə bölünür:

**- Səhihül-əla;**

**- Səhihül-əvsət;**

**- Səhihül-ədna.**

**a) Səhihül-əla (ali səhih hədis).**

“Səhihül-əla” o hədisə deyilir ki, onun bütün əlamətlərini daşımaqla yanaşı, yəqin (elm) yolu ilə yaxud da, iki ədalətli şəxsin şahidliyi vasitəsi ilə nəql olunsun.[494]

Bu tərifə görə, səhih hədisin ən uca və ən ali dərəcəsini tutan növü səhihül-əla növüdür. Çünki bu növ hədis səhih hədisin bütün şərtlərini özündə ehtiva etməklə yanaşı, haqqında elm və yəqinlik də hasil olmuşdur.

**b) Səhihül-əvsət (orta səhih hədis)**

“Səhihül-əvsət” bir ədalətli şəxsin sözü ilə bütün yuxarıdakı əlamətləri özündə ehtiva edən və insana xatircəmlik gətirən hədisə deyilir.[495]

Səhih hədisin ikinci pilləsini təşkil edən bu tərifdən məlum olduğu kimi, səhihül-əvsət səhih hədisin bütün əlamət və xüsusiyyətlərini daşıyır, həm də bir nəfər ədalətli şəxs tərəfindən doğruluğuna şahidlik verilir.

**c) Səhihül-ədna (ən aşağı səhih hədis)**

“Səhihül-ədna” o hədisə deyilir ki, səhih hədisin bütün xüsusiyyətlərini daşımaqla yanaşı, ictihadi güman ilə ələ gətirilmiş olsun.[496]

Səhih hədisin ən aşağı təbəqsini təşkil edən səhihül-ədnanın tərifindən belə başa düşülür ki, bu qrupa aid olan hədislər səhih hədisin xüsusiyyətlərini daşımaqla yanaşı, müctəhidin ictihadi nəticəsində səhih həddinə çatmış olsun. Yəni bu qrup hədisin səhihliyinə ədalətli şəxs şəhadət verməyib, lakin müctəhidin tədqiqatı nəticəsində icatihadına dayanaraq haqqında səhih qərar verilmişdir.

Digər başqa mənbələrdə isə səhih hədis “səhih lizatihi” və “səshih liğeyrihi”, - deyə iki qismə bölünür. “Səhih lizatihi” öz şərtləri ilə səhih olan və səhihlik baxımından ən üstün dərəcədə olan hədisə, “səhih liğeyrihi” isə səhihlik dərəcəsini ən üstün şəkildə daşımayan, lakin başqa bir hədis vasitəsi ilə ən üstün səhihlik dərəcəsinə yetişən hədisə deyilir.[497]

**Səhih hədisin hökmü.**

Hədisşünaslar və fəqihlərə görə, səhih hədisin hökmü dində dəlildir (höccətdir) və ona əməl etmək vacibdir. Şübhəsiz ki, bu görüş səhih hədisin ən üstün dərəcəsində yer almış hədislərə şamildir.

**Səhih hədisin şərtləri.**

Hədis alimlərinə görə, səhih hədisin beş şərti vardır ki, bu şərtlər daxilində hədis səhihlik dərəcəsini qazanmış olur. Həmin şərtlər aşağıdakılardır:

---

[491] əl-Müncid. “səhih” maddəsi.
[492] əz-Zikra. s. 4.
[493] Talat Koçyiğit. Hadis usulü. s. 32.
[494] Cəfər əs-Sübhani. Üsulu-hədis və əhkamuhu. s. 59; Seyid Səid Rəşadi. Hədis elmi. s. 34.
[495] Həmin mənbələr. s. 59; s. 34.
[496] Həmin mənbələr. s. 59; s. 34.
[497] İsmail Lütfi Çakan. Hadis usulü. s. 123.

1. Səhih hədisin raviləri ədalətli olmalıdır.
2. Səhih hədisin raviləri zabit olmalıdır.
3. Səhih hədisin isnadı müttəsil olmalıdır.
4. Səhih hədis şazz olmamalıdır.
5. Səhih hədis müəlləl olmamalıdır.

Deməli, bu beş şərti özündə daşıyan hər hansı bir hədisə "səhih hədis" demək olar. Əks halda, həmin hədis səhihlik dərəcəsini itirəcək və zəif olacaqdır.[498] Əlbəttə ki, bunlar səhih hədisə aid olan əsas şərtlərdir ki, bu barədə heç bir ixtilaf yoxdur. Lakin bundan başqa səhih hədisin digər şərtləri də vardır ki, maraqlananlar bu sahədə yazılmış əsərlərə müraciət edə bilərlər.

Səhihə aşağıdakı hədisi misal göstərə bilərik:

قالَ الإمام محمد بن علي الباقر (عليه السلام): **عَالِمٌ يُنْتَفَعُ بِعِلْمِهِ أَفْضَلُ مِنْ سَبْعِينَ أَلْفَ عَابِدٍ.**

İmam Məhəmməd Baqir buyurur: "Öz elmi ilə fayda verən alim yetmiş min abiddən xeyirlidir."[499]

### 3.1.2. Həsən hədis

Həsən sözü lüğəvi mənada "gözəl", "yaraşıqlı", "qüsursuz", "məqbul" deməkdir.[500] Hədis elmindəki mənası isə "Ədalətinə açıq-aşkar dəlil olmayan, təriflənmiş (mədh edilmiş) şəxsin rəvayət etdiyi hədisdir."[501] Başqa bir tərifə görə isə "Zəbt baxımından qüsurlu olan ravilər vasitəsi ilə bitişik sənədlə nəql edilən, şazz və müəlləl olmayan hədisdir."[502]

Həsənə aşağıdakı hədisi misal göstərə bilərik:

علي بن إبراهيم، عن أبيه ومحمد بن إسماعيل، عن الفضل بن شاذان جميعا، عن حماد بن عيسى، عن ربعي بن عبد الله، عن محمد بن مسلم قال سألت أبا جعفر عليه السلام عن قول الله عز وجل «**مَنْ قَتَلَ نَفْساً بِغَيْرِ نَفْسٍ فَكَأَنَّما قَتَلَ النَّاسَ جَمِيعاً**» قال له **في النار مقعد لو قتل الناس جميعا لم يرد إلا إلى ذلك المقعد.**

Məhəmməd bin Müslüm deyir: "İmam Cəfər Sadiqdən **"kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür"**[503] ayəsi haqqında soruşdum. İmam buyurdu: "İnsanların hamısını və ya onlardan bir nəfəri öldürən cəhənnəmlikdir."[504]

### 3.1.3. Müvəssəq hədis

Müvəssəq sözü "vəsiqa" sözündən olub, lüğətdə "güvənmək", "etimad etmək", "qani olmaq" mənalarındadır.[505] Hədis elmindəki mənası isə "etibarlı olması ilə bərabər, əqidəsində fəsadın olması haqqında da dəlil olan ravinin rəvayət etdiyi hədisə deyilir."[506] Digər bir tərifə görə, "müvəssəq" sənədi İmama çatan, lakin ravilərindən bəzisi imamiyyədən olmayan, amma inanılmış olduqlarına şahidlik verilən hədisdir. Müvəssəqə "qəvi hədis" də deyilir."[507]

Bu təriflərə görə, müvəssəq hədis bütün lazımı xüsusiyyət və sifətləri özündə birləşdirən ravilər tərəfindən nəql olunan hədisdir. Lakin bu lazımı sifətlər içərisində olmayan şey yalnız ravinin on iki imamçı olmamasıdır. Buradan belə başa düşülür ki, imamiyyədən olmayan, lakin ədalət və zəbti haqqında əldə kifayət qədər dəlil olan ravinin nəql etdiyi hədis məqbul hesab edilə bilər. Alimlərimiz bu kimi hədisləri "müvəssəq" və ya "qəvi" adı altında təqdim etmiş və onun

---

[498] Sübhi es-Salih. Hadis ilmleri ve hadis ıstılahları. s. 383-384.
[499] Əllamə əl-Məclisi. Miratül-üqul bi şərhi ali əxbarir-Rəsul (s). 26 cilddə. I c. Darül-kütubil-islamiyyə, s. 108. Hədis № 8.
[500] əl-Müncid. "həsən" maddəsi.
[501] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 60.
[502] İsmail Lütfi Çakan. Hadis usulü. s. 127.
[503] Maidə surəsi, ayə 32.
[504] Əllamə əl-Məclisi. Miratül-üqul bi şərhi ali əxbarir-Rəsul (s). XXIV c. s. 7. Hədis № 6.
[505] əl-Müncid. "vəsəq" maddəsi.
[506] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 47; Məhəmməd bin Məkki əl-Amili. Zikra. s. 4.
[507] Seyid Səid Rəşadi. Hədis elmi. s. 34.

digər səhih hədislərlə ziddiyyət təşkil etmədiyi təqdirdə, səhih hədislər bölümündə yerləşdirmişlər.[508]

Müvəssəq hədisə aşağıdakı rəvayət misal ola bilər:

قال الرضا (ع): **صديق كل امرئ عقله ، وعدوه جهله.**

İmam Rza buyurur: “Hər bir kişinin dostu onun əqli, düşməni isə onun nadanlığıdır.”[509]

### 3.1.4. Zəif hədis

Zəif sözü lüğətdə “zəif”, “gücsüz”, “dayanıqsız” və “qırılğan” mənalarındadır.[510] Hədis elmindəki mənasına gəldikdə isə, bu qrup hədislərə belə tərif verilir: “Səhih, həsən və müvəssəq hədislərin şərtlərini özündə daşımayan hədisə zəif deyilir.”[511]

Bu tərifin təhlili onu göstərir ki, zəif hədis səhih, həsən və müvəssəq hədis növlərinin heç birinin xüsusiyyətlərini daşımadığı üçün belə adlanmışdı. Zəif hədisə bəzən uydurma hədis də deyilmişdir. Lakin zəif hədislə uydurma hədis çox vaxt bir-birlərindən fərqli xüsusuiyyətlərə malikdir.

Zəifə aşağıdakı hədisi misal göstərmək olar:

علي بن محمد، عن سهل بن زياد، عن عمرو بن عثمان، عن مفضل بن صالح، عن سعد بن طريف، عن الأصبغ بن نباتة، عن علي عليه السلام قال: «هبط جبرئيل على آدم (عليه السلام) فقال: يا آدم إني أمرت أن أُخيرك واحدة من ثلاث فاخترها ودع اثنتين.” فقال له آدم: «يا جبرئيل وما الثلاث؟» فقال: «العقل والحياء والدين»، فقال آدم: «إني قد اخترت العقل»، فقال جبرئيل للحياء والدين: «انصرفا ودعاه»، فقالا: «يا جبرئيل إنا أمرنا أن نكون مع العقل حيث كان»، قال: «فشأنكما» وعرج.

İmam Əli buyurur: “Cəbrail Adəmə nazil olub dedi: “Ey Adəm, Mənə əmr olunub ki, sənə gətirdiyim bu üç şeydən birini seçə, ikisini isə tərk edəsən?” Adəm dedi: “Ey Cəbrail, nədir o üç şey?” Cəbrail dedi: “Ağıl, həya və din.” Adəm dedi: “Mən ağılı seçdim.” Cəbrail həya və dinə dedi: “Siz gedin!” Onlar Cəbrailə dedilər: “Ey Cəbrail, bizə ağıl harada olsa, orada olmağımız əmr olunmuşdur.” Cəbrail : “Sizə əmr olunduğunu edin!” deyib göyə qalxdı.”[512]

---

508 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 48; Şeyx Bəhai. Vüsulul-əxyar ilə üsulil-əxbar. s. 97.
509 Əllamə əl-Məclisi. Miratül-üqul bi şərhi ali əxbarir-Rəsul (s). I c. s. 33. Hədis № 4.
510 əl-Müncid. “zəif” maddəsi.
511 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 50; Zeynüddin əl-Amili. ər-Riayə fi ilmid-dirayə. s. 77-86.
512 Əllamə əl-Məclisi. Miratül-üqul bi şərhi ali əxbarir-Rəsul (s). I c. s. 32. Hədis № 2.

## IV FƏSİL

## SƏHİH, HƏSƏN, MÜVƏSSƏQ VƏ ZƏİF HƏDİSLƏR ARASINDA İŞLƏNƏN MÜŞTƏRƏK HƏDİS NÖVLƏRİ

### 1.1. əl-Müsnəd

Sənədi əvvəldən axıradək müttəsil (bitişik) olan və sənədindən heç bir şəxsin düşmədiyi, həmçinin Məsuma və ya qeyrisinə yetişmiş hədisə müsnəd deyilir.[513] Yəni, bu qrup hədislərin sənədində heç bir qopuqluq (natamamlıq) yoxdur və sənədli hədis hesab olunur.

### 1.2. əl-Müttəsil

İsnadı Məsuma və ya digərinə yetişmiş hədisə müttəsil deyilir. İttisal bir isnadı təşkil edən ravilərdən hər birinin öz üstündəki ravini (şeyxi) eşitməsi və ya ondan icazə alması ilə hasil olur.[514]

### 1.3. əl-Mərfu

Məsuma aid edilmiş hədisə mərfu deyilir. Belə hədis Məsum “belə dedi, elə etdi və ya, onun hüzurunda filankəs belə etdi”, şəklində deyilr.[515] Bu hədisə Bəhaəddin əl-Amili (öl. 1622) belə tərif vermişdir: “Peyğəmbərə və ya İmamlardan hər hansı birinə aid edilən - istər müttəsil isnadla rəvayət edilmiş olsun, istərsə də münqəti - qəvli, feli və təqriri hədis mərfudur.”[516]

Mərfu hədisi geniş izah edən Cəfər Sübhani yazır: “Mərfu hədisin iki terminoloji mənası vardır:

**1) Məsuma aid edilmiş olsun.** Belə ki, Məsum “belə dedi, belə etdi və ya onun hüzurunda filankəs belə etdi və o, onu inkar etmədi və ya hüzurunda olan hərəkətə izn verdi”, şəklində nəql olunmuş olsun.

**2) Münqəti (kəsik) isnadla Məsuma aid edilmiş olsun.** Şeyx Bəhaəddin əl-Amili demişdi: “Bil ki, ravinin Peyğəmbərə və ya İmamlardan birinə mərfu olaraq nisbət verdiyi hədis münqəti, mürsəl və ya müəlləq olsa da, mərfudur.”[517]

### 1.4. əl-Məvquf

Məvquf Məsumun səhabəsinə aid edilən hədisdir.[518] Deməli, sənədi Məsumun səhabəsinə yetişən hər hansı bir hədis - istər o hədis isnadlı olsun, istərsə də isnadsız - məvquf olacaqdır. Məsələn, rəvayət olunsa ki, İbn Abbas və ya Salman Farsi belə etdi, belə dedi və ya, belə qərar verdi, bu məvquf hədisdir.

### 4. 5. əl-Məqtu

Məqtu lüğətdə “kəsilmiş” deməkdir. Hədis elmindəki mənası isə “Peyğəmbərin səhabəsinin səhabəsinə aid edilən söz, yəni, tabeidən gələn rəvayət məqtu hədisdir.”[519]

Məqtu hədislər zəif hədislər qrupunda yer alır.[520] Çünki məqtu tabeiyə aid olan bir hədis növüdür və təbii ki, tabei Məsumu görməyən bir şəxs olduğundan onun sözü məqbul hesab edilmir və dində dəlil sayılmır.

### 4.6. əl-Muanan

Sənədində “an” kəlməsi (ön qoşması) olan hədisə Muanan deyilir.[521]

---

[513] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 65.
[514] Həmin mənbə, s. 66.
[515] Həmin mənbə. s. 66-67.
[516] Həmin mənbə. s. 67.
[517] Həmin mənbə. s. 68.
[518] Həmin mənbə. s. 67.
[519] Həmin mənbə. s. 102-103.
[520] Həmin mənbə. s. 68.

Muanan hədisin tərifindən belə bəlli olur ki, bu qrup hədislərin sənədində “an” (dan²) ön qoşması işlədilmiş olsun. Deməli, bu hədis “ananə” yolu ilə rəvayət edilir. Hədis alimləri muanan hədisdə bir neçə şərt olarsa, onun müttəsil hədis kimi qəbul olunacağını deyirlər. Belə ki, məşhur alimlərdən olmuş Şəhid əs-Sani yazırdı: “Muanan hədis iki şərt vasitəsi ilə müttəsil olar:

**1) Ravinin rəvayəti aldığı şəxslə görüşməsi** (görüş mümkün olduqda).

**2) Tədlisdən salim olması.**

Əgər rəvayətdə tədlis olarsa, görüş kifayət deyil, çünki tədlis muanan hədisdə ittisalı aradan aparır.[522]

## 4.7. əl-Müəlləq

Müəlləq “asılmış” mənasındadır. Hədis elmindəki mənası isə isnadının əvvəlindən bir və ya bir çox ravinin düşməsi ilə ortalığa çıxan hədisdir.[523] Məsələn, Şeyx Tusi (998-1067) Küleynidən (876-941) rəvayət edərək deyir: “Məhəmməd bin Yəqub - Əli bin İbrahim - atasından...” Məlumdur ki, Şeyx Tusi Küleynidən vasitəsiz rəvayət edə bilməz. Gərək o belə sənədlə rəvayət edəydi: “Şeyx Müfid - Cəfər bin Quləveyh - Küleynidən.” Bu misaldan göründüyü kimi, Şeyx Tusinin birbaşa Küleynidən rəvayət etməsi nəticəsində meydana gələn hədis müəlləq olmuşdur. Çünki Şeyx Tusi gərək hədisi Şeyx Müfiddən, o da İbn Quləveyhdən, o da Küleynidən rəvayət edəydi.

Həqiqətən Şeyx Tusinin “Təhzib” və “əl-İstibsar” əsərlərində rəvayətlərin böyük bir qismi müəlləq rəvayətlərdən ibarətdir. Həmçinin Şeyx Səduqun “əl-Fəqih” əsərində də belədir. Çünki onların ikisi də rəvayətləri üsul və kitablardan əldə etmişlər. Buna görə də hədisin sənədinin əvvəlində ikidən çox ravi düşmüşdür.[524]

Müəlləq hədisin sənədində qopuqluğun (natamamlığın) olması təriflərdən aydındır. Belə olan halda “bu hədislər səhihlik baxımdan necədir?” - sualı ortaya çıxır. Buna cavab olaraq alimlər deyirlər: “Əgər hifz olunduğu (yəni hədisi nəql edən ravilər məlumdursa) bilinərsə, müəlləq səhihlikdən çıxmır. Deməli, o etibarlıdır. Yox əgər hifz olunması (rəvayət edənlər) bilinməzsə, zəif olması ortaya çıxır.”[525]

Müəlləq hədislər Küleyninin “əl-Kafi” əsərində olduqca azdır. Çünki o, bütünlükdə sənədi qeyd etməyə səy göstərmişdi.[526]

## 4.8. əl-Müfrəd

Ravisi bir nəfər və yaxud da bir şəhərin əhalisi olan hədis Müfrəddir.[527] Buna misal xəlifə Əbu Bəkrin rəvayət etdiyi hədisi göstərmək olar. O, demişdir: “Biz peyğəmbərlər, dinar və dirhəm miras qoymarıq, miras qoyduqlarımız sədəqədir.” Hədisdə Əbu Bəkr tək qalmışdır. Çünki hədisi ondan başqa heç kəs rəvayət etməmişdir.[528]

## 4.9. əl-Məşhur

Məşhur “şöhrət” sözündəndir. Hədis elmindəki mənası isə hədisşünasların yanında yayğın olan, onlardan daha çox rəvayət edilən və həmçinin bütün kitablarda və çoxlu ravilər tərəfindən rəvayət olunan hədisdir.[529]

Məşhur hədis adından da göründüyü kimi, bu qrup hədislər həm hədisşünaslar, həm fəqihlər, həm təfsirçilər yanında şöhrət tapmış hədislərdir. Cəfər Sübhani bu haqda yazır: “Əgər

---

[521] Həmin mənbə.
[522] Şəhid əs-Sani. ər-Riayə fi ilmid-dirayə. s. 99.
[523] Cəfər əs-Sübhani. Üsulu-hədis və əhkamuhu. s. 69; İsmail Lütfi Çakan. Hadis usulü. s. 135.
[524] Cəfər əs-Sübhani. Üsulu-hədis və əhkamuhu. s. 70.
[525] Həmin mənbə.
[526] Küleyni. əl-Kafi. II c. s. 96. Hədis № 16-17.
[527] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 71; Seyid Səid Rəşadi. Hədis elmi. s. 35.
[528] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 71.
[529] Həmin mənbə. s. 72-73; Seyid Səid Rəşadi. Hədis elmi. s. 35.

hədisşünaslardan başqasının yanında hədis məşhur olarsa, onun əsli yoxdur və o zəif qrupuna daxil olur."[530]

Məşhur hədisin səhihliyinə gəldikdə bu qrup hədislər səhih, həsən və ya zəif ola bilər.

### 4.10. Müttəfəq əleyhi

Hədisşünaslara görə, əgər İmamların səhabələri bir rəvayəti İmam Sadiq və ya İmam Baqirdən rəvayət etsələr, Zürarə bin Əyun, Məhəmməd bin Müslüm, Bərid bin Müaviyə və ya onlar kimilərin həmin rəvayəti "rəvayətül-füzəla" və ya, "müttəfəqun əleyhi", yaxud da, İmam Sadiqin əshabı arasında "müttəfəq əleyhidir", - deyə adlanır.[531]

Digər mənbələrə görə isə, "Əgər bir hədis üzərində iki hədisşünas ittifaq edərsə, o hədis "müttəfəqun aleyhi" adlanır. Neə ki, Buxari və Müslim bir rəvayət üzərində ittifaq ediblər. Həmçinin üç nəfərin ittifaq etməsi, məsələn, onlar birlikdə Nəsai, yaxud Tirmizi hədisin nəqlində ittifaq edərsə, həmin hədis "müttəfəqun aleyhi" adlanır."[532]

Nuri yazır: "Əgər bir hədis haqqında deyilsə ki, müttəfəqun aleyhiyə görə səhihdir, burada məqsəd iki şeyxdir (yəni, Buxarı və Müslim).[533]

### 4.11. əl-Müsəhhəf

Müsəhhəf "dəyişdirmək" mənasındadır. Həmçinin "kəlməni yanlış oxumaq" mənasında da işlədilir. Hədis elmindəki mənası isə, mətn və ya isnadında bir kəlməsi və ya ravilərindən birinin adı xətalı olaraq söylənmiş və bu xəta ilə rəvayət edilmiş hədisdir.[534]

Təshif (müsəhhəflik - xəta oxunuş və ya yazılış) bəzən hədisin sənədində, bəzən isə mətnində ola bilər. Belə ki, mətndəki və ya isnaddakı bir kəlmənin şəkil və xətt yönündən dəyişmədən yalnız bəzi hərflərindəki nöqtələrin dəyişməsi ilə ortalığa çıxan bir hədis növüdür. Buna aşağıdakı sözləri misal göstərmək olar:

بريد "يزيد" kimi, حريز "جرير" kimi, مراجيم "مزاحيم" kimi təshif olunub (yanlış oxunub). Təshif özünü isnadda daha çox göstərir. Şəhid Sani yazırdı: "Əllamə rical kitablarında çoxlu isimləri təshif etmişdir. Hər kəs istəyirsə onun "əl-Xülasə" əsərini mütaliə etsin. Həmçinin onun "İzahül-iştibah fi əsmair-rüvvat" əsərini də oxumaq faydalı olar. Bu iki əsər arasındakı ixtilaflara baxsın. Şeyx Təqyüddin bin Davud onlardan çoxunu bəyan etmişdir."[535]

Həmçinin təshif bəzən mətndə də olur. Buna misal, aşağıdakı hədis göstərilir:

من صام رمضان و اتبعه ستا من شول.

"Hər kəs ramazanı oruc tutsa və ona altı gün şəvvaldan əlavə etsə..."

Bu hədisdə keçən "sittən- ستا" sözü, bəzən "şeyən- شيا" kimi oxunmuşdur.[536]

### 4.12. əş-Şazz

Məşhur hədisin əksinə nəql olunan hədis şazz adlanır.[537]

Şazz sözü lüğətdə "tək olmaq", "naqis olmaq" və s. mənalarda işlədilir. Terminoloji mənasından da göründüyü kimi, məşhur hədisə zidd olaraq rəvayət edilən və bu rəvayətində də tək qalan hədisdir.[538] Ən çox qəbul edilən görüş budur ki, şazz hədis məhfuzdur (daha məqbul olan ravinin rəvayəti), bu əgər ravi etibarlı olarsa, belədir, yox əgər ravi etibarlı olmazsa, o hədis münkər olur.

---

[530] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 72-73.
[531] Həmin mənbə. s. 76-77.
[532] Həmin mənbə, s. 76.
[533] Həmin mənbə, s. 76; ən-Nuri. ət-Təqrib vət-təysir. I c. s. 104.
[534] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 77.
[535] ər-Riayə fi ilmid-dirayə. s. 109-110.
[536] Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 77.
[537] Həmin mənbə. s. 81; Seyid Səid Rəşadi. Hədis elmi. s. 35.
[538] İsmail Lütfi Çakan. Hadis usulü. s. 143.

Şazz hədisin qəbul olunması haqqında, müxtəlif görüşlər vardır. Onlardan bəzilərinə görə, əgər ravi etibarlı olarsa, qəbul edilər, bu şərtlə ki, qaydalar çərçivəsində gözdən keçirilsin.[539]

Bəziləri isə şazz hədisi əksikliyinə görə rədd etmişlər. Güclü görüş budur ki, o, səhihliyinə görə məşhurdan ayrıdır.

Şazz hədis haqqında olan təriflər onu göstərir ki, bu qrup hədislər haqqında iki görüş vardır ki, o görüşün biri şazz hədisi məqbul, digəri isə qeyri-məqbul hesab edir. Hər iki görüşü mülahizə edən Cəfər Sübhani yazır: "Seçim budur ki, həqiqətən şazz məşhurun əksidir. Onunla qədimdə höccət olmayaraq fətva veriblər. Bu səhih olan hədisə aiddir. Biz bəyan edirik ki, şazz hədis məqbuldur. Ömər bin Hənzələ və başqalarının təriqi ilə gələrsə, mütləq qəbul olunur. Şüzuz səhihliyə mənfi təsir göstərmir, onun mənfiliyi höccətədir (yəni, şazz hədis məqbuldur səhih olduqda, amma höccət deyil)."[540]

## 4.13. əl-Müsəlsəl

Sənədindəki ravilərin hamısı eyni hala və eyni sifətlərə malik olan və raviləri həmin əlamətlərlə digərlərindən ayırd edilən hədisə müsəlsəl deyilir.[541]

Müsəlsəl özünü bəzən ravidə, bəzən də rəvayətdə göstərə bilər. Bunu izah edən Cəfər Sübhani yazır: "Raviyə gəldikdə, bu, onlardan hər birinin rəvayət zamanı ayaqda olmaları, yaxud yeriməlri, yaxud oturmaları və yaxud da bunun kimi olmalarıdır." Buradan belə başa düşülür ki, bir ravi hədisi digər ravidən hansı formada alıbsa, sonrakı ravi də o hədisi o ravidən o formada almış olsun və bu iş sənədin sonunadək bu formada da davam etsin.

Rəvayətdə olan təsəlsülə gəldikdə, bu bütün sənəddə əda forması eyni olan hədisdir və "filankəsdən eşitdim və ya filankəs mənə xəbər verdi", formasında deyilir.[542] Bu o deməkdir ki, rəvayətin sifətində "samitu" və ya "əxbərəni" və s. bu kimi rəvayət formaları verilir. Bu hədisə Cəfər Sübhani Şeyx Səduqun "əl-Xisal" əsərindəki hədisi misal çəkir: "İmam Rza dedi: "**həddəsəni əbi"**: Musa bin Cəfər dedi: "**həddəsəni əbi"**: Cəfər bin Məhəmməd dedi: "**həddəsəni əbi"**: Məhəmməd bin İmam Əli dedi: "**həddəsəni əbi"**: Əli bin Hüseyn dedi: "**həddəsəni əbi"**: Hüseyn bin İmam Əli dedi: "**həddəsəni əxi"**: Həsən bin İmam Əli dedi: "**həddəsəni əbi"**: Əli bin Əbi Talib dedi: "Peyğəmbər dedi: "Mən və Əli eyni nurdan yaradılmışıq."[543]

Bu hədisdən bir daha məlum olur ki, hədisin sənədində əda formalarının hamısı birdir və müsəlsəldir.

## 4.14. əl-Məzid

Mətnində və ya sənədində artıqlıq (artıq kəlmə) olan hədisə məzid deyilir.[544]

Bu tərifdən dəbaşa düşüldüyü kimi, məzid sözü artıq olan mənasını ifadə edir və hədis elmində də hədisin mətn və ya sənədində ravilər tərəfindən hədisə əlavə edilməsidir. Amma mətnə olunan bu əlavə mətnin ümumi mənası ilə ziddiyyət təşkil etməməli, əksinə, onun məna axınına uyğun olmalıdır. Həmçinin sənədə əlavə olunan ravi də hədisin sənədində olan ravilər tərəfindən tanınan olsun. Əlbəttə ki, bu məzid hədisin şərtlərindən deyildir.

Məzid hədis məqbuldur. Bu barədə Cəfər Sübhani yazır: "Mətndə olan artıqlığa (ziyadəyə) gəldikdə o məqbuldur, bu şərtlə ki, artıqlıq etibarlı ravilər tərəfindən baş vermiş olsun."[545]

---

[539] Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 81.
[540] Həmin mənbə. s. 82.
[541] Həmin mənbə.
[542] Həmin mənbə.
[543] Şeyx əs-Səduq. əl-Xisal. s. 31.
[544] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 84.
[545] Həmin mənbə. s. 84; Zeynüddin əl-Amili. ər-Riayə fi ilmid-dirayə. s. 111.

## 4.15. ən-Nasix və əl-Mənsux

Nəsx lüğətdə “silmək”, “aradan aparmaq”, “hökmünü qaldırmaq”, “batil etmək”, “pozmaq” və s. bu kimi mənalarda işlədilir.[546] Terminoloji mənada isə, nəsx “keçmiş hökmü qaldırmaq, onun yerinə isə digər bir hökmü qoymaqdır.”[547] Bu barədə “Şərhu məalimüd-din” əsərində yazılıb: “Nəsxin caiz olmasında heç bir şəkk-şübhə yoxdur. Belə ki, şəriətin sahibi bir hökmün icrasına hökm edir, sonra isə onun faydasına və daha yaxşı olanına görə o hökmü ortadan qaldırır. Necə ki, Uca Allahın ayəsində: **“Üzünü Məscidül-harama çevir”**, - deyə buyurmuşdur. Həqiqətən bu ayə namazın Beytülmüqəddəsə qılınmasını nəsx etmişdir.”[548]

Deməli, bu təriflər onu göstərir ki, nəsx dedikdə, Allahın və ya onun Peyğəmbərinin bir hökmü yerinə yetirməyin vacib, daha sonra isə o hökmü batil edərək yerinə başqa bir hökmün qoyulmasının mümkünlüyü nəzərdə tutulur. Nəsx mövzusu təkcə hədis elmində deyil, eyni zamanda, da təfsir elmində öz əksini tapmışdır. Belə ki, Quran belə bəyan edir: **“Biz hər hansı bir ayənin hökmünü ləğv edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud da ona bənzərini gətiririk.”**[549] Buradan bir daha aydın olur ki, nəsx əbəs bir mövzu olmayıb, Quran və hədisdə öz əksini tapmış və çox mühüm bir mövzu olaraq dəyərləndirilir.

Alimlərə görə, Quranın Quranla və hədisin də hədislə nəsx olunması mümkündür. Lakin xəbəri-vahidin nəsx etməsi məsələsi ixtilaflıdır.

Əhli-beytin hədislərində bunların (nəsxin) mümkünlüyü haqqında xəbərlər vardır. Belə ki, Məhəmməd bin Müslüm İmam Sadiqdən nəqlən deyir: “Ona dedim: “yalançılıqda ittiham olunmayan bir qrup vardır ki, onlar Peyğəmbərdən hədis deyirlər və sizin də ona zidd olan hədislərinizi rəvayət edirlər?” O, dedi: “Həqiqətən Quran nəsx etdiyi kimi hədis də nəsx edir.”[550]

Həmçinin Məhəmməd bin Mənsur bin Hazimdən rəvayət olunur ki, demişdir: “İmam Sadiqə dedim: “Məhəmmədin səhabələrindən mənə xəbər verdilər, onlar doğru danışır, yoxsa yalan?” O, dedi: “Bəlkə də doğru.” Mən dedim: “Onların ixtilaflarının səbəbi nədir?” İmam buyurdu: “Bilirsənmi, insanlar Peyğəmbərin yanına gəlib ondan bir məsələ barəsində soruşurlar və Peyğəmbər də onlara cavab verirdi. Sonra o cavabı nəsx edən hədis deyirdi. Beləliklə, hədislərin bəzisi bəzisini nəsx edirdi.”[551]

Cəfər Sübhani burada incə bir məsələyə toxunaraq yazır: “İmamlardan gələn sonrakı hədis nəsx edən deyildir. Bəlkə bu hədislər Peyğəmbərin dilindən nəql edillmiş nəsx edən hədislərin üzə çıxmasıdır. Səbəbi isə Peyğəmbərdən sonra vəhyin kəsilməsidir.”[552]

Müəllifin bu sözündən məlum olur ki, İmamlar Peyğəmbərin sözünü nəsx edə bilməzlər. Onların nəsx etməsi vaxtı ilə Peyğəmbər tərəfindən nəsx ediləcəyi zamana görə ortaya çıxacaq şeylərin onların dili ilə elan olunmasıdır.

## 4.16. əl-Məqbul

Əshabın hamısı tərəfindən qəbul edilən və məzmununa inanılan hədisə məqbul deyilir.[553]

Məqbul hədisin tərifindən də belə məlum olur ki, bu növ hədislər müsəlman alimləri tərəfindən hədislərin səhihlik baxımından hansı növündə olmasına baxmayaraq, məqbul hesab edilmiş və onun ehtiva etdiyi mənalara əməl edilmişdir. Cəfər Sübhani yazır: “Məqbul növ hədislər səhih deyil, digər hədislər növünə məxsusdur. Çünki səhih məqbul və qeyri-məqbul qismlərinə ayrılmır, o çoxluğun nəzərinə görə, mütləq məqbul hesab edilmişdir. Yaxud da “şazz” olmadığından təhqiq edilməmiş və onda da problem (illət) yoxdur. Zəifə gəldikdə isə, o məqbul və

---

[546] əl-Müncid. “nəsx” maddəsi.
[547] Cəfər əs-Sübhani. Ülumul-hədis və əhkamuhu. s. 87.
[548] əl-Etimadi. Məalim. s. 340.
[549] Bəqərə surəsi, ayə 106.
[550] Küleyni. əl-Kafi. I c. s. 56.
[551] Həmin mənbə. I c. s. 56.
[552] Cəfər əs-Sübhani. Ülumul-hədis və əhkamuhu. s. 88.
[553] Həmin mənbə. s. 89.

qeyri-məqbul qruplarına ayrılır. Deməli, onu səhih və digərləri arasında müştərək qruplardan hesab etmək mümkündür."[554]

Məqbula ən aydın dəlil aşağıdakı hədis hesab olunur. Bu hədis Ömər bin Hənzələnin hədisidir ki, alimlərin hamısı, o cümlədən, Şeyx Küleyni, Şeyx Səduq və Şeyx Tusi onu rəvayət etmişlər və onların rəvayətləri öz məşhur əsərlərində yer almışdır. Onun sənədi belədir: "Məhəmməd bin Yəqub – Məhəmməd bin Yəhya – Məhəmməd bin Hüseyn – Məhəmməd bin İsa - Səfvan bin Yəhya - Davud bin Həsin - Ömər bin Hənzələdən rəvayət edir: "Əbu Abdullahdan sual etdim ki, əshabımızdan iki kişi borc və miras haqqında bir-biri ilə mübahisə edirlər, onların sultan və qazının yanına getmələri halaldırmı?..."[555]

Hədisşünaslar bu hədisi qəbul etmiş və "Qəza" fəslində onu qeyd etmişlər. Hədisin rəvayət yolunda üç şəxs vardır:

1. Məhəmməd bin İsa əl-Yəqtini. Bu şəxsi İbn Vəlid "İstisna" əsərində 27 nadir şəxslər içərisində zəif bilmişdir. Lakin onun etibarlı olması sübuta yetmişdir. Nəcaşi "ər-Rical" əsərində Əbülabbasdan nəqlən deyir: "İbn Vəlid "İstisna" əsərində yalnız Məhəmməd bin İsa haqqında dediklərindən başqa hər şeyi doğru demişdir."

2. Davud bin Həsin. O, kufəlidir və etibarlıdir. Onu Şəhid əs-Sani "ər-Rivayə fi ilmid-dirayə" əsərində zəif bilmişdir.[556]

3. Ömər bin Hənzələ. Hədisşünaslar bu şəxsin haqqında nə cərh, nə də tədil etmişlər. Şəhid deyir: "Mənim nəzərimə görə o, münasibdir. Mən onun etibarlı olmasını sübut etmişəm."[557]

Məqbul hədisin tərifindən aydın olur ki, əgər bir hədisin ravisi haqqında tədil və ya cərh hökmü sabit olmayıbsa, o hədis məqbul hesab edilir. Biz burada Ömər bin Hənzələnin hədisini qeyd etdik. Ömər bin Hənzələ o şəxslərdəndir ki, haqqında "cərh" və "tədil" sabit olmamış, lakin alimlər tərəfindən məruf bir insan hesab edilmişdir. Bundan əlavə, onun haqqında İmam Sadiqin hədisi də məşhurdur. Belə ki, Küleyni "əl-Kafi" adlı əsərində Əli bin İbrahim – Məhəmməd bin İsa – Yunus - Yezid bin Xəlifə vasitəsi ilə rəvayət edir: "İmam Sadiqə dedim: "Ömər bin Hənzələ bəzən səndən bizə hədis deyir." Həzrət buyurdu: "Bizə yalan isnad etməsə, (qəbul edin)."[558]

### 4.17. əl-Mötəbər

Səhihliyi, yaxud həsən olması və yaxud da müvəssəq olması məlum olan hədis mötəbər adlanır.[559] Bu tərifə görə, mötəbər etibarlı hədisdir və səhih, həsən və ya müvəssəq hədis növlərindən birinə daxildir.

### 4.18. əl-Mükatəb

"Məsumun kitabından rəvayət edilən hədisə mükatəb deyilir."[560]

Deməli, bu tərif onu göstərir ki, əgər bir hədis Məsumun hər hansı bir əsərindən və yaxud da kitabından nəql olunursa, o mükatəb hədis olacaqdır. Burada o kitabın Məsum və ya qeyriləri tərəfindən yazılıb-yazılmamasının heç bir fərqi yoxdur.

### 4.19. əl-Möhkəm

Möhkəm lüğətdə "güclü", "sağlam", "dayanıqlı", "mükəmməl", "qüsursuz" və s. bu kimi mənalarda işlənir.[561] Hədis elmindəki mənası isə "zahirindən mənası bəlli olan, əlamətlərlə əlaqədar olmayan, izahına ehtiyac duyulmayan hədisdir."[562]

---

[554] Həmin mənbə.
[555] Həmin mənbə. s. 89; Hürr əl-Amili. Vəsailüş-şiə. XIII c. s. 98. Bab-9. Hədis № 1.
[556] Şəhid əs-Sani. ər-Rivayə fi ilmid-dirayə. s. 131.
[557] Cəfər əs-Sübhani. Ülumul-hədis və əhkamuhu. s. 90.
[558] Həmin mənbə. s. 91; Küleyni. əl-Kafi. III c. "Vəqt salatiz-zöhr vəl-əsr" babı. Hədis № 1.
[559] Cəfər əs-Sübhani. Ülumul-hədis və əhkamuhu. s. 91.
[560] Həmin mənbə. s. 92.
[561] əl-Müncid. "hökm" maddəsi.
[562] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 92.

Tərifdən də aydın olduğu kimi, möhkəm hədis məna baxımdan heç bir şübhəli və çətin başa düşülən ifadələrlə əlaqəsi olmayan hədisdir. Yəni hər hansı bir hədisdə izaha ehtiyac olmayan, açıq-aşkar mənaya dəlalət edən, hər növ tərəddüd və şübhələrdən uzaq olan hədis möhkəmdir.

## 4.20. əl-Mütəşabeh

Mütəşabeh lüğətdə "bir-birinə oxşayan", "mənası qapalı", "açıq olmamaq" və s. bu kimi mənalarda işlədilir. Hədis elmindəki mənasına gəldikdə isə, hədisşünaslar onu belə tərif etmişlər: "Mütəşabeh həm mətndə, həm də sənəddə olur. Mətndə olan mütəşabehlik budur ki, onun əlamət və dəlilləri olsa da, mənası qeyri-aydın olsun. Sənəddə olan mütəşabehlik isə sənəddə yer alan ravilərin adlarını həm yazı, həm də nitq (deyiliş) baxımdan eyni olmasıdır."[563]

Sənəddə olan mütəşabehlik isə rəvayət zəncirində olan ravilərin adlarının və ya atalarının yazılış və deyiliş baxımdan eyni olmasıdır. Sənəddə olan mütəşabehlik mətndə olan mütəşabehlikdən fərqlənir. Belə ki, mətndə olan mütəşabehlik mənanın başa düşülməsi və dərk edilməsi problemidirsə, sənəddə olan mütəşabehlik isə adın necə oxunmasıdır. Çünki bəzi adlar bir-birinə oxşadıqlarına görə, onları necə oxumaq məsələsi çətinləşir. Buna misal aşağıdakı adları göstərmək olar:

**محمد بن عقيل** adının oxunması müxtəlif formalarda özünü göstərir. Belə ki, əgər "ayn" hərfi fəthəli oxunarsa, Nişapurinin adı, yox əgər "dammalı" oxunarsa, Fəryabinin adı olacaqdır. Həmçinin mütəşabehlik özünü ravinin baba adında və ya ləqəbində də göstərə bilər. Belə ki, buna misal **احمد بن محمد بن خالد** və **احمد بن محمد بن عسى** göstərmək olar. Bu adların birincisi əl-Bərqinin adıdır və o, hicri 274-cü ildə vəfat etmişdir. İkinci ad isə əl-Əşərinin adıdır ki, o, qumluların rəisi olmuşdur.

Ləqəbdə olan mütəşabehliyə isə **احمد بن محمد بن عسى الاسدي** ilə **احمد بن محمد بن عسى القسري** ləqəblərini göstərmək olar.[564]

---
[563] Həmin mənbə. s. 92.
[564] Həmin mənbə. s. 92.

## VI FƏSİL

## ZƏİF HƏDİSLƏRƏ MƏXSUS TERMİNLƏR

### 6.1. Sənədindəki natamamlığa (qopuqluğa) görə zəif hədislər

#### 1. əl-Mürsəl

Mürsəl rabitəsi qırılmış və sənəddəki ravilərin bəzisini bəzisinə bağlayan ravinin düşməsi nətincəsində meydana gələn hədisdir. Şəhid Sani yazırdı: "Məsumu görməyən - istər tabeidən olsun istərsə qeyri təbəqədən, kiçik olsun yaxud böyük, bir ravi düşsün yaxud çox – şəxsin nəql etdiyi hədis mürsəldir. Həmçinin tabeinin vasitə olmadan birbaşa Peyğəmbərdən rəvayət etdiyi hədis mürsəldir."[565]

Mürsəl hədisin qəbul edilib-edilməməsi məzhəblər arasında ixtilaflıdır. Şeyx Mustafa əl-Etimadi yazırdı: "Əllamə Mütəhhər əl-Hilli (1250-1325) demişdir: "Mürsələ əməl etmək qadağandır, amma ravinin səhabələr və alimlər içərisində ədaləti tanınmış olarsa, bu, istisnadır. Buna misal Məhəmməd bin Əbi Ümeyrin mürsəlini göstərmək olar. Belə ki, o, imamiyyədən olub və tanınmış bir zatdır."

Həmçinin Şeyx Tusi demişdir: "Əgər ravi əshab içərisində tanınmışsa, onun yalnız etibarlı ravilərdən nəql etməsi məlumdursa, sənəddə qopuqluq və mübhəmlik olsa da, rəvayət məqbuldur. Həmçinin ravi əshab içərisində tanınmış olmasa da, rəvayəti məqbuldur, amma bunun şərti vardır. O şərti budur ki, ona əks çıxan (müarazə) olmasın. Belə olduqda o səhihdir və ona əməl olunur."[566]

Qeyd olunan təriflər onu göstərir ki, mürsəl hədis sənədində qopuqluq olan, yəni sənəddə yer almış ravilərin birinin və ya bir neçəsinin düşməsi yolu ilə nəql olunan hədis növüdür.

Mürsəl hədisin qəbul olunub-olunmaması və ya höccət (dəlil) olub-olmaması ixtilaflıdır. Bu məsələyə toxunan Cəfər Sübhani yazır: "Mürsəlin höccət olub-olmaması haqında aşağıdakı müxtəlif görüşlər vardır:

**1. Mütləq məqbuldur.** Bunu Məhəmməd bin Xalid əl-Bərqiyə (öl. 835) nisbət verirlər. O, "əl-Məhasin" əsərinin müəllifi Əhmədin atasıdır. Ehtimal ki, bu nisbət ikinciyədir, çünki birinci İmam Rza və İmam Cavadı görmüşdür. Əhməd əl-Bərqi 874 və ya 880-cı ildə vəfat etmişdir.

**2. Məqbul deyildir.** Bu Əllamə Mütəhhər əl-Hillinin (1250-1325) görüşüdür ki, onu "Təhzibül-üsul" əsərində qeyd etmişdir.

**3. Məqbuldur.** Əgər ravi bilsə ki, o, mürsəl olaraq rəvayət etmək məqsədində deyil, bu zaman məqbuldur. Bu şərtlə ki, vasitə ədalətli olsun. Məsələn, Əbu Ümeyrin mürsəlləri kimi. Bu əl-Qumminin görüşüdür.

**4. Əgər ravi bilsə ki, o yalnız etibarlı olan kimsədən rəvayət edir, onun rəvayəti məqbuldur.** Bu şərtlə ki, onun müxalifi və ona etiraz edən olmasın və bu səhih sənədlərlə mümkündür. Bu isə Şeyx Tusinin görüşüdür.

**5. ət-Təvəqqüf.** Yəni mürsəl hədisin üzərində dayanılır və ya tərəddüd edilər.[567]

Hədisşünaslar mürsəl hədisi məqbul bilmişlər. Məşhur görüş də budur. Çünki sənəddəki vasitənin düşməsi, yəni qopuqluğun əmələ gəlməsi elmi yolla araşdırılır. Necə ki, Şeyx Səduq "əl-Fəqih" əsərində çoxlu sayda mürsəl hədis nəql etmiş və belə onları belə rəvayət etmişdir: "İmam Sadiq demişdi."[568]

#### 2. əl-Münqəti

[565] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 107; Zeynüddin əl-Amili. ər-Riayə fi ilmid-dirayə. s. 136.
[566] Şeyx Mustafa əl-Etimadi. Şərhu məalimid-din. s. 335-336.
[567] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 107-108.
[568] Mirzə əl-Qummi. Qəvaninül-üsul. I c. s. 478; ən-Nuri. Müstədrəkül-vəsail. III c. s. 718.

İsnadı müttəsil olmayan hədisə Münqəti deyilir. Bu Nurinin, Xətibin və İbn Əbdülbirrin də görüşüdür.[569] Həmçinin münqəti hədis ətbaüt-tabeidən olan bir şəxsin tabeinin adını qeyd etmədən birbaşa səhabədən nəql etdiyi hədis kimi də tərif edilmişdir.[570] Buna misal olaraq Malik bin Ənəsin (712-795) Abdullah bin Ömərdən (614-693) rəvayət etdiyi hədisləri göstərirlər. Çünki Malik ətbaüt-tabeidən olub Abdullah bin Öməri görməmişdir. Həmçinin tabeidən əvvəl bir ravinin düşməsi və yaxud da sənəddə mübhəm bir şəxsin adının olması da münqəti hədisdir.[571]

### 3. əl-Mudal

Sənədində birdən çox ravisi düşmüş hədisə mudal deyilir. Çünki mudal qarışıq və qapalı olan mənasındadır.[572] Mudalın digər bir tərifi isə belədir: "Sənədinin əvvəlində, ortasında və yaxud da sonunda iki və daha çox ravinin düşdüyü hədisdir." Bu hədis Bəhaəddin Amilinin (1546-1622) atasının tərifidir.[573] Lakin Bəhaəddin Amili isə bu növ hədisi belə tərif etmişdir: "Sənədinin ortasında bir ravi düşərsə münqəti, çox ravi düşərsə, o hədis mudaldır."[574]

## 6.2. Ravidəki "cərh"in olmasına görə zəif hədislər

Məlumdur ki, ravidə "mətainu əşərə" (on pis söz) deyə məşhur olan sözlərdən biri və ya bir neçəsi olarsa, o ravinin rəvayət etdiyi hədis zəif olacaqdır. Bu qrupa aid olan hədis növləri aşağıdakılardır:

### 1. əl-Mövzu

Yalan, uydurulmuş və qondarma hədisə mövzu deyilir.[575] Bu növ hədislər əslində hədis deyildir. Onlar, sadəcə olaraq, Məsumların adlarına uydurulmuş sözlərdir. Zəif hədislər içərisində ən aşağı yeri mövzu hədislər tutur. Çünki bu növ hədislərin Məsumun hədisləri ilə heç bir əlaqəsi olmayıb, yalnız bir qrup yalançı ravilər tərəfindən uydurulmuşdur.

### 2. əl-Mətruk

Ravisi yalançılıqda ittiham olunan hədisə mətruk deyilir.[576]

### 3. əl-Münkər

Münkər inkar edilmiş mənasındadır. Hədis elmində bir nəfər və etibarsız ravidən nəql olunan hədisə deyilir.[577] Tərifdən də aydın olur ki, bu növ hədislərin raviləri etibarlı olmadığından və həmçinin etibarlı bir raviyə zidd olaraq rəvayət edildiyindən o rəvayət rədd edilmişdir. Böyük Azərbaycan hədisşünası Əbu Bəkr Əhməd bin Harun əl-Bərdici (844-914) bu növ hədis haqqında demişdir: "Təkcə ravisindən gələn isnaddan başqa, hər hansı bir yolla mətni məruf olmayan hədisdir."[578]

### 4. əl-Müəlləl

Mətnində və sənədində gizli anlaşmazlıq olan hədisə müəlləl deyilir.[579]

### 5. əl-Mühməl

---

569 Cəfər əs-Sübhani. Üsuli hədis və əhkamuhu. s. 103.
570 Həmin mənbə. s. 103.
571 Həmin mənbə.
572 Şəhid Sani. ər-Riayə fi ilmid-dirayə. s. 137.
573 Hüseyn bin Əbdüssəməd. Vüsulul-əxyar ilə üsulil-əxbar. s. 108.
574 Bəhaəddin əl-Amili. əl-Vəcizə. s. 3.
575 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 119; ən-Nuri. ət-Təqrib vət-təysir. I c. s. 231.
576 Cəfər əs-Sübhani. Ülumul-hədis və əhkamuhu. s. 95.
577 Seyid Səid Rəşadi. Hədis elmi. s. 35.
578 Sübhi es-Salih. Hadis ilmleri ve hadis ıstılahları. s. 164.
579 Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 114.

Mühməl hərfən “göz önünə alınmayan”, “hesaba qatılmayan” mənasındadır. Hədis elmindəki mənası isə, “sənədində rical kitablarında adı qeyd edilmiş, lakin haqqında heç bir mədh və ya məzəmmət hökmü icra edilməmiş bir ravinin nəql etdiyi hədisdir.”[580]

### 6. əl-Məchul

Məchul sözü məlum sözünün əksidir. Hədis elmində məchul o növ hədislərə deyilir ki, onun ravisi rical kitablarında tanıdılmayıb, yaxud tanıdılıbsa da, haqqında cəhalət hökmü verilibdir. Abdullah əl-Maməqani (1868-1969) bu növ hədisi belə tərif edir: “Rical kitablarında qeyd edilən, amma əhvalı haqqında heç bir məlumat verilməyən ravinin hədisinə Məchul deyilir.”[581]

[580] Həmin mənbə. s. 118.
[581] Həmin mənbə. s. 119.

## VII FƏSİL

## ZƏİF HƏDİSLƏRİN MEYDANA GƏLMƏSİ VƏ UYDURULMASI SƏBƏBLƏRİ

### 7.1. Zəif hədislərin meydana gəlməsi

Səhih hədislərin şərtlərini daşımayan hədislərə "zəif" deyilir.

Məsumların adına hədis uydurmağın tarixi qədimdir. Belə ki, bəzi alimlər hədis uydurmaq fəaliyyətini İmam Əlinin xilafəti zamanına aid etsələr də, bu fikir zəif görünür. Düzdür, İmam Əlinin xəlifəliyi zamanı hədislər uydurulmuşdur. Lakin bu yalançılar dərhal ifşa edilərək cəzalandırılır və xalqa belə şəxslərin söylədiklərinə inanmamaları tövsiyə olunurdu.

Ümumiyyətlə, bir çox mötəbər qaynaqların verdikləri məlumat və həmçinin bizim tədqiqatımızın nəticəsi onu göstərir ki, hədis uydurma fəaliyyəti məhz Peyğəmbərin dövründə baş qaldırmışdır. Bunun aşkar formasını Peyğəmbərin "Mənim adıma heç bir şey uydurmayın, hər kəs mənim adıma mənim demədiyim bir şeyi deyərsə, öz yerini Cəhənnəmdə bilsin", - söylədiyi hədisindən də görməkdəyik.[582] Hədisin mənası onu göstərir ki, hələ Peyğəmbər sağ ikən bir qrup şəxslər onun adından yalan danışmışlar. Bunu eşidən Peyğəmbər də belə bir hədis deməyə vadar olmuşdur.

Məsumların adlarına hədislərin uydurulmasının bir çox səbəbləri vardır. Hədis uydurma fəaliyyətinin ən zirvə nöqtəsi bəlkə də Əməvilər (661-750) və Abbasilər xilafətinin (750-1258) dövrünə təsadüf edir. Bu fəaliyyətlərin qığılcımını gücləndirən və onu xilafətin rəsmi peşəsinə çevirən ilk şəxslər məhz Əməvi xəlifələri olmuşdur. Onlar bir qrup sadəlövh müsəlmanları öz ətraflarına toplamış və onların vasitəsilə Peyğəmbərin adına çoxlu sayda hədis uydurmuşlar. Həmçinin Abbasi xəlifələri bu hədis uydurma ənənəsini davam etdirmiş, məcusi və zərdüşti əqidəli insanları xilafətdə yüksək vəzifələrə təyin etmələri ilə İslamın adına yalanlar düzəltmişlər. Bütün bu deyilənlərlə bərabər, qədim Roma, İran və yunan əfsanələrinin sürətlə ərəb dilinə tərcümə edilməsi yeni-yeni firqələrin ortalığa çıxmasına səbəb olmuşdur. Təbiidir ki, hər yaranan firqələr öz əqidələrini və əməli fəaliyyətlərini İlahi vəhyə "bağlı olduğunu" və "haqq" hesab edildiyini bildirmək və əsaslandırmaq üçün hədis uydurmağa əl atmışlar.

Siyasi qayələrlə Əməvilər üçün bəzi şəxslər necə istismar edilmişsə, Peyğəmbərin əmisi Abbas bin Əbdülmüttəlib (öl. 652) də Abbasilər tərəfdarları üçün də eləcə istismar olunmuşdur. Məsələn, Peyğəmbərin : "Abbas mənim vəsim və varisimdir, Allah onun oğullarını xəlifə edəcək, dinini onlarla qoruyacaq, sünnəmi təhrifə uğrayacaği zaman, Allah Xorasandan onlara yardimçılar göndərəcəkdir. Əllərində qara bayraqlar olan bu ordunun qabağında hec bir qüvvə dayana bilməyəcək",[583] hədisi bunun bariz misalıdır.

Beləliklə, saxta hədislərin uydurulmasında ciddi-cəhdlə çalışan xəlifələr içərisində Abbasilərin xüsusi yeri vardır. Əməvilər bəni-Üməyyə haqqında nələr uydurmşlarsa, onun qat-qat artığını Abbasilər uydurmuşlar.

Hədis uyduranları aşağıdakı kimi quruplaşdirmaq olar:

**- Hədis uydurmaği caiz görənlər.**

Bura daha çox sufilər daxildir. Bu qurupdan olanlar aşağıdakı hədisi dəlil gətirirlər ki, Peyğəmbər deyib: "Hər kəs insanları yoldan azdirmaq üçün mənim adıma yalan uydursa, Cəhənnəmdəki yerinə hazırlansın." Onlar bu hədis vasitəsi ilə əməllərin fəzilətləri, insanları yaxşılığa dəvət etmək, pisliklərdən cəkindirmək və bu kimi mövzularda hədis uydurmuşlar. Amma onlar düşünmürlər ki, Peyğəmbərə qarşı yalan demək, onun demədiyi bir sözü onun dediyi kimi qələmə vermək günahdır.

---

[582] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 225. Hədis № 2.

[583] Cəlaləddin əs-Süyuti. əl-Ləalül-məsnua. I c. s. 429; İbn Ərraq. Tənzihüş-şəriət. II c. s. 10.

**- Məşhur yalançılar.**

Bu qurupa aid olan hədis uydurucuları hədis ədəbiyyatı tarixində "müəmmərun" (uzunömürlülər) adı ilə tanınırlar. Onlar özlərini Peyğəmbərin səhabəsi kimi tanıdır, Peyğəmbərdən 3-4 əsr sonra yaşamalarına baxmayaraq, özlərinin onunla birgə bəzi döyüşlərdə olduğunu, Peyğəmbərin onlara ehtiram göstərdiyini və s. iddia edirlər. Belə şəxslərdən aşağıdakıları qeyd etmək olar:

**1)** Məkləbə bin Məlqan əl-Xarəzmi. O, Peyğəmbərin hicrətindən 140 il sonra ortaya çixaraq 24 qəzvədə o Həzrətlə birgə iştirak etdiyini iddia etmişdir.[584]

**2)** Qeys bin Təmim ət-Tai əl-Əshəc. O, hicri 517-ci ildə Geylan şəhərində Peyğəmbərdən birbaşa hədislər rəvayət etmişdir.[585]

**3)** Əbülhəsən bin Nofəl ər-Rai. O, da hicri 600-ci illərdə ortaya çixaraq Peyğəmbərin "şəqqülqəmər" möcüzəsini gördüyünü iddia etmişdir.[586]

## 7.2. Zəif hədislərin uydurulması səbəbləri

Hədisşünaslar saxta hədislərin uydurulmasında aşağıdakı mühüm məqsədləri qeyd etmişlər.

**a) Siyasi, etiqadi və məzhəbi ixtilaflar.**

Hədis saxtalaşdıranların ən ümdə məqsədlərindən biri heç şübhəsiz ki, siyasi və etiqadi ixtilaflardır. Belə ki, Peyğəmbərin vəfatından sonra meydana çıxan xilafət məsələsi İslam aləmində ilk parçalanmanın, siyasi və etiqadi ixtilafların əmələ gəldiyi ən mühüm hadisədir. Peyğəmbərin dövründə qığılcım olaraq meydana gələn hədis uydurma fəaliyyəti raşidi xəlifələrin dövründə (632-661) daha da alışmış və artıq Əməvilər və Abbasilər dövründə son zirvəsinə yüksəlmişdir. Artıq hakimiyyətə gələn xəlifələr öz hakimiyyətlərini qanuniləşdirmək və siyasi mübarizələrinə dini don geyindirmək üçün ən qüvvəli və doğru yolu hədis uydurmaqda görmüşlər. Bu işin ən güclü nümayəndələri ilk Əməvi xəlifələri olmuşdur. Bunu bütün mötəbər mənbələr təsdiq etdiyi halda, nədənsə bəzi qaynaqlar bu mövzuya ötəri yanaşmışlar. Görkəmli İslam alimi və məşhur "Nəhcul-bəlağə" şərhçisi İbn Əbilhədid əş-Şafei (1190-1258) geniş əkildə özünün məşhur əsərində tədqiq etmişdir.[587]

**b) İslam düşmənçiliyi.**

Hədislərin uydurulması səbəblərindən biri də İslam düşmənçiliyidir. Hədis tədqiqatçıları haqlı olaraq bir qrup şəxslərin gizli və aşkar şəkildə İslamı yox etmək və yaxud da aradan aparmaq üçün planlı şəkildə hədislər uyduraraq insanlar arasında təbliğatlar aparmalarını qeyd edirlər.

İslamın və Peyğəmbərin əleyhinə yönəldilmiş hədis uydurma fəaliyyətinin başında yəhudilər, xristianlar və bir qrup münafiqlər dayanırlar. Bu qrupların məqsədləri heç şübhəsiz ki, dini yıxmaq və onu yox etmək olmuşdur. Hətta mənbələrə görə, Həmmad bin Zeyd demişdir: "Zındıqlar on dörd min hədis uydurmuşlar. Onların içərisində ən məşhurlarından biri, Əbdülkərim bin Əbülövca olmuşdur. O, Abbasi xəlifəsi Mehdinin (775-785) zamanında edam cəzasına layiq görülmüş və son sözündə tək başına dörd min hədis uydurduğunu etiraf etmişdir."[588]

**c) Milliyyətçilik duyğusu.**

Hədisşünaslar hədis uydurmağın səbəblərindən birini milliyyətçilik duyğusunun olmasında görürlər. Belə ki, Əməvilər dövründə (661-750) istila edilən bir çox ölkələr ərəblərin milliyyətçi ruhlarını görüb onların əleyhinə hədis uydurmağa başlamışlar. Məlumdur ki, ilk Əməvi xəlifələri zamanından başlayaraq ərəb şovnizmi özünün ən yüksək zirvəsinə çatmış və hətta ərəb olmayanlara

[584] Şəmsəddin əz-Zəhəbi. Mizanül-etidal. IV c. s. 178.
[585] İbn Həcər əl-Əsqəlani. əl-İsabə fi təmyizis-səhabə. V c. s. 287.
[586] Şəmsəddin əz-Zəhəbi. Mizanül-etidal. IV c. s. 515.
[587] İbn Əbilhədid əş-Şafei. Şərhu Nəhcil-bəlağə. 56-cı xütbənin şərhi.
[588] İbrahim Canan. Kütubu-sitte tercüme ve şerhi. II c. s. 141.

"əl-məvali" adı verilərək onların hüquqları ərəblərin hüquqlarından aşağı səviyyədə qorunurdu. Mötəbər mənbələr Əməvilər dövründə ərəb milliyyətçiliyinin doğurduğu zülm və istibdadlardan çox danışmış və xilafətin yeritdiyi siyasətin sırf İslami deyil, ərəb təəssübkeşliyi ruhunda olduğunu xəbər vermişlər. Fuad Köpürlü (1890-1966) yazırdı: "Əməvilərin bu mövzudakı yanlış siyasəti iranlılarda olduğu qədər, İslamı yeni qəbul etmiş digər bəzi millətlərdə də millətçilik duyğusunun ortaya çıxmasına səbəb olmuşdur. Çünki Əməvilər böyük imperatorluğu meydana gətirən digər ünsürləri İslamın qəti surətdə qadağan etməsinə baxmayaraq, ərəblərlə bərabər saymırdılar."[589] Bundan başqa, Əməviləri devirib onun yerini tutan Abbasilər xilafəti (750-1258) də heç də Əməvilərdən geri qalmayan millətçilik duyğularını daha da qabardaraq onlardan irəli getmişlər. Abbasilərin bu davranışı "Əməvilər dövründəki ərəblik təəssübkeşliyini və ərəblərin siyasi görüşlərini yox etmişdi. Bu sərbəst hava içərisində başqa ünsürlərə mənsub adamlar ərəblərə qarşı öz qövmi ənənələrini, tarixi şərəflərini, dillərini açıq-aşkar müdafiəyə qalxdılar və münaqişələr iki tərəfin bir-birini təhqir və zəiflətmələrini ortaya çıxardı. Hər iki tərəf də iddialarını isbat etmək üçün, bir çox hədislər uydurdular."[590]

**ç) İslam dininə xidmət etmək arzusu.**

Zəif hədislər içərisində diqqəti cəlb edən məsələlərdən biri də guya dinə xidmət etmək, yaxud da camaatı yaxşı işlərə sövq etmək arzusu olmuşdur. Uydurulmuş hədislərin bu səbəbi daha çox minbər əhlinin, sufilərin və zahidlərin üzərinə düşür. Çünki onlar dinə xidmət göstərmək məqsədi ilə Məsumların adlarından danışıb və onların adlarına demədiklərini deyiblər. Mövzu hədislərin uydurulmasının bu səbəbinin əsasında dayanan ən mühüm amil bəlkə də nadanlıq və cəhalətdir. Çünki bu qrupa məxsus olan bəzi insanlar camaatın savab əməllərə təşviq edilməsi, günah işlərdən isə uzaq tutulmaları üçün Məsumların adlarına onların demədiklərini demiş, yaxud da onların dediklərinə nələrisə əlavə etmişlər.

**d) Şəxsi mənfəətpərəstlik.**

Hədis uydurmağın ən mühüm səbəblərindən biri də şəxsi mənfəətpərəstlikdir. Bu qəbildən olan bəzi kimsələr öz şəxsi həyatlarında dönüş yaratmaq, yüksək vəzifə və pul-para qazanmaq üçün, Məsumların adlarına hədislər uydurmuş və bu uydurmalar vasitəsilə İslam əleyhdarları arasında öz şəxsi nüfuzlarını qaldırmışlar. Bu barədə hədisşünaslar yazırlar: "Dünyalıq təmini üçün çalışan mənfəətpərəstlər nüfuz və idarə sahibi olan bir çox şəxslərin arzu və yaşayışlarına uyğun hədislər uyduraraq onlara yaxınlaşmaq və bol-bol bəxşiş toplamaqğa cəhd etmişlər. Etdikləri uyğunsuz işləri, dini bir dəlilə dayandırmaq surəti ilə xalq nəzərindəki pərəstişlərini itirmək istəməyənlər də onlara hüsnü-rəğbət göstərmişlər."[591]

### 7.3. Mövzu (uydurulmuş) hədislər haqqında yazılmış bəzi hədis əsərləri

Hədis ədəbiyyatı tarixində yazılmış əsərlərdən bir qrupu uydurma hədislərlə əlaqədar kitablardır. Belə əsərlərə "Mövzuat" deyilir. Bu haqda əsər qələmə alan müəlliflərdən aşağıdakıları qeyd etmək olar:

1. "Təzkirətül-mövzuat." (Məhəmməd bin Tahir bin Əli bin Əhməd əş-Şeybani əl-Məqdisi (öl. 1113)).
2. "əd-Dürrul-mültəqat fi təbyini ğalat və nəfyil-lağat." (Həsən bin Məhəmməd əs-Səğani).
3. "Kitabül-mövzuat minəl-əhadisil-mərfuat." (Əbdürrəhman bin Əbülhəsən Əli bin Məhəmməd bin Ömər Əbülfərəc İbn əl-Cövzi (öl. 1200)).[592]

Bunlar mövzu ilə bağlı ən yaxşı əsərlərdəndir. Lakin buna baxmayaraq, bəzən həmin əsərlərdə müəlliflər öz şəxsi ictihadlarına əsaslanıb bəzi səhih hədisləri də uydurma adlandırmışlar.

---

[589] Fuad Köpürlü. İslam medeniyeti tarihi. Ankara, 1993. s. 99.
[590] Həmin mənbə. s. 100.
[591] Yaşar Kandemir. Mövzu hadisler. I c. s. 128.
[592] Həmin mənbə. s. 122-123; Talat Koçyiğit. Hadis ıstılahları. s. 234-236.

Bunlardan İbn Teymiyyəni (1263-1328) və onun tələbəsi İbn Qəyyim əl-Cövzini (1292-1349) qeyd etmək olar. Bəzən bu və ya digər müəlliflər hədisi müdafiə edirmiş kimi öz nəfsinə, tutduğu ifrat görüş və təəssübkeşliyinə görə mötəbər rəvayətləri də uydurma adlandırmışlar. Müasir Türkiyə hədisşünası Talat Koçyiğit (1927-2011) yazırdı: "Movzu hədislərin İslam dini yönündən səbəb ola biləcəyi zərərlər çox böyük olduğu üçün hədis alimləri digər hədislər qədər bunlar üzərində də duraraq isnadları ilə birlikdə hamısını müstəqil kitablar halında bir araya gətirməyə çalışmışlar. Bu kitabların ən məşhuru Əbülfərəc Əbdürrəhman İbn əl-Cövzinin (1116-1201) "Kitabül-mövzuat"ıdır. Kitabın ehtiva etdiyi hədislərin çoxu əl-Cüzikaninin "Kitabül-əbatil"indən alınmışdır. Ancaq əl-Cüzikani sünnəyə müxalif bütün hədislər haqqında mövzu (uydurma) hökmünü verdiyi üçün İbn Cövzi də onun təsiri altında qalaraq bir çox "həsən", hətta "səhih" mərtəbəsində olan hədisləri mövzu hədislər arasında qeyd etmişdir. İbn Həcər əl-Əsqəlaninin (1372-1449) ifadəsinə görə, Müslümün "Səhih"ində yer alan bir hədisin İbn Cövzi tərəfindən mövzu olaraq dəyərləndirilməsi onun böyük bir səhvidir."[593]

Zəif hədislərin hamısını mövzu (uydurma) adlandırmaq doğru deyildir. Çünki zəif hədis mövzu hədisdən fərqlənir. Cəfər Sübhani yazır: "Əgər isnadı zəif olan bir hədis görsən, gərək deyəsən: "bu hədis sənəd və ya mətn baxımından zəifdir. Sənin belə hədisə "mövzu" deməyinə heç bir surətdə icazə verilmir. Mütləq zəif ilə uydurma hədisin arasında açıq-aşkar fərq vardır. Uydurma hədisi zəif hədisin əksinə nəql etmək doğru deyildir. Həqiqətən də zəif hədislər bəzən səhih hədisləri başa düşmək üçün əlamət olur. Həmçinin onlar yerinə görə digər faydalar da daşıyırlar."[594]

### 7.4. Zəif hədisin bilinməsi

İslam dinində hədis çox böyük əhəmiyyət daşıdığından və Qurandan sonra dinin ikinci əsas qaynağı olduğundan hər bir hədis hədisşünaslar tərəfindən tədqiq edilmiş, müxtəlif metodlar vasitəsi ilə seçilmiş və onların digər səhih hədislər arasına girməsinə imkan verilməmişdir. Onlar uydurma hədislərdəki əlamətləri kəşf edərək onların vasitəsi ilə mövzu hədisləri digərlərindən fərqləndirmişlər.

Hədisşünaslar hədislərin mövzu olduğunu aşağıdakı əlamətlər vasitəsi ilə tanıyırlar:

1. **Hədis uyduranların etrafı.**

Mövzu hədisi tanımaq üçün ən isbatlı və doğru yol budur. Çünki hədis uyduran şəxs bilavasitə hədis uydurduğunu söyləyərsə, hədisin üzərində heç bir araşdırma aparılmır və uydurucunun sözü əsas götürülür.

2. **Quran və səhih hədislərə zidd olması.**

Şübhəsiz ki, əgər bir hədis Qurana və səhih hədisə zidd olarsa, o uydurma hədis adlanır.

3. **Ağıla zidd olması.**

Quran və səhih hədislər insan ağlının onun həyatında çox mühüm rol oynadığını vurğulamış və hətta ağılı olmayanlara heç bir dini məsuliyyət tapşırmamaışdır. Bu baxımdan ağıla uyğun gəlməyən hədis və ya hər bir şey uydurma hesab edilmişdir.

4. **Məzhəbə ifrat bağlılığı.**

Hədisşünaslar şəxsin öz məzhəbinə ifrat dərəcədə bağlanıb digər məzhəblərin əleyhinə hədis uydurmağı hədis uydurmağın səbəblərindən bilmişlər.

5. **Tarixi vaxtların uyğun gəlməməsi.**

Mövzu hədislərin tanınmasında ən aşkar yollardan biri də tarixi zamanlara uyğun gəlməyən hədislərin mövzu adlanmasıdır.

6. **Mövcud olan mötəbər kitablarda olmaması.**

Hədislərin mövzu olduğunu tanıdan əlamətlərdən biri də əldə mövcud olan mötəbər və səhih hədis əsərlərində həmin hədisin mövcud olmamasıdır.[595]

7. **Məsum İmamın tənqid etməsi.**

---

[593] Talat Koçyiğit. Hadis ıstılahları. s. 234; İbn Həcər. əl-Qəvlül-müsəddəd fiz-zəbbi anil-müsnəd. s. 31.

[594] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 124.

[595] Yaşar Kandemir. Mövzu hadisler. s. 176-186; Talat Koçyiğit. Hadis ıstılahları. s. 226-228.

Əgər Əhli-beyt imamları hər hansı bir hədis haqqında tənqidi söz söyləyərsə, o hədis zəif hesab ediləcəkdir. Çünki Peyğəmbərdən gələn hədislərin doğru olub-olmamasını ən yüksək şəkildə bilən məhz onlardır.

## VIII FƏSİL

## ZƏİF HƏDİSİN MƏNFİ TƏSİRLƏRİ VƏ ONA ƏMƏL EDİLİB-EDİLMƏMƏSİ MƏSƏLƏSİ

### 8.1. Zəif hədislərin İslama vurduğu ziyanlar

Zəif hədislərin İslam dininə bir çox zərəri olmuşdur ki, onlardan bəziləri aşağıdakılardır:

1. Ərəb-cahiliyyə mədəniyyətinin yenidən baş qaldırması.
2. Nəbəvi tərbiyənin arxa plana keçməsi. Təkəbbürçülük və qəbiləbazlığın yenidən baş qaldırması.
3. İslam ümmətinin ikiyə - ərəblər və məvalilərə parçalanması.
4. Peyğəmbərin minbərində oturan xəlifələrin krallar və imperatorlara məxsus dəbdəbələri.
5. Yəhudi və xristian ideologiyasının İslam təlimlərinə qarışması.
6. Hədislərin və Quranın mənasınadək varan incəliklərin təhrif olması.
7. Əhli-beytdən uzaq düşmək.
8. Quranla hədisin bəzən qarşı-qarşıya qoyulması.
9. Xilafət kürsüsünün şərabxorlara, pozğunlara verilməsinə dini donun geyindirilməsi.
10. Etiqadi məzhəblərin ortalığa çıxması və s.

Bu və ya digər mülahizələrdən aydın olur ki, zəif və ya mövzu hədislər İslama ziyandan başqa bir şey gətirməmişdi. Bu qrupa aid olan hədislər vahid İslam ümmətini parçalamaqla yanaşı, müsəlmanların İslamı yanlış anlamasına, müsəlmanların digər din ardıcılları müqabilində aciz, düşüncəsiz və mədəniyyətsiz görünməsinə səbəb olmuşdur. Təsəlliverici hal yalnız budur ki, ta qədimdən bu günədək hədisşünaslar çox böyük zəhmət sərf edərək hədisləri bir-birindən fərqləndirmiş, onları saf-çürük edərək insanları doğru Quran maarifinə tərəf yönəltmişlər.

### 8.2. Zəif hədisə əməl edilərmi?

Zəif hədislər ya isnadına, yaxud da mətninə görə zəif olur. Hədisin isnadına görə zəif olması da əsasən ya isnaddan bir və ya bir neçə ravinin düşməsinə, yaxud da isnadda yer alan ravilərin birinin, ya bir neçəsinin "mətainu-əşərə"yə (on pis sözə) məruz qalmasına görədir. Hədisin mətninə görə zəif olması onun mətninin Qurana uyğun gəlməməsi və yaxud da ağıl tərəfindən qəbul edilməməsinə görədir. Həmçinin hədisin mətninə ravinin müdaxilə etməsi də hədisin zəif olmasına səbəb ola bilər. Belə olan halda zəif hədisə əməl etməyin doğru olub-olmaması məsələsi ortaya çıxır. Əlbəttə ki, bu məsələ hədisşünaslar yanında ciddi problemlərdəndir. Bütün İslam məzhəbləri bu mövzu ətrafında ciddiyyətlə məşğul olmuş və bəzən ixtilaflı, bir-birinə zidd olan fikirlər söyləmişlər.

Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, zəif hədislər mövzu (uydurma) hədislərdən fərqlidir. Onları bir-birinə qarışdırmaq, birinin hökmünü digərinin hökmünə qatmaq doğru deyildir. Mövzu hədislər mütləq mənada uydurulmuş və Məsuma aidiyyatı olmayan hədislər hesab olunur. Amma zəif hədislər heç də belə deyildir. Deməli, zəif hədislər mövzu hədislərdən tamamilə fərqlənir. Bu barədə Cəfər Sübhani yazır: "Əgər isnadına görə bir zəif hədis görsən, gərək deyəsən: "bu hədis ya sənəd, yaxud da mətn baxımından zəifdir." Sənə icazə verilmir ki, zəif hədisə mövzu hədis deyəsən və onu belə adla adlandırasan. Çünki mütləq zəiflə mövzu hədis arasında fərq vardır və mövzu hədisi zəif hədisin əksinə nəql etmək doğru deyildir. Həqiqətən də zəif xəbərlər bəzən səhihləri anlamaq və başa düşmək üçün əlamət ola bilər, necə ki, bəzən onların bir yerə toplanması etimadlı olmalarına zəmanət verir. Bundan başqa, onların yerinə görə faydaları da vardır."[596]

Deməli, zəif hədis mütləq mənada uydurma olmadığından ona əməl etməyin mümkünlüyü ortaya çıxır. Beləliklə, hədisşünasların əksəriyyətinin rəyinə görə, zəif hədisə əməl etmək olar.[597] Bu mövzunu açıqlayan Şəmsəddin əs-Səxavi (öl. 1497) yazırdı: "Zəif hədislərə əməl ediləcəyini

[596] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 124.
[597] Səxavi. Fəthül-müğis. I c. s. 80.

müctəhidlərdən Əbu Hənifə, İmam Malik və Əhməd bin Hənbəl də müdafiə etmişlər. Hətta İmam Şafei bir məsələdə başqa hədis olmadığı zamanda - mürsəl hədisin zəif olduğunu qəbul etdiyi zamanlarda - mürsəl hədisə əməl edərdi." Həmçinin Əhməd bin Hənbəl demişdi: "Zəif hədis, qiyasdan üstündür."[598]

Zəif hədislərə əməl edilib-edilməməsi məsələsini diqqətlə incələyən türkiyəli hədisşünas İsmayıl Lütfü Çakan (doğ. 1945) yazırdı: "Zəif hədisə əməl etmək məsələsində üç ayrı görüş vardır:

1. Zəif hədisə əsla əməl olunmaz.
2. Zəif hədisə hər hansı bir mövzuda olursa olsun, əməl olunar.
3. Əməllərin fəzilətləri mövzusunda xüsusi şərtlər daxilində əməl olunar.

İbn Həcər əl-Əsqəlani (öl. 1449) üçüncü görüşün şərtləri haqqında belə yazırdı:

- Yalançı birinin təkbaşına rəvayət etməsi kimi şiddətli bir zəiflik daşımamalı.
- Özü ilə əməl olunan ümumi və əsli bir hökmün əhatəsi altına girməli.
- Əməl edilərkən o hədisin sabit olduğuna inanılmamalı, əksinə ehtiyatən əməl edildiyi bilinməlidir.[599]

İbn Həcər zəif hədislərə əməl etməyi caiz bilmiş və bunun əməllərin fəzilətləri haqqında mümkün olduğunu irəli sürmüşdür. O, yazırdı: "Əməllərin fəzilətləri barədə olan zəif hədislərə əməl etmək alimlərin müttəfiq fikrinə görə caizdir. Çünki əgər zəif hədis əməl haqqında səhih olarsa, doğrudan da ona əməl etmək onun doğruluğudur. Əgər ona əməl etmək fəsadlı olsa da belə, halaldır, haram deyildir. Həmçinin belə olduqda başqasının haqqını tapdamaq (puç etmək) deyil."[600]

Bundan əlavə, zəif hədisə əməl olunmasının mümkünlüyündən bəhs edən İbn Hümam (öl. 1457) yazırdı: "Zəif hədislə müstəhəblik sabit olur." Səxavi isə demişdir: "Şərtlər daxilində fəzilətlər haqqında zəif hədislə əməl etmək, alimlərin müttəfiq fikrinə görə doğrudur."[601]

Əhməd bin Hənbəl və Əbu Davud əs-Sicistani də demişlər: "Başqa hədis olmadığı təqdirdə, əhkama aid məsələlərdə zəif hədisə əməl etmək doğrudur."[602]

Hədisşünasların bu və ya digər görüşləri onu göstərir ki, zəif hədisə əməl etmək olar və hətta bəzən müstəhəbdir. Bu barədə İsmayıl Lütfü Çakan (doğ. 1945) yazır: "Zəif hədislə əməl etməyi mütləq olaraq qadağan edənlərin görüşləri zəifdir."[603]

"Zəif hədislərə əməl olunmaz" sözü məşhur alimlərdən olan Qazi Əbu Bəkr bin əl-Ərəbi, Şihab əl-Xəfaci və Cəlal əd-Dəvvaniyə məxsusdur. Bu alimlərin görüşü budur ki, zəif hədislər istər əməllərin fəzilətləri haqqında olsun, istərsə də halal və haram haqqında, onlara əməl etmək doğru deyildir.[604]

Hədisşünas alimlərin əksəriyyəti zəif hədislər barəsində orta yol tutmuşlar ki, bu da ən ədalətli və ən güclü yoldur. Bizim də tədqiqatlarımıza görə, zəif hədisə uydurma və yalançı hökmü vermək doğru deyildir. Ona alimləriin verdikləri şərtlər daxilində əməl etməyin heç bir ziyanı yoxdur. Lakin onların isbatlı və dürüst olmasını da demirik. Həqiqət budur ki, zəif hədislərə ehtiyat üzündən əməl olunar. Bu ehtiyat da ondan üz çevirməyin və zəif hədisin tərk edilməsinin qarşısını alır və ona əməl edilməsinin əslində qanuni olmasına zəmanət verir.

Bu mövzunu Polad Səlahəddinin aşağıdakı fikri ilə qüvvətləndiririk: "Alimlərin əksəriyyəti zəif hədisə əməl etməyin mümkünlüyü haqqında fikir birliyindədirlər. Bunların hədisin səhih olması şərtini əsas qəbul etmirlər."[605]

---

598 İbn Həzm. əl-Mühəlla. I c. s. 68.
599 İsmail Lütfi Çakan. Hadis usulü. s. 146; Nuriddin İtər. Mənhəcün-nəqd fi ülumil-hədis. Dəməşq, II çap, 1981. s. 293.
600 Nuriddin İtər. Mənhəcün-nəqd. s. 293.
601 İsmail Lütfi Çakan. Hadis usulü. s. 147.
602 Ahmed Naim. Tecrid tercümesi. s. 343.
603 İsmail Lütfi Çakan. Hadis usulü. s. 147.
604 Nuriddin İtər. Mənhəcün-nəqd. s. 294.
605 Polat Salahaddin. Hadis araşdırmaları. İstanbul, s. 120.

Beləliklə, hədis elmində meydana gələn zəif və uydurma hədislərin əsl səbəblərindən bir, bəlkə də birincisi hədislərin Peyğəmbərdən sonra yazılmasının və rəvayət edilməsinin qadağan olamsı idi. Bu incə məsələyə toxunan İmam Əli necə də gözəl buyurmuşdur:

"Əlində (hədislə əlaqədar) bir kitab olan hər kəs ondan üz çevirdi və onu yox etdi. İnsanlar alimlərin sözlərinə etina edib Rəblərinin kitabını tərk etdikləri üçün həlak oldular."[606]

---

[606] İbn Əbdülbirr. Camiu bəyanil-ilm. I c. s. 63.s

# NƏTİCƏ

"Hədisşünaslığın əsasları" kitabında hədis tarixinin və hədis üsulunun ümumi mənzərəsini yaratmağa, İslamın ilkin dövrlərindən başlayaraq bu günə qədər hədisşünaslıq sahəsində yazılmış əsərlərin və müəlliflərinin elmi şəxsiyyətlərinin və yaradıcılıqlarının təhlilini verməyə çalışdıq. Bunlar bizim ilahiyyatçıları, ali məktəb tələbələrini, magistrləri, dissertantları, doktorantları, bir sözlə, hədisşünaslıqla maraqlananların hamısını bu elmlə tanış etmək, onların dini təfəkkürünü daha da zənginləşdirmək istəyimizdən irəli gəlmişdir.

Şübhəsiz ki, məqsədimiz tək bundan ibarət deyildir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycanda ilahiyyat elmlərinin, o cümlədən hədisşünaslığın inkişafı ilə əlaqədar olaraq yeni-yeni əsərlərə böyük ehtiyac duyulur. Təbiidir ki, buna uyğun olaraq biz dini təhsilmizə yenidən baxmalı, əldə mövcud olan hədisləri var gücümüzlə saf-çürük etməli, dinə və bəşəri dəyərlərə zidd olan sözlərdən imtina etməli və daha doğru olanları ələ gətirməliyik.

Ümid edirik ki, oxuculara təqdim etdiyimiz bu əsər ilahiyyatşünaslarla yanaşı, bu sahə ilə maraqlananların dini baxışlarının formalaşması və inkişafına mühüm təsir göstərəcəkdir.

Beləliklə, kitabı yazarkən aşağıdakı nəticələrə gəldik:

Birincisi, hədisi-şəriflərin dinimizdə çox böyük əhəmiyyəti vardır.

İkincisi, hədisi-şəriflərə diqqət yetirmədən, onların doğru olanını yalan olanından ayırd etmədən həqiqi İslam maarifinə yiyələnmək mümkünsüzdür.

Üçüncüsü, Qurani-Kərimin öyrənilməsində ən düzgün yol hədisi-şəriflərə müraciət etməkdir. Əks halda, Allahın kəlamındakı bəzi mənaları anlamaq, onları düzgün təhlil etmək mümkün olmayacaqdır.

Dördüncüsü, hədisşünaslıq İslamın ilkin dövrlərindən etibarən müstəqil elm hüququnu qazanmış və İslam ilahiyyatının ən mühüm şöbəsidir. Hədis elmini öyrənmədən İslam ilahiyyatından mükəmməl şəkildə xəbərdar olmaq çətindir.

**Ədəbiyyat**


1. Aşukkutlu Emin. Hadiste Rical Tenkidi. İstanbul, Emre matbaaçılık, 1997.
2. Ateş Süleyman. Kuran-i Kerim ve yüce meali. İstanbul, Yeni ufuklar neşriyati, 1997.
3. Bəxşaişi Əbdürrəhman Əqiqi. Məfaxire-Azərbaycan, fəqihane və müfəssirane Azərbaycan. 2 cilddə. Təbriz, I çap, 1375.
4. Bolelli Nuserttin. Kadınların Hadis İlimindeki Yeri. İstanbul, Emrel matbaası, 1998.
5. Bünyadov Ziya. Dinlər, təriqətlər, məzhəblər. Bakı, Şərq-Qərb nəşriyyatı, 2007.
6. Canan İbrahim. Hadis Usulü ve Tarihi. Ankara, Akçağ Yayınları, 1998.
7. Canan İbrahim. Kütubu-Sitte Tercüme ve Şerhi. Ankara, 1995.
8. Cirit Hasan. Hadise giriş. İstanbul, Rağbet yayınları, (Tarihçe, Literatür ve Seçme Hadisler). 2011.
9. Çakan İsmail Lütfi. Hadis edebiyatı. İstanbul, İFAV yayınları, 1997.
10. Çakan İsmayıl Lütfi. Anahatlarıyla Hadis. İstanbul, Ensar neşriyat, 2002.
11. Çakan İsmayıl Lütfi. Hadis Usulü. İstanbul, III baskı, 1993.
12. Dehxuda Əli Əkbər. Lüğətname. Tehran, 1339 h/ş.
13. Dini terminlər lüğəti. Bakı İslam Universiteti. Hazırlayanlar: F.Quliyev, Ə.Niyazov, A.Qurbanov və b., Bakı, İpəkyolu nəşriyyatı, 2010.
14. el-Kazvini İbn Mace. Süneni-İbn Mace. 17 cilddə. Terc: Haydar Hatipoğlu. Kahraman neşriyatı. Tarixsiz.
15. Erdoğan Mehmet. Vahy-Akıl Dengesi Acısından Sünnet. İstanbul, Özener matbaaçılık, 1996.
16. es-Sicistani Ebu Davud. Süneni-Ebi Davud. 17 cilddə. Terc: Hüseyin Kayapınar, Necati Yeniel. Şamil yayınevi.
17. eş-Şeybani Ahmet bin Henbel. Müsnet. İstanbul, Çağrı yayınları, 1992.
18. əd-Darimi Abdullah bin Əbdürrəhman. Sünənüd-Darimi. Darül-Müğni, 1421/2000.
19. əl-Amili Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. Beyrut, 1403/1983.
20. əl-Amili Həsən bin Zeynüddin. Məalimüd-din. Tehran, 1273 h/q.
21. əl-Amili Hürr. Vəsailüş-şiə. 30 cilddə. Beyrut, Daru ihyait-türasil-ərəbi, 1403 h/q.
22. əl-Amili Hüseyn bin Əbdüssəməd. Vüsulül-əxyar ila üsulil-əxbar. Qum, 1401 h/q.
23. əl-Amili Zeynüddin (əş-Şəhid əs-Sani). ər-Riayə fi ilmid-dirayə. Qum, 1408 h/q.
24. əl-Bağdadi Məhəmməd bin Səd. ət-Təbəqatül-kubra. Beyrut, Daru Sadir, 1380 h/q.
25. əl-Bəxşaişi Əbdürrəhman Əqiqi. Təfsiru təbəqatiş-şiə. 5 cilddə. I çap, 1372 h/ş.
26. əl-Birucerdi Seyid Hüseyn. Cami əhadisiş-şiə, Qum, 1399 h/q.
27. əl-Buxari Əbu Abdullah Məhəmməd bin İsmail. Səhihül-Buxari. ər-Riyad, Darus-salam, 1999.
28. əl-Cəzəri İbn Əsir. Camiül-üsul. Beyrut, 1403 h/q.
29. əl-Cəzəri İbn Əsir. ən-Nihayə fi ğəribil-hədis. Qahirə, 1383/1963.
30. əl-Ələmi Əllamə Məhəmmədhüseyn Hairi. Dairətül-məarif. 18 cilddə. Beyrut, 1413/1993.
31. əl-Ərdəbili əl-Mişkini Əli. əl-Vəcizə fi ilmir-rical. Təhqiq: Züheyr əl-Ərəci, Beyrut, Müəssisə Ələmi, I çap, 1411/1991.
32. əl-Ərdəbili əl-Mişkini Əli. İstiləhatül-üsul və mözəmi əbhasiha. Qum, Mətbəətül-Hadi, VII çap, 1427 h/q.
33. əl-Ərdəbili əl-Mişkini Əli. Müstəlihatül-fiqh. Qum, Müəssisətül-Hadi, V çap. Tarixsiz.
34. əl-Ərdəbili Məhəmməd bin Məhəmməd. Camiür-rüvvat. 2 cilddə. Beyrut, 1403/1983.
35. əl-Əsqəlani İbn Həcər. Təhzibüt-təhzib. Beyrut, 1404 h/q.
36. əl-Əzəmi Məhəmməd Mustafa. Dirasat fi hədisin-nəbəvi və tarixu tədvinihi. Beyrut, əl-Kütubil-islamiyyə nəşri, 1400/1980.
37. əl-Firuzabadi Məcduddin Muhəmməd bin Yaqub. Qamusul-mühit. Beyrut, Daru ihyayit-turasil-ərəbi, 1997.
38. əl-Hilli Əllamə Mütəhhər. Xülasətül-əqval fi ilmir-rical. ən-Nəcəfül-əşrəf. Tarixsiz.

39. əl-Xansari əl-Mühəqqiq Mirzə Məhəmməd Baqir. Rövzatül-cənnat fi əhvali-üləmais-saadat. Tehran, 1347/1928 və 7 cilddə, I çap, 1991.
40. əl-Xoyi Seyid Əbülqasim. əl-Bəyan təfsiri. 2 cilddə. Bakı çapı. Tarixsiz.
41. əl-Xoyi Seyid Əbülqasim. Möcəmür-ricalil-hədis və təfzilu təbəqatir-rüvvat. 23 cilddə. Qum, IV nəşri, 1410 h/q.
42. əl-Xoyi Seyid Əbülqasim. Mühazirat fi üsulil-fiqh. 4 cilddə. Qum, Müəssisə nəşril-İslami, I çap, 1419 h/q.
43. əl-Kaşani Feyz. əl-Vafi. 26 cilddə. Məktəbətu İmam Əli , İsfahan, I çap, 1312 h/q.
44. əl-Kəttani məhəmməd bin Cəfər. ər-Risalə. Qahirə, Məktəbətül-kulliyyatil-Əzhəriyyə.
45. əl-Qummi Şeyx Abbas. əl-Küna vəl-əlqab. 3 cilddə. Mənşurati məktəbətis-Sədr. Tarixsiz.
46. əl-Qummi Şeyx Səduq. əl-Xisal. 2 cilddə. Tərcüme və şərhe-farsi. Tehran, İntişaraat ketabfuruşe İslami. Tarixsz.
47. əl-Qummi Şeyx Səduq. Məanil-əxbar. Qum, Müəssisətu nəşril-islami, 1389 h/q.
48. əl-Qummi Şeyx Səduq. Mən la yəhzuruhül-fəqih. Beyrut, I nəşri, 1429/2008.
49. əl-Qurtubi Yusif bin Abdullah. əl-İnbah fi qəbailir-ruvvat. Təhqiq: İbrahim əl-Əbyari. Beyrut, Darul-kütubil-ərəbi, I çap, 1405/1985.
50. əl-Maməqani Şeyx Abdullah. Tənqihül-məqal fi ilmir-rical. 3 cilddə. ən-nəcəfül-əşrəf, 1350 h/q.
51. əl-Maməqani Şeyx Abdullah. Tənqihül-məqal fi ilmir-rical. 37 cilddə. Qum, Müəssisətu Alil-beyt , I çap, 1423 h/q.
52. əl-Maməqani Şeyx Məhəmməd Rza. əl-Küna vəl-əlqab. Qum, Mövludu Kəbə nəşri, Etimad mətbəəsi, I çap, 1421 h/q.
53. əl-Mazəndərani İbn Şəhraşub. Məalimül-üləma. Nəcəf, 1380/1961.
54. əl-Məclisi Əllamə Məhəmməd Baqir. Biharül-ənvar. 110 cilddə. Beyrut, Müəssisətül-Vəfa, 1403/1983.
55. əl-Məclisi Əllamə Məhəmməd Baqir. Biharül-ənvar. 25 cilddə. I c. Qum, İntişaraate fiqh, I çap, 1427 h/q.
56. əl-Məclisi Əllamə Məhəmməd Baqir. Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul . 26 cilddə. Darül-kütubil-İslamiyyə, III çap, 1375 h/q.
57. əl-Müfid Məhəmməd bin Məhəmməd. əl-İrşad. Qum, 1402 h/q.
58. əl-Mürtəza Əli bin Hüseyn Ələmülhüda. əz-Zəriə fi ilmil-üsul. Tehran, 1386 h/q.
59. ən-Nisaburi Müslüm bin Həccac. Səhihu-Müslüm. Beyrut, Daru İbn Həzm çapı, 1998.
60. ən-Nuri Mirzə Hüseyn. əl-Müstədrək əla vəsailiş-şiə. Tehran, 1319 h/q.
61. ər-Razi Əbülhəsən Əli bin Übeydullah bin Babəveyh. Fihristu əsmai üləmaiş-şiə və müsənnifihim. Təhqiq: Əbdüləziz ət-Təbatəbai. Beyrut, Darül-əzva, II çap, 1406/1986.
62. ər-Reyşəhri Məhəmməd. Mizanül-hikmət. 12 cilddə. Darül-hədis, I çap, 1422 h/q.
63. əs-Salih Sübhi. Hadis İlimleri ve Hadis Istılahları. Terc: Prof. Dr. M. Yaşar Kandemir. 6-cı basım. İstanbul, 1997.
64. əs-Seyid bin Tavus. Kəşfül-məhəccə. Təhqiq: Şeyx Məhəmməd əl-Həsun. Qum, III çap, 1417 h/q.
65. əs-Seyid Rza Müəddəb. Tarixül-hədis. Qum, I çap, 1431 h/q.
66. əs-Sədr Seyid Həsən. əş-Şiə və fünunil-İslam. Təhqiq: Mürtəza Mirsəccadi. Müəssisə Sibteyn. Tarixsiz.
67. əs-Sədr Seyid Həsən. Nihayətüd-dirayə. Hindistan, 1324 h/q.
68. ət-Tehrani Ağa Bozork. əz-Zəriə ila təsanifiş-şiə. 25 cilddə. Qum, 1408 h/q və Beyrut, Mənşurati-darül-əzva, 1403/1983.
69. ət-Tehrani Ağa Bozork. Təbəqatü əlamiş-şiə. 17 cilddə. Daru ehyait-türasil-ərəbi, I çap, 1430 h/q.
70. ət-Təbəri Əbu Cəfər Məhəmməd bin Cərir. Camiül-bəyan. Təhqiq: Əhməd Məhəmməd əş-Şakir. Beyrut, Müəssisətu risalə, I çap, 1420/2000.

71. ət-Təbrizi Cəfər əs-Sübhani. əl-Məbsut fi üsulil-fiqh. 4 cilddə. Qum, Müəssisətu İmam Sadiq, II nəşri, 1434/2012.
72. ət-Təbrizi Cəfər əs-Sübhani. əs-Sirətül-Muhəmmədiyyə. Beyrut, Darül-əzva, 1423 h/q.
73. ət-Təbrizi Cəfər əs-Sübhani. Mövsuətu təbəqatil-füqəha. 14 cilddə. Qum, Mərkəzi təhqiqati ülumil-İslamiyyə. Tarixsiz.
74. ət-Təbrizi Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə. Qum, V nəşri, 1420 h/q.
75. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn əs-Təbatəbai. Təfsirül-mizan. 20 cilddə. Beyrut, Müəssisə ələmi, I çap, 1997.
76. ət-Təbrizi Mirzə Abdullah Əfəndi. Riyazül-üləma və hiyazül-füzəla. 6 cilddə. Qum, 1401 h/q.
77. ət-Təbrizi Vəliyəddin Xətib. Mişkatül-məsabih. Dəməşq: I çap, 1381/1961, Beyrut, II çap, 1399/1989.
78. ət-Tirmizi Məhəmməd bin İsa. Sünənüt-Tirmizi. Qahirə, Darül-hədis, 1419/1998 və Beyrut, Darül-kutubil-ilmiyyə, 1989.
79. ət-Tusi Nəsirəddin. Təhsilül-mühəssil. Beyrut, Darul-əzva, 1405/1985.
80. ət-Tusi Şeyx Məhəmməd bin Həsən. Təhzibül-əhkam. 10 cilddə. Beyrut, II nəşri, 1429/2008.
81. ət-Tüsturi Məhəmməd Təqi. Qamusür-rical. Tehran, 1397 h/q.
82. əz-Zəhrani Məhəmməd bin Mətər. Tədvinüs-sünnətin-nəbəviyyə nəşətuhu və tətəvvuruhu minəl-qərnil-əvvəl ila nihayətil-qərnit-tasiil-hicri. Səudiyyə Ərəbistanı, Darül-hicrət nəşriyyatı, I çap, 1417/1996.
83. Həmədani Əhməd Səbiri. İslamda Cəfəri məzhəbi və İmam Cəfər Sadiqin buyruqları. Tərcümə edənlər: Mustafa Əliyev, Ağanəcəf Həmidov. Bakı, Elm nəşriyyatı, 1991.
84. Həmidullah Məhəmməd. İslama giriş. Bakı, Qismət nəşriyyatı, 2006.
85. İbn ən-Nədim. əl-Fihrist. Beyrut, Məktəbəti-xəyyat, 1992.
86. İbn Xəllikan Şəmsəddin. Vəfayatül-əyan. Beyrut, Darüs-sadir, 1968.
87. İbn Kesir. Hadislerle Kurani Kerimin Tefsiri. İstanbul, Çağrı yayınları. 1994.
88. Kandemir Yaşar. Hadis İstilahları. Ankara, II baskı. 1995.
89. Kandemir Yaşar. Mevzu Hadisler (menşeyi tanıma yolları, tenkidi). İstanbul, III baskı. 2002.
90. Koçquzu Ali Osman. Hadis İlimleri ve Hadis Tarihi, (Nəşr ili yoxdur).
91. Koçyigit Talat. Hadis Istılahları. Ankara, Ankara Universiteti basım evi, 1980.
92. Koçyigit Talat. Hadis Tarihi. Ankara, Türkiye Diyanet Vakfı yayınları, 1998.
93. Koçyigit Talat. Hadis Usulü. Ankara, 2003.
94. Koçyigit Talat. Hadislerin toplanması ve yazı ile tespiti. II çap. Tarixsiz.
95. Küleyni Məhəmməd bin Yaqub. Üsuli-kafi. 6 cilddə. Tərcümə edən: Rüfət Hümbətov. Bakı, Kövsər mətbəəsi, 2011.
96. Quliyev İbrahim. Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi. Bakı, Nurlar, nəşriyyatı, 2012.
97. Qurani-Kərim. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1991.
98. Məhəmməd Əli Mehdurad. Tədvinül-hədis indəş-şiətil-imamiyyə. Tehran, I çap, 1431/2010.
99. Nəcmi Məhəmməd Sadiq. Buxari və Müslümün «Səhih»lərinə bir baxış. 2 cilddə. Tərcümə edən: Rəşad Vahidoğlu. Bakı, 2006.
100. Reyşəhri Məhəmməd. Əhli-beyt Quranda və hədisdə. 2 cilddə. Tərcümə edən: Seyyid Həsən Musəvi. Bakı, İİR-nın mədəniyyət mərkəzi, 2009.
101. Reyşəhri Məhəmməd. Həzrət Əli bin Əbu Talibin ensiklopediyası. Bakı, Nurlar nəşriyyatı, 2013.
102. Şamil İslam Ansiklopedisi. Şamil yayınevi, İstanbul, 1991.
103. Təbrizi Cəfər Sübhani. İslamda əqidə əsasları. Tərcümə edən: Elşən Mustafaoğlu. Bakı, Qələm nəşriyyatı, 2003.
104. Təbrizi Əllamə Məhəmməd Təqi Cəfəri. Şərhe Nəhcil-bəlağe. 27 cilddə. Tehran, Dəftəre nəşre fərhənge İslami, 1376 h/q.

105. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. Dinlə tanışlıq. Tərcümə edən: Nəsib Göyüşov. Bakı, Qələm nəşriyyatı, 2004.
106. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. əl-Mizan təfsiri. 20 cilddə. I cild. Bakı, Qələm nəşriyyatı, 2011.
107. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. Həzrət Məhəmməddən ədəb qaydaları və dualar (Sünənün-Nəbi). Tərcümə edən: Baqir Orucov. Bakı, Kövsər mətbəəsi, 2013.
108. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. İslamda şiəlik. Bakı, Mömin nəşriyyatı, 2003.
109. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. Vəhy və Quran. Tərcümə edən: Nurəddin Əliyev. Bakı, I çap, 2009.
110. Uğur Mücteba. Ansiklopedik Hadis Terimleri Sözlügü. Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1992.
111. Yardım Ali. Hadis I-II. İstanbul, Damla yayınları, 1997.
112. Yucel Ahmet. Hadis İlminde Tehkit Terimleri ve İlgili Çalışmalar. İstanbul, 1998.
113. Yucel Ahmet. Hadis İstilahlarının Doğuşu ve Gelişimi (hicri ilk üç əsr). İstanbul, 1996.
114. http://www.al-shia.org
115. https://az.wikipedia.org
116. https://www.google.az
117. www.quran.az
118. www.mektebetu-nercis.com
119. www.vaqfeya.com